Müstəqilliyimizi qazandıqdan sonra dinamik inkişaf yolunu seçmiş Azərbaycan milli turizmin geniş istifadəsi üçün sosial-iqtisadi rifahın, bölgələrdə artan inkişaf tempi, əlverişli təbii mühiti və mülayim iqlimin mövcud olması, dövlətin bütün bunlardan maksimum şəkildə faydalanaraq müxtəlif turizm potensialı zəngin olan bölgələrdə bir sıra yeni turizm obyektlərinin açılmasına, formalaşdırılmasına və inkişafına şərait yaratmışdır.

1991-ci ildə Nazirlər Kabinetində Turizm Şöbəsi yaradılması haqqında qanun qəbul edilmişdir. 1999-cu ildə Ulu öndər Heydər Əliyevin turizm sahəsinə göstərdiyi qayğının nəticəsində "Turizm haqqında" qanun qəbul edildi [6, s. 4-5]. Onun tərəfindən təsdiq olunmuş "Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafı üzrə Dövlət Proqramı" ölkəmizdə turizm sahəsində dövlət siyasətinin əsaslarını və bu sahənin əsas istiqamətlərini müəyyən etmiş, Azərbaycanda turizmin inkişafına təkan vermişdir [9, s. 4].

6600-dən artıq mədəniyyət abidəsini əhatə edən Milli-Mədəni İrs Siyahısı qəbul edilmişdir. 65-i dünya, 2034-ü ölkə, qalanı isə yerli əhəmiyyətlidir. UNESCO-nun Dünya İrs Siyahısına Azərbaycandan da İçərişəhər Şirvanşahlar sarayı və Qız qalası ilə birlikdə salınmışdır (2000). "İçərişəhər" Tarix-Memarlıq Qoruğunun ərazisindəki 10 dünya, 27 ölkə əhəmiyyətli abidə maraqlı turizm obyektləridir.

Bakıda dünyanın ən böyük mehmanxana şəbəkələrinə daxil olan beşulduzlu "Hyatt Reegency" (1995), "Grand Hotel Europe" (1997), "Radisson SAS Plaza Hotel" (1998), "Park Hyatt Hotel" (1999) və b. fəaliyyət göstərir.

Müstəqilliyimizin ilk illərində çoxsaylı daxili və xarici problemlərin məngənəsinə düşən respublika son dərəcə çətin və mürəkkəb dövlət quruculuğu yolundan keçməli idi. Həmin illərdə mədəniyyətdə də qatma-qarışıqlıq və qeyri-müəyyənlik, müxtəlif mənfi meyillər baş alıb gedirdi. Bir tərəfdən, anarxiya kimi başa düşülən azadlıq, digər tərəfdən iqtidarda olan qeyri-peşəkar şəxslərin mədəniyyətə çox qəribə, hətta, son, dərəcə bəsit və sadəlövh yanaşması, məsələn, onlar tərəfindən Qərb mədəniyyəti, incəsənəti, dəyərləri və təhsilinin bizə, guya, tamamilə yad olması və lazımsızlığının bəyan edilməsi bu sahənin normal inkişafının qarşısını alır, çağdaş Azərbaycan mədəniyyətini ümumsivil məcradan təcrid edərək ona böyük zərbələr vurur, beləliklə də sağlam rəqabətə meylini azaldırdı. Ümumiyyətlə, demək olar ki, bu mərhələdə düşünülmüş mədəniyyət siyasəti yox dərəcəsində idi.

1993-2003-cü illər ərzində yeni mədəniyyət siyasətinə uyğun olaraq dövlət tərəfindən çoxsaylı və mühüm əhəmiyyətli işlər görülmüşdür. İlk növbədə, mədəniyyət siyasətinin həyata keçirilməsinin ən əsas vasitələrindən biri olan hüquqi cəhətdən mükəmməl, dünya standartlarını və milli özəllikləri nəzərə alan qanunların hazırlanmasına ciddi diqqət yetirilmişdir. Bir sıra qanunlar, o cümlədən "Mədəniyyət haqqında", "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında", "Turizm haqqında", "Nəşriyyat işi haqqında", "Muzeylər haqqında", "Arxiv fondu haqqında", "Memarlıq fəaliyyəti haqqında" qanunlar, bir sözlə, 2003-cü il daxil olmaqla 21 qanun Milli Məclisdə qəbul edilmiş və ölkə Prezidenti tərəfindən təsdiqlənmişdir. Təhsil və səhiyyə sistemlərində islahatlara başlanılmış, elm, ədəbiyyat və mətbuatda ideoloji senzura ləğv olunmuş, idmanda böyük uğurlar əldə edilmişdir.[2,səh.3]

«Mədəniyyət konsepsiyası» əsasında «Qafqaz Albaniyası irsinin tətbiqi, mühafizəsi və təbliğinə dair Dövlət Proqramı», «Azərbaycan Respublikasında uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərinin inkişafı üzrə Dövlət Proqramı (2014-2018-ci illər)». «Dövlət rəsm qalereyalarının perspektiv inkişafı üzrə Dövlət Proqramı (2015-2025-ci illər)», «2014-2020-ci illərdə Azərbaycan qeyri mədəni irsinin qorunmasına dair döjvlət Proqramı», «Azərbaycan Respublikasında nəşriyyat-poliqrafiya işinin və kitab sənətinin 2015-2020-ci illərdə inkişafına dair Dövlət Proqramı» və «Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2015-2020-ci illərdə inkişafı üzrə Dövlət Proqramı»nın layihələri hazırlanmışdır.

2014-cü il tarixi-mədəni irsin qorunması sahəsində mühüm hadisələrlə yadda qalıb. Azərbaycanda ilk dəfə olaraq Avropa İrs Günləri keçirilmişdir.[3]

Humanist, ədalətli, müdrik, sadə, qayğıkeş, xeyirxah, eyni zamanda iradəli, prinsipial, cəsarətli və qətiyyətli bir insan olan Heydər Əliyev milli-mənəvi dəyərlərimizə dərindən bağlı idi. Ümummilli Liderin ən çox diqqət yetirdiyi məqamlardan biri də azərbaycançılıq ideyasının gücləndirilməsi, dünya azərbaycanlılarının bu amal ətrafında birləşdirilməsi olmuşdur. Tarixin amansız və sərt sınaqları dövründə dünyanın ayrı-ayrı ölkələrinə səpələnərək qürbətdə yaşamaq məcburiyyətində qalmış soydaşlarımızın taleyi Heydər Əliyevi daim narahat edirdi. Onun hələ Naxçıvan Ali Məclisinin Sədri olarkən 1991-ci ildə 31 Dekabrı Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan etməsi dünyanın 70 ölkəsində yaşayan 50 milyondan artıq azərbaycanlının ürəyində Vətən sevgisinin güclənməsinə təkan vermişdir.[4, səh.3]

Bu birliyin siyasi əsaslarının yaradılmasına, təşkilatlanma prosesinin sürətlənməsinə xidmət edən, 2001-ci ildən başlayaraq dünya azərbaycanlılarının qurultaylarının keçirilməsi millətimiz üçün tarixi hadisəyə çevrilmişdir. Böyük qürur hissi ilə ən mötəbər kürsülərdən «Hər bir insanın milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!» deyən Heydər Əliyev sözün gerçək mənasında ən böyük Azərbaycanlı idi. [5,səh.3]

Dünya Azərbaycanlılarının I Qurultayında ulu öndər Heydər Əliyev Azərbaycançılığı belə səciyyələndirmişdir: «Azərbaycançılıq öz mili mənsubiyyətini qoruyub-saxlamaq, milli-mənəvi dəyərlərini qoruyub-saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər insanın inkişafının təmin olunması deməkdir». Heydər Əliyev eyni zamanda Azərbaycan dilinin, mədəniyyətinin, milli dəyərlərin, adət-ənənələrinin qorunması və yaşaması üçün siyasi, iqtisadi və hüquqi baza yaradılmasını daim diqqət mərkəzində saxlamışdır. Milli düşüncənin inkişafında dilin əvəzolunmaz vasitə olduğunu yaxşı bilən Heydər Əliyev Azərbaycan dilinin dövlət dili statusu almasına daim səy göstərmişdir. Elə bu səbəbdən də hələ Sovet dövründə respublikamıza rəhbərlik edərkən müxtəlif maneələri dəf etməli olan Ulu Öndər Azərbaycan dilinin dövlət dili kimi Konstitusiyada təsbit olunmasında israrlı idi. 1978-ci ildə Ulu Öndərin qətiyyət və fədakarlığı sayəsində Azərbaycan dili dövlət dili kimi Konstitusiyaya salınmışdı.

Adət-ənənələrimiz və onların formalaşdırdığı milli dəyərlər sistemi ilə güclü dövlətçilik quruculuğu arasında sıx vəhdət var. Belə ki, hər bir dövlətin gücü, ilk növbədə, adət və ənənələrin cəmiyyəti əxlaqi, milli vətənəpərvərlik baxımından düzgün istiqamətə yönəltməsindən, onları saf təməllər üzərində tərbiyə etməsindən asılıdır. Bu baxımdan bütün dövrlərdə adət və ənənələr hər bir dövlətin qüdrətli və uzunömürlü olmasında on minlərlə əsgərin görə bilmədiyi əvəzsiz bir iş görür. Bir sözlə, adət və ənənələr insan münasibətlərinin tənzimləyici və istiqamətvericisi funksiyasını yerinə yetirərək, öz lideri ətrafında möhkəm birləşən güclü və qüdrətli dövlətin meydana çıxmasında önəmli oynayır.

Müstəqil Azərbaycan və onun əldə etdiyi uğurlar ümummilli liderimiz Heydər Əliyevin fəaliyyətinin şah əsərləridir. Ulu öndərimiz qeyd edirdi:"Yaratdığım hər bir şey mənim üçün əzizdir. Zavod da, fabrik də, yol da, körpü də , bina da, saray da –hər bir şey. Amma mənim üçün hər bir şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır". Bu müqəddəs amala bütün həyatı boyu sadiq qalan Heydər Əliyev elə böyük vətənpərvər, müdrik

dövlət xadimi idi ki, xalqının və dövlətinin müqəddəratını yalnız öz fəaliyyəti dövrü üçün düşünmürdü. Bütün parametrlərə görə haqlı olaraq dünyanın ən böyük Azərbaycanlısı adını daşımağa layiq olan Heydər Əliyev Azərbaycanın nailiyyətlərinin, zəfərlərinin sonrakı onilliklərdə də davam etməsi, müəllifi olduğu milli inkişaf strategiyasının bəhrələrinin gələcək nəsillər üçün də daha əlamətdar olması naminə fədakarlıqla çalışmışdır.Heydər Əliyev Azərbaycanın hərtərəfli inkişafının uzunömürlüyünü təmin edən təkmil irs, dövlətçilik xətti, siyasi məktəb yaratmışdır. Bu irsin ən layiqli davamçısı, Heydər Əliyev siyasi məktəbinin layiqli təmsilçisi cənab İlham Əliyevdir. Prezident İlham Əliyev ölkəmizi Heydər Əliyev siyasətinin yolu ilə daha işıqlı sabahlara əzmlə aparır!.

**ƏDƏBİYYAT:**


1. Milli mənəvi dəyərlərin təbliğində kitabxanaların rolu /tərt. ed. N. Alışova; ixtisas red. və bur. məs. K. Tahirov; red. A. Abdullayeva; M.F .Axundov adına Azərbaycan Milli Kitabxanası.- Bakı, 2011.- 85 s

2. Nigar ƏLƏKBƏROVA, "Heydər Əliyev və müstəqil Azərbaycanın mədəniyyət siyasəti", "Xalq qəzeti"12 may 2014

3. Mədəniyyət və turizm sahəsinin inkişafına dövlət dəstəyi http://www.goranboy-ih.gov.az/page/16.html

4. Eldar İBRAHİMOV, "Həmrəyliyə aparan yol". "Azərbaycan" qəzeti 01 Yanvar 2012

5. Mirkazım KAZIMOV, "Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən Azərbaycanlıyam", "Xalq qəzeti" 15 dekabr 2012

6. Əmiraslanlı Elmin. Azərbaycanda Turizm sektorunun inkişafının regional aspektdən qiymətləndirilməsi: / bakalavr dərəcəsi üzrə diplom işi) / – Bakı, 2018. – 58 s.
7. Həsənzadə Ülkər. Heydər Əliyev və Azərbaycan Turizmi. / Turizm və rekreasiya XXI əsrdə: problemlər və prespektivlər. – Bakı, 2019. – 303 s.
8. Soltanova Həbibə. Azərbaycan Respublikasında Turizm və onun inkişafı. – Bakı, 2015. – 238 s.
9. Abdullayev Mehdi. Yerli Turizmin təşkilində bələdiyyələrin iştirakı: (metodik vəsait) – Bakı – 2017. – 80 s.

# MÜƏSSİSƏNİN GƏLİR, XƏRC VƏ MƏNFƏƏT ANLAYIŞININ İQTİSADİ MAHİYYƏTİ VƏ ONLARIN FORMALAŞMASININ TƏKMİLLƏŞDİRİLMƏSİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

**Anar Əlizadə**

Azərbaycan Universitetinin II kurs magistrantı

anaranarrr@gmail.com

**XÜLASƏ**

Məqalədə gəlir, xərc və mənfəət anlayışlarının iqtisadi mahiyyəti və onların formalaşmasının təhmilləşdirilməsinin əsas istiqamətləri təhlil olunur. Təşkilatın iqtisadi fəaliyyətinin maliyyə nəticələrinə gəlir və xərclər təsir edir. Bütün müəssisələr mənfəət əldə etmək istəyir. Mənfəət gəlir və xərclər arasındakı fərq kimi hesablanır. Müəssisələrin öz fəaliyyətlərində istifadə etdikləri aktivləri əldə etmək üçün çəkməli olduqları məsrəflər və bu elementlərə əməl olunduğu hesablar xərc hesabları adlanır. Mənfəət müəssisənin əməliyyat fəaliyyətinin qiymətləndirilməsində, onun etibarlılığının müəyyən edilməsində, onun səmərəliliyinin ölçülməsində (resurslardan səmərəli istifadə), vergitutmada, səhm qiymətinin müəyyən edilməsində və mənfəətin bölüşdürülməsi siyasətinin müəyyən edilməsində çox mühüm anlayışdır.

## GİRİŞ

Müasir bazar iqtisadiyyatı şəraitində gəlir və xərclərin əhəmiyyəti böyükdür. Gəlir və xərclərin göstəriciləri müəssisənin effektivliyini və işgüzar keyfiyyətlərini, tərəfdaş kimi etibarlılıq dərəcəsini və maliyyə rifahını qiymətləndirmək sistemində əsas olanlardır. Təşkilat praktiki fəaliyyətində ona əsaslanır ki, onun sahibkarlıq fəaliyyətinin son nəticəsi məhsulların (işlərin, xidmətlərin) arzu olunan gəlirliliyinə nail olmaqdır. Gəlir, mənfəət və rentabellik göstəriciləri təşkilatın maliyyə-təsərrüfat fəaliyyətinin effektivliyinin ən vacib xüsusiyyətləridir. Hər bir biznes müəssisəsinin əsas məqsədi mənfəət olduğundan, gəlir və xərclərin diqqətlə uçotu vacibdir.

Mühasibat uçotunda göstərilən təşkilatın iqtisadi həyatının bütün faktları iki qrupdan ibarətdir - bunlar gəlir və xərclərdir. Gəlir və xərclər təşkilatın iqtisadi fəaliyyətinin maliyyə nəticələrinə təsir edən iqtisadi həyatın faktlarıdır.

## TƏDQİQAT

Bazar iqtisadiyyatı şəraitində mənfəət bütün müəssisələrin məqsədi, yekun müsbət maliyyə nəticəsidir. Maliyyə nəticəsi də mənfi dəyərə malik ola bilər, yəni təşkilat zərər verə bilər. Müəssisənin mənfəət əldə etməsi həyati əhəmiyyət kəsb edir, çünki mənfəət onların formalaşması üçün maliyyə resursları mənbəyi kimi çıxış edir [6, s.234-236]. Mənfəətin olması təkcə təsərrüfat subyekti kimi müəssisənin deyil, həm də dövlətin, bu müəssisənin işçilərinin, kapital sahiblərinin iqtisadi maraqlarını təmin etməyə imkan verir. Dövlətin iqtisadi maraqlarının obyekti təşkilatın vergi şəklində ödədiyi mənfəətin payıdır. Müəssisənin iqtisadi marağı mənfəətin onun sərəncamında qalan hissəsini artırmaqdır. Mənfəətin bu hissəsinin

köməyi ilə təşkilat öz inkişafının iqtisadi problemlərini həll edir. İşçilərin marağı müəssisənin sərəncamında qalan mənfəətlə də əlaqələndirilir, çünki o, əmək şəraitinin yaxşılaşdırılması, ixtisasartırma, əlavə maddi həvəsləndirmə və sosial inkişaf üçün vəsait mənbəyidir. Kapital sahibləri mənfəətin artmasında bilavasitə maraqlıdırlar, çünki bu əsasda onların kapitalının artımı təmin edilir [7, s.237-238].

Mənfəətin mənası belədir:

- təşkilatın fəaliyyətinin göstəricisidir;
- təşkilatın öz maliyyə resurslarının mənbəyi kimi çıxış edir;
- təsərrüfat-maliyyə fəaliyyətinin səmərəliliyinin ölçüsü kimi xidmət edir;
- stimullaşdırıcı funksiyanı həyata keçirir, çünki iqtisadi fəaliyyətin bütün iştirakçıları, kapital sahibləri, işçilər onun artımında maraqlıdırlar;
- mənfəət (gözlənilən) dividend siyasətinin, investisiya qərarlarının qəbulu üçün etalondur;
- müxtəlif səviyyəli büdcələr üçün gəlir mənbəyi kimi xidmət edir (mənfəətin bir hissəsi vergilər hesabına büdcələrə hesablanır).

Təcrübədə mənfəət təşkilatın gəlirləri və xərcləri arasındakı fərq kimi hesablanır.

Müəssisə üçün gəlirin köməyi ilə aşağıdakı vəzifələr həll olunur:

- təsərrüfat fəaliyyətinin özünü təmin etməsi üçün zəmin formalaşan cari xərclərin kompensasiyası;
- mənfəətin formalaşması, bunun nəticəsində özünümaliyyələşdirmə üçün zəmin yaranır [8, s.408-410].

İstənilən müəssisə, fəaliyyət xüsusiyyətlərindən və mülkiyyət formasından asılı olmayaraq, məhsul istehsalı (işlərin görülməsi, xidmətlərin göstərilməsi) üçün maddi, əmək, maliyyə, informasiya və digər resurslardan istifadə edir. Bu resursların cəlb edilməsi və istifadəsi məsrəflərlə bağlıdır. Xərclər təşkilatın müəyyən müddət ərzində məhsul istehsalı və satışı məqsədilə istifadə etdiyi resursların həcminin pul ifadəsidir. Xərclərə əsas və dövriyyə vəsaitlərinə investisiyalar daxildir və həmçinin hesabat dövründə xərcləri və ya gələcək dövrlərdə xərcə çevriləcək aktivlər kimi tanımaq mümkündür [9, s.472-474].

Xərclərin xarakterindən, habelə müəssisənin fəaliyyətinin həyata keçirilməsi və istiqamətləndirilməsi şərtlərindən asılı olaraq, onlar aşağıdakı növlərə bölünür:

- adi fəaliyyətlə bağlı xərclər;
- digər xərclər.

Adi fəaliyyətlər üçün xərclər məhsulların istehsalı və satışı, işlərin görülməsi və xidmətlərin göstərilməsi, habelə malların alqı-satqısı ilə əlaqəli xərclərdir. Müxtəlif xərclər müxtəlif xərclərin geniş spektridir.

Nəzərə almaq lazımdır ki, mühasibat uçotunda tanınan xərclər vergi məqsədləri üçün nəzərə alınan xərclərdən tərkibində bir qədər fərqlidir. Mühasibat uçotu məqsədləri üçün xərclərin tərkibinə bütün faktiki xərclər daxildir ki, bu da məhsulun real maya dəyərini və müəssisənin mənfəətini hesablamağa imkan verir.

Ölkəmizdə mövcud iqtisadi şəraitdə, o cümlədən iqtisadi və siyasi sanksiyalarda, böhran hadisələrində, yüksək inflyasiyanın mövcud olduğu şəraitdə müəssisədə maddi, əmək və maliyyə resurslarına qənaət və səmərəli istifadə rejimi, habelə yeni müəssisənin gəlirlərinin artırılması yolları, son dərəcə mühüm rol oynamağa başlayır.

Xərclər müəssisənin kommersiya fəaliyyətinin nəticələrini əks etdirən, məsrəflərin idarə edilməsi proseslərinin təşkilində nailiyyətləri və çatışmazlıqları göstərən keyfiyyət göstəricilərindən biridir [1]. Bu baxımdan, xərclərin sistemli təhlilinin aparılması müəssisədə xərclərin idarə edilməsi sisteminin səmərəliliyinin artırılması üçün mühüm ilkin şərtdir.

Hər hansı bir müəssisənin satışından əldə olunan mənfəətdə müəssisənin məsrəflərinin mühüm yer tutmasını əsas götürərək onların azaldılması səmərəliliyin artırılmasında mühüm amildir.

Müəssisənin səmərəliliyinin artması üçün gəlir və mənfəətin artırılması üçün ehtiyatların axtarışı böyük əhəmiyyət kəsb edir. Mənfəəti artıran amillərə aşağıdakılar aiddir [2]:

- istehsal, istehsal ehtiyatlarının mövcudluğunun, istifadəsinin müəyyən edilməsi;
- qeyri-məhsuldar, qeyri-istehsal ehtiyatlarından istifadəyə vasitəçilik edən və s.

Müəssisənin gəlirliliyini artırmaq üçün əlavə tədbirlər ola bilər [4]:

- artıq avadanlığın, başqa əmlakın satışı, onun icarəyə verilməsi;
- istehsalın şaxələndirilməsi;
- iqtisadi resurslardan səmərəli istifadə;
- satış bazarının genişləndirilməsi;
- istehsalın texniki səviyyəsinin yüksəldilməsi;
- qeyri-istehsal xərclərinin, itkilərin aradan qaldırılması.

Bundan əlavə, istehsal olunan məhsulların çeşidi (nomenklaturası) müəssisənin gəlirliliyinin artmasına təsir göstərir, çünki onların hər biri ona xas olan gəlirlilik səviyyəsi ilə xarakterizə olunur.

Bu gün müəssisənin rentabelliyini artırmaq müştərilər üçün əlavə biznes dəyəri, məhsullar, xidmətlər yaratmaqla da mümkündür [3]:

- müştəriyə diqqət, istehlakçı loyallığının formalaşması, idarə edilməsi;
- gəlirliliyi artırmaq üçün bir yol kimi müştəri diqqəti;
- müştəri məyusluğunun səbəblərinin aydınlaşdırılması, təhlili: marketinq həlləri, müştərilərlə etibarlı münasibətlərin qurulması, müştəri loyallığının inkişafı;
- marketinq fəaliyyətinin effektivliyinin qiymətləndirilməsi:
- biznes fəaliyyətinin əsas göstəricilərinin müəyyən edilməsi;
- Marketinqin gəlirlilik göstəricilərinin müəyyən edilməsi.

Biznes planının işlənib hazırlanması, əsaslandırılması, müəssisənin maliyyə büdcələri həmişə müəssisənin rentabelliyinin artırılması imkanlarını, o cümlədən təhlillərin nəticələrinə əsasən mənfəət və zərər haqqında proqnoz hesabatını, digər iqtisadi hesablamaları əks etdirməlidir [5].

Beləliklə, müasir iqtisadi şəraitdə və yüksək rəqabət şəraitində təşkilatın uğurlu fəaliyyətini şərtləndirən əsas amillər biznesin səmərəli idarə edilməsi, resurslardan səmərəli

istifadə üçün ehtiyatların axtarışı və fəaliyyətin genişləndirilməsidir. Hər bir kommersiya təşkilatının əsas məqsədi qazanc əldə etməkdir. Təşkilatın fəaliyyətinin effektivliyini xarakterizə edən göstəricilər mənfəət və gəlirlilikdir. Eyni zamanda, hər bir müəssisə maksimum mənfəət əldə etməyə və gəlirlilik səviyyəsini yüksəltməyə çalışır.

## NƏTİCƏ

Beləliklə, müasir iqtisadi şəraitdə və yüksək rəqabət şəraitində təşkilatın uğurlu fəaliyyətini şərtləndirən əsas amillər biznesin səmərəli idarə edilməsi, resurslardan səmərəli istifadə üçün ehtiyatların axtarışı və fəaliyyətin genişləndirilməsidir. Hər bir kommersiya təşkilatının əsas məqsədi qazanc əldə etməkdir. Təşkilatın fəaliyyətinin effektivliyini xarakterizə edən göstəricilər mənfəət və gəlirlilikdir. Eyni zamanda, hər bir müəssisə maksimum mənfəət əldə etməyə və gəlirlilik səviyyəsini yüksəltməyə çalışır.

## ƏDƏBİYYAT SİYAHISI

1. Kovalev, V. V. Analysis of the economic activity of the enterprise: textbook. allowance / V. V. Kovalev, O. N. Volkova. – M.: Velby, 2014. – 424 p.
2. Sheremet, A.D. Comprehensive economic analysis of the enterprise: textbook. allowance / A.D. Sheremet. – M.: Economics, 2014. – 124 p.
3. Sheremet, A.D. Methods of financial analysis: textbook. allowance / A.D. Sheremet. – M.: INFRA-M, 2014. – 348 p.
4. Shishkin, A.K. Accounting, analysis, audit at the enterprise: textbook. allowance for universities / A.K. Shishkin. – M.: Audit, UNITI, 2015. – 170 p.
5. Zhulega, I.A. Methodology for analyzing the financial condition of an enterprise: Monograph / I.A. Zhulega. - St. Petersburg: GUAP, 2014. - 235 p.
6. Баскакова О. В. Экономика предприятия (организации): Учебник / О. В. Баскакова, Л. Ф. Сейко. - М.: Издательско-торговая корпорация «Дашков и К°», 2013. - 372 с.
7. Ковалев В.В. Финансы: учебник. - 3-е изд., перераб.- М.: ТК Велби, Изд-во Проспект, 2013. – 610 с.
8. Кондраков Н.П Бухгалтерский (финансовый, управленческий) учет: Учебник. - 2-е изд., перераб. и доп. - М.: 2011. - 504 с.
9. Сергеев, И. В. Экономика организации (предприятия): учебник/ И. В. Сер геев, И. И. Веретенникова. - 6-е изд., перераб. и доп. - М: Издательство Юрайт, 2014. - 671 с.

# AZƏRBAYCANDA TOLERANTLIQ VƏ HEYDƏR ƏLİYEVİN MULTİKULTURALİZM SİYASƏTİ

Tolerance and multiculturalism as part of state policy in Azerbaijan

**Günel HÜMMƏTOVA (PƏNİYEVA)**

**Azərbaycan Dövlət Pedaqoji Universiteti,**

**Ədəbiyyatin tədrisi texnologiyasi kafedrasinin müəllimi, f.ü.f.dok**

**mail: gunelpeniyeva@mail.ru**

**Summary**

This article examines the main traces of Azerbaijani multiculturalism and tolerance. There are examples of old sayings, proverbs and epics that have traces of tolerance in Azerbaijani folklore. At the same time, an example from the written literature sample is given.

This article reflects the main function of Great Leader Heydar Aliyev as the founder of Azerbaijani multiculturalism and tolerance. Also, regulation of state-religion relations, implementation of Azerbaijan's foreign policy is the main direction. This entire list was obtained as a result of the domestic and foreign policy of Great Leader Heydan Aliyev. For the development of multiculturalism and tolerance, during the reign of the Great Leader, the construction of new mosques in Azerbaijan was one of the main directions, as well as the fundamental repair and restoration of sanctuaries and religious temples.For the development of multiculturalism and tolerance, during the reign of the Great Leader, construction of new mosques in Azerbaijan, major renovation and improvement of sanctuaries and religious temples was one of the main directions. The existence of 17 mosques in Azerbaijan, a multi-ethnic state, before independence proved once again that tolerance is related to the original diversity. After independence, their number increased to 1236 thanks to Great Leader Heydar Aliyev.

At the same time, Ilham Aliyev, the president of the Republic of Azerbaijan, is the son of a great politician, the clear follower of the multicultural policy of the Great Leader Heydar Aliyev. Thus, during the years he came to power, he created the Baku International Center for Multiculturalism and declared 2016 the year of Multiculturalism. At the same time, he developed multiculturalism by signing many foreign and domestic policies, programs and decrees.

**Key words**: multiculturalism, tolerance, function,  public policy

**Xülasə**

Bu məqalədə Azərbaycan multikulturalizmi və tolerantlığının əsas izləri araşdırılır. Azərbaycan folklorunda tolerantlıq izləri daşıyan atalar sözlərində, dastan nümunələrində ,bayatılardan nümunələr gətirilmişdir.Eyni zamnada yazılı ədəbiyyat nümunəsindən nümunə çəkilərək tolerantlığı əks etdirən faktlar qeyd edilmişdir. Həmçinin məqalədə tolerantlıq və multikulturalizm siyasətinin Azərbaycanda dövlət siyasəti olmasının Heydər Əliyevin multikulturalizm siyasətindən və İlham Əliyevin bu siyasətin daim dövlət siyasəti olması haqqında bəhs etdiyi çıxışları və bu yöndə gördüyü işləri qeyd edilmişdir.

**Açar sözlər:** tolerantlıq, multikulturalizm, siyasət, dövlət siyasəti

**Giriş:**

Azərbaycanda multikulturalizm ideyaları əsrlər boyu folklor və mifik inanc təsəvvürlərində formalaşmışdır. Folklor nümunələri Azərbaycanın tolerant xalq olduğunun sübutun verir. Folklor nümunəsi olan bayatılarımızda tolerantlığın əsas izini görərik:

Apardı tatar məni,
Qul edib satar məni,
Yarım vəfalı olsa
Axtarıb tapar məni

Folklor nümunəsi olan bu bayatının tatar xalqına aid olması tolerantlığın, multikultural dəyərlərin ta keçmiş zamanlardan formalaşdığının bariz nümunəsidir və ilk dövlət olan Alban dövlətinin zamanına gedib çıxmasının sübutudur. Çünki Alban dövləti dövründə bir dövlətin tərkibində 26 fərqli xalqın olması və mehriban şəkildə bir dövlət tabeçiliyində yaşaması Azərbaycan tolerantlılığının obyektiv faktorunun əvvəllərə gedib çıxdığının bariz nümunəsidir.

Eyni zamanda atalar sözlərində özünü göstərən : "Dəvəçi ilə dostluq edənin darvazası gen gərək" bu nümunəsində dəvəçi sözünün ərəblərə aid olması və onlarla dostluq edən xalqın həmin ərəblərə tolerant yanaşması və özününki kimi qəbul etməsi multikultural yanaşmanın ilkin müxtəlifliyə aid olmasının əsaslı şəkildə əyani göstəricisidir. Ədəbii nümunələrdə bu kimi epizodları saysız şəkildə göstərə bilərik. Bütün bu göstəricilərin də əsası ondan asılıdı ki, Azərbaycanda tolerantlığın və multikultural yanaşmanın 2 səbədə formalaşmasının: obyektik və subyektik səbəb- və bu səbəblərin də özlərinin tarixi və coğrafi faktor olaraq bölünməsi kimi əsas göstəriçilərdən asılı olmasıdır. Çünki, Azərbaycan istər tarixən , istərsə də coğrafi cəhətdən əlverişli ərazilərdə yerləşmiş və bütün dövlət və xalqların maraq dairəsində olmuşdur. Beləki, tarixən e.ə.II əsrdə Çindən çəkilən ipək yolunun Azərbaycan ərazisindən keçməsi, gəlib gedən tacir və səyyahların maraq dairəsinə çevrilməsi, səyyah və tarixçilərin Azərbaycan xalqında yaşayan etnik qrupların tarixi, folkloru ilə maraqlanması, onlar haqqında öz əsərlərində təsvir etməsi Azərbaycan tolerantlılığının ilkin dövlərə aid olduğunun nəticəsidir. Həmçinin bu səyyahların dillərindən deyilən dastanlarda belə iki, üç tayfanın eyni ərazidə dostluq şəkildə yaşaması faktoru "Kitabi Dədəd Qorqud" dastanındakı İÇ oğuz və Dış oğuz tayfalarının timsalında təsvir edilmişdir. Eyni zamanda "Qanlı Qoca oğlu Qanturalı" boyunda Qanturalının evlənmək üçün seçdiyi sarı donlu, xristian qızı Selçan xatunun verilməsi də multikultural və tolerantlığın izlərinin nümunələrindəndir. Bu kimi nümunələrin ədəbiyyatdan sonsuz sayda izlərini göstərə bilərik. Şifahi xalq ədəbiyyatı nümunələrində olduğu kimi bədii yazılı ədəbi nümunələrindən də bu kimi nümunələri göstərmək olar.Elə götürək dünya şöhrətli ədib, Xəmsəsi ilə nəyinki Azərbaycan ədəbiyyatında, həmçinin dünya ədəbiyyatında da öz izini qoyan Nizami Gəncəvi yaradıcılığında özünü göstərir. Xəmsəyə daxil olan "Yeddi Gözəl" əsərinin özünün çoxmədəniyyətliyin bariz nümunəsi olduğunu 7 ölkədən gətirilmiş yeddi gözəlin danışdığı nağılları göstərə bilərik. Burada Nizami Gəncəvi yedii xalqın, yeddi gözəlin,yeddi xalqın mədəniyyyətinin nümunələrinin əks etdirilməsi və əsərdə hörmətlə təsvir edilməsi

tolerantlığın izidir. Burada ədib hər bir xalqın şifahi ədəbiyyatına olan hörmətin və marağın təsviridir.

Tarixi hadisə kimi götürüldükdə Azərbaycan ərazisinə zamanla köçürülmüş etnik qrupları misal göstərə bilərik. Elə götürək Babilistan dövlətinin dağılmasından sonra Dağ yəhudilərinin Azərbaycanın Quba ərazisinə köçürülməsin. Bundan sonra XIX əsrdə Rusiyanın koloniya sistemini yaratmaq üçün gürcü və avropa yəhudilərinin də köçürülməsi kimi etnik qrupların köçürülməsi Azərbaycanda çoxmədəniyyətliyin daha da inkişaf etməsinə təkan oldu. Yəhudilərə qarşı antisemit yanaşmanın olması bura köç edən etnik qrupların zamanla sayının artmasına gətirib çıxartdı.Eyni zamanda Azərbaycan Xalq Cumhuriyyəti dövrü Azərbaycan çoxmədəniyyətliliyinin inkişafında mühüm rol oynamışdır. Məhz Bakının sosial etnik tərkibində ermənilər. polyaklar, gürcülər və rusların sülh şəraitində yaşaması və dövlət işlərində işləməsi multikultural yanaşmanın inkişafını təşkil edir.

**1.Azərbaycan multikulturalizminin banisi Ulu Öndər Heydər Əliyev**

Azərbaycan multikultrualizminin banisi Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Sovet İttifaqının dağılma ərəfəsində - 80-ci illərin sonları və 90-cı illərin əvvəllərində müxtəlif qruplar üçün "milliyətçilik" anlayışı birliyə çağırışın yeganə kateqoriyası idi. Bu siyasi ideologiya Avropa dövlətlərindən fərqli olaraq keçmiş sovet ölkələrində və eləcə də regionumuzda dramatik toqquşmaların meydana gəlməsinə səbəb oldu. Bu illər ərəfəsində Azərbaycan vətəndaş müharibəsinin baş verməsi astanasına gəlib çatdı. Məhz bu ərəfədə Ümummilli Lider Heydər Əliyev hakimiyyətə yenidən döndü. Bu dönüşdən sonra Azərbaycanın həm daxili həm də xarici siyasətində köklü dəyişiklər özünü dərhal götərməyə başladı. Heydər Əliyev siyasətinin əsasını multikultural, tolerant və humanist dəyərlərin ana xətt təşkil edir. İnsan hüquqlarının ali dəyər kimi hesab olunduğu Heydər Əliyev siyasəti Azərbaycanı nəyinki vətəndaş müharibəsindən xilas etdi, hətta Azərbaycanın multikultural dəyərlərini bir model kimi formalaşdırdı. 1989-cu ildə Sumqayıt hadisəsinin baş verməsi vətəndaşlıq müharibəsinin ilkin səbəblərindən oldu. Sovet dövləti dağılmağa başladığı andan Azərbaycan ərazisində Ləzgistan və Talış Muğan respublikalarının yaradılması təşəbbüsünün irəli sürülüb o istiqamətdə siyasi işlərin aparılması artıq Azərbaycan Respublikasına bir possional şəxsin başçılıq etməsinin zəruriliyi yarandı. Bu vacibliyi sezən Azərbaycan ziyalılar cəmiyyətinin imza toplantısı ilə Ulu Öndər Heydər Əliyev 1993-cü ildə hakimiyyətə gəldi.Azərbaycan Respublikası 1991-ci il oktyabrın 18-də öz dövlət müstəqilliyini bəyan etdi. Və 80-ci illərin sonu - 90-cı illərin əvvəllərində beynəlxalq aləmdə baş verən dəyişikliklər milli dövlətçilik prinsiplərinə uyğun yeni xarici siyasət kursunun formalaşdırılması və həyata keçirilməsini ən vacib məsələ kimi ön plana çəkdi. Azərbaycan Respublikası qısa müddət ərzində dünyanın bir sıra dövlətləri tərəfindən rəsmi surətdə tanındı. Beləliklə də, yeni müstəqillik əldə etmiş dövlətin dünya təşkilatları il siyasi-iqtisadi əməkdaşlığın edilməsinə zərurət yarandı. Və eyni zamanda Heydər Əliyevin güclü siyasətinin nəticəsi olaraq müxtəlif etnik qrupa daxil olan milli qrupların hüquq-bərabərliyini qorumaq və mədəni müxtəlifliklərin inkişafına şəraitin yaradılması əsas şərtlərdən biri oldu.Sözdə əməlin edilməsi və hüquqların qorunması sənədlə sübutun verməli və daxili çəkişmənin qarşıs alınmalı idi. Eyni zamanda dövlətin din münasibətlərin nizama salmaq, dövlətin xarici siyasətin düzəlmət və yeni yaranmış bir dövlətin iqtisadi siyasətində gücləndirmək və həyata keçirtmək üçün bir sıra xarici təşkilatlara üzv olmanın vacibliyin görürdü. Bunun üçün də Heydər Əliyev 1992-ci il martın 2-də BMT-nin üzvlüyünə qəbul edildi. Daha sonra Ulu

Öndər Heydər Əliyev 1993-cü il oktyabr ayının 10-da Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə bağlı keçirilən rəsmi andiçmə mərasimindəki çıxışında qeyd etmişdir ki, "respublikamızın qarşısında duran əsas vəzifələrdən biri Azərbaycanın mənafeyini dünya miqyasında müdafiə edə bilən ağıllı, səriştəli xarici siyasətin yeridilməsidir. Qarşıda böyük vəzifələr durur. Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Vəzifə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı faydalı əlaqələr yaratmaq və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmlətmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir" [Əlieyv 2015 , s.396] Həm yeni yaranmış müstəqil dövlət özünəməxsus prinsip və xüsusiyyətlərlə fərqlənmək, həm də müxtəlif istiqamətli daxili və xarici siyasəti həyata keçirtmək üçün. xalqın ümumi rəyi ilə yaradılmış və qəbul olunmuş Konstitusiya əsasında onun tam bir varlıq kimi yaşamasına, fəaliyyətinə, ictimai-siyasi, iqtisadi və mənəvi həyatın bütün sahələrində təmsil etdiyi vətəndaşların maddi və mənəvi tələbatının fasiləsiz təmin edilməsinə, eyni zamanda dövlətin etnik birliyini təşkil edən müxtəlif etnik birliklərin hüquq və bərabərliyini qanun əsasında qorumaq üçün 1995-ci il noyabrın 12-də qəbul edildi. Konistitutsiyanın bəzi maddələri insan hüquq və azadlıqlarının qorunması ilə bağlıdır. Bu qanunlar da 1948-ci il dekabrın 10 da Birləşmiş Millətlər təşkilatının qəbul etdiyi “insan və vətəndaşların hüquq və azadlıqlar haqqında bəyannaməsinin”qanunları ilə uyğunluq təşkil edir.Həmçinin Azərbaycan Respublikasının Konstitusiyasının 10-cu maddəsində Azərbaycan başqa dövlətlərlə və xarici aləmlə əlaqələrini beynəlxalq hüquq normaları və ölkənin maraqlarını nəzərdə tutan prinsiplər əsasında qururması kimi hüquqi qanunları əks etdirmişdir. Bütün bu hüquq və qanunların, maddə və bəndlərin hər birinin özünün həyata keçirtdiyi funksiyası vardır ki, onlardan biri də xarici siyasətin həyata keçirilməsidir.

Bütün bu siyahı Ulu Öndər Heydən Əliyevin daxili və xarici siyasətinin nəticəsi olaraq əldə edilmişdir. Multikulturalizm və tolerantlığın inkişafı uğrunda Ulu Öndərin hakimiyyəti illərində Azərbaycanda yeni məscidlərin tikilməsi ziyarətgah və dini məbədlər əsaslı şəkildə təmir-bərpa edilməsi, abadlaşdırılması əsas istiqamətlərdən biri idi. Çoxmillətli dövlət olan Azərbaycanda müstəqillikdən öncə 17 məscidin mövcud olması tolerantlığın ilkin müxtəlifliklıyə aid olmasını bir daha sübuta yetirirdi.Müstəqillikdən sonra onların sayı 1236-ya Ulu Öndər Heydər Əliyevin sayəsində çatdırıldı. Milli-mənəvi dəyərlərimizin xüsusi rolunun olduğunu Heydər Əliyev 1997-ci ildə Bibiheybət məscidinin bərpasına başlanması mərasimindəki çıxışında vurğulamışdır: "Son illər Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsində, qorunub saxlanmasında, Azərbaycanın başına gələn bəlaların aradan götürülməsində, işğal olunmuş torpaqlarımızın azad edilməsi üçün apardığımız işlərdə, bütün başqa işlərdə bizim milli-mənəvi dəyərlərimiz - Azərbaycan xalqının milli-mənəvi dəyərləri, Azərbaycan xalqının mənsub olduğu islam dininin mənəvi dəyərləri bizim üçün həmişə dayaq və ilham mənbəyi olmuş, bizə həmişə güc vermişdir”.[Əliyev 2015, s.264] Azərbaycanın gələcək strategiyasının inkişaf etdirilməsində mənəvi mənbələrdən yararlanmağın xüsusi önəminin olduğunu və bu işdə islam dininin də əhəmiyyətli rolunun vacib olduğunu Ulu Öndər xüsusi qeyd etmişdir.Məhz ona görədə çoxmillətli dövlətin müxtəlif dini görüşlərə malik olan etnik birliklərin dini nümayəndələri ilə Ümummilli Lider tez-tez görüşlər keçirir, onların fikirlərinə ciddi şəkildə önəm verir, müxtəlif dini bayram və matəm mərasimlərində məscidlərə gedir, dindar insanlar qarşısında çıxışlar edərdi ki, bu da multikultural görüşün inkişafını və Azərbaycan multikulturalizm modelinin əsasının

formalaşmasına təkan verirdi Təzəpir məscidində keçirilən bayram tədbirində iştirak edən Ulu Öndər : "Bizim bu ədalətli mübarizəmizdə, torpaqlarımızın müdafiəsində Allah bizə həmişə yardımçı olacaqdır. Ulu peyğəmbərimiz Məhəmməd əleyhissalamın qoyduğu yol, Qurani-Kərimin göstərişləri bizi qələbəyə aparacaq, xalqımızı birləşdirəcək və biz düşmənləri məğlub edəcəyik”. [Əliyev 2015, s.152] Ümummilli Lider Heydər Əliyev islam dininin mənsublarına göstərdiyi qayğı və diqqəti ölkəmizdə yaşayan digər dinlərin mənsublarından da əsirgəməyərək öz düşüncələri və əməlləri ilə ölkəmizdə tolerant mühiti formalaşdırıb,inkişafına təkan verib ki, bu da bütün vətəndaşlar üçün örnək rolunu oynayaraq mədəni müxtəlifliyin inkişafını təmin edib. Eyni zamanda Heydər Əliyev digər din nümayəndələrinə qarşı yüksək dini dözümlülük nümayiş etdirməklə yanaşı, onları da heç vaxt diqqətdən kənarda saxlamayıb, arzu və istəklərini həyata keçirib, problemləri ilə yerindəcə tanış olmaqdan ötrü tez-tez ölkəmizdə fəaliyyət göstərən kilsə və sinaqoqlarda olub və bütün problemlərin həlli ilə yaxından maraqlanıb. Bu istiqamətdə də 2004-cü ildə Heydər Əliyev Fondu yaradaraq regionlar arası istər iqtisadi, istərsə də mədəni inkişafla bağlı qəbul edilmiş bəyannamə və proqramların həyata keçirilməsini təmin edib. Eləcə də görkəmli dövlət xadiminin onların dini məbədlərini bərpa etdirmək təşəbbüsünün bütün dünyaya nümunə olması danılmaz reallıqdır.

## 2. Multikulturalizmin dövlət siyasəti olması haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışları

Eyni zamanda böyük bir siyatətçinin, Ulu Öndər Heydər Əliyevin multikulturan siyasətinin bariz davamçısı oğlu Azərbaycan Respublikasının prezidenti İlham Əliyevdir. Beləki hakimiyyətə gəldiyi illər ərzində Bakı Beynəlxalq Multikulturalizm Mərkəzini yaratmış, 2016-cı ili Multikulturalizm ili elan etmişdir. Bununla yanaşı bir çox xarici və daxili siyasətlər, proqramlar və fərmanlar imzalamaqla multikulturualizmi inkişaf etdirmişdir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi “Multikulturalizm Azərbaycanda həm dövlət siyasətidir, həm də həyat tərzidir” [6]

Həmçinin İlham Əliyev “ bu gün Heydər Əliyev Mərkəzində “Yeni dünya və yeni insan formalaşdıraq: yaradıcılıq və insan inkişafı” mövzusunda keçirilən VI Bakı Beynəlxalq Humanitar Forumunun açılışı zamanı öz çıxışında Azərbaycan xalqının çoxmədəniyyətli və bir çox etnik qrupun bir arada yaşadığı dövlət olduğunu və bunun da zamanla dövlətin tolerantlıq siyasəti olduğunu vurğulamışdır ““Əsrlər boyu müxtəlif dinlərin, xalqların nümayəndələri Azərbaycanda bir ailə kimi sülh, əmin-amanlıq, mehribanlıq şəraitində yaşayıblar və bu siyasət bu gün də davam etdirilir. Azərbaycanda bu istiqamətdə dövlət siyasəti çox səmərəlidir və gözəl nəticələrə gətirib çıxarır. Bizim tarixi keçmişimiz, mədəniyyətimiz onu göstərir ki, müxtəlif dinlərin nümayəndələri Azərbaycanda həmişə çox rahat yaşayıblar, bir ailə kimi yaşayıblar. Bizim tarixi, dini abidələrimiz həm qədim tariximizi göstərir, eyni zamanda, göstərir ki, Azərbaycan müxtəlif dinlərin nümayəndələri üçün doğma diyar, doğma məkan olmuşdur. Biz fəxr edirik ki, müsəlman aləminin ən qədim məscidlərindən biri olan, 743-cü ildə tikilmiş və bizim Şamaxı şəhərində yerləşən məscid milli sərvətimizdir. Eyni zamanda, digər qədim şəhərimizin - Şəki şəhərinin yaxınlığında Qafqazın ən qədim kilsələrindən biri - Qafqaz Albaniyası kilsəsi yerləşir. Hər iki məbəd əsaslı şəkildə təmir və bərpa edilib, dövlət tərəfindən qorunur. Bakıda qədim atəşpərəstlik məbədi Atəşgah yerləşir. Bu da onu göstərir ki, Azərbaycanda Zərdüştlük dininin ənənələri vardır”[6]

Bütün bu deyilənlər bir daha sübut edir ki, tolerantlıq və multikulturalizm Azərbaycanda dövlət siyasətinin tərkib hissəsidir və daim dövlət istərv daxili, istərsə də xarici siyasəti zamanı multikultural dəyərlərə hörmətlə yanaşmış və onu inkişaf etdirməyə çalışmışdır. Bütün bu deyilənləri İlham Əliyevin fikiri ilə yekunlaşdıraraq qeyd edə ki : "Azərbaycanda multikulturalizm dövlət siyasətidir. Biz öz milli, dini ənənələrimizə çox bağlıyıq, sadiqik və milli dəyərlər gələcək inkişafımız üçün xüsusi rol oynayır. Deyə bilərəm ki, müasir Azərbaycan dövləti çox dərin milli dəyərlər, milli-mənəvi dəyərlər üzərində qurulubdur. Eyni zamanda, biz dünyaya açığıq. Qeyd etdiyim kimi, Azərbaycan dünyada multikulturalizmin ünvanlarından birinə çevrilibdir və bu şərəfli status artıq dünya birliyi tərəfindən tanınır. Təsadüfi deyil ki, biz mənim Sərəncamımla 2016-cı ili Azərbaycanda "Multikulturalizm İli" elan etdik. Hesab edirəm ki, dünyada ilk dəfə olaraq belə bir təşəbbüs irəli sürülmüşdür. Bu, bizim niyyətimizi göstərmişdir, 2016-cı ilə multikulturalizm adını verməklə, ilk növbədə, biz dünyada Azərbaycanı olduğu kimi təqdim etmək istədik. Göstərmək istədik ki, multikulturalizm Azərbaycanda həm dövlət siyasətidir, həm həyat tərzidir, eyni zamanda, biz dünya birliyinin diqqətini bu məsələyə cəlb etməyə çalışdıq. Çünki siz də yaxşı bilirsiniz ki, bu gün həm siyasətçilər, ictimai xadimlər, həm də media tərəfindən multikulturalizmlə bağlı çox ziddiyyətli fikirlər səsləndirilir. Ona görə hesab edirəm ki, bu məsələ ilə bağlı vahid yanaşma olmalıdır və burada heç bir ziddiyyətli fikrə yer ola bilməz. Hesab edirəm ki, Azərbaycanın bu sahədəki təcrübəsi həm təqdirəlayiqdir, həm də gözəl nümunə ola bilər. Biz multikulturalizmin bəhrəsini gündəlik həyatda görürük. Bu gün Azərbaycanda yaşanan sabitlik, vətəndaş həmrəyliyi, milli həmrəylik, o cümlədən bu dəyərlərə əsaslanır" [6]

**Nəticə:** Nəticə olaraq onu qeyd edə bilərik ki, multikulturalizm və tolerantlığın dövlət siyasəti olması ilk dövlət olan Alban dövlətinin hakimiyyəti dövründən, 1918 –ci ilk müstəqillik əldə etdiyimiz Xalq Cumhuriyyəti dövründən dövlətin siyasəti olmuşdur. Ulu Öndər Heydər Əliyevin dövründə tam şəkildə dövlət siyasətinə çevrilmiş, İlham Əliyevin siyasəti nəticəsində isə inkişaf etdirilir.

## ƏDƏBİYYAT

1. Heydər Əliyev Siyasəti: TOLERANTLIQ (çıxışlar, nitqlər, görüşlər, təbriklər), Bakı, 2015, 502 s.
2. İlham Əliyev: "Multikulturalizm Azərbaycanda həm dövlət siyasətidir, həm də həyat tərzidir" /https://modern.az/az/news/181503/ilham-eliyev-multikulturalizm-azerbaycanda-hem-dovlet-siyasetidir-hem-de-heyat-terzidir

# HEYDƏR ƏLİYEVİN DIL SIYASƏTI

**Mətanət MEHDİYEVA**

Baş müəllim, f.ü.f.d.

Azərbaycan Dövlət Pedaqoji Universiteti,

mehtiyeva_m@mail.ru

**XÜLASƏ**

Heydər Əliyevin dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında verdiyi fərman Azərbaycan dilinin tətbiqi və inkişaf etdirilməsinə dövlət qayğısının artırılması, dilin tətbiq sferasının şaxələnməsi məqsədi daşıyır. Ulu öndərin verdiyi fərmana əsasən, Azərbaycan Respublikası Prezidentinin yanında Dövlət Dil Komissiyası yaradılması, "Azərbaycan Respublikasında dövlət dili haqqında" qanun layihəsinin hazırlanması həyata keçirildi. Heydər Əliyevin bu fərmanınına əsasən, elmi və bədii əsərlərin, eləcə də lüğət və dərsliklərin latın qrafikalı əlifba ilə yenidən çap olunması, yerli icra hakimiyyəti orqanlarında kargüzarlıq işlərinin də latın qrafikalı əlifba ilə aparılması, bir sözlə, hər bir sahədə latın qrafikalı Azərbaycan əlifbasının tətbiqi işinin gücləndirilməsi ön plana keçir. Bu fərman 2001-ci il 18 iyun tarixindən qüvvəyə minir.

Ulu öndərin Azərbaycan Respublikası Dövlət Dil Komissiyasının tərkibinin təsdiq edilməsi haqqında fərmanı (2001, 04 iyul), Azərbaycan Əlifbası və Azərbaycan Dili Gününün təsis edilməsi haqqında fərmanı (2001,09 avqust), Azərbaycan Respublikasında Dövlət Dili haqqında 3 fəsildən ibarət olan fərmanı (2002,30 sentyabr) dilimizin inkişafı üçün mühüm olan fərmanlar idi.

Heydər Əliyevin dilimizin yüksəlişi naminə gördüyü işlər, verdiyi fərmanlar dil tariximizdə əlamətdar hadisələr kimi qiymətləndirilməlidir. Qeyd etmək yerinə düşər ki, həqiqətən də, ulu öndərimizin dilimizin tətbiqi işinin təkmilləşdirilməsi ilə bağlı verdiyi fərman Azərbaycan dilinin tarixi əsaslarını özündə geniş və aydın əks etdirən rəsmi sənəddir. Ulu öndərimizin dilə olan bu qayğı, sevgi və diqqətinin mərkəzində onun natiqliyi, bu sahədə ustalığı, həm ümumtürk, həm də dünya natiqlik sənətində layiqli yer tutması birbaşa öz təsirini göstərir.

**Açar sözlər:** ümummilli lider, İlham Əliyev, Azərbaycan dili, fərman, nitq mədəniyyəti

**ABSTRACT**

Heydar Aliyev's decree on improving the use of the state language aims to increase state care for the application and development of the Azerbaijani language, to diversify the scope of application of the language. According to the decree of the national leader, the establishment of the State Language Commission under the President of the Republic of Azerbaijan, the draft law "On the state language in the Republic of Azerbaijan" was prepared. According to this decree of Heydar Aliyev, reprinting of scientific and artistic works, as well as dictionaries and

textbooks in the Latin alphabet, conducting clerical work in local executive authorities in the Latin alphabet, in short, strengthening the application of the Azerbaijani alphabet in all areas comes to the fore. This decree comes into force on June 18, 2001.

Decree of the National Leader on approval of the composition of the State Language Commission of the Republic of Azerbaijan (July 04, 2001), Decree on the establishment of the Day of the Azerbaijani Alphabet and the Azerbaijani Language (August 09, 2001), Decree on the State Language of the Republic of Azerbaijan consisting of 3 chapters (September 30, 2002) were important decrees for the development of our language.

The work done by Heydar Aliyev for the rise of our language, the decrees issued by him should be evaluated as significant events in the history of our language. It should be noted that the decree of our great leader on improving the use of our language is indeed an official document that reflects the historical foundations of the Azerbaijani language in a broad and clear way. In the center of this care, love and attention of our great leader, his eloquence, mastery in this field, his worthy place in both the all-Turkic and world oratory have a direct impact.

**Keywords:** national leader, Ilham Aliyev, Azerbaijan language, decree, speech culture

**РЕЗЮМЕ**

Указ Гейдара Алиева об улучшении применения государственного языка направлен на усиление заботы государства о применении и развитии азербайджанского языка, а также на ответвление сферы применения языка. Согласно указу великого лидера, при Президенте Азербайджанской Республики была создана комиссия по государственному языку, а также была осуществлена подготовка законопроекта «О государственном языке в Азербайджанской Республике».

Согласно этому указу Гейдара Алиева, на первый план вышло переиздание научных и художественных произведений, а также словарей и учебников на латинице, ведение делопроизводства в местных исполнительных органах на латинице, одним словом, усиление применения азербайджанского алфавита с латиницей во всех областях. Настоящий Указ вступает в силу с 18 июня 2001 года.

Указ великого лидера об утверждении состава Комиссии по государственному языку Азербайджанской Республики (4 июля 2001 года), указ об учреждении азербайджанского алфавита и Дня азербайджанского языка (9 августа 2001 года), указ о Государственном языке Азербайджанской Республики, состоящей из 3 глав (2002 г., 30 сентября), были важными постановлениями для развития нашего языка.

Проделанную Гейдаром Алиевым работу по развитию нашего языка и изданные им указы следует считать значительными событиями в истории нашего языка. Стоит отметить, что действительно указ нашего великого лидера об усовершенствовании применения нашего языка является официальным документом, широко и ясно отражающим исторические основы азербайджанского языка. Эта забота, любовь и внимание к языку нашего великого лидера напрямую влияют на его красноречие, его мастерство в этой области и его достойное место в ораторском искусстве как во всей Турции, так и в мире.

**Ключевые слова:** общенациональный лидер, Ильхам Алиев, азербайджанский язык, указ, культура речи

Dilimizin dövlət dili statusuna yüksəlməsi yolunda ulu öndərimizin apardığı mücadilə zamanlara söykənir.1969-2003-cü illəri Azərbaycan dilinin həm rəsmi sənədlərdə, həm də gündəlik həyatımızda ümumişlək dilə çevrilməsi, habelə beynəlxalq sferada özünəməxsus yer alması baxımından ən məhsuldar zaman kimi dəyərləndirə bilərik. Bu, məhz ulu öndərin sayəsində, uzaqgörən dil siyasəti nəticəsində öz həllini tapmışdır. Bu möhtəşəm iş 1970-ci il BDU-nun 50 illik yubileyində Heydər Əliyevin Azərbaycan dilində çıxışı ilə başlamışdır. Daha sonra Heydər Əliyevin dilimizə qayğısı özünü ali məktəblər üçün Azərbaycan dili dərsliklərinin nəşri, dilimizin tədrisinə ayrılan saatların artırılması kimi məsələlərlə davam etdirilmişdi.Xalqımızın ümummilli lideri Heydər Əliyev milli dilimizin inkişafında tarixə öz əbədi imzasını qoymuş dahi şəxsiyyətdir. Onun fəal və ardıcıl dil siyasəti ölkəmizdə milli azadlıq ruhunu yüksəltmiş və bu yolda xalqımızın əzmini artırmışdır. “Heydər Əliyevin natiqlik məharəti Azərbaycan xalqının milli sərvətidir; onun bu sahədəki istedadı hərtərəfli araşdırılmalı, öyrənilməli, Azərbaycan, ümumtürk və dünya natiqlik sənəti tarixində layiqli yer tutmalıdır” [Hacıyeva, İ.H., 2011,s100].

Məlumdur ki, nə ilk konstitusiyada, nə də 1937-ci ilin aprelində qəbul olunmuş konstitusiyada dövlət dili barəsində maddə olmayıb.1956-cı il konstitusiyasında isə “Azərbaycanın dövlət dili Azərbaycan dilidir” maddəsi yazılmışdı. **1978-ci il konstitusiyasında Azərbaycan dili dövlət dili kimi qəbul edilmişdir. Bu barədə** professor Buludxan Xəlilovun fikirləri də maraqlıdır. Azərbaycan tarixinin yaxın keçmişində Azərbaycan dili təqib və təzyiqlərə məruz qalmış, əslində nüfuzunu, rəsmi dövlət dili kimi statusunu itirmişdi. Azərbaycan dilinə qarşı qısqanc, qərəzli və ədalətsiz münasibət 1956-cı ildə Azərbaycan Konstitusiyasında “Azərbaycanın dövlət dili Azərbaycan dilidir” maddəsi olanda da davam etmişdir. O vaxtın özündə də iclasların, qəzetlərin, rəsmi dövlət adamlarının dili Azərbaycan dili olmayıb və kargüzarlıq işləri doğma ana dilimizdə aparılmayıbdır. **Azərbaycan dilinin inkişafı, dövlət dili kimi onun inkişafına qayğı ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır.** Ölkə rəhbərinin təşəbbüsü ilə 1995-ci il konstitusiyamızda dövlət dili haqqında maddənin öz əksini tapması dilimizin qanuni haqqını yenidən geri qaytardı. Məlum olduğu kimi, 1995-ci il noyabrın 12-də qəbul olunan Konstitusiyada (Maddə 2.) Azərbaycan dili Azərbaycan Respublikasının Dövlət dili kimi təsbit olundu. Prezidentin dil haqqında imzaladığı fərman və qanunlar dil siyasətinə, dil quruculuğunun gedişatına öz müsbət təsirini göstərdi.

“Heydər Əliyev Azərbaycan dilini məişət səviyyəsindən daha geniş arenaya çıxardı. Azərbaycanda və onun hüdudlarından kənarda rəsmi görüşlərdə, BMT, Avropa Şurası kimi mötəbər məclislərdə Azərbaycan dili onun nitqində öz əzəməti ilə seçilir” [ Hacıyeva, İ.H., 2011,s106].

Respublika prezidenti kimi Heydər Əliyev Azərbaycan dilinin tətbiqi və qorunması haqqında beş fərman vermişdir [Babayev, A.M., 2011, s.22].

Ulu öndər bir natiq kimi çox zəngin söz ehtiyatına malik idi. O, danışanda söz axtarmaq üçün fikirləşməzdi. Nitqində heç bir zaman təkrara yol verməzdi. Leksik və frazeoloji sinonimlər, antonimlər, nidalar, müraciətlər, ritorik sualları o qədər düzgün və yerində işlədirdi

ki, onun nitqini dinləmək insana xüsusi zövq verirdi. Ulu öndər öz doğma dilinə mükəmməl yiyələndiyi üçün nitqi səlis, aydın, anlaşıqlı idi. Hər bir azərbaycanlının öz ana dilini mükəmməl bilməsini dəfələrlə nitqində qeyd edirdi.

Heydər Əliyevin səs tembri, jestləri, mimikası nitqində o qədər yerində, məqamında işlənirdi ki, bu da dinləyicilərə xüsusi zövq verirdi. O, müəllimlə müəllim, həkimlə həkim, fəhlə ilə fəhlə kimi danışırdı. Nitqində xəlqilik həmişə qabarıq şəkildə özünü biruzə verirdi.

Ulu öndərin nitqinin girişini, sonluğunu həmişə fərqli, özünəməxsus tərzdə qururdu. Nitqindəki səmimiyyət, qətiyyət, nikbinlik, məntiqi ardıcıllıq və s. prinsipləri onu auditoriyaya daha da yaxınlaşdırırdı. Siyasi lider nitqi ilə hər bir şeyi izah etməyi bacarırdı. Daim nitqində fəlsəfi fikirlərə üstünlük verir, girişləri və sonluqları mükəmməl qururdu. Bütün bu xüsusiyyətlər onu həmişə yaddaqalan edirdi.

H.Əliyevin nitqində poetizm çox aydın şəkildə hiss olunurdu. O qeyd edirdi ki, mən ədəbiyyatı o qədər çox sevirəm ki, ədəbiyyatla, şeirlə, bizim mədəniyyətlə görüşmək mənim üçün həmişə çox xoşdur.

Diqqətimizi çəkən maraqlı bir əsər haqqında qısaca məlumat vermək yerinə düşər. Tibb elmləri üzrə fəlsəfə doktoru, dosent, ATU-nun Tədris-Terapevtik korpusunun Kardiologiya şöbəsinin müdiri Nağdəli Tapdıq oğlu Zamanov "Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti" adlı 2 cildlik kitab yazmışdır. Müəllif əsərdə H.Əliyev nitqindəki semantik (məna) yükünü müəyyənləşdirmiş, çox vacib və şərəfli, eyni zamanda ağır bir işi yerinə yetirmişdir. Əsəri çağdaş dilçilik elmimizin və türkologiyanın nüfuzlu söz sahibi N.Cəfərov yüksək qiymətləndirmişdir. Kitabın I fəsli ulu öndərin nitqindəki say, əvəzlik, fel və zərflərin işlənmə məqamlarının şərhinə həsr olunub.

Bildiyimiz kimi Heydər Əliyev milli ənənəyə bağlı, xalq həyatına dərindən bələd xəlqi bir rəhbər idi. Ona görə ə onun dilində xalq ifadələri, xalq deyimləri xüsusi incəliklə istifadə olunurdu. Məhz bu əsərdə müəllif 3-cü fəsli "Heydər Əliyevin nitqində frazeoloji birləşmələr" adlandırmış və təkcə bədən üzvləri ilə bağlı idiomatik ifadələrin izahına 10 səhifəyə qədər yer vermişdir. Fəslin sonunda isə qeyd etmişdir ki, Heydər Əliyevin nitqində frazeoloji birləşmələrin öyrənilməsi bu fəsillə məhdudlaşa bilməz. Hətta bütövlükdə Heydər Əliyevin nitqlərində işlədilmiş frazeoloji birləşmələrin lüğətini tərtib etmək lazımdır.

Kitabın təkrarlar, ritorik suallar, mürəkkəb cümlələr, neologizmlər, antroponomik sıralanmalar, müqayisələr adlı fəsilləri də eyni məhəbbət, eyni elmi nəzəri yanaşma ilə ərsəyə gəlib və onun hər şərtində, hər cümləsində xalqımızın böyük oğlu, dilimizin havadarı və dərin bilicisi H.Əliyevə sonsuz məhəbbət, ölçüyəgəlməz vurğunluq hissi duyulmaqdadır.

Dərin nəzəri və əməli dilçilik baxışlarına malik bir həkimin "Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti"adlı kitabları ərsəyə gətirməsi təkcə dilçilik elmimizdə deyil, ümumilikdə Azərbaycan ictimai-siyasi fikrində, Azərbaycan elmində böyük hadisədir. Ulu öndərin niti təkşə dilçilikdə deyil, hər bir sahədə diqqət çəkmiş, maraqlı müqayisələrə əsaslanaraq yüksək qiymətləndirilmişdir.

Heydər Əliyev sənət adamları, xüsusən də yazıçı və şairlərə xüsusi diqqət göstərirdi. Qeyd edirdi ki,**"mən fəxr edirəm ki, türk dillərinə mənsub olan Azərbaycan dili bu qədər zəngindir, bu qədər bədii ifadələrlə doludur və biz həyatın bütün sahələrinə aid olan fikirlərimizi öz ana dilimizdə ifadə edə bilirik. Burada mən Azərbaycan yazıçılarının, dilçilərinin, ədəbiyyatşünaslarının xidmətlərini xüsusi qeyd edirəm. Çünki hər bir respublikada proseslər cürbəcür gedibdir".** Prof.Həsən Mirzəyev, görkəmli şairimiz Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk, Məmməd Araz və bu kimi digər yazarlara qayğı göstərməsi, neçə-neçə ustad sənətkarlarımıza ən böyük mükafatları, fəxri adlarını təqdim etməsi onun Azərbaycan dilinə və ədəbiyyatına göstərdiyi böyük qayğının göstəricisidir. Prof.Həsən Mirzəyev ulu öndər haqqında belə fikir söyləyir: "H.Əliyev yalnız Azərbaycanın deyil, bütün dünyanın, planetin siyasətçisidir. Yaxşı olardı ki, onun üzündən, gözündən gələn günəş şüaları bütün planeti, dünyanı işıqlandırsın... H.Əliyev təkcə Azərbaycana deyil, bütün dünyaya işıq saçıb. Bütün dünya ondan faydalanıbdır" [Həsən Mirzəyev H.İ., 2006,səh.23].

Bu gün prezidentimiz İlham Əliyev də ulu öndərimizin dil siyasətini davam etdirir. Prezidentimizin göstərişi ilə latın qrafikasında kütləvi nəşrlərin meydana çıxması bunun parlaq nümunəsidir. İlham Əliyevin sərəncamına əsasən 150 cildlik "Dünya ədəbiyyatı kitabxanası", 100 cildlik "Dünya uşaq ədəbiyyatı kitabxanası", 100 cildlik "Azərbaycan ədəbiyyatı kitabxanası" adlı yeni nəşrlər, eləcə də müasir Azərbaycan dilinin hər bir şöbəsinə aid ayrıca nəşrlərin işıq üzü görməsi çox sevindirici haldır. Habelə "Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" 2018-ci il 17 iyul tarixli sərəncamı çox əlverişli və əhəmiyyətli işlər sırasındadır. Qeyd edək ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 26 noyabr tarixli qərarı ana dilinə dövlət qayğısının artırılması, dilçilik sahəsində tətbiqi araşdırmaların keyfiyyətinin yaxşılaşdırılması üçün əlverişli şərait yaratmışdır.

Azərbaycan dilinin hal-hazırda dünyanın bir çox universitetlərində tədris olunması da qürurverici hadisədir. ABŞ-ın altı (Şikaqo, Los-Ancelos, Vaşinqton, Nyu-York, San-Fransisko, Harvard) universitetinin proqramında Azərbaycan dili öyrənilməsi böyük bir uğurun göstəricisidir.

Onu da diqqətə çatdırmaq lazımdır ki, bu gün dilimizin inkişafında dilçilərin əməyi və səyi yüksək qiymətləndirilməlidir. Dünyada gedən qloballaşma prosesləri müstəvisində Azərbaycan dilinin nüfuzunu təmin etmək üçün dilimizin bütün incəliklərini öyrənmək, eləcə də öyrətmək, təbliğ və tədqiq etmək ilk növbədə biz dilçilərin üzərinə düşür. Bu, bizim hər birimizin ən ümdə vəzifəsidir.

2023-cü ilin may ayı, demək olar ki, bütünlükdə ulu öndərin həyat və fəaliyyəti ilə bağlı tədbirlərin təşkilinə həsr olunub. İstər respublikamız və onun bölgələrində, istərsə də digər ölkələrdə ulu öndərin anadan olmasının 100 illik yubileyi xüsusi təntənə ilə qeyd edilir. Biz çox şanslı xalqıq ki, Heydər Əliyev kimi bir fenomenin qurduğu ölkədə yaşayırıq və bizim İlham Əliyev kimi rəhbərimiz var.

**İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT:**

1. Babayev A.M. Azərbaycan dili və nitq mədəniyyəti Bakı, 2011, 620 səh.
2. Hacıyeva İ.H. Nitq mədəniyyəti ( Dərs vəsaiti), Bakı, 2011, 245 səh.
3. Mirzəyev H.İ. Deputatlıq fəaliyyəti, Bakı, 2006,566 səh.

# HEYDƏR ƏLİYEVİN TÜRKİYƏYƏ SƏFƏRLƏRİNİN "AZƏRBAYCAN" QƏZETİNDƏ İŞIQLANDIRILMASI (1993-1995-ci illər)

## Coverage of Heydar Alıyev's vısıt to turkey ın "Azerbaıjan" newspaper (1993-1995)

**Nuranə HƏSƏNOVA**

**Bakı Dövlət Universiteti, doktorant**

Quliyeva.nurane@gmail.com

https://orcid.org/0000-0001-5394-1064

**XÜLASƏ**

Sovet əsarətindən xilas olan Azərbaycan 1991-ci ilin oktyabrında müstəqilliyini elan etməsinə baxmayaraq respublika ərazisində hökm sürən müharibə şəraiti, yarıtmaz idarəçilik sosial-iqtisadi böhranın artmasına səbəb oldu. Belə bir zamanda xalqın təkidi ilə dahi şəxsiyyət, uzaqgörən siyasi xadim Heydər Əliyevin hakimiyyətə qayıdışı müstəqil Azərbaycanın həyatında yeni mərhələnin başlanğıcını qoydu. Ulu öndər Heydər Əliyevin respublikamızın dünya ölkələri arasında nüfuzunun artması üçün həyata keçirdiyi tədbirlər, uğurlu daxili, eləcə də xarici siyasət onun Azərbaycanın müstəqilliyini qorumaq naminə atdığı addımlardan xəbər verirdi. Dahi lider uzaqgörən siyasəti ilə ölkədə sabitliyin bərqərar olmasına böyük töhfə verib. Ümummilli lider Heydər Əliyev dünya dövlətləri ilə iqtisadi əlaqələri inkişaf etdirərək xarici siyasət nəticəsində həmin ölkələrdə, beynəlxalq arenada Azərbaycanın müstəqilliyini tanıtmaq, Qarabağ problemini, Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinin diqqətində saxlamağa çalışırdı. Bu baxımdan Azərbaycanın müstəqilliyini ilk tanıyan, Dağlıq Qarabağ probleminin həlli istiqamətində öz səylərini əsirgəməyən qardaş Türkiyə ilə Azərbaycan arasında olan əməkdaşlıq, dostluq və mənəvi bağlılığın, eləcə də hərtərəfli əlaqələrin inkişafı və Türkiyənin Azərbaycana mənəvi dəstəyi daim vacib məqamlar sırasında olub.

Məqalədə Heydər Əliyevin hakimiyyətə qayıtdıqdan sonrakı iki il ərzində (1993-1995-ci illər) qardaş ölkə ilə əlaqələrin möhkəmlənməsi və inkişafı naminə Türkiyəyə etdiyi səfərlər, eləcə də Türkiyə Respublikası rəsmilərinin Azərbaycana etdikləri səfərlərin bütün sahələrdə - iqtisadi, mədəni, ticarət, hərbi və digər sahələrdə inkişaf və tərəqqi yolundakı mahiyyətinə mətbuat nümunələri əsasında nəzər salınır və təhlil edilir. Həmçinin, Türkiyənin Azərbaycana daimi dəstəyi, dərinləşən hərtərəfli əlaqələrin mətbuatda işıqlandırılması məsələləri gözdən keçirilir.

**Açar sözlər:** Heydər Əliyev, Türkiyə, mətbuat, dostluq əlaqələri, rəsmi səfərlər

**ABSTRACT**

Despite the fact that Azerbaijan declared its independence in October 1991, having freed itself from Soviet slavery, the military situation that prevailed on the territory of the republic led to an increase in the socio-economic crisis. Such a time, at the insistence of people, the return to power a genius personality, farsighted politician Heydar Aliyev marked the beginning of a new stage in the life of independent Azerbaijan. The measures taken by the great leader Heydar Aliyev to increase the prestige of our republic among the countries world testify to the successful domestic and foreign policy pursued by him to protect the independence of

Azerbaijan. The genius leader, with his farsighted policy, made a great contribution to establishing stability in the country. National leader Heydar Aliyev sought to promote the independence of Azerbaijan in the international arena as a result of foreign policy, developing economic relations with the countries of the world, and keep the Karabakh problem and the truth of Azerbaijan in the spotlight of the world community. From this point the development of cooperation, friendship and spiritual affection, as well as comprehensive relations and moral support by Turkey of Azerbaijan, between fraternal Turkey and Azerbaijan, which was the first to recognize the independence of Azerbaijan and spared no efforts to solve the Nagorno-Karabakh problem, has always been among the most important points.

The article deals with the visits of Heydar Aliyev to Turkey within two years after his return to power (1993-1995) in order to strengthen and develop relations with the fraternal country, the visits of officials of the Republic of Turkey to Azerbaijan in all directions - economic, cultural, trade , military and other directions of development and its essence on the path of progress are considered and analyzed on the basis of press samples. The issues of Turkey's constant support of Azerbaijan, press coverage of the deepening of comprehensive relations are also being considered.

**Keywords:** Heydar Aliyev, Turkey, press, friendly relations, official visits

## GİRİŞ

XX əsrin 80-ci illərinin sonu Şuşa yaxınlığındakı Topxana meşəsinin qırılmasına etiraz edən xalq münaqişənin daha dərin qatlarına enərək imperiya siyasətinə boyun əyməkdən, 70 illik əsarətdən qurtulmaq, xalqın yaddaşını silib, onun milli mənliyini məhv edən, tarixini unutduranlarla savaşmaq üçün meydanlara toplaşdı. 1988-ci il 17 noyabr hadisələri milli-azadlıq hərəkatının alovlanması Azərbaycan xalqının birləşməsi uğrunda mübarizənin ilk qığılcımlarına çevrildi. Professor Cahangir Məmmədlinin dediyi kimi "Dağlıq Qarabağ hadisələrinin başlanması, xalqın "Azadlıq" meydanına toplanması cəmiyyətdə gedən prosesləri daha da sürətləndirdi". (5)

Həmin dövrdə Sovet imperiyasının ictimai-siyasi, iqtisadi və mədəni həyatında yaşanan böhran, "yenidənqurma" və "aşkarlıq" adı altında görülən saxta addımlar müstəqilliyə aparan yolda xalqın kökə qayıtmaq meyllərini daha da alovlandırdı. Milli azadlıq hərəkatının, istiqlal mübarizəmizin əsas mərhələsi hesab olunan, torpaqlarımızın müdafiəsini və ərazi bütövlüyümüzü qorumaq üçün təşkil edilən Meydan hərəkatının ən yüksək zirvəsi 17 noyabr - 5 dekabr günlərində baş verdi. Xalq müstəqillik uğrunda mübarizə yolunda çox canlar qurban verdi və nəhayət 1991-ci ildə öz müstəqilliyini yenidən bərpa etdi.

### 1.Heydər Əliyev və onun xarici siyasəti

Hakimiyyətdə olan siyasi qrupların səriştəsizliyi, milli birliyə töətdikləri maneələr, daxili ziddiyyətlər, ölkədə hökm sürən müharibə şəraiti yenicə istiqlaliyyətinə qovuşan dövlətimizin təməlinin zəifləməsinə səbəb olur, müstəqilliyimizin yenidən itirilməsi təhlükəsi ilə üz-üzə qalırdı. Belə bir zamanda Azərbaycan dövlətçiliyini, qan bahasına əldə olunmuş müstəqilliyi qorumaq, möhkəmləndirmək, bütün xalqı vahid cəbhədə birləşdirmək, ölkə ərazisində hökm sürən qeyri-sabitliyi aradan qaldırmaq naminə xalq yenidən öz xilaskarına üz tutdu. İkinci dəfə xalqın təkidli tələbi ilə hakimiyyətə gələn dahi lider Heydər Əliyev mənsub olduğu siyasi

partiyalardan asılı olmayaraq Azərbaycanın bütövlüyünü, milli varlığını qorumaq naminə bütün xalqı ətrafında sıx birləşdirdi. Qeyd edək ki, hələ 1969-cu ildə birinci dəfə hakimiyyətə gəldiyi zaman Azərbaycanı bütün sahələrdə tənəzzüldən xilas edən ulu öndər hakimiyyətinin ikinci dövründə də Vətənin inkişafı, müstəqil Azərbaycanın gələcəyi üçün çalışıb, dahiyanə uzaqgörənliklə ölkənin hərtərəfli inkişafını təmin edib. Ulu öndər hakimiyyətə gəldikdən sonra respublikamızın həyatında ən çətin və mürəkkəb məsələ hesab olunan Ermənistan-Azərbaycan müharibəsində danışıqlar nəticəsində razılıq əldə edildi və atəşin dayandırılmasına nail oldu. Ümummilli lider çıxışlarının birində qeyd etdiyi kimi "Azərbaycanın mövqelərini möhkəmləndirmək, ölkəmizi müharibədən çıxartmaq üçün xalqımızı bu müharibə bəlasından xilas etmək üçün daim fəaliyyət göstərib".(4, s.216)

Dahi liderin uzaqgörən siyasəti nəticəsində Azərbaycan ərazisində tez zamanda stabillik əldə olundu, müstəqilliyimiz daha möhkəmləndi, eləcə də dünya ölkələri ilə qarşılıqlı uğurlu, müvəffəqiyyətli, faydalı iqtisadi əlaqələr quruldu. Azərbaycana öz varlığı ilə bağlı olan, mənəvi bağlarla daim dostluğunu, qardaşlığını hiss etdirən Türkiyə Respublikası bu ölkələr arasında ən seçiləni hesab edilir. Bu birlik iqtisadi layihələrlə məhdudlaşmamış, bütün istiqamətlərdə inteqrasiya etmişdi. Məlum olduğu kimi Sovet hakimiyyəti dövründə Azərbaycan-Türkiyə münasibətlərinin, dostluq əlaqələrinin olduğu inkar edilirdi. Azərbaycan Sovet dövründən xilas olub istiqlaliyyətini əldə etdikdən sonra müstəqilliyimizi ilk dəfə tanıyan Türkiyə Respublikası oldu. Bununla yanaşı Qarabağ probleminin həllində dəstəyini əsirgəməyən qardaş ölkə Ermənistanı işğalçı dövlət kimi tanıyaraq sərhədlərini həmin dövlət üçün bağladı. Ulu öndər 1994-cü ildə Türkiyəyə rəsmi səfəri zamanı "Türkiyə Azərbaycan üçün ən yaxın, qardaş və dost ölkədir. Xalqımız arasında böyük tarixə malik dostluq, qardaşlıq əlaqələri var", - deyə jurnalistlərə müsahibəsi zamanı qətiyyətlə cavab vermişdir (4, s.108). Siyasi xadim Heydər Əliyev Azərbaycanın müstəqillik əldə etdikdən sonrakı dönəmində bu əlaqələrin daha da möhkəmləndiyini qeyd edərək gələcəkdə bu birliyin genişlənməsi və inkişafının hər iki ölkəyə səmərə verəcəyini bildirib. Dahi öndər Ermənistanın Azərbaycana təcavüzü məsələsini sülh yolu ilə həll etmək üçün ölkəmizin ərazi bütövlüyünün qorunması, sərhədlərimizin toxunulmazlığı, qaçqın və köçkünlərimizin işğal olunmuş torpaqlarımıza geri dönmələri tələbi ilə şərtlərini bəyan etmişdi. Heydər Əliyevin Türkiyəyə səfərləri eləcə də, Türkiyə rəsmilərinin Azərbaycana səfərləri zamanı ölkəmiz üçün ən çətin problem olan Ermənistan-Azərbaycan münaqişəsinin və bu məsələnin həlli yolları müzakirə edilib və onun həllində beynəlxalq təşkilatlarla yanaşı Türkiyə kimi böyük ölkənin imkanlarından yararlanmağın vacibliyini xatırlanıb. Uzaqgörən siyasi xadim yaxın qonşumuz Türkiyənin bu problemin həllinə biganə qalmayacağına, "beynəlxalq təşkilatlarda ədalətli həllinə Türkiyənin sözü, mövqeyinin kömək olacağına" əmin idi (4, s.146).

**2.Türkiyəyə səfərlərin mətbuatda işıqlandırılması**

Ölkə qəzetləri içərisində müstəqil dövlətçilik ideyalarını daha çox təbliğ edən, Azərbaycan Xalq Cümhuriyyəti dövründən yeni dönəmə işıq salan, XX əsrin son on illiyində dövlətimiz istiqlaliyyətinə qovuşduğu, müstəqilliyi əldə etdiyi kimi ikinci dəfə fəaliyyətini bərpa edən "Azərbaycan" qəzetinin siyasi prosesləri, Azərbaycan həqiqətlərini dünyaya yaymaqda rolu danılmazdır. Azərbaycan" qəzeti öz fəaliyyəti dövründə milli dəyərlərimizin qorunmasında, ölkəmizin dünya dövlətləri arasında tanınmasında, o cümlədən təbliğində, baş verən proseslərin doğru mövqedən oxuculara çatdırılmasında əvəzsiz xidmətləri ilə fərqlənib. Təsadüfi deyil ki, "Azərbaycan" qəzeti ümumilli lider Heydər Əliyevin Türkiyəyə səfərlərini,

eləcə də Azərbaycan ilə qardaş ölkə arasındakı dostluq əlaqələrinin tarixi köklərə bağlılığını, inkişafda olan siyasi, iqtisadi, hərbi, təhsil və digər sahələrdə ikitərəfli münasibətlərin işıqlandırılması vəzifəsini layiqincə yerinə yetirib. Bu baxımdan qəzetin 1994-cü il 29 iyun buraxılışında "Qaçqınlar doğma ocaqlarına qayıtmalıdırlar. Türkiyə Heydər Əliyevi Ermənistan – Azərbaycan münaqişəsinin tənzimləməsində dəstəklədi" sərlövhəli yazısı diqqəti cəlb edir (1, s.2). Yazı ulu öndərin iyunun 9-10-da Türkiyəyə səfəri çərçivəsində hər iki dövlət başçılarının jurnalistlərin suallarına verdikləri cavablar əsasında qələmə alınıb. "Ermənistanın təcavüzü davam edir, bu ölkənin rəhbərliyi münaqişənin nizama salınması istiqamətində beynəlxalq təşkilatların göstərdiyi səylərə etinasız yanaşır", - deyə bildirən ümumilli lider şübhəsiz bu problemin həllində Türkiyənin köməyinə inanırdı (1, s.2). Eləcə də Türkiyə prezidenti Süleyman Dəmirəl jurnalistlər qarşısında çıxışında Ermənistanın Azərbaycan ərazisinin 20 faizinin işğal etməsini, bir milyondan çox əhalinin qaçqın düşməsini pisləyirək "Ermənistanın Azərbaycana qarşı təcavüzü olmasa idi, Zaqafqaziyada dostluq hökm sürərdi" fikrini ifadə etmişdi (1, s.2). Görüş çərçivəsində uzaqgörən siyasi xadim Heydər Əliyev Azərbaycan Türkiyə əlaqələrinin böyük əhəmiyyətə malik olmasından, münasibətlərin yeni müstəvidə inkişafından, bütün bu görüşlərin beynəlxalq aləmdə ölkəmizin mövqeyinin möhkəmlənməsi üçün faydalarından bəhs edib.

Ulu öndərin Türkiyəyə səfərləri ilə yanaşı Türkiyə rəsmiləri də Azərbaycana səfər etmiş və bu görüşlər də mətbuat vasitəsilə ilə xalqa çatdırılmışdır. 1994-cü ilin sentyabrında Türkiyənin Xarici işlər naziri Mümtaz Sosyal Azərbaycana işgüzar səfəri çərçivəsində keçirdiyi görüşlərin yekunlarına həsr olunmuş mətbuat konfransında jurnalistlərin suallarını cavablandırmışdı. "İstiqlalı möhkəmləndirmək və torpaqları azad etmək uğrunda mübarizədə Azərbaycana kömək göstərmək Türkiyənin dəyərli vəzifəsidir", - deyə qeyd edən Türkiyə Respublikasının xarici işlər naziri Mümtaz Soysal Türkiyə və Azərbaycan arasındakı dərin qardaşlıq və dostluq əlaqələrinin olduğunu bildirmişdi (2, s.1). Məhz həmin mətbaut konfransında ümummilli lider Heydər Əliyev iki ölkə arasındakı münasibətlərin möhkəmlənməsinə həsr olunmuş görüşlərin uğurla davam etdiyini söyləmiş, xalqımızın qardaş Türkiyənin köməyini yüksək qiymətləndirdiyini ifadə etmişdir.

Qeyd etdiyimiz illər ərzində qəzetin səhifələrində Türk dünyasının ən böyük şairi Məhəmməd Füzulinin Türkiyədə keçirilən yubiley tədbirinində iştirak etmək üçün Heydər Əliyevin 1994-cü ilin noyabr ayında qardaş ölkəyə səfərdə olması barədə geniş reportajlar dərc edilib. Heydər Əliyevin Türkiyədə keçirilən türkdilli dövlətlərin İstanbul şəhərində keçirilən ikinci Zirvə toplantısının açılışında, Ankarada keçirilən mətbuat konfransındakı çıxışları Azərbaycan qəzetinin səhifələrində işıqlandırılaraq bu görüşlərin əhəmiyyəti, siyasi, iqtisadi sahələrdə faydaları, Türkiyə dövlətinin hər zaman Azərbaycanın mövqeyini müdafiə etməsi dünya dövlətlərinə çatdırılıb.

**Nəticə**

"Azərbaycan" qəzetinin 1994-cü il 219-cu nömrəsində dərc edilən Süleyman Dəmirəlin "Azərbaycan xoşbəxtdirsə, Türkiyə də xoşbəxtdir" (3, s.2) ifadəsi bu gün Türkiyə Respublikasının prezidenti Rəcəb Tayyib Ərdoğanın "Azərbaycan yalnız deyil, Türkiyə Azərbaycanın yanındadır" kimi öz fikrini izhar etməsi iki dövlət arasındakı birliyin bariz nümunəsidir. Eləcə də dahi lider Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamı keçmişdən bu günə körpü salıb, Azərbaycan - Türkiyə əlaqələrinin yeni müstəvidə inkişafı üçün zəmin rolunu oynayıb. Hazırda uzaqgörən siyasi xadim Heydər Əliyevin siyasi kursunun davamçısı

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə ilə münasibətləri daha da dərinləşdirib. İkinci Qarabağ müharibəsində Türkiyənin qəti mövqeyi, Azərbaycanın yanında olması Azərbaycan-Türkiyə strateji müttəfiqliyinin sübutuna çevrildi. İlham Əliyevin dediyi kimi "Azərbaycan Türkiyə qardaşlığı və dostluğu bütün dünya üçün bir nümunə" oldu (6).

**Ədəbiyyat siyahısı:**


1. "Azərbaycan" qəzeti 29 iyun 1994-cü il, N 124
2. "Azərbaycan" qəzeti 13 sentyabr 1994-cü il, N 178
3. "Azərbaycan" qəzeti 10 noyabr, 1994-cü il, N 219
4. Heydər Əliyev və mətbuat I cild (dörd clddə) - Bakı, 2003
5. Məmmədli Cahangir, Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi – Bakı, 2013
6. https://aztv.az/index.php/az/news/9009/prezident-ilham-eliyev-azerbaycan-turkiye-qardasligi-ve-dostlugu-butun-dunya-ucun-bir-numunedir


# AZƏRBAYCANDAKI ETNOLİNQVİSTİK PROSESLƏRDƏ HEYDƏR ƏLİYEVİN ROLU

## In ethnolinguistic processes in Azerbaijan The role of Heydar Aliyev


**Dr. Əlvan CƏFƏROV**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
elvancafarov78@mail.ru


**ÖZET**


Respublikamızdakı etnolinqvistik prosəslərin inkişafını müəyyənləşdirən əsas amillərdən biri ilk olaraq ölkənin Rusiya İmperiyası tərəfindən işğalını göstərmək olar. Bolşevizmin işğalçılıq siyasətinin ideoloji əsasını ruslaşdırma istiqaməti təşkil edirdi. Rusiya imperiyasının dövlət orqanları sərt dövlət dili siyasətini həyata keçirirdilər. Bu siyasətin ən əsas istiqamətləri bir tərəfdən rus dilinin dövlət dili kimi zorla rus olmayan xalqlara qəbul etdirilməsi, digər tərəfdən da bu xalqların öz ana dillərinin inkişafında qarşılaşacaqları müxtəlif süni əngəllərin yaradılmasından ibarət idi. Xristian dövlətləri olan Gürcüstan və Ermənistanla müqayisədə ruslaşdırma Azərbaycanda, ümumiyyətlə Sovetlər birliyinin tərkibinə olan digər türkdilli xalqlar arasında çox kobud və amansızlıqla həyata keçirilirdi. Yəni, rusların gürcülər və ermənilərə nisbətən bütün türkdilli xalqlara münasibəti daha kəskin və qəddar idi. Sonralar da Sovet Rusiyasının bütün səylərinə baxmayaraq, Azərbaycan dilinin əsas inkişafının qarşısı alına bilmir. 1978-ci ilin 21 aprelində Azərbaycan SSR-də Ali sovetin IX çağırışında Azərbaycanın əsas qanun layihəsində Azərbaycan dili də mərhum prezidentimiz Heydər Əliyevin qəti iradəsi nəticəsində qanuna salınır və Azərbaycan dili dövlət dili elan edilir. Dilimizə hər zaman xüsusi qayğıkeşliklə yanaşan, dilimizin ustad bilicisi Ümummilli Liderimiz Heydər Əliyev dövlət dilinin yeni inkişaf dönəmində yaranmış vəziyyəti nəzərə alaraq bununla bağlı bir neçə əmr və fərmanlar da imzalayır. Mərhum prezident, Ümummilli Lider Heydər Əliyev qeyd edirdi ki, "*Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə*

*malikdir. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm*". Bütün bu fikirlərin, Heydər Əliyevin bütün siyasətinin, o cümlədən də dil siyasətinin davamçısı, ana dilimizə qayğının bariz nümunəsi olan İlham Əliyev cənabları da dil siyasətini yüksək səviyyədə həyata keçirməkdədir.

**Açar sözlər:** Heydər Əliyev, etnolinqvistik proseslər, dil siyasəti.

**ABSTRACT**

One of the main factors determining the development of ethnolinguistic processes in our republic is the occupation of the country by the Russian Empire. Russification was the ideological basis of Bolshevism's occupation policy. The state authorities of the Russian Empire implemented a strict state language policy. The main directions of this policy were, on the one hand, the forced acceptance of the Russian language as the state language by non-Russian peoples, and on the other hand, the creation of various artificial obstacles that these peoples would face in the development of their mother tongue. Compared to Georgia and Armenia, which are Christian states, Russification was carried out very rudely and mercilessly in Azerbaijan, and in general among other Turkic-speaking peoples of the Soviet Union. That is, the attitude of the Russians to all Turkic-speaking peoples was sharper and crueler than to the Georgians and Armenians. Later, despite all the efforts of Soviet Russia, the main development of the Azerbaijani language could not be prevented. On April 21, 1978, at the 9th convocation of the Supreme Soviet of the Azerbaijan SSR, the Azerbaijani language was included in the draft law of Azerbaijan as a result of the firm will of our late president Heydar Aliyev, and the Azerbaijani language was declared the state language. Our national leader Heydar Aliyev, who always treats our language with special care and is a master connoisseur of our language, signs several orders and decrees in this regard, taking into account the situation that has arisen in the new development period of the state language. The late President, National Leader Heydar Aliyev noted that "Our language is very rich and harmonious, it has deep historical roots. Personally, I love my mother tongue very much and I am proud to speak it." Mr. Ilham Aliyev, who is a follower of all these ideas, all policies of Heydar Aliyev, including the language policy, and a clear example of care for our mother tongue, is implementing the language policy at a high level.

**Keywords:** Haydar Aliyev, ethnolinguistic processes, language policy.

Respublikamızdakı etnolinqvistik prosəslərin inkişafını müəyyənləşdirən əsas amillərdən biri ilk olaraq ölkənin Rusiya İmperiyası tərəfindən işğalını göstərmək olar. Bolşevizmin işğalçılıq siyasətinin ideoloji əsasını ruslaşdırma istiqaməti təşkil edirdi. Rusiya imperiyasının dövlət orqanları sərt dövlət dili siyasətini həyata keçirirdilər. Bu siyasətin ən əsas istiqamətləri bir tərəfdən rus dilinin dövlət dili kimi zorla rus olmayan xalqlara qəbul etdirilməsi, digər tərəfdən da bu xalqların öz ana dillərinin inkişafında qarşılaşacaqları müxtəlif süni əngəllərin yaradılmasından ibarət idi. Xristian dövlətləri olan Gürcüstan və Ermənistanla müqayisədə ruslaşdırma Azərbaycanda, ümumiyyətlə Sovetlər birliyinin tərkibinə olan digər türkdilli xalqlar arasında çox kobud və amansızlıqla həyata keçirilirdi. Yəni, rusların gürcülər və ermənilərə nisbətən bütün türkdilli xalqlara münasibəti daha kəskin və qəddar idi. Sonralar da Sovet Rusiyasının bütün səylərinə baxmayaraq, Azərbaycan dilinin əsas inkişafının qarşısı alına bilmir. 1978-ci ilin 21 aprelində Azərbaycan SSR-də Ali sovetin IX çağırışında

Azərbaycanın əsas qanun layihəsində Azərbaycan dili də mərhum prezidentimiz Heydər Əliyevin qəti iradəsi nəticəsində qanuna salınır və Azərbaycan dili dövlət dili elan edilir.

Bu konstitusiya layihəsində Türkdilli xalqlara və türk soyuna mənsub olan Azərbaycan dilinə dövlət dili statusunun verilməsi Ümummilli liderimiz Heydər Əliyevin öz xalqı qarşısındakı tarixi xidmətlərinin davamı olmuşdur. Bununla da böyük Türk oğlu Türkün türkçülüyümüzü qürurla, vüqarla davam etdirməsinə və gələcəkdə yaranacaq müstəqil dövlətimizin milli atributlarından birinin məharətlə qorunub saxlanmasına səbəb olmuşdur.

Sovetlər İttifaqı dağıldıqdan sonra Azərbaycanda müstəqilliyin qorunub saxlanılması və möhkəmləndirilməsi ilə bərabər dil siyasətindəki əsas vəzifə də SSRİ-dən qalan dil problemlərinin qısa müddətdə aradan qaldırılması olur. 1992-ci ilin dekabr ayında AXC-Müsavat hökuməti "Dövlət dili haqqında" Qanunu "müzakirə" edərək səhvən Azərbaycan dövlət dilinin "Türk dili" olması barədə qərar qəbul edir. Sürətli şəkildə bütün ana dili dərs kitablarının adını "Türk dili" adlandıraraq çap etməyə başlayırlar. Lakin, Ümummilli liderimiz Heydər Əliyev hakimiyyətə gəldikdən sonra onun sədrliyi ilə 1995-ci ildə 33 nəfərdən ibarət komissiya yaradılır və komissiya Azərbaycan Respublikasının Əsas Qanununu hazırlayarkən Qanuna Azərbaycan dilinin dövlət dili olması ilə bağlı 21-ci maddəni də daxil edir. Bu barədə Mərhum Prezidentimiz Heydər Əliyev 31 oktyabr 1995-ci ildə Azərbaycan Respublikasının Əsas Qanunu haqqında yaradılan Komissiyasının iclasında söyləyir: "*...Bu maddə Moskvada çox böyük etiraza səbəb oldu. Belə izah edirdilər ki, başqa respublikalarda bu yoxdur, buna ehtiyac yoxdur... Ancaq o vaxt mən Sovetlər İttifaqının rəhbərliyi ilə, Kommunist Partiyasının rəhbərliyi ilə çox gərgin danışıqlar apardım. Sübut etməyə çalışdım ki, biz dövlət dilinin Azərbaycan dili olduğunu da öz Konstitusiyamıza yazmalıyıq və yazacağıq*" (1.).

Bu Qanun layihəsi 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul olunur və 27 noyabr 1995-ci il tarixində qüvvəyə minir. Bununla da, dünyada artıq geniş şəkildə tanınmağa başlayan "Azərbaycan dili" anlayışı öz qanuni hüquqlarını bərpa edə bilir.

Dilimizə hər zaman xüsusi qayğıkeşliklə yanaşan, dilimizin ustad bilicisi Ümummilli Liderimiz Heydər Əliyev dövlət dilinin yeni inkişaf dönəmində yaranmış vəziyyəti nəzərə alaraq bununla bağlı bir neçə əmr və fərmanlar da imzalayır. Mərhum prezident, Ümummilli Lider Heydər Əliyev qeyd edirdi ki, "*Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm*" (2, s.7) Bütün bu fikirlərin, Heydər Əliyevin bütün siyasətinin, o cümlədən də dil siyasətinin davamçısı, ana dilimizə qayğının bariz nümunəsi olan İlham Əliyev cənabları da dil siyasətini yüksək səviyyədə həyata keçirməkdədir.

"Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm...". Bu müdrik sözlər Azərbaycan xalqının Ümummilli lideri, dahi rəhbərimiz Heydər Əliyevə məxsusdur. Bütün həyatını doğma xalqının, Vətəninin inkişafına, intibahına həsr edən, bu yolda misilsiz tarixi uğurlar qazanan Heydər Əliyev Azərbaycan dilinə həmişə layiqincə diqqət yetirib, tükənməz məhəbbət və uzaqgörənliyi ilə xüsusi qayğı göstərib. Hələ sovet dövründə, imperiya qadağalarına baxmayaraq, dilimizin dövlət dili statusu alması, Azərbaycan dilçi alimlərinin yüksək dövlət mükafatlarına layiq görülərək daha böyük tədqiqat işlərinə ruhlandırılması, nəticədə Azərbaycan dilçiliyinin sürətli inkişafı, eləcə də dahiyanə nitq mədəniyyəti ilə hamıya nümunə göstərməsi Heydər Əliyevin şərəfli xidməti idi. Azərbaycan dilinə o tarixi xidmət bu gün,

müstəqillik dövründə daha böyük miqyasda davam etdirilir. "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 18 iyun 2001-ci il tarixli Fərmanı, dahi şairimiz Məhəmməd Füzulinin 500, Azərbaycan varlığının ensiklopediyası sayılan "Dədə Qorqud" eposunun 1300 illiyinin dünya miqyasında təntənə ilə qeyd edilməsi, respublikamızda Azərbaycan dili haqqında qanunun ciddi elmi-praktik müzakirələri bunu bir daha təsdiq etdi. Ulu öndər Heydər Əliyevin doğma Azərbaycan dili uğrunda on illər boyu necə şərəflə, cəsarətlə, elmi-nəzəri əsaslara söykənən prinsipiallıqla mübarizə aparması, obyektiv, real nəticələrə nail olması dünyada yaşayan bütün azərbaycanlılara, 50 milyonluq Azərbaycan xalqına ən gözəl nümunədir. Onun dil siyasətinin uğurları bütün incə, "görünməz" məqamları ilə öyrənilməli, ciddi elmi-analitik təhlil, tədqiq yolu ilə xalqımıza, xüsusilə gənc nəslə çatdırılmalıdır. Ulu öndər Heydər Əliyevin bitkin elmi-nəzəri əsaslara, praktik tətbiqə əsaslanan Azərbaycan dili siyasəti böyük uğurlar qazanıb desək, yanılmarıq. Vaxtı ilə öz doğma dilində danışa bilməyən, yaxud danışmaq istəməyən bir sıra yüksəkvəzifəli dövlət məmurları Heydər Əliyevin ciddi tələbkarlığı nəticəsində indi Azərbaycan dilində sərbəst danışırlar; ümumiyyətlə, dövlət dilimizə kompaniyaçılıqdan uzaq olan daimi diqqət və qayğı cəmiyyətimizin milli dil mühitinin - dövlət dili mühitinin əsaslı şəkildə genişlənməsinə, əsl ümumdövlət xarakteri almasına gətirib çıxarmışdır. Bu həm də Heydər Əliyevin dil siyasətini həyata keçirən Yeni Azərbaycan Partiyasının uğurudur. "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 18 iyun 2001-ci il tarixli Fərmanını Heydər Əliyevin uğurlu dil siyasətinin fundamental yekun sənədi adlandırmaq olar. Dilimizin ən qədim tarixinə obyektiv elmi-tarixi qiymət verən, Azərbaycan dilinin türk köklü müstəqil dil olmasını bir daha təsdiqləyən, onun əsas təkamül mərhələlərini, inkişaf yollarını dahiyanə bir müdrikliklə, elmi-nəzəri əsaslarla izləyərək son söz deyən, rəsmi dövlət münasibəti bildirən bu fundamental tarixi sənəd Ulu öndər Heydər Əliyevin dil siyasətinin uğurlar miqyasını daha da genişləndirdi. Müstəqilliyini təzəcə qazanmış Azərbaycan 1992-ci ildə faciəli günlər yaşayır, sosial-siyasi burulğanlar, dərəbəylik və anarxiya məngənəsində sıxılırdı. Cəmiyyətin həqiqi milli liderə, əsl rəhbərə, müdrik yolgöstərənə ehtiyacı vardı. Azərbaycanın 91 nəfər görkəmli ziyalısı, alimi, sənətkarı bir araya gələrək dünya miqyaslı liderə - xalqın yeganə ümidi, pənahı, xilaskarı Heydər Əliyevə üz tutdu. Bu təkcə 91 nəfər ziyalının yox, əslində, bütün xalqın dar ayaqda ümidi, tələbi, xahişi, təkidli çağırışı idi. Heydər Əliyev xalqın səsinə səs verdi, Azərbaycanın xilası, dirçəlişi, böyük intibahı, əbədi azadlığı naminə zamanın sözünü dedi, Yeni Azərbaycan Partiyasını yaratdı. Qısa bir tarixi dövrdə çox böyük uğurlar, ümumxalq, ümumdövlət miqyaslı qələbələr qazanan bu partiya zəmanəmizin Atatürkü Heydər Əliyevin Azərbaycan xalqına misilsiz töhfəsidir, tarixi xidmətidir. Məmnuniyyətlə bildirirəm ki, dahi dövlət xadimi Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyası müasir dövrdə Azərbaycanın ən böyük, ən kütləvi partiyası, əsas, həlledici siyasi qüvvəsidir. O, cəmiyyətimizin bütün təbəqələrini əhatə edən, xalqımızın arzu və istəklərinin ifadəçisi olan partiyadır, bu günün və sabahın partiyasıdır. Bu məqamda möhtərəm Prezidentimiz, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin sözlərini xatırlayıram: "Əminik ki, Yeni Azərbaycan Partiyası öz fəaliyyəti ilə uzun illər Azərbaycan xalqına xidmət edəcək. Bizim məqsədimiz budur. Biz ümumxalq partiyasıyıq. Çünki xalqla birik, xalqa arxalanırıq və xalq üçün də xidmət edirik". Bu, bütün həyatını xalqına, onun əbədi azadlığına, milli müstəqilliyinə həsr edən fədakar bir insanın, artıq dünya miqyasında tanınan, etiraf və qəbul olunan regional-praqmatik bir siyasətçinin mövqeyi, missiyasıdır. İstər ABŞ-da nüfuzlu siyasət, politologiya dairələrindəki çoxsaylı görüşləri, istər Avropa Şurasındakı gərgin,

cəsarətli, qalib fəaliyyəti Onu dünya miqyasında yeni, çox böyük perspektivləri olan siyasət və dövlət adamı, milli lider kimi tanıtmışdır. Dahi xilaskar Heydər Əliyevin həyat, hakimiyyət, siyasət, diplomatiya universitetlərini uğurla bitirən, Heydər Əliyev ideyalarının xilaskarlıq qüdrəti ilə, tükənməz Azərbaycan sevgisilə silahlanan İlham Əliyev sabahlarımızın ən ümidverici, ən real, əsl ümumxalq sevgisi qazanan lideridir.

**Ədəbiyyat siyahısı**

1. Юсифов, Ю. К этногенезу азербайджанцев, Фольклор, литература и история Востока. / Ю.Юсифов. (Материалы III Всесоюзной Тюркологической конференции) – Ташкент: – 1984.

2. Əliyeva, J. Xalq qəzeti. 8 may – 2010- s.7.

## HEYDƏR ƏLİYEV ƏDƏBİYYATI

## Lıterature"s Hayder Alıyev

**Gülyaz HÜMMƏTZADƏ**

Azərbaycan Tibb Universiteti, Azərbaycan dili müəllimi

gulyaz.hummetzade@gmail.com

ORCID İD: 0000-0002-1419-3486

**XÜLASƏ**

Heydər Əliyev ədəbiyyatı, Azərbaycan ədəbi-ictimai fikrini xalqın ideyallarına doğru məharətlə istiqamətləndirmişdir. Azərbaycan ədəbiyyatı da öz növbəsində dahi şəxsiyyətə və onun tarixi xidmətlərinə həssas münasibət bəsləmişdir. Heydər Əliyev haqqında yazılmış bədii əsərlərlə ədəbiyyatımız Ulu Öndərə öz borcunu yerinə yetirmişdir. Ədəbiyyatda Ümumilli liderin ideal şəxsiyyəti təsvir və tərənnüm edilmişdir. Məqalədə Heydər Əliyevin həyat və yaradıcılığına müraciət edən Azərbaycan şairlərinin əsərlərinə istinad edilir. Azərbaycan ədəbiyyatının əksər növlərində və janrlarında görkəmli dövlət xadimi Heydər Əliyev haqqında yüksək bədii səviyyədə yadda qalan əsərlər meydana çıxmışdır, ancaq məqalədə daha çox nəzmə, poema janrına, şeirlərə üstünlük verilmiş, bu çərçivədə araşdırılmalar aparılmışdır.

Ədəbiyyatda Ulu Öndər Heydər Əliyevin bədii obrazını müxtəlif çətinliklərə tab gətirərək mübarizəsini davam etdirən , böyük nailiyyətlər qazanan və qazandıran bir şəxsiyyət kimi görürük. Heydər Əliye həm klassik irsimizə, həm də çağdaş ədəbi-mədəni proseslərə bələd idi. Sənətə sevgi, mədəniyyətə sonsuz məhəbbət duyan Ulu Öndər ədəbiyyatımızda sonsuz sevgi və məhəbbət ilə qarşılanmışdır.

**Açar sözlər :** Heydər Əliyev, ədəbiyyat, poema, şeir, xilaskar.

**ABSTRACT**

Heydar Aliyev's literature skillfully directed the literary and social thought of Azerbaijan towards the ideals of the people. Azerbaijani literature, in turn, had a sensitive attitude towards the genius and his historical services. Our literature has fulfilled its duty to the Great Leader with the works written about Heydar Aliyev. The ideal personality of the national leader is described and celebrated in literature. The article refers to the works of Azerbaijani poets who refer to the life and creativity of Heydar Aliyev. In most types and genres of Azerbaijani literature, works that are remembered at a high artistic level about the outstanding statesman Heydar Aliyev appeared, but in the article, poems, poems, and poems were preferred, and researches were conducted in this context.

In the literature, we see the artistic image of the Great Leader Heydar Aliyev as a personality who continues to fight against various difficulties and achieves great achievements. Heydar Aliye was familiar with both our classical heritage and contemporary literary and cultural processes. The Great Leader, who had endless love for art and culture, was greeted with endless love and affection in our literature.

**Keywords:** Heydar Aliyev, literature, poem, poem, savior.

**Giriş**

“Müstəqil Azərbaycan” şah əsərinin yaradıcısı Heydər Əliyev haqqında özü kimi ölməz şeirlər, poemalar qələmə alınmışdır. Azərbaycanın xalq şairləri, yazıçıları Azərbaycan xalqına həyatını həsr edən Heydər Əliyev üçün bir çox əsərlər yaratmışdır.

Süleyman Dəmirəlin ifadəsilə desək “Cavanşir tədbirli, Şeyx Səfi imanlı, Uzun Həsən cəsarətli, Şah İsmayıl Xətai təpərli, Məmməd Əmin Rəsulzadə amallı Heydər Əlirza oğlu Əliyev” Azərbaycan xalqının əbədi öndəri olaraq tariximizdə dərin iz buraxdığı kimi ədəbiyyat səhifələrində də genişmiqyaslı əsərlərin qəhrəmanına çevrilmişdir. “Ədəbiyyatı o qədər sevirəm ki, ədəbiyyatla, şeirlə, bizim mədəniyyətlə görüşmək mənim üçün həmişə çox xoşdur” fikrinin müəllifi Ulu Öndərin mədəniyyətə, incəsənətə, ədəbiyyata dəyəri bütün islahatlarında öz əksini tapmışdır.

**Araşdırma**

Ulu Öndər ədəbiyyatımızda sonsuz sevgi və məhəbbət ilə qarşılanmışdır. Cabir Novruz "İxtiyarım olsa idi" poemasını Heydər Əliyevə həsr etmişdir. Poema 1990-1995-ci illər arasında yazıya alınmışıdır. Poema bütünlükdə iyirmi fəsildən ibarət olaraq müstəqilliyin ilk illərinin acı mənzərəsi, xalqın qarşılaşdığı gərgin hadisələr, acınacaqlı məqamları əks etdirir. Poemanın davam edən fəsillərində Heydər Əliyevin xilaskar obrazı görünməyə başlayır. Şair onun gəlişi ilə özbaşınalıqların bitdiyini təsvir edir, anaların göz yaşlarına son qoyulduğunu yazır. Heydər Əliyevi millətin, xalqın sonuncu şansı kimi görür:

Şükürlər olsun Allaha,
Bəxt bizlərə sarı gəldi
Salamat çıxdıq sabaha,
Elin havadarı gəldi.

Bu tarixdir, həqiqətdir

Bu bər-bəzəkli söz deyil,

Bunu soruşun millətdən,

O daha doğru düz deyər.

Bu, tarixdir, həqiqətdir,

Gəlişi gözəl söz deyil

Daha yazıq anaların

Saçı vaxtsız ağarmadı.

Daha şəhid məzarları,

Sürət ilə çoxalmadı. (2; s.364-393)

Xalqın müdafiəçisi olan şair Rəfiq Zəka Xəndan 1993-cü ildə "Heydər baba" poemasını yazaraq mübarizəni davam etdirir. Bu poemada şairin vətən yanğısı, vətənin xilasında Heydər Əliyevin unudulmaz rolu əks olunmuşdur. Xalqın nicatını Heydər Əliyev olduğunu ifadə edərək onun dönüşünü ümumiləşdirirək nəzmə çəkmişdir.

Ağlayan türkümüzü duymaya Türk lazımdır,

Bax bu günlər ölümə dalmış olan millətimə.

Millətin rəmzi olan bir Atatürk lazımdır,

Ana yurdda atasız qalmış olan millətimə.

Atamız, atamız sevgili Heydər babadır,

Uzun illər ulusun nisgili Heydər babadır. (11; s.10-15)

Heydər Əliyevin 1993-cü ildə Naxçıvandan Bakıya gəlişi, yenidən hakimiyyətə keçməyi xalqın gözlədiyi, Allahdan arzuladıqları diləyin gerçəkləşdiyi dövr idi. Bu qurtuluş ədəbiyyatda da öz əksini "Qurtuluş dastanı" əsəri ilə tapır. Zəlimxan Yaqubun bu əsəri uzun zamandır gözləyib nicata çatdığı dövrün məhsulu idi. Heydər Əliyevə poeziyada həsr olunan ən böyük poetik abidə hələlik Zəlimxan Yaqubun əsərləridir. "Əbədiyyət dastanı" və "Böyük ömrün dastanı" əsərləri ilə əslində, "Zəlimxan Yaqub bu əsərləri yaratmaqla Ulu Öndərə yazılı bir abidə ucaltmışdır".

Gəlib, o kişi gəlib!

Xalqın xeyrinə sarı,

çarxın gərdişi gəlib!

Millətinə, xalqına birləş deyir,

qalx deyir!

Öz haqqına güvənir,

haqq danışır, haqq deyir.

Əlli milyona çatmış

Azərbaycan Dünyası,
"Qurtuluş nəğməsi"ni
oxuyur bir himn kimi,
Bir səslə, bir avazla
"Heydər" deyir, "xalq" deyir. (4; s.97)

Zəlimxan Yaqub poemasının hər sətrində Ulu Öndərə olan sevgisini, inamını əks etdirir. Onun “Sən qalib gələcəksən” nidası ilə gələcəyə ümidlə bayraq tutduğunu görürük.

Bir gecənin içində ağaran
saçın da var,
Suları qan axıdan Qarqar da var,
Xaçın da var,
Sızlayan Qarabağ da, inləyən
Laçın da var,
Min dəfə ağır olan çəkilməz
dərdlər də var,
İçimizi qurd kimi yeyən
namərdlər də var,
İstiqlalın yolunda zülm,
zillət də çəksən,
İstiqlala çatmağa xeyli
həsrət də çəksən,
Sən qalib gələcəksən!

Akademik Nizami Cəfərov Zəlimxan Yaqubun Heydər Əliyevə həsr etdiyi şeirlər, poemalar haqqında fikirlər səsləndirmişdir. O, “Zəlimxan Yaqub dastanı” məqaləsində yazır: “Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev haqqında ilk dəyərli əsərləri yaradan sənətkarlardan biri (bəlkə də, birincisi) Zəlimxan Yaqub olmuşdur. "Böyük ömrün dastanı"nda Heydər Əliyevin xilaskarlıq, milli dövlət quruculuğu missiyasını böyük Atatürkün inqilabları ilə müqayisə edən Zəlimxan Yaqub şair-ideoloq kimi tarixi obrazlaşdırmağı bacarmışdır”. (10)

Ulu Öndərin geri dönüşünü qələmə alan digər bir şairimiz də Fikrət Qocadır. Fikrət Qoca 1994-cü ildə “Azərbaycan qəzeti”ndə çap etdirdiyi “Rəhbərdi, xalqa rəhbərdi” şeirində xalqın liderini necə coşquyla qarşıladığını ifadə etmişdir:

Hamı səni ata bildi.
Ellər harayına gəldi
Yollarına gül səpildi...
Dərdi daim elin dərdi

Əli soyundan Heydərdi.

Rəhbərdi, xalqa rəhbərdi.. (6)

Fikrət Qoca təkcə bu şeirində deyil, davamlı olaraq bir çox şeirlərində Heydər Əliyev obrazını əks etdirir. Şair "Yaşa, Prezidentim, yaşa" və s. nümunələrdə rəhbərə sevgi, səmimi duyğular ifadə edir:

Sevimli könüllərin,

Dua deyən dillərin,

Obaların, ellərin

Ümid çırağısan sən.

Yaşa prezidentim yaşa

Millətinlə baş-başa.

Bizi salma təlaşa,

Yaşa, prezidentim, yaşa. (7; s.351)

Heydər Əliyevin hakimiyyətə qayıdışını təmtəraqla qarşılayan və şeirində bunun ifadəsini gördüyümüz bir digər şairimiz Mirvarid Dilbazidir. "Qurtardın bölümdən Azərbaycanı" şeirində Heydər Əliyevin Azərbaycana, hakimiyyətə qayıdışını alqışlayır, bunu vətən və millət miqyasında fədailik adlandırırdı.

Başın göyə dayaqdır,

Ayağın yerə.

Gərib dağ sinəni sərt zərbələrə

Çiyinlərin üstə vətən torpağı,

Torpaqdan güc aldın "Antey"sayağı,

Qoymadın tökülsün sən qardaş qanı.

Qurtardın bölümdən Azərbaycanı!

Sən ey ağlı ümman,

Ürəyi incə!

Sən həyat bəxş etdin minlərlə gəncə.

Açıb xəyanətin sən iç üzünü,

Silməkçün torpaqdan bu qan izini

Çağırdın, səs verdi sənə millətin.

Xalqı məğlub etmək çətindir, çətin! (8; s.58)

Nəbi Xəzri şeirlərində də Heydər Əliyevin xilaskar obrazını müşahidə edə bilərik. Ədib "Ölməz insana" şeirində Ulu Öndərin ölməzliyi, əbədiliyi haqqında yazır. Şeirdə siyasi liderin ailənin, xalqın, millətin sabaha yönələn ideallarında yaşadığını ifadə edir.

Bu gün söz deməyə

ürək doludur,
Nə böyük dərd gəldi
Doğma millətə.
Yolun ölməzliyin
uca yoludur,
Sən niyə tələsdin
Əbədiyyətə?
Qəlbimiz döyünür
Sənin yanında,
Sənin torpağına
Baş əydik keçdik.
Vətənin Ən Fəxri
Xiyabanında –
Güldən, çiçəklərdən
Dağ görməmişdik.
Sən bizi ucaltdın Günəşə,
Aya,
Çatdı şöhrətimiz
Bütün dünyaya. (9; s.12-13)

Şair Əli Rza Xələflinin Heydər Əliyevə həsr olunan, 2001-ci ildə qələmə alınan "İnsan, tarix və zaman" poeması bizi 1990-cı illərə geri aparır. Müəllif xalqın düşdüyü ağrılı günlərdən qurtuluş yolu axtarır. Çıxış yolunu isə dahi rəhbərə üz tutmaqda görür.

Bir gəlin üz tutur uca Tanrıya:
Ya məni quş elə, ya daşa döndər!
Dağ da dözə bilməz belə yaraya,
Nicat ver, Ya Rəbbim, xilaskar göndər!
Salam, Böyük İnsan – tarix çağırır,
Zülmətdən, zillətdən haylanır Vətən.
İndi darda qalan bayraq çağırır,
Sənin yollarına boylanır Vətən.
Sən yaxşı bilirsən yer nə, göy nədir,
Sənin alın yazın millətin yolu.
Vətənin qəlbində yara göynəyir,

Çağırır vüsalı həsrətin qolu. (3; s.239-240)

Baba Vəziroğlunun "Xalq Heydər söyləyəcək" şeir-nəğməsi Heydər Əliyevin daim zirvələrdə dolaşan şəxsiyyətinə ünvanlanmışdır.

Sən elə bir zirvəsən, küləklər neyləyəcək,

Dünənim, bu günümsən, səninlədir gələcək.

Nə qədər Azərbaycan, nə qədər bu millət var,

Heydər Xalqım deyəcək, Xalq Heydər söyləyəcək!

Heydər Xalqım deyəcək, Xalq Heydər söyləyəcək!

Tarixin tozlu səhifələrini açdıqca iki Türk xilaskarın bənzərlikləri bir çox ədəbin gözündən yayınmamış və əsərlərin mövzusuna çevrilmişdir. Heydər Əliyev Atatürkü "Türk dünyasının yeri doldurula bilməyəcək şəxsiyyəti və böyük öndəri" kimi adlandırmış və bu gün Heydər Əliyev də xalqı üçün belədir.

1881-ci il Türkiyənin mərkəzindən xeyli uzaqda Saloniki şəhərində Əlirza əfəndinin evində sarışın, mavi gözlü uşaq dünyaya göz açdı. O körpəyə son peyğəmbərimiz Məhəmməd-Əl-Mustafanın ismini- Mustafa adını qoydular.

Bəlkə də, tale öz tale özü seçmişdi bu adı. Ona görə ki, Türkü bu adla qoruyub, bu böyük torpaqların atası adını versin. Mustafa paşa, Atatürk idi, bu böyük şəxsiyyət.

1923-cü il, Azərbaycanın mərkəzindən xeyli uzaqda, Naxçıvan adlı bölgədə Əlirza adlı kişinin evində də sarışın, mavi gözlü bir uşaq gəldi dünyaya. O uşağa valideynləri Həzrəti Əlinin ismini-Heydər adını verdilər. O göndərilmişdir ki, Azərbaycan adlı bir məmləkəti faciələrdən qorusun.

Zəlimxan Yaqub da Atatürklə Heydər Əliyevin bənzər siyasətini, liderliyini, türk xalqı üçün ölməzliyini şeir və poemalarında əks etdirmişdir. "Əbədiyyət dastanı"nın "Ata Heydər – Atatürk" bölümündə Zəlimxan Yaqub yazır:

O qorxmadı, çəkinmədi,

Qüvvət aldı bu millətdən,

Özünə bir heykəl qoydu qətiyyətdən.

Ən müqəddəs arzularla

Gözü dolu, qəlbi dolu,

Ürəklərə qovuşdurdu

Atatürkdən gələn yolu.

Yüz əlləşsin, yüz vuruşsun,

Tapa bilməz xata türkü,

Onu min il qoruyacaq

Azərbaycan torpağının

Heydər adlı Atatürkü!!!( 12; s.60)

Xəlil Rza Ulutürk də lirikasında hər iki türk dövlətinin ortaq dəyərlərini, dövlət başçılarını tərənnüm etmişdir.

Dərin mavi gözləri sakit yanan od-ocaq,

Alovunda satqınlar yanacaq, kül olacaq.

Qaranlıqda işıqdır – o işığa yol açaq.

Məsləki varlığından böyükdür, min qat böyük.

Böyüklük heykəlidir Dədə Heydər – Atatürk! (5; s.123-124)

**Nəticə**

Heydər Əliyev tarixin böyük şəxsiyyətidir. Dünyada bir çox siyasətçilər, dövlət xadimləri Ulu Öndər haqqında qiymətli fikirlər səsləndirmişdir. Ədəbiyyatda onun tarixi obrazı filoloji düşüncə zəminində canlandırmışlar.

Heydər Əliyev atdığı hər addımın, cızdığı hər yolun, dediyi hər sözün dərin mənası və sistemi vardır. Türklüyü ilə hər zaman qürurlanan Heydər Əliyev seçilmiş insanlardan idi. Heydər Əliyev Azərbaycan xalqının yaddaşına silinə bilməyəcək şəkildə qazınmışdır. Göründüyü kimi, Heydər Əliyevin ədəbiyyata, sənət dünyasına göstərdiyi qayğı, verdiyi yüksək qiymət olduqca çoxdur. Bunun qarşılığı kimi ədəbiyyat da ona ən şanlı səhifələrdə yer vermişdir. İstinad edilən ədiblərin yardıcılığından yola çıxaraq deyə bilərik ki, Ulu Öndər rəşadətinə, siyasətinə görə Atatürkə bənzədilmiş, onun Azərbaycan xalqı üçün gördüyü işlərə görə toxunulmaz, silinməz bir yerə sahib olmuşdur. Məqalədə müxtəlif dövr ədiblərin yazılarına müraciət edilmişdir. Bununla da Azərbaycan dövlətinin qurucusu olan Heydər Əliyev haqqında hər dövrdə, hər bir ədibdən detallı olaraq öyrənmiş oluruq.

“O öz ölkəsinin xilasını yalnız silahda, hərbi gücdə deyil, həm də bu torpaqda yaradılmış qədim və bənzərsiz mədəniyyəti xalqa qaytarmaqla onun milli ruhunun dirçəlməsində görürdü. Heydər Əliyev, eyni zamanda, bu milli-mənəvi dəyərlərin bütün dünyada tanıdılmasına da böyük əhəmiyyət görürdü” (1; s.329)

Qəbrin nurla dolsun, ey dahi insan,

Alimsən, şairsən, gözəl memarsan.

Səni unudarmı can Azərbaycan,

Biz harda varıqsa, sən orda varsan!

**ƏDƏBİYYAT SİYAHISI:**

1. Axundova Elmira. Heydər Əliyev. Şəxsiyyət və zaman. Qayıdış. VI(1) cild, Bakı, Ozan, 2013, 480 s

2. Cabir Novruz. İxtiyarım olsa idi... Bakı: Respublika Xatirə Kitabı Redaksiyası, 2002,

3. Əli Rza Xələfli. Həsrət körpüsü. Bakı:“Azərbaycan” nəşriyyatı, 2004,

4. Ədəbiyyatda Heydər Əliyev obrazı: tarixi gerçəklikdən ideala. Monoqrafiya. Bakı, "Elm və təhsil", 2018, 400 səh

5. Əlizadə Əsgərli. Xəlil Rza Ulutürk (Həyatı, fəaliyyəti, sənəti). Bakı, "Elm və təhsil",2015

6. Fikrət Qoca. Rəhbərdi, xalqa rəhbərdi . "Azərbaycan" qəzeti, 1994

7. Fikrət Qoca. Seçilmiş əsərləri, V cild. Bakı: UniPrint, 2015,

8. Mirvarid Dilbazi. Seçilmiş əsərləri. Bakı: Lider, 2004,

9. Nəbi Xəzri. "Günəşə qovuşmaq istəyirəm mən" – B.: Çinar-Çap, 2008

10. Nizami Cəfərov. Zəlimxan Yaqub dastanı. "525-ci qəzet", 2014, 20 fevral

11. Rəfiq Zəka Xəndan. Azərbaycan cahandır. Bakı: "Mütərcim", 2009

12. Zəlimxan Yaqub. Seçilmiş əsərləri. 13 clddə, XI cild. Bakı: "Şərq-Qərb", 2013

# XALQINI SEVƏN RƏHBƏR

**Svetlana MƏMMƏDOVA**

dos. fil.üz.f.d. , Azərbaycan Dövlət Pedaqoji Universiteti

svetlanamammadova72@gmail.com,

ORCID ID: 0000-0002-2275-1636

**ÖZET**

Hər bir millət, hər bir dövlət yaşam tarixində torpağını, xalqını sevən, onu mübarizə meydanında qələbəyə, çətin anlarda işığa doğru aparan rəhbərə, şəxsiyyətə ehtiyac duyur. Sözün əsl mənasında hər bir dövlətin bir dövlət olaraq formalaşmasında, millətin millətlər sırasında mətin dayanmasında böyük şəxsiyyətlərə daim ehtiyac var. Azərbaycanın adı bu gün dünya müstəvisində öndə gedən dövlətlər sırasında məğrur durur. Daim bu torpaq, bu millət dahilər, onun adını zirvələrə ucaldan şəxsiyyətlər yetirib. "Heç bir millət şəxsiyyətsiz yaşaya bilməz". Bu fikir Azərbaycan adını öndə gedən dünya ölkələri sırasına yazan, öz uzaqgörənliyi ilə dünya siyasətçilərini daim heyrətə gətirməyi bacaran, millətin hər bir nümayəndəsini ürəkdən sevən dahi şəxsiyyət, ulu öndər Heydər Əliyevə məxsusdur.

Xalqımızın mənəvi sərvəti olan bu zəngin irsi araşdırdıqca respublikamızın son 50 illik həyatında bu nəhəng şəxsiyyətin öz xalqına qırılmaz tellərlə bağlı olduğu, onu ürəkdən sevdiyi, Azərbaycanın inkişafı və tərəqqisi naminə böyük işlər gördüyü, bütün varlığını, həyatını Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsinə həsr etdiyi göz önünə gəlir. Özünün zəngin siyasi fəaliyyəti sayəsində ölkəmizin hərtərəfli inkişafı prosesinə qüvvətli təkan verərək, onu daim yüksəliş yoluna çıxaran Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında misilsiz tarixi xidmətlərini, o cümlədən xalqımızın müstəqillik arzusunun həyata keçməsində, milli dövlətçilik ideyasının gerçəkləşdirilməsində və müasir Azərbaycan dövlətinin yaşadılmasında müstəsna rolu olmuşdur.

**Açar sözlər:** Heydər Əliyev, rəhbər, siyasət, xalq, dövlət, ümummilli lider

**ABSTRACT**

Every nation, every state in its life history needs a leader and personality who loves its land and people, who leads it to victory on the battlefield and to the light in difficult times. In the true sense of the word, there is a constant need for great personalities in the formation of every state as a state, in the standing of the nation among the nations. Today, the name of Azerbaijan stands proudly among the leading states in the world. This land, this nation has always produced geniuses, personalities who raised its name to the heights. "No nation can live without identity." This idea belongs to Heydar Aliyev, a great leader, a genius who put the name of Azerbaijan among the leading countries of the world, who always manages to amaze world politicians with his foresight, who loves every representative of the nation from the bottom of his heart.

As we examine this rich heritage, which is the spiritual wealth of our people, it becomes clear that in the last 50 years of the life of our republic, this huge personality was connected to his people by unbreakable ties, he loved them from his heart, he did great things for the development and progress of Azerbaijan, and he devoted his entire existence and life to the strengthening of the statehood of Azerbaijan. Thanks to his rich political activity, Heydar Aliyev, who gave a strong impetus to the process of the comprehensive development of our country and constantly put it on the path of improvement, played an exceptional role in the realization of the dream of independence of our people, in the realization of the idea of national statehood, and in keeping the modern state of Azerbaijan alive.

**Keywords:** Heydar Aliyev, leader, politics, people, state, national leader

## GİRİŞ

Doğru deyiblər ki, zaman hər şeyi yerbəyer edir, hər şeyin, hər kəsin doğru qiymətini verir. İllər keçdikcə, ümummilli liderimiz Heydər Əliyevin böyüklüyünü, müdrikliyini, xalqını, vətənini necə bir məhəbbətlə sevdiyini daha çox anlayırıq. Bu siyasət nəhənginin fəaliyyəti bütün bəşəriyyətin xoşbəxt gələcəyi uğrunda mübarizəyə həsr olunmuşdur. Heydər Əliyev bəşəriyyətin sülh, əmin-amanlıq, dostluq və firəvanlıq içində yaşaması üçün çox işlər görmüşdü. Gəlin aşağıdakı xronikaya nəzər salaq. Heydər Əlirza oğlu Əliyev 1923-cü il mayın 10-da Azərbaycan Respublikasının Naxçıvan şəhərində anadan olmuşdur. O, 1939-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyası) memarlıq fakültəsində təhsil almışdır. Başlanan müharibə ona təhsilini başa çatdırmağa imkan verməmişdir. 1941-ci ildən Heydər Əliyev Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığında və Naxçıvan MSSR Xalq Komissarları Sovetində şöbə müdiri vəzifəsində işləmiş və 1944-cü ildə dövlət təhlükəsizliyi orqanlarında işə göndərilmişdir. Bu dövrdən təhlükəsizlik orqanları sistemində çalışan Heydər Əliyev 1964-cü ildən Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini, 1967-ci ildən isə sədri vəzifəsində işləmiş, general-mayor rütbəsinə qədər yüksəlmişdir. Həmin illərdə o, Leninqrad şəhərində xüsusi ali təhsil almış, 1957-ci ildə isə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyul plenumunda Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilərək respublikanın rəhbəri olmuşdur. 1982-ci ilin dekabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilən Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini

vəzifəsinə təyin edilmiş və SSRİ-nin rəhbərlərindən biri olmuşdur. Heydər Əliyev iyirmi il ərzində SSRİ Ali Sovetinin deputatı, beş il isə SSRİ Ali Soveti sədrinin müavini olmuşdur. Heydər Əliyev 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən Baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq, tutduğu vəzifələrdən istefa vermişdir.

Heydər Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar ertəsi gün Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış edərək, Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb etmişdir. O, Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq, 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etmişdir. 1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyev ilk əvvəl Bakıda, sonra isə Naxçıvanda yaşamış, həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçilmişdir. O, 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olmuşdur. (Əliyeva, 2018)

Heydər Əliyev 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilmişdir. 1993-cü ilin may-iyununda hökumət böhranının son dərəcə kəskinləşməsi ilə ölkədə vətəndaş müharibəsinin baş verməsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı. Azərbaycanın o zamankı rəhbərləri Heydər Əliyevi rəsmən Bakıya dəvət etməyə məcbur oldular. Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı. 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. O, 1998-ci il oktyabrın 11-də xalqın yüksək fəallığı şəraitində keçirilən seçkilərdə səslərin 76,1 faizini toplayaraq, yenidən Azərbaycan Respublikasının Prezidenti seçildi. Heydər Əliyev dörd dəfə Lenin ordeni, Qırmızı Ulduz ordeni və çoxlu medallarla təltif edilmiş, iki dəfə Sosialist Əməyi Qəhrəmanı adını almış, bir çox xarici dövlətlərin orden və medalları ilə təltif olunmuşdur. 27 mart 1997-ci il Kiyevdə Azərbaycanın dövlət başçısına Ukraynanın ali mükafatı "Yaroslav Mudri" ordeni təqdim edilmişdir. 13 aprel 1999-cu il Prezident Heydər Əliyev Türkiyənin ən nüfuzlu mükafatı "Atatürk Sülh Mükafatına" layiq görülmüşdür. 20 yanvar 2001-ci il Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə Moskva Dövlət Uniersitetinin "Fəxri professoru" adı verilmişdir. 3 aprel 2003-cü il Azərbaycan Prezidenti Heydər Əliyev Rusiya Federasiyasının Təhlükəsizlik, Müdafiə və Hüquq Qaydası Problemləri Akademiyasının professoru və həqiqi üzvü seçilmiş, Y.V.Andropov adına mükafata layiq görülmüşdür. (Quliyev, 2015) 10 may 2003-cü il Rusiyanın yüksək mükafatı – Müqəddəs Apostol Andrey Pervozvannı ordeni ilə təltif olunması barədə fərman imzalanmışdır.

## ARAŞTIRMA VE BULGULAR

Əsl vətəndaş, tarixi şəxsiyyət və ümummilli lider. Bu üç fenomen keyfiyyətin daşıyıcısı, qüdrətli və böyük insan Heydər Əliyevin Azərbaycan xalqının tarixi taleyində oynadığı rol misilsizdir. Türk dünyasının fəxri olan ulu öndər H. Əliyev də XX əsrdə Azərbaycan xalqının yetirdiyi böyük dühalardan biri kimi ehtiramla xatırlanır. Zaman ötdükcə, illər keçdikcə bir çox meyarlar, prinsiplər dəyişir, ancaq obyektiv tarixi meyillərin və həqiqətin meyarı isə dəyişməz qalır. Odur ki, Azərbaycan xalqının ümummilli lideri, dərin zəkası və rəhbərlik etmək istedadı,

uzaqgörənliyi və nüfuzu ilə bütün dünyanı heyran qoymuş ulu öndər H. Əliyev haqqında keçmiş zamanda danışmaq mümkün deyil. H. Əliyev öz siyasi dühası ilə Azərbaycanın müasir simasını müəyyənləşdirmiş və xalqımızın taleyində silinməz izlər qoymuşdur. Onun siyasəti nəticəsində əldə olunan misilsiz nailiyyətlər göz qabağındadır. Azərbaycanda müasir demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış və elmin, təhsilin, mədəniyyətin inkişafı əbədi surətdə H. Əliyevin adı ilə bağlıdır.

Ölkəmizin əsas qanunu Konstitusiyanın qəbul edilməsi, hakimiyyətlərin bölünmə prinsipinin təsbit olunması, hüquq normalarının və qanunvericilik bazasının beynəlxalq standartlara uyğunlaşdırılması, müasir idarəetmə üsullarının bərqərar olması və müvafiq dövlət qurumlarının formalaşdırılması Heydər Əliyevin rəhbərliyi ilə gerçəkləşən genişmiqyaslı quruculuq proqramının tərkib hissələridir. Bu uğurlar paytaxtımızın daim yeniləşən görkəmində, şəhər və rayonlarımızın sürətlə modernləşməsində, iqtisadiyyat və elmdə, təhsil, mədəniyyət və səhiyyədə, eləcə də ictimai-siyasi həyatımızda öz əksini tapmışdır. Heydər Əliyev çox maraqlı, mürəkkəb, zəngin, keşməkeşli bir ömür yolu keçmiş, həyatın bütün çətinliklərindən qalib çıxmış, öz zəhməti, zəkası, fitri qabiliyyəti ilə ən yüksək zirvəyə yüksəlmişdir. Bu uca zirvənin yolları daşlı-kəsəkli olsa da, polad iradəsi, dönməz xarakteri, şəxsiyyət bütövlüyü bu zirvəni fəth etməkdə ona kömək etmişdir. Bütün dünyanın etiraf etdiyi böyük dövlət xadimi, görkəmli siyasətçi, müstəqil Azərbaycan dövlətinin memarı, zəmanəmizin nadir şəxsiyyətlərindən biri Heydər Əliyev çox zəngin irs qoyub getmişdir. Tarixin xalqımıza bəxş etdiyi dahi şəxsiyyətin, müasir Azərbaycanın xilaskarı və memarı, ümummilli liderimiz Heydər Əliyevin bütün fəaliyyətinin məqsədi Azərbaycanı güclü, demokratik dövlətə çevirmək və xalqına firavan həyat bəxş etmək idi. Azərbaycanın ən yeni tarixinin bütöv bir dövrü onun şərəfli adı və möhtəşəm fəaliyyəti ilə bağlıdır. Onun Azərbaycana otuz ildən çox rəhbərliyi dövründə ölkəmiz bütün sahələrdə böyük inkişaf yolu keçib. O, bütün həyatını ölkəmizin yüksəlişinə və insanların xoşbəxtliyinə həsr etmişdir. Ulu öndər hər zaman bu fikri səsləndirirdi: “Azərbaycan dinindən, irqindən, milli mənsubiyyətindən asılı olmayaraq hər bir azərbaycanlının vətənidir”. (Məmmədov, 2013) Bu sözlər Heydər Əliyevin nə qədər tolerant bir şəxsiyyət olmasından xəbər verirdi. Biz mədəniyyət işçiləri olaraq deyə bilərik ki, Azərbaycan mədəniyyətinin ən böyük nailiyyətləri görkəmli siyasət və dövlət xadimi Heydər Əliyevin adı ilə bağlıdır. Məhz buna görə də Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illəri mədəniyyətimizin tarixində yeni intibah dövrü adlandırmaq olar. Heydər Əliyevin Azərbaycan mədəniyyətinin ayrılmaz tərkib hissəsi olan kitabxana quruculuğu sahəsində də, misilsiz xidmətləri vardır. XX əsrin II yarısında respublikada kitabxana şəbəkələrinin inkişafı, kitabxanaların mərkəzləşdirilməsi, kitabxana fondlarının inkişafı, əhaliyə kitabxana xidmətinin yaxşılaşdırılması, kitabxanaların maddi-texniki bazasının və kadr potensialının möhkəmləndirilməsi istiqamətində Heydər Əliyevin gördüyü işlər danılmazdır.

Müstəqillik dövründə kitabxanaların qorunub saxlanılması, kitabxana işinin inkişaf istiqamətləri və dövlətin kitabxana siyasətinin formalaşmasında Heydər Əliyevin rolu böyükdür. Ulu öndər kitab və kitabxana işinin böyük mədəni əhəmiyyətini yüksək qiymətləndirmiş, onu ölkəmizin ümumi mədəniyyətinin əsas göstəricisi kimi qiymətləndirmişdir. Bu da Heydər Əliyevin yüksək elmi, mədəni və intellektual səviyyəsi ilə, bəşəri xarakter daşıyan hadisələri düzgün qiymətləndirə bilmək istedadı ilə şərtləşir. Heydər

Əliyev həmişə çıxışlarında yazıçı və şairlərimizin, alimlərimizin, mədəniyyət xadimlərimizin böyük potensiala malik olduğunu bildirmiş, Azərbaycan xalqının təhsillənməsində, biliklənməsində, elm və mədəniyyətimizin, mənəviyyatımızın inkişafında böyük rolu olduğunu bildirmişdir. İftixar hissi ilə demək olar ki, Heydər Əliyev respublikaya rəhbərlik etdiyi 34 illik dövrdə böyük təşkilatçılıq, nəhəng quruculuq işləri ilə yanaşı, zəngin elmi-nəzəri, mənəvi bir irs yaratmışdır. Bu irs qiymətli mənəvi sərvət kimi elmimizin və mədəniyyətimizin "qızıl fondu" na daxil edilmişdir. (Nəsimi, 2013) Müasir şəraitdə ölkəmizin gələcək inkişaf yolunu işıqlandıran bu zəngin irsin öyrənilməsinə böyük ehtiyac hiss edilməkdədir. Respublikamızın vətəndaşlarının, ziyalılarının, alimlərin, mütəxəssislərin, əhalinin bütün təbəqələrinin, xüsusilə vətənimizin gələcəyi olan gənclərin bu irsi dərindən mənimsəməsinə ciddi ehtiyac duyulmaqdadır. Heydər Əliyevin elmimizə, tariximizə, dilimizə, milli ideologiyamıza, soykökümüzə həsr edilmiş dərin məzmunlu əsərləri, ideya və fikirləri elm və mədəniyyətin bütün sahələrində aparılan elmi araşdırmaların metodoloji əsasıdır. Bu əsərlər azərbaycanşünaslığa böyük hədiyyədir.

Heydər Əliyevin nəzəri irsi, həmçinin Azərbaycan dövlətçiliyinin yaranması, qorunması və inkişaf etdirilməsinin əsasıdır. Bu əsərlər siyasi tarix, azərbaycançılıq, vətəndaşlıq, dövlət quruculuğu, vətən sevgisi, vətənə hədsiz məhəbbət dərsliyidir. Ulu öndərin hər bir əsəri böyük əhəmiyyətə malikdir. Əsrlər keçəcək, illər bir-birini əvəz edəcək, nəsillər dəyişəcək, bu əsərlər isə yaşayacaq, neçə -neçə nəsillərə, Azərbaycan xalqının gələcəyinə xidmət edəcəkdir. Çünki bu əsərlər zamanın sifarişidir, xalqın tarixidir, salnaməsidir. Bu əsərləri zaman özü yaratdığından daim yaşayacaq, gələcəyə işıq saçacaq. Ölkəmizin siyasi həyatında özünəməxsus yeri olan Yeni Azərbaycan Partiyasının yaranması və təşəkkül tapması milli tariximizdə görkəmli yer tutan ulu öndər Heydər Əliyevin şərəfli adı ilə bağlıdır. Tarixi zərurətdən yaranmış Yeni Azərbaycan Partiyası elə bir dövrdə formalaşmışdır ki, müstəqilliyimiz, milli varlığımız real təhlükə qarşısında idi. Xalqımızın əsrlərdən bəri ürəyində yaşatdığı azadlıq amallarını beşiyindəcə boğmağa cəhd göstərən qara qüvvələr heç nədən çəkinməyərək ən çirkin vasitələrə əl atırdılar. Ulu öndərin "dünənin, bu günün, gələcəyin partiyası" deyə həm keçmişini, həm bu gününü, həm də gələcəyini müəyyən etdiyi Yeni Azərbaycan Partiyasının xalq, dövlət qarşısındakı xidmətləri bu təşkilatın cəmiyyətdəki mövqeyini get-gedə daha da möhkəmləndirir, xalqın bu partiyanın ideoloji – siyasi xəttinə dəstəyini gücləndirir. (Məmmədov, 2018) Xalqımız maddi və mənəvi sıxıntı məngənəsində boğulduğu, ölkə iqtisadi, siyasi, sosial, hərbi böhran keçirdiyi vaxtlarda onun yeganə ümid yeri məhz Heydər Əliyev olmuşdur. Ulu öndər həmişə vətəni, xalqı ilə birlikdə olmuşdur. Heydər Əliyevin həyata keçirdiyi şərəfli xilaskarlıq missiyası Azərbaycanın müstəqilliyini əbədi, dönməz və sarsılmaz etdi. Böyük natiqlik qabiliyyətinə, dərin zəkaya, məntiqi ardıcıllığa, iti zehnə, möhkəm yaddaşa malik olan bu böyük insan öz əsərlərini xalq qarşısındakı çıxışlarında, dinləyicilərlə üzbəüz, onların qarşısında, onların iştirakı ilə yaratmışdır.

Heydər Əliyevin hər bir nitqi, hər bir çıxışı xalqla təmasda, ictimai-siyasi yığıncaqlarda, izdihamlı mitinqlərdə, əsgər səngərlərində, qaçqın düşərgələrində, rəsmi dövlət tədbirlərində, beynəlxalq məclislərdə yaranmış və Azərbaycanda dövlət quruculuğu proqramının, milli dövlətçilik ideologiyasının əsasını təşkil etmişdir. Heydər Əliyev kimi zəngin irsi, çoxsaylı əsərləri olan dövlət xadimi çox azdır. Bu əsərlərdəki elmi fikirlər ulu öndərin çox geniş mütaliə dairəsinə, çox zəngin və dərin biliyə, elmi məlumata malik olan bir şəxsiyyət və görkəmli ziyalı olduğunu sübuta yetirir. Heydər Əliyev elə nadir şəxsiyyətlərdəndir ki, tarix belələrinin

əməlləri, fəaliyyəti ilə yaranır. Onun keşməkeşli həyatı, zəngin bioqrafiyası isə bütöv bir epoxanın canlı salnaməsidir. Bu salnamənin nə az, nə çox – düz 34 illik bir dövrünü əhatə edən və xalqımızın qadir, yaradıcı əməyini təcəssüm etdirən səhifələri rəhbərin şərəfli və mənalı ömrünün unudulmaz anlarıdır. Heydər Əliyev zəmanəsinin böyük filosofu idi. Onun fəlsəfəsi sülh fəlsəfəsi idi. Heydər Əliyev şəxsiyyətini dəyərləndirmək cəhdində olmaq hardasa tarixə, zamana, gələcəyə qiymət vermək iddiası qədər çətindir. Onun yorulmaz fəaliyyətinin Azərbaycan elminin müxtəlif sahələri ilə bağlı əlaqələrinin coğrafiyası və tarixi çox genişdir. Bu tarixi şəxsiyyəti, fenomeni sözlə səciyyələndirmək çətindir. Çünki Heydər Əliyev yalnız bir dövləti idarə edən siyasi xadim, rəhbər deyil, həm də milyonlarla insanı böyük ideallar ətrafında səfərbər edən bir dövlət qurucusu, tarix memarıdır. Onun bütün həyatı, fəaliyyəti, məqsəd və arzuları bu idealın dövlət quruculuğu, tarix yaradıcılığı idealının ətrafında cəmlənmişdir. Heydər Əliyev Azərbaycan elminin hamisi və böyük mütəfəkkir idi. Heydər Əliyevin varlığı xalqa, onun mədəniyyətinə xidmətdən yoğrulmuşdur. (Süleymanlı, 2014) Ulu öndərin incəsənətə, mədəniyyətə, teatra, ədəbiyyata göstərdiyi xidmətlər unudulmazdır. O, sənətdə, ədəbiyyatda həmişə tərəqqi və irəliləyiş yolunu seçməyi vacib sayardı. Doğrudan da, Heydər Əliyev kimi görkəmli şəxsiyyətlər xalqımızın zəkasını, elmini, mədəniyyətini, mənəviyyatını dünyaya nümayiş etdirirlər. Azərbaycanın dövlətçilik tarixində müstəsna xidmətləri olan, ideyaları, idarəçilik təcrübəsi bu günümüzə, sabahımıza bələdçilik edən ümummilli lider Heydər Əliyevin siyasi irsi o qədər zəngin, mənalı və dəyərlidir ki, hələ bir neçə on illər bundan sonra da nəsillər bu varislik xəzinəsindən istifadə edəcəklər. Ulu öndərin uzaqgörən siyasəti nəticəsində Azərbaycan özünün geostrateji, iqtisadi və mədəni potensialından istifadə edərək Şərqlə Qərb arasında etibarlı körpüyə, dünyanın dinamik inkişaf edən ölkələrdən birinə çevrilmişdir. Adı həmişə milli dövlətçiliyimiz, müstəqillimizlə qoşa çəkilən, fenomen siyasətçi kimi təcrübəsi daim öyrənilən Heydər Əliyev min ildən bir tanrının insanlara bəxş etdiyi müdrik, lider olduğunu fəaliyyəti ilə təsdiqləyən dahilərdən biri, bəlkə də birincisidir.

## SONUÇ

Ölkəmizdə müasir, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli mənəvi dəyərlərə qayıdış və elmin, təhsilin, mədəniyyətin inkişafı əbədi surətdə Heydər Əliyevin adı ilə bağlıdır. “Mən çox sınaqlardan keçmiş bir adamam və həyatımı da özümə yox, xalqıma həsr etmişəm” söyləyən, həyatının mənasını Azərbaycan xalqına, dövlətçiliyinə xidmətdə görən ümummilli lider Heydər Əliyevin ömür yolu əslində əsrlərə sığmayan bir epoxadır. Onun söylədiyi “mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən Azərbaycanlıyam” sözləri ilə bir daha bildirirdi ki, hansı sahədə çalışmasından asılı olmayaraq Azərbaycanın adına, vədinə sadiq əsgəri kimi xalqının xoşbəxtliyi, müstəqilliyi naminə hər çətinliyə həmişə hazır olmuşdur. O, heç bir zinətlə ölçülə bilməyəcək qədər qiymətli ideyaları, qətiyyəti, sağlam azərbaycançılıq məfkurəsi ilə Azərbaycan xalqını ardınca aparan ölməz sərkərdə, komandan olduğunu əməli fəaliyyəti ilə təsdiqlədi. Dünya azərbaycanlılarının birliyini təmin edə biləcək ən mühüm və təsirli vasitə vahid ideologiyanın olmasıdır. Bunu çox gözəl anlayan ulu öndər Heydər Əliyev xalqı bir ideya, bir məqsəd ətrafında birləşdirmək üçün məhz “Azərbaycançılıq” ideologiyasını seçmişdi. İdeologiya xalqın milli-mənəvi varlığının ilkin əlamətlərindən olub, xalqın kimliyini əks etdirən təfəkkür, adət və inanclar sistemidir. Dil, ərazi, din və ideoloji birlik xalqın, millətin və dövlətin tarixi varlığının əsas atributlarıdır. Bütün sahələrdə olduğu kimi kitabxana işi

sahəsində də qəbul edilmiş rəsmi sənədlərdə ulu öndər Heydər Əliyev irsinin və milli ideologiyanın təbliğinə xüsusi diqqət yetirilir. Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 6 oktyabr tarixli Sərəncamı ilə imzalanmış "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın ayrı-ayrı bəndlərində ulu öndər Heydər Əliyevin unikal dövlət və mədəni quruculuq təcrübəsinin, intellektual və mənəvi irsinin respublikanın və dünyanın rəqəmsal irs fondlarına daxil edilməsi, ümummilli lider Heydər Əliyevin "Müstəqilliyimiz əbədidir" çoxcildli kitabının biblioqrafik göstəricisinin və elektron nəşrinin hazırlanması, ümummilli lider Heydər Əliyev haqqında ən çox soruşulan kitabların informasiya daşıyıcılarına köçürülməsi və s.

Ulu öndər Heydər Əliyev irsinin və azərbaycançılığın təbliği ilə bağlı kitabxanaçıların üzərinə bir sıra mühüm vəzifələr düşür və bu istiqamətdə bütün vasitələrdən istifadə olunmalı, təbliğatın ən müxtəlif üsulları həyata keçirilməlidir. Ümummilli liderin siyasi fəaliyyəti onun davamçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilir və Azərbaycan xalqını daha da xoşbəxt gələcəyə doğru aparır. Məhəmməd Füzulinin 500 illik və "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileylərinin YUNESCO səviyyəsində keçirilməsi Azərbaycan mədəniyyətinin təbliğinə xidmət edərək beynəlxalq mədəni ictimaiyyətlə yeni əməkdaşlıq formalarının bərqərar olmasına gətirib çıxarmışdır. Heydər Əliyev Böyük İpək Yolunun mühüm mərkəzi olan, mədəniyyətlərin və sivilizasiyaların qovşağında yerləşən ölkəmizi dünyada tolerantlığın və dözümlülüyün məkanı kimi tanıtmışdır. Onun beynəlxalq səfərləri, siyasi, ictimai və dini xadimlərlə görüşləri ölkəmizin yeni imicinin formalaşmasına xidmət edirdi. Milli mənəvi dəyərlərimizin qorunub saxlanılması, azərbaycançılıq ideologiyasının şüurlarda kök salması, dilimizin tətbiqi sahələrinin genişlənməsi, tariximizin yenidən obyektivcəsinə yazılması və s. Heydər Əliyevin çoxşaxəli fəaliyyətinin yalnız bir tərəfidir. Yaxın tariximizin son bir qərinəlik dövrünə nəzər saldıqda görürük ki, Azərbaycanın bütün sahələrində qazandığı uğurlar, onun günbəgün artan nüfuzu, sözün əsl mənasında, böyük insan olan Heydər Əliyevin fəaliyyəti ilə sıx bağlıdır.

Cənab Heydər Əliyevin xüsusilə təhsilə, elmə, mədəniyyətə olan qayğısı, məktəbə, müəllimə verdiyi yüksək qiymət siyasi xadim, dövlət rəhbəri kimi daim onun fəaliyyətinin ana xəttini təşkil edib. Müstəqil Azərbaycan dövlətinin hərtərəfli inkişafı yolunda əvəzsiz tarixi xidmətlərini nəzərə alaraq, milli dövlətçilik ideyasının bərqərar olması və ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artması naminə misilsiz töhfələr vermiş Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev xalqımızın qəlbində əbədiyaşarlıq qazanmışdır. Milyonların ürəyindən gələn bu sözlər ona ümumxalq məhəbbətinin ifadəsi oldu: "Nə qədər ki, müstəqil Azərbaycan dövləti var, Azərbaycan xalqı var Heydər Əliyev ürəklərdə yaşayacaqdır".

## KAYNAKLAR

Əliyeva, M. (2018). Heydər Əliyev: Həyatı, siyasi fəaliyyəti, liderliyi. Təhsil nəşriyyatı.

Məmmədov, H. (2013). Heydər Əliyev və xalqımızın milli-siyasi identifikasiyası. Gənclik nəşriyyatı.

Məmmədov, Q. (2018). Heydər Əliyev: Qüdrətin formalaşması. Ulduz Kitab.

Nəsimi, M. (2013). Heydər Əliyev - Azərbaycanın bəşəriyyətə bəxş etdiyi lider. Şərq-Qərb.

Novruzov, A. (2009). Heydər Əliyev - Azərbaycan tarixinin bərpaçısı. Azərbaycan Yazıçılar Birliyi.

Quliyev, Ə. (2015). Heydər Əliyev: Azərbaycanın modern dövlətçiliyinin əsasları. Azərbaycan Yazıçılar Birliyi.

Süleymanlı, R. (2014). Heydər Əliyev və Azərbaycanın inkişaf müddəti. Mədəniyyət və Turizm Nazirliyi.

# HEYDƏR ƏLİYEVİN BANİSİ OLDUĞU XALQ-ORDU BİRLİYİNİN VƏTƏN MÜHARİBƏSİNDƏ ZƏFƏRİ

**Qocayev Samin Məhiyəddin oğlu**

***Sumqayıt Dövlət Universiteti, Sumqayıt şəhəri, Azərbaycan Respublikası***

samin-qocayev@mail.ru

ORCİD NO: 0000-0002-5828-9754

**Xülasə.**

Müharibənin gedişində xalqımız düşmən qarşısında vahid toplum olmağın, güclü bir yumruğa çevrilməyin yeni bir nümunəsini yaratdı. Xalq öz təpəri ilə mübarizə meydanında, əsgərlərin yanında, dövlətin ətrafında olduğunu göstərdi. Müxtəlif idarə və təşkilatlar, ayrı-ayrı vətəndaşlar, hətta xarici ölkələrdə yaşayan soydaşlarımız da xalqımıza, ordumuza dəstək olur, Silahlı Qüvvələrə Yardım Fonduna ianələr edirdilər. Azərbaycan prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın başlatdıqları aksiyaya qoşulanların sayı sürətlə artırdı.

**Açar sözlər:** Vətən müharibəsi, xalq-ordu birliyi, həmrəylik, Ali Baş Komandan, qələbə, yeni siyasi relallıq, müzəffər ordu

**Summary**

In the course of the war, our people created a new example of being a united society in the face of the enemy, of becoming a strong fist. The people showed that they were on the battlefield, next to the soldiers, around the state. Various departments and organizations, individual citizens, and even our compatriots living abroad supported our people, our army, and made donations to the Armed Forces Assistance Fund. The number of people joining the action initiated by the President of Azerbaijan Ilham Aliev and the First Vice-President Mehriban Alieva increased rapidly.

**Keywords:** Patriotic War, People's Army Unity, Solidarity, Supreme Commander-in-Chief, Victory, New Political Reality, Victory Army

1991-ci il oktyabrın 18-də Azərbaycan müstəqilliyini yenidən bərpa edəndən sonra ilk günlərdən onun üstünü qara buludlar aldı. Hələ real ordusu və ciddi silahları olmadığına görə fürsətdən istifadə edən Ermənistan və onun havadarları əvvəlcə Qarabağın dağlıq hissəsini, daha sonra isə ətraf 7 rayonu da işğal etdilər. Çox təəssüf ki, həmin dövrdə hakimiyyətdə olan

AXCP-Müsavat höküməti əvvəlcə bəzi əraziləri geri qaytarsa da, daha sonra hakimiyyət daxili pərakəndəlik bu uğurların hamısının üstündən xətt çəkmiş və sonda istefa vermək məcburiyyətində qalmışdır. Üstəlik Sürət Hüseynov və Əlikram Hümbətov kimi satqınların sayəsində az qala parçalanma təhlükəsi ilə üz-üzə qalan Azərbaycan yenicə qazandığı müstəqilliyi itirmək təhlükəsində idi. Amma xalq 1969-1982-ci illərdə Azərbaycan SSR MK-nin I katibi vəzifəsində ölkəyə rəhbərlik etmiş Heydər Əliyevi unutmamışdır, xalq həmin illərdə Respublikamızı SSRİ-nin ən zəif ölkəsi imicindən çıxarıb inkişaf etmiş sənaye-aqrar ölkəsinə çevirmiş liderini əsla yaddan çıxarmamışdır.

Məhz belə bir çətin ictimai-siyasi vəziyyətdə 1993-cü il iyunun 15-də ölkəmizin sükanı arxasına keçən Heydər Əliyev xalqımızı uçurumdan çıxarmaq üçün əməli addımlar atmağa başladı. Heydər Əliyev ilk növbədə ölkədə daxili sabitliyə nail olaraq, daha sonra bir neçə uğurlu hərbi əməliyyatla bəzi ərazilərimizi geri qaytara bilmişdir. Xüsusilə ermənilərin Beyləqan istiqamətində hərbi yürüşlərinin qarşısı alınmış, 1994-cü ilin yanvarında isə Horadiz qəsəbəsi daxil olmaqla Füzuli rayonunun 22 kəndi düşmən işğalından azad edilmişdir. Bütün bu nailiyyətlər Heydər Əliyevin artıq Ümummilli lider kimi “xalq-ordu” birliyini yarada bilməsi ilə bağlı idi. Amma hələ ordumuz peşəkar, dövlətimiz isə iqtisadi cəhətdən zəif olduğuna görə Heydər Əliyev vaxt qazanmaq üçün 1994-cü il mayın 8-də Bişkekdə keçirilən danışıqlardan sonra atəşkəs müqaviləsinə imza atdı. Amma o Qarabağ münaqişəsi ilə bağlı çıxışlarında işğal edilən toraqlarımızın nə vaxtsa bu və ya digər yolla geri qaytaracağımızı çox böyük əminliklə deyirdi. Çox təəssüf ki, Heydər Əliyevə bu günləri görmək qismət olmasa da, onun davamçısı İlham Əliyev atasının və milyonlarla insanın arzusunu nəhayət ki, yerinə yetirdi. 2003-cü ilin oktyabrında prezident seçkilərindən sonra andiçmə mərasimində İlham Əliyev Qarabağı geri qaytarmağı əsas məqsəd kimi hədəflədiyini açıqladı və bu məqsədə çatmaq üçün bütün lazımı addımları atmağı xalqımız qarşısında söz verdi. Nəhayət həmin o vaxt gəlib çatdı.

Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan ordusu tariximizə böyük qələbə zəfərini yazdı. Azərbaycan ordusu 2020-ci il sentyabrın 27-si saat 06-00-dan başlanan əks-hücum əməliyyatları ilə İkinci Qarabağ müharibəsini hərbi-siyasi yolla 44 günə bitirdi. 44 Gün ərzində Ermənistan ordusu darmadağın edildi. Təcavüzkar dövlətin hərbi-siyasi rəhbərliyini ölkənin məğlubiyyətini rəsmiləşdirən 10 noyabr tarixli Rusiya-Azərbaycan-Ermənsitan birgə bəyanatını imzalamağa məcbur etdi. Azərbaycan dövləti öz iradəsi və gücü ilə BMT Təhlükəsizlik Şurasının 30 ilə yaxın müddətdə kağız üzərində qalan 822, 853, 874, 884 saylı qətnamələrinin icrasına nail oldu. Eyni zamanda, Azərbaycan faşist ideologiyasından bəhrələnən Ermənistanın 30 illik işğalına son qoymaqla, bir güllə atmadan, bir şəhid vermədən Ağdamın, Kəlbəcərin və Laçının işğaldan azad edilməsinə nail olmaqla dünyada qalib xalq, qalib dövlət kimi özünü yenidən təsdiq etdi.

Beləliklə, 2020-ci il sentyabrın 27-dən başlayaraq dekabrın 1-nə qədər davam edən bu mərhəədə Azərbaycanın ərazi bütövlüyü tam təmin olundu. Azərbaycan xalqı erməni hərbi təxribatlarına cavab verilməsi, işğal altında olan torpaqların azad edilməsi üçün ordumuzun əks-hücum əməliyyatlarını məmnunluqla qarşıladı, Azərbaycan dövlətinin, Azərbaycan ordusunun yanında olduğunu nümayiş etdirdi. Bütün bölgələrdən ordumuza dəstək gəlirdi. Xalqımız hər gün dövlət başçısı İlham Əliyevin qələbə xəbərini intizarla və sərsizliklə gözləyirdi. Hər bir zəfər sevinci böyük coşqu ilə qeyd edilirdi. Əks-hücum əməliyyatları başlandığı ilk gündən siyasi əqidəsindən, milli mənsubiyyətindən asılı olmayaraq bütün

Azərbaycan xalqı cənab prezidentin ətrafında yumruq kimi birləşdi. Ölkədə fəaliyyət göstərən siyasi partiyalar, qeyri-hökümət təşkilatları da dövlətimizin başçısının ətrafında sıx birləşərək dəstəklərini ifadə etdilər. 50+1 formatında siyasi partiyaların birgə bəyanatı xalq-iqtidar birliyini təcəssüm etdirdi. Prezident İlham Əliyev müsahibələrinin birində qeyd etdiyi kimi, "Azərbaycan xalqı üçün bu müharibə azadlıq müharibəsi, Ermənistan üçün isə işğalçılıq müharibəsi idi [2]."

Ölkəmizin tam qələbəsi ilə başa çatan döyüşlər Ali Baş Komandan İlham Əliyevin çox çevik və qətiyyətli rəhbərliyi altında, xalqımızın möhkəm birliyi və həmrəyliyi, orduya göstərdiyi hərtərəfli dəstək şəraitində 44 gün davam etdi, düşmənin cəhənnəmə çevirdiyi cənnət Qarabağ 30 illik düşmən tapdağından xilas edildi. Bu ölüm-dirim savaşı zamanı Azərbaycan cəmiyyətində heç bir vaxt baş tutmamış milli birlik və siyasi həmrəylik yaşandı və öz qüdrətini göstərdi. Cəbhədə şiddətli döyüşlərin getdiyi bir vaxtda siyasi partiya və təşkilatlar, həmçinin ayrı-ayrı tanınmış ictimai-siyasi xadimlər, bütün ziyalılar xalqın, dövlətin, ordunun, Ali Baş Komandanın yanında olduqlarını bəyan edir, ümummilli məsələ ətrafında birlik nümayiş etdirdilər. Savaşın ilk günündən sonuna kimi bu vəziyyət davam etdi. Prezident İlham Əliyevin fəxrlə dediyi kimi, hər gün geri oturdulan və getdikcə pərən-pərən olub qaçmağa məcbur olan düşmən ordusundan tamamilə fərqli olaraq Azərbaycan döyüşçüləri dayanmadan yalnız irəlilədi, bir nəfər də öz döyüş tapşırığını yerinə yetirməkdən boyun qaçırmadı [4].

İşğalçı ölkənin 30 il ərzində möhkəmləndirdiyi təmas xəttini Azərbaycanın müzəffər ordusu qısa zamanda yararaq Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı rayonlarını, Hadrut qəsəbəsini, Şuşa şəhərini, 200-dək kənd və qəsəbəni, onlarla strateji yüksəkliyi düşmən tapdağından azad etdi. Sonrakı günlərdə isə rəşadətli Azərbaycan ordusu düşmən qüvvələrini darmadağın etdi. Düşmən Ağdam, Kəlbəcər və Laçın rayonlarını döyüşsüz təhvil verməyə məcbur edildi. Heç şübhəsiz, əldə edilən bu möhtəşəm qələbənin əsas ilhamverici qüvvəsi Ali Baş Komandan, qələbəni qazanan müzəffər ordumuz, döyüşçülərimizə dəstək verən, arxa-dayaq olan isə yurdsevər xalqımız idi. Hərbi-siyasi informasiya və digər sahələrdə gedən müharibəni Prezident özü məharətlə idarə edirdi. Bu müharibə zərgər dəqiqliyi ilə həyata keçirilirdi. Dövlət başçısının hərbi əməliyyatlar dövründə son dərəcə məsul qərarlar qəbul edərkən göstərdiyi qətiyyətlilik, mərdlik, əzmkarlıq və siyasi iradə sayəsində Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsi uğurla başa çatdırıldı [1].

Müharibənin gedişində xalqımız düşmən qarşısında vahid toplum olmağın, güclü bir yumruğa çevrilməyin yeni bir nümunəsini yaratdı. Xalq öz təpəri ilə mübarizə meydanında, əsgərlərin yanında, dövlətin ətrafında olduğunu göstərdi. Müxtəlif idarə və təşkilatlar, ayrı-ayrı vətəndaşlar, hətta xarici ölkələrdə yaşayan soydaşlarımız da xalqımıza, ordumuza dəstək olur, Silahlı Qüvvələrə Yardım Fonduna ianələr edirdilər. Azərbaycan prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın başlatdıqları aksiyaya qoşulanların sayı sürətlə artırdı [6]. Torpaqlarımızı Ermənistanın işğalından azad etmək üçün başladılan əks-hücum əməliyyatlarını həyata keçirən Azərbaycan ordusuna dəstək məqsədilə xalqımız "Əsgərə sovqat" adlı misilsiz bir kampaniya təşkil etdi. Müxtəlif təşkilatlar, kollektivlər əmək haqlarından Silahlı Qüvvələrə Yardım Fonduna vəsait köçürürdülər. Əsgərlərimizin gündəlik istifadəsi üçün nəzərdə tutulan əşyalar-corab, papaq, əlcək, tibbi ləvazimatlar, dərman preparatları hərbi hissələrə təhvil verilirdi. Bu sovqatlar hərbi hissələrdən birbaşa döyüş bölgəsinə göndərilirdi. Döyüşən əsgərləri ruhlandırmaq, onlarla əlaqəni genişləndirmək və

mənəvi dəstək vermək üçün "Əsgərə məktub" aksiyası da genişləndi. Tanınmış elm və mədəniyyət xadimləri, müxtəlif kollektivlərin nümayəndələri, dini icmaların üzvləri hərbçilərlə görüşür, onların döyüş ruhunu, vətənpərvərliyini artırmaq üçün müxtəlif söhbətlər edirdilər [3].

Yurdsevər xalqımızın Vətən müharibəsi ilə Ermənistanın və onun havadarlarının işğala və tədricən Azərbaycan ərazilərinin ilhaqına əsaslanan planları alt-üst oldu. Regionda Azərbaycanın maraqlarına cavab verən yeni siyasi reallıq yarandı. Nəticədə, Azərbaycan vətəndaşlarının 30 ilə yaxın davam edən torpaq həsrətinə son qoyuldu.

Prezident İlham Əliyev İkinci Qarabağ müharibəsində qazanılan zəfərdə ümummilli birliyin və həmrəyliyin mütləq rolunu, haqlı olaraq çox yüksək dəyərləndirmişdir. "Əgər bu birlik olmasaydı, milli həmrəylik olmasaydı, biz heç vaxt torpaqlarımızı işğalçılardan azad edə bilməzdik. Bu illər ərzində bizə qarşı aparılan qara piar, qarayaxma, şər-böhtan kampaniyasının da əsas məqsədi o idi ki, bizi əsas vəzifəmizdən uzaqlaşdırsınlar, biz uzaqlaşaq, daxili problemlər içində boğulaq və işğal edilmiş torpaqlar işğalçıların əlində əbədi qalsın. Güclü siyasi iradə, xalq-iqtidar birliyi bu planları da alt-üst etdi [5]."

Beləliklə, 44 günlük Vətən müharibəsində Azərbaycan xalqı hamılıqla səfərbər olaraq 30 ilə yaxın düşmən tapdağı altında olan tarixi torpaqlarımıza qovuşa bildi və vətən həsrətinə son qoydu.

**Ədəbiyyat siyahısı**

1. https://mod.gov.az/az/pre/29023.html. Xalq-ordu birliyi

2. https://ikisahil.az/post/181553-tarixi-qelebemizin-esas-formulu-xalq-iqtidar-ordu-birliyi

3. https://xalqqazeti.com/mobile/az/news/64229

4. https://mi-news.az/xalq-dovl-t-ordu-birliyi-sarsilmazdir/

5. https://sesqazeti.az/news/politics/831034.html

6. https://azerbaijan-news.az/az/posts/detail/dovlet-xalq-ordu-birliyi-1640969684

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MİLLİ TƏHSİL QURUCULUĞUNDA XİDMƏTLƏRİ

## Natıonal Leader Hayder Alıyev's servıces ın the establıshment of natıonal educatıon

**Ruhiyyə İMANOVA**

Füzuli rayon 1 saylı tam orta məktəbin direktoru

İngilis dili müəllimi

### Xülasə

Müstəqillik illərinin başlanğıcında yeni iqisadi-siyasi quruluşla bağlı, Qarabağ müharibəsinin fəlakətli nəticələri ilə bağlı Azərbaycan təhsilininin uğradığı böhranlı vəziyyətdən çıxarıb yeni inkişaf yoluna qoyulması ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev təhsili başlıca ideoloji vasitələrdən biri hesab etməklə onun problemlərini bütövlükdə dövlətçiliyin ictimai-siyasi həyatı konteksində nəzərdən keçirilməsini vacib hesab edir. Dövlətçilikdə, cəmiyyət həyatında təhsilə nəticə kimi deyil, başlıca vasitə kimi baxır, uğur qazanmağın yeganə yolu hesab edir: "Həyat böyük bir prosesdir. Bu prosesdə uğurla iştirak etmək üçün insan müasir tələblərə uyğun olan təhsilə malik olmalıdır." Bu zərurətdən irəli gəldiyinə görə milli təhsil quruculuğunda Heydər Əliyev təhsilin beynəlxalq meyarlara uyğunluğunu Azərbaycan təhsilinin başlıca prinsiplərindən biri hesab edir. Buna görə də təhsil sahəsində mövcud olan problemlərin aradan qaldırılması və Azərbaycanda dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə uyğun təhsil strategiyasının həyata keçirilməsi üçün ciddi tədbirlər həyata keçirmiş, mühüm tarixi fərman və sərəncamlar imzalamışdır. Müstəqil Azərbaycan Respublikasının təhsil quruculuğunun başlıca istiqamətləri, xüsusiyyət və meyarları bilavasitə Heydər Əliyevin rəhbərliyi ilə millətin gələcəyinə, azərbaycançılıq ideologiyasına sadiq olan, əqli cəhətdən inkşaf etmiş, mənəvi cəhətdən yetkin, fiziki cəhətdən sağlam nəslin yetişdirilməsinə ünvanlanmışdır. İlk illər 1991-1993-cü illərdə təhsil müəssisələrinin pozulmuş fəaliyyəti normal vəziyyətə gətirilmiş, planlı islahatların əsası qoyulmuş, uşaqların təhsildən kənarda qalmasına imkan verməyən qanuni təsbitlər verilmişdir. Təhsilin maddi-texniki bazası yaxşılaşdırılmış, məcburi köçkünlərin müvəqqəti məskunlaşdığı rayon və şəhərlərdə ümumtəhsil məktəblər təşkil edilmiş, istedadlı uşaqların qabiliyyətinin inkişaf etdirmək məqsədilə lisey və gimnaziyalar təşkil edilərək şağirdlər bura cəlb edilmişdir. Habelə təhsil və müəllim dəyərlərini qorumaq üçün ölkənin düşdüyü ağır vəziyyətə baxmayaraq Heydər Əliyev "cəmiyyət haradan olursa olsun, nədən olursa olsun kəsib təhsilə xərcləməli, gənc nəslin təhsilinə, müəllimə kömək etməlidir" başlıca tələbi ilə pedaqoji işçilərin əmək haqqının artırılması barədə 9 xüsusi sərəncam imzalanmış, müəllim kadrlarının əmək haqqı 4.5 dəfə yüksəldilmişdir. Bundan başqa ikipilləli təhsil sisteminə keçilməsi, bu sistemin tələbinə uyğun proqram və məzmun yeniliyi, özəl məktəblərin təkmilləşdirilməsi, ölkədən kənarda dövlətçiliyin inkişafı üçün zəruri olan ixtisaslar üzrə təhsil almaq ənənəsinin bərpası və s. kimi təhsil sisteminin ayrı-ayrı sahələrindəki inkişaf meylləri bu dövrü xarakterizə edən əsas cəhətlərdir. Heydər Əliyevin ideyalarının, təməlini qoyduğu nəhəng quruculuq işlərinin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən böyük qətiyyət və uğurla həyata keçirilməyə başlandı. 2003-cü ildən bu günə qədər təhsil sahəsində mövcud islahatların dərinləşməsi, təhsilin elmi əsaslara söykənən dövlət proqramları vasitəsilə idarə olunması dövlət başçımızın bu sahədə qəbul etdiyi qərarlarla, verdiyi sərəncamlarla davam edir.

**Açar sözlər:** Heydər Əliyev, Təhsil quruculuğu, islahatlar, təhsil siyasəti

**Abstract**

At the beginning of the years of independence, Azerbaijan's education was brought out of the crisis situation in connection with the new socio-political structure, due to the disastrous results of the Karabakh war, and was put on a new path of development, due to the name of our national leader Heydar Aliyev. Considering education as one of the main ideological tools, Heydar Aliyev considers it important to consider its problems in the context of the social and political life of the state as a whole. In statehood and social life, education is not seen as a result, but as the main means, and considers it the only way to achieve success: "Life is a big process. In order to successfully participate in this process, a person must have an education that meets modern requirements. Due to this necessity, Heydar Aliyev considers the conformity of education to international standards as one of the main principles of Azerbaijani education in the construction of national education. Therefore, he took serious measures to eliminate existing problems in the field of education and to implement an educational strategy in Azerbaijan in accordance with the experience of the developed countries of the world, and signed important historical decrees and orders. The main directions, characteristics and criteria of the educational construction of the independent Republic of Azerbaijan are directly addressed to the future of the nation under the leadership of Heydar Aliyev, to the upbringing of a mentally developed, spiritually mature, physically healthy generation that is loyal to the ideology of Azerbaijaniism. In the first years, 1991-1993, the disturbed activity of educational institutions was brought back to normal, the foundation of planned reforms was laid, and legal provisions were issued that did not allow children to be excluded from education. The material and technical base of education has been improved, comprehensive schools have been established in districts and cities where IDPs temporarily live, lyceums and gymnasiums have been organized to develop the abilities of talented children, and students have been attracted to them. Also, in order to protect the values of education and teachers, despite the difficult situation in the country, Heydar Aliyev signed 9 special decrees on increasing the salary of teaching staff with the main request of Heydar Aliyev that "society should cut and spend on education, regardless of where it comes from, whatever it may be, and should help the education of the young generation and the teacher." the salary of its personnel has been increased 4.5 times. In addition, transition to a two-level education system, program and content innovation in accordance with the requirements of this system, improvement of private schools, restoration of the tradition of studying in the specialties necessary for the development of statehood outside the country, etc. development tendencies in separate areas of the education system are the main aspects characterizing this period. It was started to be implemented with great determination and success by the President of the Republic of Azerbaijan, Ilham Aliyev, who is a worthy follower of Heydar Aliyev's ideas and the huge construction works he laid the foundation for. From 2003 until today, the deepening of existing reforms in the field of education, the management of education through state programs based on scientific foundations continues with the decisions and orders issued by our head of state in this field.

**Key words:** Haydar Aliyev, Education construction, reforms, education policy

# KAFKASYA DENGE POLİTİKASI YÖNETİMİ: HAYDAR ALİYEV DÖNEMİ

BALANCE POLICY MANAGEMENT OF THE CAUCASIA: THE PERIOD OF HAYDAR ALIYEV

**Gümrah Can BAŞDAĞ**

Arş. Gör., Kilis 7 Aralık Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi SBKY Bölümü, gumrahbasdag@kilis.edu.tr

## ÖZET

Haydar Aliyev, Sovyet Rusya'sı döneminin önemli politikacılarından birisi aynı zamanda bağımsızlık sonrasında Azerbaycan'ın yeniden inşa edilme sürecinin mimarı kurucu bir liderdir. Gözetmiş olduğu denge politikaları sayesinde Azerbaycan'ı uluslararası toplumun bir parçası haline getirmiştir. Sovyet Sosyalist Cumhuriyetler Birliği'nin dağılmasının ardından kurmuş olduğu Kafkasya denge politikası sayesinde, Rusya ile bölgesel ülkeler arasında çatışma önleyici rol oynamıştır. Özellikle 1993-1995 yılları arasında Azerbaycan içişlerinde meydana gelen kaotik süreçleri ve darbe girişimlerini başarıyla atlatan Haydar Aliyev, uluslararası toplum önünde egemen bir devlet görüntüsünü verebilmek için çalışmalarını hızlandırmıştır. Jeopolitik ve jeostratejik önemine binaen yapılan ekonomik hamleler sayesinde de egemen devlet görünümünü pekiştirmiştir. Kaotik siyasi dönemleri başarıyla atlatan Aliyev, Batı'ya, özellikle işbirliği içerisinde olması mesajını vermesi ve bu işbirliği sayesinde ülke ekonomisinin gelecek gelişimini hızlandırması açısından Azerbaycan'ın dönüm noktalarına imzasını atmıştır. Haydar Aliyev, Kafkasya'da izlenecek denge siyasetinin Batı ile yapılacak işbirliğinden geçtiğinden hareketle özellikle Avrupa Birliği'nin önemli ülkeleri ile görüşmeler ve anlaşmalar yapmıştır. 1997 yılında İngiltere ile yapılan anlaşmalar sayesinde, Azerbaycan'ın demokratik kurumlarının oluşumu ve siyasi reformlar hız kazanmıştır. Soğuk savaş sürecinin sona ermesi, Batı ile ilişkilerin artması ve bu süreçte Rusya'ya hasmane değil dostça bir tavır sergilemesi Kafkasya denge siyaseti açısından Haydar Aliyev'i öne çıkaran bir lider konumuna getirmiştir. Bu çalışmanın amacı, Haydar Aliyev'in Kafkasya'da bir denge politikası izlerken, bir liderde olması gereken hangi özellikleri sayesinde bunları başarabildiği üzerinde inceleme yapmaktır. Bu amaçla literatür taraması yöntemi kullanılmış, yapılan incelemelerin ışığında, Haydar Aliyev'in denge politikası güden liderliği konusunun önemi vurgulanmak istenmiştir.

**Anahtar Kelimeler:** Haydar Aliyev, Kafkasya, Denge Politikası, Azerbaycan

## ABSTRACT

Haydar Aliyev is one of the important politicians of the Soviet Russia period and also a founding leader who is the architect of the rebuilding process of Azerbaijan after independence. Thanks to the balance policies it has observed, it has made Azerbaijan a part of the international

community. Thanks to the Caucasus balance policy established after the collapse of the Union of Soviet Socialist Republics, it played a preventive role between Russia and regional countries. Haydar Aliyev, who successfully survived the chaotic processes and coup attempts in Azerbaijan's internal affairs, especially between 1993-1995, accelerated his efforts to give the image of a sovereign state in front of the international community. Thanks to the economic moves made due to its geopolitical and geostrategic importance, it reinforced the appearance of a sovereign state. Aliyev, who successfully survived the chaotic political periods, marked the turning points of Azerbaijan in terms of giving the message to the West, especially of cooperation, and accelerating the future development of the country's economy thanks to this cooperation. Haydar Aliyev made negotiations and agreements with the important countries of the European Union, considering that the balance policy to be followed in the Caucasus was based on cooperation with the West. Thanks to the agreements made with England in 1997, it is important for the formation of democratic institutions of Azerbaijan and the acceleration of political reforms. The end of the cold war process, the increase in relations with the West and his friendly attitude towards Russia, not hostile, gave the image of a leader who put Haydar Aliyev forward in terms of the Caucasus balance policy. The aim of this study is to focus on what qualities Haydar Aliyev should have in a leader, while following a policy of balance in the Caucasus. For this purpose, the literature review method has been used, and in the light of the examinations, the importance of Haydar Aliyev's leadership with a balance policy has been emphasized.

**Keywords:** Haydar Aliyev, Caucasus, Balance Policy, Azerbaijan

## İşğaldan azad edilmiş ərazilərdə infrastruktur işlərinin aparılması tədbirlərinin iqtisadi təhlili

**i.u.f.d. Damirov Yashar Rafael**

**Azərbaycan Universiteti**

**Kazım Əkrəm oğlu Vəliyev**

**Magistr, Azərbaycan Universiteti**

**Xülasə**

Cari dövrdə Azərbaycan Respublikasının qarşısında duran ən mötəbər, strateji fəaliyyət istiqamətlərindən biri işğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi inkişafının təmin edilməsi ilk növbədə bu ərazilərdə infrastruktur işləri tədbirlərinin həyata keçirilməsinə əsaslanır.

Ölkəmiz qazandığı müxtəlif iqtisadi uğurları, onun müxtəlif iri iqtisadi inkişaf layihələrin icrasının təşəbbüskarı və regional iqtisadiyyatın lokomotivi rolunu oynaması, enerji təhlükəsizliyinin, Qərb-Şərq nəqliyyat qovşağının etibarlı tərəfdaşlarından birinə çevrilməsi fonunda işğaldan azad edilmiş ərazilərin iqtisadi potensialından səmərəli istifadə olunması, bu ərazilərin sosial-iqtisadi inkişafının təmin edilməsinə istiqamətlənrirəcəkdir.

*Açar sözlər:* İşğaldan azad edilmiş ərazilər, *Qarabağ və Şərqi Zəngəzur regionu, iqtisadi təhlil , infrastruktur layihələri, investisiya resursları.*

**Giriş**

Ölkəmizdə qurulan uğurlu Neft strategiyasının həyata keçirilməsi, onun maliyyə imkanlarını əhəmiyyətli dərəcədə gücləndirməsinə səbəb olmuşdur. İqtisadiyyat nazirliyinin tədqiqatlarına görə 1995-2021-ci illərdə Azərbaycan Respublikası iqtisadiyyatına 280 milyard dollar sərmayə qoyulub ki, bunun da yarısı xarici sərmayənin hesabına təmin edilmişdir. Artan iqtisadi güc ölkənin dövlətlər arası layihələrin icrasının təşəbbüskarı və regional iqtisadiyyatın lokomotivi olmağa imkan verməklə yanaşı və eləcədə Azərbaycan Respublikasının regional enerji təhlükəsizliyinin, Qərb-Şərq nəqliyyat qovşağının etibarlı tərəfdaşlarından birinə çevrilməsində yetərli zəminlər yaratmışdır. Eyni zamanda bu iqtisadi uğurlar müxtəlif iqtisadi inkişaf reytinqlərdə, dünya bankının "Doing Business" 2022 hesabatında Azərbaycanın ”ən islahatçı ölkə” adı olmaqla reytinqi 191 ölkə arasında yeri 25-ə yüksəlməsinə səbəb olmuşdur.

Ölkəmizdə Ali baş kamandan Cənab İlham Əliyev tərəfindən həyata keçirilən ardıcıl, məqsədyönlü islahatlar və kompleks tədbirlər nəticəsi, kimi ölkəmizin iqtisadi və hərbi-müdafiə qüdrətinin artması 44 günlük ikinci “Qarabag - Vətən” müharibəsində parlaq qazanılan qələbəyə möhkəm zəmin yaratmış oldu. Müzəffər ali baş komandan və ordumuz 2 il əvvəl yaratdığı yeni reallıq, ölkə iqtisadiyyatının növbəti 10 il ərzində 2 dəfə qədər artacağını güman etməyə zəmin yaratmışdır. Belə ki, Azərbaycan-Ermənistan münaqişəsinin 2020-ci ilin 9 noyabrında başa çatması, bundan sonra regionda təhlükəsizliyin, sabitliyin, firavanlığın, tərəfdaşlığın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşmasına, ticarət-iqtisadi əlaqələrin genişlənməsinə, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin istifadəsi yeni iqtisadi artıma təkan verəcəyi proqnozlaşdırılır.

Hazırda işğaldan azad edilmiş ərazilərin gələcək inkişafının, zəruri infrastrukturun yaradılmasının və əhalinin öz doğma yurdlarına qayıtmasının təmin edilməsi, bərpası istiqamətində genişmiqyaslı işlər aparılmaqdadır. Sanki, hazırki dövrdə işgaldan azad edilmiş ərazilər böyük tikinti meydançasını xatırladır.

Bazar iqtisadiyyatına keçid dövründə bu addım ölkəmiz üçün vacib addımdır. Qarabağın inkşafı fonunda ölkədə büdcə-vergi sisteminin inkşafı və dayanıqlılığının artması gözlənilir. Ölkədə maliyyə- pul göstəricilərinin qenaətbəxş olması da xüsusi haldır. Belə ki, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatına görə, 2020-ci, 2021-ci və 2022-ci illər üzrə uyğun olaraq ÜDM səviyyəsi 72.578, 93.203, 133.208 mlrd. manat, dövlət büdcəsinin gəlirləri uyğun olaraq 26.0779 və 26.6317 və 26.816 səviyyəsində olmuşdur. 2021-ci ilin yanvar-oktyabr aylarında ümumi daxili məhsulun artımı 4,9 faiz, qeyri-neft sektoru isə 5,9 faiz artımla ÜDM-in həcmi 71,6 milyard manat, adambaşına düşən ÜDM in həcmi 7148 manat və ya 4205 dollar təşkil etmişdir. 2021 ci ildə ÜDM-in struktur payında sənayenin payı 40,8 faizini, ticarət və nəqliyyatın - 10,3 faiz, nəqliyyat və anbar təsərrüfatı - 7,1 faiz, tikinti - 5 faiz, kənd və meşə təsərrüfatı əkinçilik, balıqçılıq - 6,7%, informasiya və rabitə sektoru üzrə - 1,8%, turistlərin yerləşdirilməsi sektoru üzrə və iaşə obyektləri - 1,2%, digər sektorlar üzrə -18,2%, idxala və mallara xalis vergilər -8,9% təşkil etmişdir.

Şübhəsiz ki, İşğaldan azad edilmiş ərazilərdə infrastruktur işləri tədbirlərinin həyata keçirilməsi məqsədilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının potensialından istifadəsi olunması respublikada yuxarıda göstərilən iqtisadi göstəricilərində səviyyəsini xeyli

yüksəltməyə imkan verəcəkdir. Qeyd etmək yerinə düşər ki, İşğala qədər ki, dövrdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında buğda yığımı səviyyəsi cəmi 15%-ə qədərini, üzümçülük məhsullarının 32%, bütün ət məhsullarının 17% -dən çoxu, 20% yun, yumurtanın 4,0 %-i, iribuynuzlu mal-qaranın 15%-dən çoxu, xırdabuynuzlu mal-qaranın 19%-i bu rayonların hesabına təmin edilirdi. Həmin dövrlərdə Laçın, Ağdam, Füzuli, Cəbrayıl və Kəlbəcər rayonlarında heyvandarlıq kənd təsərrüfatında dominant rol oynamış, yerli büdcənin əhəmiyyətli hissəsini təşkil etmişdir.

30 ildən artıq müddətdə həmin ərazilərin işğalda qalması nəticəsində regiondakı iqtisadi potensialdan tam istifadə edilməsindən müəyyən çətinliklər vardı və praktik olaraq hər 2 iqtisadi rayonun Azərbaycan iqtisadiyyatında payı 0.7% idi. Amma mövcud araşdırmalarla hər 2 iqtisadi rayonun yaxın illərdə xüsusən bərpa və yenidənqurma mərhələsindən sonra Azərbaycan iqtisadiyyatında payı 8-10% ə arta biləcəyini söyləyə bilərik. Bu o deməkdir ki, hər 2 iqtisadi rayon yaxın illərdə hər il 5 milyarddan artıq yeni dəyər formalaşdırmaq imkanına malik olacağı təxmin edilir.

İşğaldan azad edilmiş ərazilərin rekonstruksiyası və ərazilərə böyük qayıdış daima ölkə rəhbərliyinin nəzarəti altındadır. Azərbaycan və Türkiyə arasında bağlanan Şuşa bəyannaməsi də bu 2 ölkənin bu ərazilərdə dayanıqlı inkşafına yol açacaqdır. Bu ərazilərdə iqtisadiyyatın biznes, sahibkarlıq və digər qollarının inkşafı Azərbaycan rəhbərliyinin qarşısına qoyduğu əsas hədəflərdəndir. Ölkəmizin əhalisinin sağlam və güzəran olması üçün bu ərazilərdə xidmət göstərən obyektlərin açılması mühüm, zəruri tələblərdən biridir.

Qeyd edək ki, Qarabağın meşə, torpaq, faydalı qazıntı, su və qeyri-maddi resurslarla zəngin olması faktı, İşğaldan azad edilmiş ərazilərdə bərpa işlərinin aparılması üçün və yeni layihələrin icrası üçün yeni yerli işçi qüvvəsinə ehtiyac yarandığını və ölkədə işsizlizin azaldılmasında yeni imkanlar yaratdığını qeyd etmək lazımdır. İşğaldan azad edilmiş ərazilərimizdə yaşıl enerji,dağ-mədən,metallurgiya, emal sənayesinin, aqro-sahə və kənd təsərrüfatı və turizm kimi sahələrin həm dövlət həm də özəl yerli və xarici sərmayədarlar hesabına inkişaf etdirilməsi əsas hədəflərdəndir. Azərbaycanın işğaldan azad etdiyi torpaqlarda apardığı genişmiqyaslı bərpa-quruculuq beynəlxalq aləmdə də çox böyük heyrət yaratmışdır. İlk növbədə demək lazımdır ki, bu işlərin həcmi və surəti misilsiz tempdə aparılır. Ümumilikdə bu gün Azərbaycanın ərazilərinin 1/5 hissəsini təşkil edən əslində ana iqtisadiyyata inteqrasiya olunduqdan sonra sözün əsl mənasında əlavə dəyər yaradacaqdır.

İşğaldan azad edilmiş ərazilər iqtisadi baxımından da əhəmiyyətli rola malikdir. Torpaqlarımızın işğaldan azad edilməsi Azərbaycanda kənd təsərrüfatı məhsulları istehsalının artmasına eləcə də ölkədə ərzaq təhlükəsizliyinin gücləndirilməsinə həmçinin qeyri-neft məhsullarının ixracatının artmasına müsbət təsirini göstərəcəkdir. Ümumilikdə, İşğaldan azad edilmiş ərazilər iqtisadi potensialı baxımından hazırda bərpası istiqamətində genişmiqyaslı işlər aparılır və bütün bunlar işğaldan azad edilmiş ərazilərin gələcək inkişafının, zəruri infrastrukturun yaradılmasının və əhalinin öz doğma yurdlarına qayıtmasının təmin edilməsinə istiqamətlənmişdir.

Qeyd edək ki, bu işgal dan azad olunmuş bölgələr üzrə Qarabag və Şərqi Zəngəzur iqtisadi rayonlarında iqtisadiyyatın inkişafı üçün dövlət-özəl sektorların tərəfdaşlığı, vəhdəti əsasında aşağıdakı altı əsas istiqamət üzrə inkişaf istiqamətləri seçilməkdədir və bu hal daha

məqsəd uyğun hesab olunur: Mədən sənayesi;- Yüngül və qida sənayesi;- Kənd təsərrüfatı biznesi; - "Yaşıl Enerji"; - Nəqliyyat və anbar logistikası; - Turizm. Kimi sahələr aiddir.

Bu fəaliyyət sahələrinin inkişafı üçün təkcə 2021-ci ilin əvvəlindən işğaldan azad edilmiş ərazilərdə artıq sənaye, kənd təsərrüfatı, ticarət və xidmət sahələrini əhatə edən 73 investisiya layihəsi həyata keçirilməyə başlanmışdır. Və buralarda zamanla özəl investisiyaların aqrar-sənaye klasterlərinin, turizm, nəqliyyat, ticarət sektorları, bərpa olunan enerji mənbələri (RES), İT sektoru, startap təşəbbüslərinin formalaşmasının əsas mənbəyinə çevriləcəyi gözlənilir. Belə ki, təkcə Ağdam Sənaye Parkına birinci mərhələdə 50 milyon manatdan çox, sonrakı dövrdə isə 100 milyon manata və daha çox sərmayə qoyulması nəzərdə tutulur. Eyni zamanda, Araz Vadisi iqtisadi zonasına 30 milyon manatdan çox maliyyə inyeksiyası və bunun ardınca investisiya axınının dəfələrlə artması gözlənilir.

Xarici tərəfdaşların bu və digər layihələrində iştiraka hazır olmaları son dərəcə vacibdir, çünki bu, bizə bütün öhdəlikləri ən şəffaf şəkildə, aydın texniki parametrlərlə və vaxtında həyata keçirməyə, ən əsası isə müasir texnologiyaların transferini təmin etməyə imkan verəcək. Xarici investorların iştirakı beynəlxalq donor strukturlarından qrantların cəlb edilməsi, texniki və konsaltinq yardımı, vençur kapitalının cəlb edilməsi üçün mühüm şərtdir. Eyni zamanda iqtisadi fəaliyyətin canlandırılması və əlverişli biznes mühitinin yaradılması, regionda emal sənayesi və xidmət infrastrukturunun formalaşdırılması ilə məşğul olan sahibkarlara əlavə güzəştlər verilməsidə əsasdır. O cümlədən, dövlət başçısının sərəncamı ilə işğaldan azad edilmiş ərazilərdə yaşayan sakinlər belə 2023-cü il yanvarın 1-dən 10 il müddətinə gəlir (gəlir), əmlak, torpaq və sadələşdirilmiş vergini ödəməkdən azad ediliblər. Bütövlükdə buna bənzər maliyyə mexanizmlərinin alt elementlərinin vergi güzəştlərinin real sektorun bütün sahələrini - ticarət, xidmət, istehsal, tikinti sektoru, hasilat sənayesi və s. müsbət təsiri hissi olunacaq iqtisadi faydanı formalaşdıracağı qeyd olunmalıdır.

**Nəticə**

İşğaldan azad edilmiş ərazilərimizin iqtisadi dirçəlişini təmin etmək üçün yeni iqtisadi fəaliyyət sahələri üzrə strategiyalardan istifadə olunması zəruridir. İşğaldan azad edilmiş ərazilərimizin inkişafına dəstək göstərilməsi məqsədi ilə yuxarıda sadalanan istiqamətlər üzrə konkret addımların atılması zəruri hallardan hesab olunur.

Ədəbiyyat siyahısı

1. “İnvestisiya fəaliyyəti haqqında” 13. 01.1995 tarixli AR qanunu.
2. “İnvestisiyaların qorunması haqqında” Azərbaycan Respublikası qanunu
3. Hüseyn A.C.,Əhmədov M.A., (2011), İqtisadiyyatın dovlət tənzimləməsinin əsasları. Bakı: UNEC– . 120 s.
4. “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası prezidentinin sərəncamı
5. Doing Business in Azerbaijan - World Bank Group
6. www.taxes.gov.az
7. www.azstat.orq
8. www.maliyye.gov.az
9. İqtisadiyyat.com (iqtisadiyyat.com)

# ANA DİLİMİZİN HAMİSİ- HEYDƏR ƏLİYEV

**Nəzrin Tahir qızı İsmayılova**

***ADPU, Filologiya fakültəsi, müəllim***

**email: nezrinismayilova011@gmail.com**

**orcid ID: 0000 – 0002 – 4565 – 9664**

**Xülasə**

Dil təfəkkürə və mədəniyyətə münasibətdə müəyyənedici vasitə olaraq insanın şəxsiyyətini formalaşdıran amildir. Hər bir xalqın, hər bir millətin var olmasının ən başlıca səbəbi özünəməxsus dilinin olmasıdır.

XX əsrin ikinci yarısında Azərbaycan dilinin hərtərəfli inkişafı, ümumişlək dilə, dövlət dilinə çevrilməsi, diplomatiya aləminə yol açması, dünyanın böyük dövlətlərinin və beynəlxalq təşkilatların kürsülərində səslənməsi bilavasitə Heydər Əliyevin adı ilə bağlıdır.

Heydər Əliyevin dövlət quruculuğunda əhəmiyyətli bir yerdə duran dil siyasəti və onu inkişaf etdirməyin yolları haqqında söylədiyi fikirlər bizə Azərbaycan dilini xalqın mənəvi varlığı kimi sevməyi, dilin zəngin söz xəzinəsindən bacarıqla istifadə etməyi, dilin qayğısına qalmağı, onun saflığını qorumağı, onunla fəxr etməyi, onu dərindən bilməyi, mükəmməl mənimsəməyi, ana dilimizin gözəlliyini duymağı, bu gözəlliyi hər zaman hər yerdə təbliğ etməyi, bu dildə düzgün danışmaqla hamıya nümunə olmağı öyrətdi. Göründüyü kimi, Heydər Əliyev, qurub-yaratdığı Azərbaycanda xalqın mədəni, intellektual, milli-mənəvi inkişafının təməllərindən biri kimi milli dil siyasətinə böyük əhəmiyyət verirdi, bu yolda bir əsgər kimi mübarizə aparırdı.

Heydər Əliyev dühası ilə dilimiz həm ölkəmizdə, həm də xaricdə diplomatik dil səviyyəsində ən yüksək zirvəyə çatdı. Ana dilinin zəngin söz ehtiyatından qidalanan bu dahi şəxsiyyət hamını öz dilində dindirib danışdırmaqda məharətli idi. O, ana dilimizin saflaşdırmağın canlı mücəssəməsi idi.

Azərbaycan dövlət müstəqilliyinin rəmzlərindən sayılan Azərbaycan dili Ulu Öndər H.Əliyevin əvəzsiz xidmətləri sayəsində xalqın milli mənəvi sərvətinə çevrilərək kamillik zirvəsini yaşamaqdadır.

**Açar sözlər: Ulu Öndər, ana dili, xalq, dil siyasəti, nitq, milli dəyər.**

**Резюме**

Язык является фактором, формирующим личность человека как определяющий инструмент по отношению к мышлению и культуре. Главная причина существования каждого народа, каждой нации в том, что у них есть свой язык.

Во второй половине 20 века всестороннее развитие азербайджанского языка, превращение его в общеупотребительный язык, государственный язык, открывающий путь в мир дипломатии, и заслушивание в креслах великих держав мира и международные организации имеют прямое отношение к имени Гейдара Алиева.

Мысли Гейдара Алиева о языковой политике, играющей важную роль в государственном строительстве, и путях ее развития говорят нам любить азербайджанский язык как духовное достояние народа, умело пользоваться богатым словарным запасом языка, беречь языка, беречь его чистоту, гордиться им, знать его глубоко., научил нас в совершенстве владеть, чувствовать красоту родного языка, пропагандировать эту красоту во все времена и всюду, быть примером каждому, правильно говоря на этом языке. Как видно, Гейдар Алиев придавал большое значение национальной языковой политике как одной из основ культурного, интеллектуального, национально-духовного развития народа в Азербайджане, который он основал и сражался как солдат на этом пути.

Благодаря гениальности Гейдара Алиева наш язык достиг высочайшего уровня дипломатического языка как в нашей стране, так и за рубежом. Этот гений, питаемый богатым словарным запасом своего родного языка, умел заставить всех слушать и говорить на его родном языке. Он был живым воплощением утонченности нашего родного языка.

Азербайджанский язык, считающийся одним из символов государственной независимости Азербайджана, благодаря неоценимым заслугам Великого лидера Г.Алиева стал национальным нравственным достоянием народа и переживает вершину совершенства.

**Ключевые слова: Великий Вождь, родной язык, народ, языковая политика, речь, национальная ценность.**

**Summary**

Language is a factor that forms a person's personality as a determining tool in relation to thinking and culture. The main reason for the existence of each people, each nation is that it has its own language.

In the second half of the 20th century, the comprehensive development of the Azerbaijani language, its transformation into a common language, the state language, opening the way to the world of diplomacy, and being heard in the chairs of the great powers of the world and international organizations are directly related to the name of Heydar Aliyev.

Heydar Aliyev's thoughts on the language policy, which plays an important role in state building, and the ways to develop it, tell us to love the Azerbaijani language as a spiritual asset of the people, to skillfully use the language's rich vocabulary, to take care of the language, to protect its purity, to be proud of it, to know it deeply. , taught us to master perfectly, to feel the beauty of our mother tongue, to promote this beauty at all times and everywhere, to be an example to everyone by speaking this language correctly. As it can be seen, Heydar Aliyev attached great importance to the national language policy as one of the foundations of the cultural, intellectual, national-spiritual development of the people in Azerbaijan, which he founded, and fought like a soldier on this path.

With the genius of Heydar Aliyev, our language reached the highest level of diplomatic language both in our country and abroad. This genius, nourished by the rich vocabulary of his

mother tongue, was adept at making everyone listen and speak in his own language. He was the living embodiment of the refinement of our mother tongue.

The Azerbaijani language, which is considered one of the symbols of Azerbaijan's state independence, has become the national moral wealth of the people thanks to the invaluable services of the Great Leader H. Aliyev, and is experiencing the peak of perfection.

**Key words: Great Leader, mother tongue, people, language policy, speech, national value.**

**Giriş.** Millətin ən əsas milli dəyəri və onun milliliyini təmin edən vacib atributu dildir. Çünki dilimiz milli varlığımızı mədəni təməllərə bağlayır. Milli-mənəvi sərvətimizdən, mənəviyyatımızdan bəhs olunanda, ilk növbədə öz ana dilimiz yada düşür. Bir xalqın ana dili yoxdursa, demək, həmin xalqın özü də yoxdur. Bir milləti ayaqda tutan milli dəyərlərin başında dil gəlir. Ümummilli liderimiz Heydər Əliyevin dilimizlə bağlı çox zəruri və aktual olan bir məsələyə münasibəti hamımız üçün çox vacib bir vəzifə müəyyənləşdirir: “Xarici dil bilmək, əlbəttə ki, lazımdır, vacibdir. ...gənclərimiz nə qədər çox dil bilsələr bir o qədər zəngin dünyagörüşünə malik olacaqlar. Bu, müasir dünyanın tələbləridir. Amma ən əsası odur ki, hər bir azərbaycanlı öz ana dilini – Azərbaycan dilini, dövlət dilini mükəmməl bilməlidir”.

Ana dili təkcə anadan öyrəndiyimiz dil deyil, həm də düşüncələrimizin, duyğularımızın və mənliyimizin dilidir. Düşünsək ki, bu gün sahib olduğumuz bu böyük milli varlığın yaşı min illərlə ölçülür, deməli, hər sözümüz, hər kəlməmiz bir tarix, dəyəri qızıl deməkdir. Kömür almaz olana, qızıl qızıl olana qədər torpağın altında min illərlə bişir. Bizim hər sözümüz, hər kəlməmiz də belədir; tarixlərin sınağından çıxmış, mədəniyyətimizin müxtəlif qollarını yaratmış almaz düzümlü dilimiz milli ruhumuzun bərqərar olduğu milli-mənəvi dəyərimizdir. Dil millətin varlığını təmin edirsə, onda üzərimizə düşən məsuliyyətin böyüklüyü də aydın olur. Bu məsuliyyəti daşımağın şərəfi də bizimdir.

XX əsrdə Azərbaycan xalqının taleyində sönməyən əbədi bir ulduz parladı. İti ağlı, dərin zəkası, uzaqgörənliyi və xalqsevərliyi ilə hamını heyrətdə qoyan ulu öndərimiz H.Əliyev milli dövlət quruculuğunda dil siyasətini ön plana çəkdi və bununla da ana dili – Azərbaycan dili ən yüksək inkişaf mərhələsinə çatdı. Onun öz sözlərindən sitat gətirmək yerinə düşər:

“Bütün xalqlarda olduğu kimi, Azərbaycan xalqının ana dili onun milli varlığını müəyyən edən başlıca amillərdəndir… İnkişaf etmiş zəngin dil mədəniyyətinə malik olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Ona görə də xalqımıza ulu babalardan miras qalmış bu ən qiymətli milli sərvəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir. Bu, onun müqəddəs vətəndaşlıq borcudur”.

Ümummilli lider Heydər Əliyev hələ sovet dövründə quruluşun müəyyən təzyiqlərinə, diktələrinə baxmayaraq Azərbaycan dilinin ölkəmizdə dövlət dilinə çevrilməsində böyük xidmətlər göstərdi. Dilin inkişafı ilə bağlı Ulu Öndərin müntəzəm olaraq verdiyi fərman və sərəncamlarda, eləcə də tövsiyələrdə, çıxış və məruzələrdə vaxtaşırı bu məsələdə ortaya çıxan ciddi problemlərin həlli vacib sayılırdı. O ziddiyyətli dövrdə yenə də Azərbaycanın yazıçı və şairləri dilimizin keşikçisi olmaq missiyasını ləyaqətlə yerinə yetirdilər. Onlar ana dilində yazıb-yaratdılar. Bunun da nəticəsində dilin şirinliyi, təbiiliyi qorunub saxlandı. Əlbəttə, bizim milli varlığımızın əks-sədası ana dilimizdir. Onun başının üstünü almış təhlükəni də millətdən

uzaqlaşdıran, dilin statusunu özünə qaytaran, ona yeni həyat verən məhz ümummilli lider Heydər Əliyev oldu. Ədəbiyyat və mədəniyyət xadimlərinin uzun illər sətiraltı mənalarda, bədii əsərlərdə, nitq və çıxışlarında ifadə etdikləri arzuları yenə də Ulu Öndər reallaşdırdı.

Milli dəyərlərimizə fəaliyyəti boyu himayədarlıq edən böyük rəhbərimiz hakimiyyətə gəldiyi elə ilk gündən ana dilimizə layiq olduğu statusu verdi və bunu bütün fəaliyyəti boyu ən yüksək səviyyədə davam etdirdi. Bəhs etdiyimiz məsələ ilə bağlı bütün dövlət sənədləri elə bil ki, biri digərinin davamı oldu. Doğru deyilib: "Hər bir dili yaşadan və inkişaf etdirən onun mənsub olduğu xalqdır. Dilin hərtərəfli inkişafı, zənginləşməsi, yüksək zirvələrə qalxaraq beynəlxalq nüfuz qazanması xalqın böyük övladlarının adı ilə bağlıdır". Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 1969-cu ilin iyul ayında hakimiyyətə gələndən sonra bu məsələlərə çox diqqətlə yanaşılmış, onların milli mənafedən həlli məsələləri ön planda dayanmışdır. Heydər Əliyev ağıl və cəsarətlə ilk növbədə Azərbaycan dilinin dövlət dili olmasını qanuniləşdirdi.

Müstəqillik illərində bu siyasət açıq, kompleks şəkildə, ardıcıl yürüdülməyə başladı. Azərbaycan xalqının daha mütəşəkkil millət kimi formalaşdırmağa imkan qazanıldı. Milli olan, millət üçün vacib olan hər şey millətin formalaşması və özünəqayıdışı üçün daha açıq planda sərbəst milli inkişaf məhsuluna çevrildi. Ana dili, din, milli-mənəvi dəyərlər, tarix, ədəbiyyat, mədəniyyət və s. millətə yeni, lüzumlu şəkildə təqdim edilməyə, fərdlərin münasibətlərinin, milli mənlik şüurunun formalaşması, tənzimlənməsi və yaranması istiqamətinə yönləndirildi. Hər şeydən öncə müstəqil Azərbaycan Respublikasında milli dil siyasəti yürüdülməyə başlandı. Çünki Ulu Öndər ana dilinin milli-tərbiyəvi əhəmiyyətini həmişə üstün tutur və vacib olduğunu bildirirdi. Ümummilli Lider deyirdi: "Öz dilini bilməyən, öz dilini sevməyən adam öz tarixini yaxşı bilə bilməz. ...doğma Azərbaycan dilimizi mənimsəyəcək və bunlar hamısı hər bir gənc Azərbaycan övladında yüksək vətənpərvərlik hissləri yaradacaqdır". Ulu Öndərin bilavasitə uzaqgörən fəaliyyəti ilə milli dil siyasətini həyata keçirə biləcək tarixi əhəmiyyətli dövlət qərarları verildi.

Nəzərə alsaq ki, bu gün planetimizdə yaşayan minlərlə millət və etnik qrup sayı heç iki yüzə çatmayan dövlətlərin bayrağı altında cəmləşib və sayı 200-ə yaxın olan bu dövlətlərin rəsmi dövlət dillərinin sayı 70-i keçmir, onda hər hansı bir millətin öz dilinin öz dövlətində dövlət dili olmasının əhəmiyyətini dərk etmək o qədər də çətin olmaz. Bu mənada, dilin dövlət dili statusu qazanması, həqiqətən, qürur gətirən tarixi hadisədir. Ana dilimiz- Azərbaycan dili bu tarixi hadisəni yaşayıb. Bu gün dilimizin dövlət statuslu dillər arasında olmasına görə dilimizin mənəvi dirilik atributuna çevrilməsi yolunda böyük fədakarlıqlar göstərmiş, "Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm" - deyən Ümummilli lider Heydər Əliyevə minnətdar olmalıyıq. Ölkəmizdə ana dilinin hərtərəfli inkişafı, işlək dilə çevrilməsi, beynəlxalq münasibətlər sisteminə yol tapması ana dilimizin gözəl bilicisi, mahir natiq ulu öndər Heydər Əliyevin dilin qorunmasına yönələn düşünülmüş siyasətinin nəticəsidir. Bu siyasətin əsası hələ 1970-ci ildə qoyulub. Heydər Əliyev həmin il Bakı Dövlət Universitetinin 50 illik yubileyində Azərbaycan dilində çıxış edir. Az keçməmiş bu dil dövlət əhəmiyyətli tədbirlərə yol açır və kürsü dili səviyyəsinə qalxır. Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi qəbul edilməsi isə həmin dövr üçün əhəmiyyətli hadisə idi. Müstəqillik ərəfəsi və onun ilk illərində dilin adının dəyişdirilməsi, onunla bağlı ənənələrin nəzərə alınmaması indi də təəssüf doğurur. 1995-ci ildə qəbul edilən konstitusiya ilə dövlət dilinin adı

bərpa olundu. Bundan sonra hökumət səviyyəsində ana dilinin inkişafı və qorunması istiqamətində əhəmiyyətli sənədlər qəbul edildi. Azərbaycan Konstitusiyasının 45-ci maddəsi ilə hər kəsin ana dilindən istifadə etmək, istədiyi dildə tərbiyə və təhsil almaq, yaradıcılıqla məşğul olmaq hüququ təsbit olunur. Konstitusiyamıza görə, heç kəs ana dilindən istifadə hüququndan məhrum edilə bilməz. 2001-ci il iyunun 18-də Prezident Heydər Əliyev "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərman imzaladı. Bu sənəd ana dilimizin inkişafı üçün böyük imkanlar yaratdı. Fərmanda deyilir: "İnkişaf etmiş zəngin dil mədəniyyətinə malik xalq əyilməzdir, böyük gələcəyə malikdir. Ona görə də xalqımıza ulu babalardan miras qalan bu ən qiymətli milli sərvəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir. Bu, onun müqəddəs vətəndaşlıq borcudur". Ana dilinin daha da inkişaf etdirilməsi, işlənməsi və saflığının qorunması ilə əlaqədar müxtəlif illərdə dövlət başçısı tərəfindən fərmanlar imzalanmış və Milli Məclis tərəfindən qanunlar qəbul edilmişdir. 2002-ci il 30 sentyabr tarixdə "Azərbaycan Respublikasında Dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanununun qəbul edilməsi Azərbaycan dilinin dövlət dili kimi işlədilməsi, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi, dünya azərbaycanlılarının Azərbaycan dili ilə bağlı milli-mədəni özünümüdafiə ehtiyaclarının ödənilməsi istiqamətində daha bir addımdır. Bu sənəd Ümummilli lider Heydər Əliyevin xalqımıza və onun dilinə tükənməz məhəbbətinin, qayğısının parlaq nümunələrindən biridir. Bu əsnada onu bir daha vurğulamaq lazımdır ki, dil hər şeydən əvvəl ünsiyyət vasitəsidir, bununla bahəm, dil millətin simasını səciyyələndirən amillərdən biri, bəlkə də, birincisidir. Xalqın taleyi, onun mənliyi, mənəviyyatı və mədəniyyəti olan dil cəmiyyətin təşəkkülü və inkişafı ilə birgə yaranmış, tərəqqi etmişdir. İnsanın təkamülündə ana dilinin rolu böyükdür. Millətin milli dilinin dövlət statusuna yüksəlməsi isə tarixi hadisə, milli dövlətçilik tarixinin qızıl səhifəsidir. Bu məqam millətin millət olaraq təsdiqidir. Çünki dilin dövlət dili statusuna yüksəlməsi millətin öz taleyinə sahibliyinin, dövlət qurmaq və qorumaq qüdrətinin, eyni zamanda dilinin zənginliyinin sübutudur.

**Nəticə.** Azərbaycanda siyasi natiqliyin formalaşmasında da Heydər Əliyevin əvəzsiz xidmətləri olmuşdur. Ulu öndərin nitqi öz səmimiliyi, zənginliyi, orijinallığı ilə dünyanın siyasi xadimlərinin nitqləri ilə müqayisə oluna bilər. O çıxışlarında şifahi nitqə üstünlük verib, yazılı məruzə və ya çıxışlardan, demək olar ki, imtina edirdi.

Ümummilli liderin çıxış etdiyi auditoriyalar öz zənginliyi ilə seçilirdi. O, həm də əzəmətli görkəmi, baxışı, səsi ilə auditoriyanın diqqətini özünə çəkə bilirdi. Ana dilini ürəkdən sevən, bu dildə danışmağı ilə fəxr edən Ümummilli Lider bənzərsiz nitqlərində, dərin məzmunlu çıxışlarında dilimizin rəngarəng ifadə vasitələrindən ustalıqla istifadə edirdi. Onun natiqlik məharətini ana dilini gözəl bilməsi, bu dildən mənəvi zövq alması şərtləndirir.

Ulu Öndər həmçinin nitqimizin inkişafında mətbuatın da rolunu qeyd etmiş, bu istiqamətdə öz tövsiyələrini vermişdir. O göstərir ki, televiziya verilişlərinin aparıcıları sözləri, ifadələri elə düzgün tələffüz etməlidirlər ki, danışığımız, nitqimiz aydın, cazibədar olsun.

Ana dilimizin inkişafı sahəsində əvəzolunmaz xidmətlər göstərmiş Ümummilli liderimiz Heydər Əliyev həm də ana dilimizi sevmək, onu bilmək və yaşatmaq, inkişaf etdirmək və təbliğ etmək məsuliyyətini də bir vəzifə kimi müəyyənləşdirərək hər bir azərbaycanlıya, gələcək nəsillərə əbədiyaşar sözlərilə səslənirdi: "...Biz dünyada öz dilimizlə tək yaşayırıq. Bizim birinci nailiyyətimiz o olmalıdır ki, öz dilimizi Azərbaycanda hakim dil etməliyik. Hər bir azərbaycanlı öz ana dilini bilməlidir, bu dildə səlis danışmalıdır və bu dili sevməlidir...

Azərbaycan dilini daha da zənginləşdirmək, daha da inkişaf etdirmək sizin ən müqəddəs borcunuzdur".

**Ədəbiyyat siyahısı:**


1. Azərbaycan Respublikasında dövlət dili haqqında Azərbaycan Respublikasının Qanunu (30 sentyabr 2002)
2. Azərbaycanı dünyaya tanıdan böyük şəxsiyyət, *https://www.azerbaijan-news.az/index.php/az*
3. Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında Azərbaycan Respublikası prezidentinin fərmanı.
4. Gənclər siyasəti haqqında Azərbaycan Respublikasının Qanunu, hrome-extension://efaidnbmnnnibpcajpcglclefindmkaj/https://youthfoundation.az/wp-content/uploads/2019/04/297-IIQ-Gənclər-siyasəti-haqqında-1.pdf
5. Timuçin Əfəndiyev. (az.). 525-ci qəzet https://525.az/news/91065-heyder-eliyev-fenomeni-ve-milli-medeniyyetimiz


## H.ƏLİYEV SİYASƏTİNDƏ DİLİMİZ

**Наш язык в политике Г. Алиева**

**Our languag in H. Aliyev's policy**


**Dr. Mahirə ABDULLAYEVA**

**Azərbaycan Dövlər Pedaqoji Universitetinin**

**Azərbaycan dili və onun tədrisi texnologiyası**

**kafedrasının baş müəllimi**

**E-mail-mahiremovlud56@mail.ru**



**X Ü L A S Ə**

Tezisdə Ulu Öndərimiz Heydər Əliyevin ana dilinə, Azərbaycana və xalqına olan məhəbbəti işıqlandırılır, ulu rəhbərin verdiyi qanun və sərəncamların ölkə üçün nə qədər əhəmiyyətli olduğu açıqlanır. Ümummilli Lider Heydər Əliyevin düzgün və uzaqgörən siyasəti nəticəsində ölkəmizdə quruculuq işlərinin uğurlu getməsi nəzərə çatdırılır, müəyyən vaxtlarda verilmiş qərar və sərəncamlarının nə dərəcədə Azərbaycan üçün önəmli rol oynadığı vurğulanır.



**Açar sözlər** Ulu öndər, ümummilli lider, Azərbaycan, təhsil, dilimiz, siyasət.

**Р Е З Ю М Е**

В тезисе рассказывается о беспримерных заслугах Великого лидера Гейдара Алиева перед Азербайджаном и его народом. Освещается его любовь к нашей Родине и Родине, объясняется, насколько важны для страны законы и распоряжения, издаваемые великим вождем. В результате правильной и дальновидной политики общенационального лидера Гейдара Алиева доводится до сведения успешный ход социально-экономического и культурного развития и строительных работ в нашей стране, а также то, насколько решения и распоряжения, времена играют важную роль для Азербайджана.

**Ключевые слова.** Великий лидер, общенациональный лидер, Азербайджан, образование, наш язык, политика

**S U M M A R Y**

The thesis talks about the unparalleled services of Great Leader Heydar Aliyev to Azerbaijan and its people. His love for our motherland and motherland is illuminated, and it is explained how important the laws and orders issued by the great leader are for the country. As a result of the correct and far-sighted policy of National Leader Heydar Aliyev, the successful progress of socio-economic and cultural development and construction works in our country is brought to mind, and the extent to which the decisions and orders made at certain times play an important role for Azerbaijan is emphasized.

**Key words** Great leader, national leader, Azerbaijan, education, our language, politics.

**G İ R İ Ş**

Ana dilimizin inkişafında və bu dilin dünya arenasına çıxması uğrunda əlindən gələni edən Azərbaycan xalqının ümummilli lideri Heydən Əliyev ana dilimiz barədə dediyi başqa bir fikrə diqqət edək: “Ana dilimiz bizim sərvətimizdir. Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan inkişaf etdirən onun dilidir. Dil böyük bir aləmdir. Hər bir xalq öz dili ilə yaranır, ancaq xalqın dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə çatdırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur”(1,s.7).

Müstəqilliyin ilk ilində, 1991-ci ildə latın qrafikalı Azərbaycan əlifbası qəbul olumuş, lakin o bütün gücü ilə işləyə bilmirdi. Yalnız Ümummilli Liderimiz Heydər Əliyev bu məsələnin birdəfəlik həllinə nail olmuşdur. O, imzaladığı “Dövlət dilinin tətbiqi işinin təkmilləşməsi haqqında” 18 iyun 2001-ci il tarixli 506 saylı fərman dilimizin inkişafı və tətbiqi sahəsində meydana çıxan problemlərdə həlledici rol oynamışdır.

Ümummilli liderimiz H.Əliyevin rəhbərliyi altında 12 noyabr 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitutsiyası sənədinə suveren Azərbaycan dövlətinin Əsas Qanununa Dövlət dili haqqında müddəa daxil edildi. Bu Ulu Öndərimiz H.Əliyevin ana dilimizə rəsmi status verilməsi uğrunda apardığı çoxillik mübarizənin nəticəsi idi. H.Əliyev Azərbaycan dilini, Azərbaycan dövlətinin əsas atributu və ən mühüm amillərindən biri hesab edərək deyirdi: “ Ana dilimizə hörmət və qayğı daimi olmalıdır. Biz ana dilimizi xarici

təsirlərdən qorumalıyıq. Ana dilimiz bizim toxunulmaz sərvətimizdir. Azərbaycan xalqının formalaşmasında, müstəqil Azərbaycanın qurulmasında ana dilimiz – Azərbaycan dili müstəsna rol oynamışdır. Biz elə etməliyik ki, dilimizin saflığını daim qoruyaq. Bu məsələyə çox ciddi diqqət yetirilməlidir"(2, s.4).

Ana dilimizin statusunun təminatı və tətbiqinin təkmilləşdirilçəsi ilə bağlı 20-dən artıq sənəd - qanun və sərəncamlar verilmişdir ki, bunlrın da əksəriyyəti Ulu Öndər H.Əliyevin sayəsində olmuşdur.

Azərbaycan dilimizin inkişafı və təkmilləşdirilməsi barədə Heydən Əliyevin verdiyi sərəncamlardan bir neçəsini sadalamaq yerinə düşər.

18.06.2001-ci ildə "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında, daha sonra 04.06.2001-ci ildə 766 saylı sərəncamla "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında", yenə də o illərdə 19.08.2001-ci və 02.01.2003-cü illərdə "Azərbaycan Respublikasının Dövlət dili haqqında Azərbaycan Respublikasının qanununun tətbiq edilməsi" barədə verdiyi sərəncamlar Heydər Əliyevin ana dilimizə olan qayğısının bariz nümunəsidir.

Bu tarixi sənədlər dilimizin tətbiqi işinin daha mükəmməl səviyyədə həyata keçirilməsinə stimul verdi, latın qrafikalı Azərbaycan əlifbasına keçidi sürətləndirdi.

Dilimizin qorunması, ökədə fəaliyyətinin təmin olunması kimi sənədlər H.Əliyevin müstəsna xidmətlərindəndir.

Azərbaycan dilinin XX əsrin sonu, XXI əsrin əvvəllərində Dövlət dili statusu qazanması, diplomatiyaya yol açması, ən yüksək kürsülərdən səslənməsi biləvasitə Ulu Öndərin adı ilə bağlıdır.

Ana dilinə sayqı və qayğı H.əliyevin həyat amalına çevrilmişdi. Xalqının milli və mənəvi sərvətlərini, o cümlədən ana dilini qorumaq onun əsas prinsipi idi. Bu yolda çox böyük əmək sərf etmiş ulu rəhbər istədiyinə nail oldu və bu gün Azərbaycan dili özünün çiçəklənmə dövrünü yaşayır və inkişaf edir.

## ƏSAS HİSSƏ

Ulu Öndər H.əliyevin çıxışlarına diqqət etsək dil siyasəti, dil quruculuğu, dil mədəniyyəti, yazı və əlifba barədə dəyərli fikirlərə rast gələ bilərik. O, ana dilimizə, Azərbaycan dilinə mənəvi sərvət kimi baxan bir dövlət başçısı olaraq dilimizi çox yüksəkliklərdə tutaraq milli mənliyimiz, tariximiz, mədəniyyətimiz adlandırırdı.

H.Əliyevin Gənclərin I Forumundakı nitqinə diqqət tsək ana dilimizə verdiyi qiymətin bir daha şahidi olarıq: "Məni bu gün forumda sevindirən cəhətlərdən biri də o oldu ki, çıxış edən bütün gənclər çox sərbəst, səlis Azərbaycan dilində danışırdılar. Bir neçə il öncə bunu görmək mümkün deyildi" (2,s.6).

Ulu Öndər H.Əliyev daha sonra belə demişdi: "Bilirsiniz, hər bir azərbaycanlı gənc çalışmalıdır ki, dünyanın çox dillərini – rus dilini də, ingilis dilini də, fransız dilini, ərəb, fars dillərini də mənimsəsin, öyrənsin. Bu lazımdır, çünki müasir dünya öklkələrinin bir-biri ilə sıx əlaqəsi bu gün və gələcəkdə insanlardan bir çox dilləri bilməyi tələb edir. Amma bunlarla yanaşı öz dilimizi, Azərbaycan dilini mənimsəmək lazımdır, bu dildə yaxşı danışmaq lazımdır, bu dili ana dili kimi duymaq, sevmək lazımdır" (2,s.6).

O illərdə xalqımızın başlıca qayğıları respublikamızın sərhədlərinin toxunulmazlığını, ərazi bütövlüyünü, dövlət müstəqilliyini qorumaqdan, respublikamızı inkişaf etmiş demokratik dövlətlər siyahısına qaldırmaqdan ibarət idi. Bu gün nə qazanmışıqsa Heydər Əliyevin yürütdüyü düzgün və uğurlu siyasətin nəticəsidir. Azərbaycan yalnız Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra özünün geosiyasi imkanlarını gerçəkləşdirməyə başladı. "Onun siyasi zəkası sayəsində Azərbaycanın beynəlxalq aləmdən təcrid olunmaq təhlükəsi aradan qaldırıldı. Bu gün Azərbaycanın suverenliyini, müstəqilliyini, ərazi bütövlüyünü qorumağa tam qadir olan orduya malik olması Heydər Əliyevin Azərbaycan xalqı qarşısında göstərdiyi misilsiz xidmətlərindən biri sayıla bilər" (3.s.4).

Dahi dövlət xadimi Heydər Əliyev öz natiqliyi ilə də nümunə olacaq bir şəxsiyyət idi. Heydən Əliyevin Azərbaycan və rus dillərində mükəmməl çıxışları dinləyicilərin hər zaman rəğbətini qazanmış, onu bir natiq kimi məşhurlaşdırmışdır.

H.Əliyev Dünya Azərbaycanlılarının I Qurultayında demişdi: "Əziz həmvətənlər! Ürəyimdən gələn fikirləri bir daha sizə bildirmək istəyirəm ki, hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Məndə həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Hər bir azərbnaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycanın dilini, mədəniyyətimizi, milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi yaşatmalıyıq. Hər bir millətin dili onun üçün çox əzizdir. Bizim üçün də Azərbaycan dili, ana dilimiz həddindən artıq əzizdir. Çünki çox illər ana dilimiz, Azərbaycan dilimiz həyatımızda geniş yer ala bilməmişdi. İndi baxın, bizim dilimiz nə qədər zəngin, nə qədər şirindir və bütün fikirləri ifadə etmək üçün nə qədər böyük söz ehtiyatına malikdir"(2, s.7).

Heydər Əliyevin çıxışlarını izlərkən qürur hissi keçirməmək mümkün deyildi. Xüsusən də onun bu sözləri bizi daha çox qürurlandırırdı: "Mən həmişə fəxr etmişəm və bu gün də çox fəxr edirəm ki, mən Azərbaycanlıyam!".

## NƏTİCƏ

"Mübahisəsiz deyə bilərik ki, yaşadığımız yüzilliyin (söhbət XX yüzillikdən gedir) Azərbaycan dilinin hərtərəfli inkişfı, onun təkcə sözdə deyil, gündəlik təcrübədə də ümumişlək dilə, dövlət dilinə çevrilməsi, beynəlxalq münasibətlər sisteminə - diplomatiya aləminə yol alması, zənginləşə-zənginləşə nüfuz qazanması və dünyanın mötəbər kürsülərindən eşidilməsi görkəmli dövlət başçısı Heydər Əliyevin yorulmaq bilməyən fialiyyəti və yürütdüyü müdrik, uzaqgörən dil siyasəti ilə bağlıdır (4, s.14).

Göründüyü kimi Ulu öndər H.Əliyev Azərbaycan xalqının, dövlətinin tarixi, taleyi üçün çox əhəmiyyətli işlər görmüş, böyük əmək sərf etmiş, dilimiz, əlifbamızın bu günkü gündə bu mərhələyə çatmasında, Azərbaycan dilinin isə zəngin dillərdən birinə çevrilməsində əməyi danılmzdır.

Ölkəmiz Ulu Öndər Heydər Əliyevin ana dilimizin rifahı naminə başladı bu işlərin uğurlu davamçısı hal-hazırda dövlət başçımız cənab İlham Əliyev oldu. O, "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında" və "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli sərəncamları ilə öz ictimai-tarixi əhəmiyyətinə görə kifayət qədər uğurlu sərəncamlara imza atdı.

Nə xoş bizə ki, Ulu Öndərin gənc nəslə qayğı və məhəbbətini, onlarla görüşlər zamanı söhbətlərini tez-tez televiziya verilişlərindən də izləmək bizə nəsib olmuşdur. Heydər Əliyevin çıxışlarını izlərkən qürur hissi keçirməmək mümkün deyildi. Xüsusən də onun bu sözləri bizi daha çox qürurlandırırdı: “Mən çox fəxr edirəm ki, mən Azərbaycanlıyam!”

Dini etiqad azadlığımıza da məhz Heydər Əliyevin hakimiyyəti dövründə qovuşa bildik. İslam dini barədə ölkədə verdiyi sərəncam və qanunlar buna sübut ola bilər. Məsələn, 08.05.2009-cu il tarixində “İslam dininə aid ibadət yerlərinə rəhbərlik edən din xadimləri müvafiq icra hakimiyyəti orqanına məlumat verməklə Qafqaz Müsəlmanlar İdarəsi tərəfindən təyin edilir” verdiyi qanunlardan biridir (6.s.79).

## N Ə T İ C Ə

Bildiyimiz kimi 2023-cü il Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə ölkəmizdə  “Heydər Əliyev ili” elan edilmişdir. Ulu öndər Heydər Əliyev xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış, müstəqilliyə qovuşdurmuş qüdrətli bir şəxsiyyətdir. Məhz onun zəkası və yerində verdiyi qərarları sayəsində Azərbaycan  yeni minilliyə qədəm qoydu.

Ölkəmiz Ulu Öndər Heydər Əliyevin siyasəti sayəsində  sosial-iqtisadi və mədəni inkişafa başladı və bu istiqamətdə gedən işlərin uğurlu davamçısı isə hal-hazırda dövlət başçımız olan cənab İlham Əliyevdir. O, “Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında” və “Azərbaycan dilində latın qrafikalı  kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” 12 yanvar 2004-cü il tarixli ictimai-tarixi əhəmiyyətli sərəncamlara imza atdı. Daha sonra İlham Əliyev “Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında” sərəncamı (23 may 2012-ci il) ki, bu da dövlətçiliyimizin başlıca rəmzlərindən olan Azərbaycan dilinin istifadəsinə və tətbiqinə dövlət qayğısının artırılmasını, ölkəmizdə dilçilik elmi sahəsində vəziyyətin əsaslı surətdə yaxşılaşdırılmsını təmin etmək məqsədi ilə imzalandı. Bütün bunlar  Ulu Öndərin Azərbaycan dilimiizin inkişafı barədə verdiyi qərar və sərəncamların davamı kimi qəbul olunur.

Dövrün tanınmış siyasətçiləri ilə bir sırada duran Heydər Əliyev Azərbaycanın zəngin dəyərlərinin tanıdılması və ökəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynadı. O,  bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir və Azərbaycan xalqı onun əziz xatirəsini həmişə uca tutaraq minnətdarlıqla anır, çünki o, xalqımızın milli sərvəti, gələcək nəsillərə sayrışan mayakdır. Bu səbəbdən də Ulu Öndərin yenidən hakimiyyətə gəldiyi günü Azərbaycan Respublikasının dövlət bayramı – Milli Qurtuluş Günü  kimi qeyd edirik.

Xalqının, Azərbaycan dövlətinin çətin zamanında onun yanında olan dövlət başçısı hər zaman bizləri, ana dilimizi düşünmüşdür. Bu baxımdan da xalqının xilaskarı olmuş insana Ulu öndər və Ümummilli Lider adı yaraşır.

**Ədəbiyyat siyahısı**

1. “Azərbaycan Respublikasında dövlət dili haqqında”, “Azərbaycan Respubliksı Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikasının Fərmanı // Azərbaycan dili və ədəbiyyat tədrisi, Bakı, 2003, N 1, s.7.

2. İ.Abbas. "Anamın dili", ADPU-nun nəşri, Bakı, 2022, 182 s. s.4-7.

3. "Səs qəzeti, N 42 (3091), 5 mart, 2008-ci il, s.4.

4. "Dil ədəbiyyat" Beynəlxalq elmi-nəzəri jurnal N 1(118), Bakı, 2022, s.14.

5. H.Əliyev. Dil haqqında və Heydər Əliyevin dili. Bakı, Elm, 1988, 196 sə

# MÜASİR DÖVRÜN AKTUAL PROBLEMLƏRİNDƏN OLAN KİBERCİNAYƏTKARLIQ VƏ ONUNLA MÜBARİZƏ ÜSULLARI

**Əlizadə Nuridə Elton qızı**

**Ədliyyə Akademiyasının baş məsləhətçisi**

**Məhkəmə Ekspertizası Mərkəzinin dissertantı**

**alizadenuride91@gmail.com**

**Xülasə**

Hüquqi ədəbiyyatlarda yeni, müasir dövrümüz üçün isə aktual olan kibercinayətkarlıq 4-cü sənaye inqilabının bizə bəxş etdiyi bəlalardan hesab olunur. Kibermühitdə törədilən cinayətlərin məcmusu olan kibercinayətkarlıq haqqında bir çox beynəlxalq və milli sənədlər mövcuddur. Məqalədə transmilli cinayət hesab olunan kibercinayətlər və onlara tətbiq edilən sanksiyalar araşdırılmış, bu cinayətlərin qarşısını almaq üçün həll yolları təklif edilmişdir.

**Açar sözlər:** İKT, kibercinayət, kompüter, informasiya, informasiya

**Summary**

In the legal literature, cybercrime, which is new and relevant for our modern times, is considered one of the evils brought to us by the 4th industrial revolution. There are many international and national documents on cybercrime, which is the collection of crimes committed in cyberspace. The article examines cybercrimes, which are considered transnational crimes, and the sanctions applied to them, and offers solutions to prevent these crimes.

**Keywords:** ICT, cybercrime, computer, information, information

## Giriş

Müasir dövrümüzdə texnologiyanın sürətli inkişafı nəticəsində bir çox sahələrdə inkişafa nail olunmuşdur. Hal-hazırda 4-cü sənaye inqilabı adlandırılan bir dövrə qədəm qoymuşuq. Bu inqilabın məqsədi bütün sahələrdə ağıllı texnologiyalar tətbiq edilməklə sürətli və effektiv nəticələr əldə olunmağa istiqamətlənib. Sözsüz ki, müasir dövrdə internet və texnologiyaların içində böyüyən, sürətli və analitik düşünmə qabiliyyətinə malik olan Z nəsli üçün 4-cü sənaye inqilabının üstünlükləri danılmazdır. Lakin onu da nəzərə almaq lazımdır ki, hər bir elementin

müsbət və mənfi tərəfləri olduğu kimi, texnologiyanın sürətli inkişafı da həyatımızın bəzi sferalarına mənfi təsir göstərə bilir.

**Tədqiqat**

Ölkəmizdə də informasiya kommunikasiya texnologiyaları (İKT) sürətlə inkişaf etməkdədir. Bu sahədə ardıcıl olaraq dövlət proqramları qəbul edilmişdir. Belə ki, "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)" və Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan) nəticəsində telekommunikasiya və poçt infrastrukturunun yeni texnologiyalar əsasında modernləşdirilməsinin tam başa çatdırılması, keyfiyyətli və qənaətbəxş telekommunikasiya xidmətlərinin təqdim olunması, peyk rabitəsi texnologiyalarından istifadə, "E-hökumət" həllərinin tətbiqinin genişləndirilməsi və bütövlükdə cəmiyyətdə İKT-dən istifadənin səviyyəsinin artırılması mühüm əhəmiyyət kəsb edir. İKT sosial-iqtisadi sistemin bütün sahələrinə və insanların gündəlik fəaliyyətinə sürətlə nüfuz edərək, ictimai-iqtisadi münasibətlərin ayrılmaz tərkib hissəsinə çevrilmişdir [5].

Hal-hazırda demək olar ki bütün əməliyyatları onlayn formada həyata keçirmək mümkündür. Əvvəllər pulqabılarda olan vəsaitlər indi onlayn pul kisələrində yerləşir. Hətta maddi formaya çevrilə bilməyən, yalnız onlayn formada istifadə olunan pullar – koinlər də mövcuddur. Bundan əlavə hər hansı bir onlayn platformada qeydiyyat keçərçən şəxsi məlumatlarımızı da qeyd etmək tələb olunur. Qeyd etdiyim kimi gənc nəslin əksər nümayəndələri kompüter texnologiyalarını mükəmməl bilmək və onlarla işləmək bacarığına malik olduğundan onlayn platformalarda yerləşdirilən məlumatları müəyyən proqramlar vasitəsilə əldə edə bilirlər. Bunlara xaker (hacker) proqramlar deyilir. Belə proqramlar vasitəsilə şəxsi məlumatlar, o cümlədən bank hesablarındakı əməliyyatlar əlçatan olur. Xakerlər xüsusi bacarıqları və proqramlar vasitəsilə bank məlumatlarımıza daxil olub köçürmələr edə bilər, bizim adımızdan sosial platformalarda məlumat dərc edə bilər, həmçinin onlayn formada digər qanunsuz əməllər törədə bilərlər. Buna hüquqi dildə kibercinayətkarlıq deyilir. 12-16 yaşlı gənclər daha çox risk qrupunu təşkil edir. Yeniyetmə oğlanların oyunlara böyük marağı kibercinayətkarlar tərəfindən qurulan tələlərə düşməyə səbəb olur.

Hüquqi ədəbiyyatlarda yeni, müasir dövrümüz üçün isə aktual olan kibercinayətkarlıq 4-cü sənaye inqilabının bizə bəxş etdiyi bəlalardan hesab olunur. Düzdür, texnologiya hər sahədə inkişaf etdiyi kimi, şəxsi məlumatlarımızın qorunması üçün daima mükəmməl sistemlər yaradılır. Lakin mütəxəssislər müasir texnologiya vasitəsilə məlumatları kodlayaraq onların mükəmməl mühafizəsini təmin etdikcə, bu sahədə fəaliyyət göstərən cinayətkarlar da xüsusi bacarıqlar əldə edərək həmin məlumatlıarı əldə etmək üçün səy göstərirlər. Nəzərə almaq lazımdır ki, nəinki z nəsli, artıq alfa nəsli formalaşmaqdadır və onlar daha erkən yaşdan texnologiya ilə tanış olurlar. Son illər sürətlə inkişaf edən "süni intellekt" texnologiyaları da kiber təhlükələrə qlobal xarakter vermişdir.

Kibercinayətkarlıq termininin anlayışına nəzər salaq. "Kubernan" sözü yunanca "yönləndirmək" mənasını verir. Bu söz 1948-ci ildə ingilis dilinə "cybernetics" kimi daxil oldu. "Cyber" termini isə ilk dəfə 1958-ci ildə Louis Couffignal tərəfindən canlılar və robotlar arasındakı əlaqəni izah etmək üçün istifadə etmişdi. "Cyber" ingilis dilində kompüter

şəbəkələrinə və internetə aid olan, virtual reallıq kimi tərcümə olunur [13]. Azərbaycan dilində isə bu söz kiber olaraq səslənir.

Bu istiqamətdə ən yaxşı təcrübə kimi Filippinin 2012-ci il tarixli "Kibercinayətlərin qarşısının alınması haqqında Qanunu"nu misal göstərə bilərik. Bu qanunda da kibercinayət anlayışından daha çox, onun profilaktikası və qarşısının alınması ilə bağlı müddəalar üstünlük təşkil edir. Təqdirəlayiq haldır ki, Filippin qanununda "kibercinayət" və "kiber" terminlərinin hüquqi mənası izah edilmişdir. Belə ki, həmin qanunun 3-cü maddəsinin (i) bəndi "kiber" ifadəsinə kompüter və ya kompüter şəbəkələrində, elektron mediada, habelə onlayn kommunikasiya vasitələrində törədilən hərəkətləri aid edir [10, səh. 31].

S.Məcidli kibercinayətlərə belə bir anlayış vermişdir: "Kibercinayətlər dedikdə komputerlərdən, komputer proqramlarından, komputer şəbəkələrindən, o cümlədən internet və sosial şəbəkələrdən, informasiya resurslarından və informasiya daşıyıcılarının digər qurğularından qanunsuz istifadə nəticəsində kompüter və informasiya sistemlərinin dağıdılması ilə nəticələnən və əhəmiyyətli zərərlə xarakterizə olunan, virtual məkanda qəsdən törədilən, cəzalandırılmalı, hüquqazidd ictimai təhlükəli hərəkət və hərəkətsizlik başa düşülür" [10, səh. 197].

Beləliklə, kibercinayətkarlıq - kibermühitdə törədilən cinayətlərin məcmusudur. Kibermühit termini isə ilk dəfə 1984-cü ildə Uilyam Qibson tərəfindən istifadə olunmuşdur

Kibercinayətkarlıqla bağlı bir neçə sənədlər vardır. Bu sahədə ən vacib və ən çox istinad olunan beynəlxalq sənədlərdən biri 2001-ci ildə Avropa Şurası tərəfindən imzalanmış və 2004-cü ildə qüvvəyə minmiş "Kibercinayətkarlıq haqqında Budapeşt Konvensiyası"dır. Azərbaycan Respublikası 2009-cu ildə adı çəkilən Konvensiyanı imzalayaraq ratifikasiya etmişdir. Bunun nəticəsi olaraq Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə (bundan sonra CM) kibercinayətkarlıqla bağlı müddəalar əlavə edilmişdir.

Kompüter texnologiyalarına maraq artdıqca kiber sözü daha çox sahələrdə işlənilməyə başlandı. 29 iyun 2012-ci il tarixli Qanunla CM-nin "Kompüter informasiyası sahəsində cinayətlər" adlanan 30-cu fəsli yeni redaksiyada verilərək "Kibercinayətkarlıq" fəsli adlandırılmışdır. CM-da aşağıdakı kibercinayətlər nəzərdə tutulub:

- Kompüter sisteminə qanunsuz daxil olma
- Kompüter məlumatlarını qanunsuz ələ keçirmə
- Kompüter sisteminə və ya kompüter məlumatlarına qanunsuz müdaxilə
- Kibercinayətlərin törədilməsi üçün hazırlanmış vasitələrin dövriyyəsi
- Kompüter məlumatlarının saxtalaşdırılması.

Bu sistem təsadüfi seçilməmişdir. Belə ki, Kibercinayətkarlıq haqqında Budapeşt Konvensiyasında kibercinayətlər bir neçə qrupa ayrılır:

- kompüter verilənləri və sistemlərinin məxfiliyi, tamlığı və istifadə imkanlarına qarşı cinayətlər
- kompüter vasitələrindən istifadə ilə bağlı cinayətlər
- məlumatların məzmunu ilə bağlı cinayətlər
- müəllif hüquqlarının və əlaqəli hüquqların pozulması ilə bağlı cinayətlər

Göstərilən qruplara daxil olan kibercinayətlər isə aşağıdakılardır:

- Qanunsuz daxil olma

- Qanunsuz ələ keçirmə
- Verilənlərə müdaxilə
- Sistemlərə müdaxilə
- Qurğulardan qanunsuz istifadə
- Kompüter texnologiyalarından istifadə etməklə saxtalaşdırma
- Uşaq pornoqrafiyası ilə bağlı cinayətlər
- Müəllif hüquqları və əlaqəli hüquqların pozulması ilə bağlı cinayətlər.

CM-da nəzərdə tutulmuş kibecinayətkarlıq fəslində qeyd edilən kompüter sistemləri dedikdə nə nəzərdə tutulur? Burada kompüter sistemi dedikdə müvafiq proqramlara uyğun olaraq verilənlərin avtomatlaşdırılmış işlənməsini həyata keçirən hər hansı qurğu və ya bir-birinə qoşulmuş və ya əlaqələndirilmiş qurğular qrupu başa düşülür.

"Kompüter məlumatları" dedikdə isə, kompüter sistemində işlənməsi, emal edilməsi üçün yararlı olan istənilən informasiya (faktlar, məlumatlar, proqramlar və anlayışlar) başa düşülür [1, m.271].

Kompüter cinayətlərinin ümumi təsnifatlarından biri 1983-cü ildə İqtisadi Əməkdaşlıq Təşkilatı ekspertlər qrupu tərəfindən təklif olunmuşdur. Ona müvafiq olaraq kompüter cinayətlərinin aşağıdakı kriminoloji qrupları müəyyənləşdirilmişdir:

– iqtisadi cinayətlər;
– şəxsi hüquq və şəxsi dairə əleyhinə cinayətlər;
– dövlət və ictimai maraqlar əleyhinə cinayətlər.

Onu da qeyd edim ki, kompüter şəbəkələri vasitəsilə törədilən cinayətlər çox zaman dövlətlərin ərazi yurisdiksiyasından kənara çıxır. İnternet şəbəkəsi vasitəsilə istənilən informasiya saniyələr içərisində dünyanın müxtəlif ölkələrinə çatdırılır. Bu baxımdan kibercinayətlər transmilli cinayət hesab olunur. Kibercinayətkarlıq haqqında Budapeşt Konvensiyası Avropa Şurası tərəfindən qəbul olunsa da, Şuraya üzv olmayan dövlətlər üçün də açıqdır.

Məlum olduğu kimi kibercinayətlər kompüter sistemi olmadan törədilə bilməz. Kibercinayətlər kateqoriyasını araşdırarkən ən çox rast gəlinən termin "hacking"dir. Bu termin icazəsiz və hüquqazidd olaraq kompüter sisteminə daxil olaraq hücum etməni özündə ehtiva edir.

Qardaş ölkə Türkiyənin praktikasına nəzər salaq. Türk Cəza Qanununun onuncu bölməsi kibercinayətlərə həsr olunub. Bu fəsildə informasiya sisteminə daxil olma, kompüter sisteminin bloklanması, korlanması, məhv edilməsi və ya dəyişdirilməsi, bank və kredit kartlarından sui-istifadə edilməsi, qadağan olunmuş cihaz və ya proqramların istifadə olunması kibercinayətlər hesab olunur [11]. Türkiyəli professorlar Z.Afşar və G.Ongörən kompüterlər və şəbəkələr vasitəsilə törədilən cinayətləri Türk Cəza Qanununa istinad edərək iki qrupa ayırırlar: informasiya və kompüterlə əlaqədar cinayətlər (bilişim ve ya bilgisayarla ilgili suçlar) və İnternet vasitəsilə törədilən cinayətlər [8, səh. 180].

Qeyd edim ki, İKT-nin sürətli inkişaf etdiyi dövrümüzdə informasiya sahəsində baş verən hüquqazidd əməllərin sayı artdığı üçün bir çox qanunvericilik aktlarına kiber terminləri əlavə olunmuşdur. Məsələn, İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında Qanunun 2-ci maddəsində nəzərdə tutulan anlayışlar arasında kibertəhlükəsizlik

xidməti provayderi, kibertəhdid, kiberhücum, kiberinsident kimi terminlər öz əksini tapır. Kibertəhdid dedikdə informasiya sistemlərinə və ya ehtiyatlarına qanunsuz daxilolma, müdaxilə, habelə digər formalarda informasiya təhlükəsizliyinin pozulmasına səbəb ola bilən amil və ya vəziyyəti, kiberhücum dedikdə isə informasiya sistemlərinin və ya ehtiyatlarının informasiya təhlükəsizliyinə təhdid yaradan, yaxud onların fəaliyyətinin pozulmasına və ya dayanmasına səbəb olan kiberməkan vasitəsilə qəsdən törədilən əməl başa düşülür. Sözügedən qanuna əsasən kiberinsident – informasiya sistemlərinin, avtomatlaşdırılmış idarəetmə sistemlərinin və informasiya-kommunikasiya şəbəkələrinin fəaliyyətinin dayanması və ya pozulması, yaxud həmin obyektlərdə informasiya təhlükəsizliyinin pozulmasına səbəb olan hadisə hesab olunur [7, m.2].

Onu da qeyd edim ki, hal-hazırda transmilli cinayətlər içində kibercinayətkarlığın yeri kifayət qədər artıb. Elə buna görə də daha çox beynəlxalq sənədlərə istinad olunur.

İndi də kibercinayətləri ayrı-ayrılıqda təhlil edək. Əvvəla beynəlxalq sənəd olan Budapeşt Konvensiyasına müraciət edək. Konvensiyada ilk olaraq “qanunsuz daxil olma” əməli nəzərdə tutulur. Belə ki, Kibercinayətkarlıq haqqında Konvensiyaya təxmini 60-a yaxın ölkə qoşulub və Konvensiya tələb edir ki, hər bir Tərəf kompüter sisteminə və ya onun hər hansı hissəsinə belə hüquq olmadan qəsdən daxil olmanın daxili qanunvericilikdə cinayət əməli kimi tövsif edilməsi üçün zəruri olan qanunvericilik və digər tədbirləri görməlidir. Buna müvafiq olaraq, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 271-ci maddəsində “kompüter sisteminə qanunsuz daxil olma” cinayəti təsbit olunur. Maddəyə əsasən, kompüter sisteminə və ya onun hər hansı bir hissəsinə daxil olmaq hüququ olmadan həmin sistemə və ya onun hər hansı bir hissəsinə mühafizə tədbirlərini pozmaqla, yaxud burada saxlanılan kompüter məlumatlarını ələ keçirmək və ya başqa şəxsi niyyətlə qəsdən daxil olma cinayət hesab olunur. Bu əməl iki ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə iki min manatdan dörd min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Sözügedən cinayətin subyekti 16 yaşına çatmış anlaqlı fiziki şəxs ola bilər, həmin şəxsin subyekt ola bilməsi üçün kompüter sisteminə daxil olmaq hüququ olmamalıdır. Yəni, əgər kompüter sisteminə daxil olmağa hüququ olan şəxs sistemə daxil olarsa cinayət tərkibi yaranmır. Mühafizə tədbirlərini pozmaqla daxil olmaq – başqasının adından, parolundan, texniki qurğuların və ya xüsusi hacker proqramların köməyindən istifadə etməklə kompüterin müdafiə sisteminin “sındırılması” və s yollarla daxil olmanı ehtiva edir. Kompüter məlumatlarını ələ keçirmək niyyətilə sistemə daxil olma əməli məlumatların ələ keçirilib-keçirilməməsindən asılı olmayaraq cinayət tərkibi yaradacaq. Çünki sistemə daxil olarkən niyyət məlumatların ələ keçirilməsi olmuşdur. Bu məlumatların hansı məzmunda olmasının isə əhəmiyyəti yoxdur.

Kompüter sisteminə qanunsuz daxil olma iki ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə iki min manatdan dörd min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Kompüter məlumatlarını qanunsuz ələ keçirmə - kompüter sisteminə, kompüter sistemindən və ya bu sistem daxilində ötürülən ümumi istifadə üçün nəzərdə tutulmayan kompüter məlumatlarının, o cümlədən bu cür kompüter məlumatlarının daşıyıcısı olan kompüter sistemlərinin elektromaqnit şüalanmasının, buna hüququ olmayan şəxs tərəfindən texniki vasitələrdən istifadə etməklə qəsdən ələ keçirilməsi hesab olunur. Bu əməlin də sanksiyası eynilə kompüter məlumatlarına qanunsuz daxil olma kimidir.

CM-nın 273-cü maddəsinə əsasən, kompüter məlumatlarının qəsdən zədələnməsi, silinməsi, korlanması, dəyişdirilməsi və ya bloklanması buna hüququ olmayan şəxs tərəfindən törədilməklə əhəmiyyətli zərər vurulmasına səbəb olarsa, həmçinin kompüter məlumatlarının daxil edilməsi, ötürülməsi, zədələnməsi, silinməsi, korlanması, dəyişdirilməsi və ya bloklanması yolu ilə kompüter sisteminin işləməsinə buna hüququ olmayan şəxs tərəfindən qəsdən ciddi maneə törədilərsə kompüter sisteminə və ya kompüter məlumatlarına qanunsuz müdaxilə cinayətinin tərkibi yaranmış olur.

Sözügedən cinayətlərin ağırlaşdırıcı hallarına eyni əməlin təkrar törədilməsi, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (təşkilat) tərəfindən törədilməsi, vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədilməsi aiddir. Xüsusilə tövsifedici hallara isə bu əməlin ictimai əhəmiyətli infrastruktur obyektinin kompüter sisteminə və ya onun hər hansı bir hissəsinə münasibətdə törədilməsi aid edilir. İctimai əhəmiyyətli infrastruktur dedikdə, dövlət və cəmiyyət üçün mühüm əhəmiyyət kəsb edən xidmətlər göstərən dövlət idarə, müəssisə, təşkilatları, qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar), kredit təşkilatları, sığorta şirkətləri, qiymətli kağızlar bazarında lisenziyalaşdırılan şəxslər, investisiya fondları və bu fondların idarəçiləri başa düşülür.

Maddədə nəzərdə tutulan əhəmiyyətli zərər dedikdə, min manatdan artıq olan məbləğdə ziyan vurulması və ya dövlətin, cəmiyyətin və ya ayrı-ayrı şəxslərin qanunla qorunan maraqlarına digər mühüm zərərin vurulması başa düşülür. “kompüter sisteminin işləməsinə ciddi maneə törədilməsi” kompüter sisteminin normal fəaliyyətinin elə bir pozulmasıdır ki, kompüter sisteminin sahibinin və ya istifadəçisinin bu sistemdən istifadə etmək və ya digər kompüter sistemləri ilə məlumatları mübadilə etmək imkanını mühüm dərəcədə məhdudlaşdırsın.

Saxtalaşdırılmış kompüter məlumatlarını autentik (həqiqi) kompüter məlumatları kimi qələmə vermək və ya istifadə etmək məqsədilə kompüter məlumatlarını müvafiq hüquq olmadan qəsdən daxil etmə, dəyişdirmə, silmə və ya bloklama, bu əməllər ilkin kompüter məlumatlarının autentikliyinin (həqiqiliyinin) pozulmasına səbəb olduqda kompüter məlumatlarının saxtalaşdırılması cinayətinin tərkibi yaramış olur və bu əməl üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə iki min manatdan dörd min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır [1].

Əməldə cinayət tərkibinin olması üçün kompüter informasiyası işlənmə, emal edilmə üçün yararlı olmalıdır. İnformasiyanın yararlı olması ondan istifadənin mümkünlüyü dərəcəsindən asılıdır. Yəni, ələ keçirilən informasiyanın onu ələ keçirən şəxsə lazım olan səviyyədə yararlı olması kifayətdir [2].

Bundan əlavə, kibercinayətlərin törədilməsi üçün hazırlanmış vasitələrin - qurğuların və ya kompüter proqramlarının dövriyyəsi, yəni, istehsalı, idxalı, əldə olunması, saxlanılması, satışı, yayılması və ya əldə edilməsinə digər formalarda şərait yaradılması əhəmiyyətli zərər vurduqda iki ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə üç min manatdan beş min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır [1, m. 273-1].

Qeyd edilən maddələrdə nəzərdə tutulmuş tərkiblər Budapeşt Konvensiyasının tələblərinə əsasən müəyyən edilmişdir.

İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında Qanuna əsasən barəsində qanunsuz əməliyyatlar və davranış nəticəsində mülkiyyətçiyə, sahibə, istifadəçiyə və ya başqa şəxslərə ziyan vurula bilən hər hansı sənədləşdirilmiş informasiya mühafizə olunmalıdır. İnformasiyanın mühafizə rejimi isə onun hüquqi rejimindən asılı olaraq müəyyən olunur.

Qeyd etdim ki, kibercinayətlər məkan anlayışından kənara çıxırlar. Belə ki, İKT dövrünün üstünlükləri kimi dünyanın bir ucunda olan informasiya saniyələr içərisində digər ucuna rahatlıqla yol qət edə bildiyindən, kibercinayətləri də dünyanın bir ölkəsində oturaraq başqa ölkəyə qarşı asanlıqla törətmək mümkündür. Bu baxımdan da kibercinayətlər transmilli cinayətlərə şamil olunur. Kibercinayətkarlıq haqqında Budapeşt Konvensiyasının tələblərinə əsasən Konvensiyaya üzv olan dövlətlər arasında cinayət işinin istintaqı zamanı qarşılıqlı hüquqi yardımlaşma aparılır. Bununla yanaşı, Konvensiyanın üzvü olmayan ölkələr haqqında da müddəalar nəzərdə tutulmuşdur.

Kibercinayətlərə dair işlər üzrə ibtidai istintaqı Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti aparır. Dəfələrlə DTX tərəfindən ölkə hüdudlarından kənarda olan cinayətkar şəbəkə üzvlərinin istifadəsində olan cihazların internet şəbəkəsinə qoşulduğu İP-ünvanları və digər abunəçi məlumatları əldə edilmiş, kibercinayətkarlığa dair beynəlxalq konvensiyaların müddəalarına istinadən həmin İP-ünvanları üzrə məlumatların müvafiq dövlətlərin aidiyyəti strukturları vasitəsilə təxirəsalınmaz mühafizəsi təmin edilmişdir [12].

Konvensiyaya uyğun olaraq tərəflər – yəni Konvensiyanın üzvü olan ölkələr kibercinayətlərlə bağlı istintaq və araşdırma keçirilməsi məqsədilə bir-biri ilə geniş əməkdaşlığı həyata keçirirlər. Həmçinin sübütların elektron formada toplanması məqsədilə bir-birinə mümkün qədər geniş şəkildə hüquqi yardım göstərirlər. Konvensiyanın daha bir tələbi budur ki, hər bir Tərəf, kompüter sistemləri və kompüter verilənləri ilə əlaqədar cinayətlərin istintaqı və ya digər icraatın aparılması məqsədilə və ya cinayətlərə dair sübutların elektron formada toplanması üçün təxirəsalınmaz yardımın göstərilməsini təmin etmək məqsədilə sutkada iyirmi dörd saat, həftədə yeddi gün ərzində fəaliyyət göstərən müvafiq əlaqə mərkəzini təyin edir [9, m.35]. Bu, 24/7 şəbəkəsi adlanır. Bu qurumun funksiyalarını Azərbaycanda DTX həyata keçirir.

Kibercinayətkarlıqla bağlı olan maddələri təhlil etdik. Bir az da onunla mübarizə texnikaları – kibercinayətlərin qarşısının alınması üçün hansı tədbirlər görülə biləcəyinə nəzər salaq.

Əvvəldə qeyd etdiyim kimi texnologiyanın sürətli inkişafı əlbəttə təqdirəlayiq haldır. Lakin təəssüflər olsun ki, İKT-nin bizim üçün yaratdığı geniş üstünlüklərdən mənfi məqsədlər üçün də istifadə edənlər az deyil. Bunun əsas səbəbi hüquq düşüncəsi ilə və hüquqi savadsızlıqla bağlıdır. Belə ki, yeni nəsil uşaqlar dünyaya göz açar açmaz elektron əşyalar görür və qısa bir zamanda İKT ilə tanış olurlar. Texnologiyadan istifadə onlar üçün adi bir vərdişə çevrilmişdir. Gənc nəsil İKT-nin içində böyüyərək bütün gündəlik əməliyyatlarını onlayn formada edirlər və hüquqi və əxlaqi düşüncəsi yerində olmayan şəxslər get-gedə bu bacarıqlarını mənfi istiqamətlərə yönəldə bilirlər. Bu bacarıqlara görə böyüklər yetkinlik yaşına çatmayanları cinayətə sövq edə bilirlər. belə ki, bəzən yeniyetmələr əməlin hüquqazidd olduğunu bilməyərək onlara verilən göstərişlərə əməl edərək özlərini İT mütəxəssisi kimi sübut etməyə çalışırlar. Kiber mühitdə olan hüquqazidd əməllər cinayət məcəlləsinə əlavə olunub,

hətta həmin maddələrin sanksiyaları bir neçə dəfə dəyişiklik olunaraq cəzanın həddi artırılmışdır. Lakin buna baxmayaraq kibermühitdə olan cinayətlər davam etməkdədir. İKT inkişaf edtikcə bu inkişafdan mənfi düşüncələrlə doğan virus və hacker proqlamları da inkişaf edərək təkmilləşir. Bu baxımdan cəzanın həddinin artırılması təqdirəlayiq hal olsa da, yeganə çıxış yolu deyil.

İlk növbədə insanlara düzgün hüquqi düşüncə aşılanmalıdır. Buna görə də hələ orta məktəbdən başlayaraq azyaşlı uşaqlara hüquqazidd əməllər barədə məlumat verilməlidir. Belə ki, hal hazırda, orta məktəb proqramında 1-ci sinifdən etibarən informatika dərsləri keçirilirilərək uşaqların İKT ilə geniş şəkildə tanışlığı təmin olunur. Şagirdlərə kompüterdən, internet şəbəkəsindən və informatika elminin digər predmetlərinin öyrədilməsi ilə yanaşı onlardan hansı üsul və məqsədlərlə istifadə oluna biləcəyi də izah olunmalıdır. İstər orta məktəb, istərsə də ali məktəblərdə dinləyicilərə İKT-dən pozitiv niyyətlərlə və düzgün hüquqi düşüncə ilə istifadə edilməsi tədris edilməlidir. Belə ki, insanlar öz işlərini daha rahat və sürətli icra etmək, olduğu yerdən kənara getmədən dünyanın bütün ölkələri ilə əlaqə yarada bilmək, bank hesablarını, kredit ödənişlərini, alış-verişlərini onlayn formada həyata keçirmək, o cümlədən internetə çıxış imkanlarında istifadə edərək, xarici müəlliflərin əsərlərini taparaq mütaliə etmək, müxtəlif sahələrdən olan professor və alimlərin əsərlərinə istinad etmək, xarici konfranslarda iştirak edə bilmək və digər yüksək əhəmiyyətli məqsədlər üçün İKT-dən istifadə edə biləcəklərini dərk etməlidir.

İnsanların əksəriyyəti hüquqazidd əməllərin eyni zamanda əxlaqa da zidd olduğunu dərk edərək başqasının həyatına və sağlamlığına qəsd etmə, oğurluq, dələduzluq kimi əməllərin cinayət olduğunu bilir. Lakin qeyd etməliyəm ki, hal-hazırda kibermühitdə baş verən cinatlər təkcə bank hesablarına daxil olaraq külli miqdarda vəsaitlərin mənimsənilməsindən də çox kənara çıxır. Kibercinayətkarlar kompüter sistemlərinə daxil olaraq başqasına malik olan şəxsi məlumatları ələ keçirərək şəxsi toxunulmazlıq hüququnu, anonim mənbələrdə kiminsə ünvanına təhqiramiz ifadələri yaymaqla onun şərəf və ləyaqətinə hörmət hüququnu pozur, eyni zamanda insanların sosial şəbəkə və ya poçt ünvanlarını xüsusi proqramlar vasitəsilə sındıraraq, onlar tədərindən göndərilən elektron poçtların məzmununa müdaxilə edib dəyişməklə cinayət törətmiş olurlar.

Kibercinayətkarlar öz “bacarıq”larını inkişaf etdirdikcə dövlətin də müdafiə tədbirləri inkişaf edir. Necə deyərlər mükəmməl cinayət yoxdur və hər bir cinayətdə olduğu kimi virtual həyatda da baş verən cinayətlərin izi qalır və cinayətkarlar tapılır. Hər bir elektron cihazın öz İP ünvanı var və bu İP ünvan vasitəsilə, məsələn, kompüter şəbəkəsinə virus yaymaq məqsədilə göndərilən elektron poçtun hansı ünvandan – hansı ərazidən, hansı cihazdan və saat neçədə göndərildiyini tapmaq mümkündür. Bir sözlə, İP ünvan – internetə qoşulmuş cihazların identifikasiya nömrəsidir.

Kiberhücumlar nəticəsində daha çox pozuntuya məruz qalan şəxsi toxunulmazlıq hüququna da nəzər salmaq istərdim. Belə ki, İKT-nin yüksəksürətli inkişafı nəticəsində ən çox təqibə məruz qalan hüquq şəxsi toxunulmazlıq hüququdur. Bu hüquq Avropa İnsan Hüquqları Konvensiyasında “şəxsi və ailə həyatına hörmət” hüququ kimi nəzərdən keçirilir. Sözügedən hüququn məzmunu ondan ibarətdir ki, heç kimin şəxsi və ailə həyatına müdaxilə edilə bilməz, öz razılığı olmadan kimsənin şəxsi həyatı haqqında məlumatın toplanılmasına, saxlanılmasına, istifadəsinə və yayılmasına yol verilmir. Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, heç kəs onun xəbəri olmadan və ya etirazına baxmadan izlənilə bilməz, video və foto çəkilişinə,

səs yazısına və digər bu cür hərəkətlərə məruz qoyula bilməz. Həmçinin heç kimin yazışma, telefon danışıqları, poçt, teleqraf və digər rabitə vasitələri ilə ötürülən məlumatın sirrini saxlamaq hüququ pozula bilməz [5, m.32]. Lakin müasir dövrdə çox asanlıqla mobil telefonlar, kiçik kameralar, səsyazan vasitələr və s. alətlərin köməyilə şəxsin fotosu və videosu gizli formada çəkilir, həmçinin səs yazılarına qulaq asıla bilinir. Sözügedən hərəkətlər AR CM-nə əsasən cinayət hesab olunur. Yalnız və yalnız qanunda nəzərdə tutulan müstəsna hallarda dövlət tərəfindən şəxsi toxunulmazlıq hüququnun məhdudlaşdırılmasına icazə verilir. Bu da əsasən qanunla nəzərdə tutulmuş qaydada cinayətin qarşısını almaqdan və ya cinayət işinin istintaqı zamanı həqiqəti üzə çıxarmaqdan ötrü ola bilər. Şəxsi toxunulmazlıq hüququ kompüter sistemlərinə müdaxilə edilərək pozula bilər, məsələn, bir şəxsə məxsus olan elektron poçt ünvanına daxil olunaraq onun yazışmaları çıxarılaraq yayılır, şəxsə məxsus olan telefon və ya kompüter cihazına xüsusi proqramlar vasitəsilə giriş edilərək onun bütün foto və videoları götürülərək yayıla bilər. Göstərilən halda cinayətlərin məcmusu ortaya çıxır. Bu zaman cinayəti törədən şəxs həm kibercinayətə, həm də şəxsi həyata müdaxilə etdiyinə görə məsuliyyətə cəlb olunmalıdır.

**Nəticə**

Biz İKT-nin imkanlarına son üç ildə daha təfərrüatlı şəkildə şahid olduq. 2020-ci ildən etibarən bütün dünyada mövcud olan pandemiya ilə əlaqədar demək olar ki, bütün sferalarda onlayn formada əməliyyatlar aparıldı. Təsil olcaqları və iş yerləri distant formada fəaliyyət göstərdi. Bu da 4-cü sənaye inqilabının bizim üçün yaratdığı imkanlar nəticəsində hasil oldu. Deməli, düzgün və normal düşüncə ilə İKT-dən istifadə həyatımızı rahatlaşdıraraq vaxtilə xəyal belə edə bilmədiyimiz vasitələri əlçatan edir. Bu cür gözəl imkanlara malik olan telekommunikasiyadan mənfi məqsədlərlə istifadə edərək hüquqa zidd əməllər törədənlər isə normal hüquqi düçüncə və əxlaqi keyfiyyətlərə malik olmayan insanlar olur. Bu baxımdan hüquq mədəniyyəti və hüquq düşüncəsi artırılmalı, mətbuatda – kütləvi informasiya vasitələri və sosial şəbəkələrdə kiber mühitdə aparılan hüquqazidd əməllər və onların yarada biləcəyi arzuolunmaz nəticələr barədə ətraflı məlumat verilərək təbliğat aparılmalıdır. Dövlət kiçik bir ailə olduğu üçün, eyni zamanda ailədə uşaqlara düzgün hüquqi düşüncə təbliğ edilməli və kibermühitdə yanlış məqsədlərlə olunan əməllərin hansı nəticə ilə sonlanacağı barədə ətraflı məlumatlar verilməlidir. Mətbuatda və sosial şəbəkələrdə hansı əməllərin kibercinayətkarlıq olduğu geniş şəkildə ictimaiyyətə çatdırılmalıdır. Eyni zamanda kibercinayətkarlıq fəslində nəzərdə tutulan maddələrə belə bir ağırlaşdırıcı hal da əlavə edilməlidir: "eyni əməllər ağır nəticələrə səbəb olarsa", bu halda daha ciddi sanksiya tətbiq olunmalıdır.

**Ədəbiyyat siyahısı:**

1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi https://www.e-qanun.az/framework/46947#_Toc89058526
2. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin Kommentariyası. Hüquq yayım evi, 2015
3. Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsi https://www.e-qanun.az/framework/46950
4. "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə milli strategiya" (2003-2012-ci illər) haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. https://e-qanun.az/framework/1969

5. Azərbaycan Respublikasının Konstitusiyası. https://www.e-qanun.az/framework/897

6. "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010 - 2012-ci illər üçün Dövlət Proqramı"nın (Elektron Azərbaycan)" təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı https://e-qanun.az/framework/19936

7. İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında Azərbaycan Respublikasının Qanunu HTTPS://E-QANUN.AZ/FRAMEWORK/3525

8. "İnternet yoluyla işlenen suçlar. Bilişim Hukuku. Prof. Dr. B. Zakir Avşar, Prof. Dr. Gursel Öngören. İstanbul, 2010. s.180

9. "Kibercinayətkarlıq haqqında" Konvensiya. https://e-qanun.az/framework/18619

10. Məcidli S.T. "Kibercinayətlər". Bakı: 2019. 315 səh

11. Türk Ceza Kanunu. https://www.mevzuat.gov.tr/mevzuatmetin/1.5.5237.pdf

12. https://www.dtx.gov.az/az/news/1672.html

13. https://technote.az/texnologiya-xeberleri/kibertehlukesizlik-nedir-kiber-hucumlardan-nece-qorunmaq-olar

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEV VƏ MƏMMƏD ARAZ POEZİYASI

# THE GREAT LEADER HAYDAR ALİYEV AND THE POETRY OF MAMMAD ARAZ

**Doç.Dr , Sehrana KASİMİ**

AMEA, Memarlıq və İncəsənət İnstitutu

ORCİD İD 0000-0002-6545-0198

Email: sekasimi@mail.ru

**ÖZET**

Makalede milli şair Memmed Araz'ın yaratıcılığından ve Ulu Önder Haydar Aliyev'in şiirine gösterdiği ilgi ve özenden bahsedilmektedir. Azerbaycan halkının değerli evladı Haydar Aliyev'in şiirimizin parlak güneşi Memmed Araza başta olmak üzere Azerbaycan bilim, kültür ve edebiyat insanlarına - yaratıcılığına özel bir değer verdiği kaydedilmektedir. Milli Önder'in Memmed Araz hakkındaki görüşleri de sunulmakta ve yorumlanmaktadır.

Azerbaycan edebiyat tarihine baktığımızda hemen hemen tüm şair ve yazarların eserlerinde vatanına, halkına, milletine olan sempati ve sevgisine tanık oluyoruz.

Azerbaycan halkının Milli Lideri Haydar Aliyev'in Memmed Araz'ın şiirine vurgu yapması tesadüf değildir. Bildiğimiz gibi Haydar Aliyev her zaman halkına, vatanına, milletine bağlı, kalbi her zaman halkıyla atan bir lider olmuştur. Bu anlamda halkını ve vatanını yücelten şair ve yazarlara da büyük saygısı vardı. Bu görüşü, Azerbaycan edebiyat tarihinde yazan ve yaratan şair ve yazarlara büyük özen ve özel ilgi göstermesi, çoğunun eserlerini okumayı sevmesi ve konuşmalarında fırsat buldukça onlardan alıntı yapması ile haklı çıkarılabilir.

Makale, Azerbaycan halk şairinin en popüler şiirlerini öne çıkarıyor. Vatanına ve milletine olan derin sevgisinin tezahürü şiirlerine yansımıştır.

**Anahtar Kelimeler**: Haydar Aliyev, Memmed Araz, Azerbaycan edebiyatı, şiir, vatan, halk

## ABSTRACT

The article tells about the work of the people's poet Mammad Araz and the attention and care of the great leader Heydar Aliyev to his poetry. It is noted that the respected son of the Azerbaijani people Heydar Aliyev attached special importance to the figures of science, culture and literature of Azerbaijan, including Mammad Araz, the bright sun of our poetry - his work. The opinions of the national leader about Mammad Araz are also presented and interpreted.

Looking at the history of Azerbaijani literature, we see sympathy and love for our Motherland, people, nation in the works of almost all poets and writers.

It is no coincidence that the national leader of the Azerbaijani people Heydar Aliyev emphasized the poetry of Mammad Araz. As you know, Heydar Aliyev has always been a leader who has always been connected with his people, his homeland, his people, and his heart has always beaten with his people. In this sense, he also had great respect for the poets and writers who glorified his people and his homeland. This opinion can be substantiated by his great care and special attention to the poets and writers who wrote and created in the history of Azerbaijani literature, he liked to read the works of most of them, and, if possible, quoted them in his speeches.

The article highlights the most popular poems of the people's poet of Azerbaijan. The manifestation of his deep love for his homeland and people is reflected in his poems.

**Keywords**: Heydar Aliyev, Mammad Araz, Azerbaijani literature, poetry, homeland, people

## GİRİŞ

Ulu Öndər Heydər Əliyev milli mədəniyyətimizin hamisi idi. Azərbaycana rəhbərlik etdiyi dövrdən üzü bəri Respublikamızda ədəbi-mədəni həyatın milli dəyərlər kontekstində qurulmasına və inkişaf etməsinə başçılıq etmiş və nəzarətdə saxlamışdır. Azərbaycanın ədəbiyyat və mədəniyyət sahəsindəki ictimai xadimlərinin o zamankı SSRİ –nin ali mükafatı Sosialist Əməyi Qəhrəmanı və ümumiyyətlə, digər fəxri adlarla təltif edilməsi birinci növbədə məhz Heydər Əliyevin təşəbbüsü və nüfuzu sayəsində mümkün olmuşdur.

Azərbaycan ədəbiyyatı tarixinə nəzər yetirərkən, demək olar ki, bütün şair və yazıçıların əsərlərində öz vətəninə, xalqına, millətinə rəğbət və sevginin şahidi oluruq. Xalqın arasından çıxan hər bir sənətkar mənsub olduğu xalqa, vətənə bağlı olur və öz yaradıcılığında onların vəsfinə yer verir. Yaradıcılıq dövrü XX əsrin II yarısını əhatə edən Məmməd Araz poeziyasının vətəninə, xalqına bağlılığı isə bir başqadır. Yəni "Böyük istedadı və poetik bacarığı sayəsində Məmməd Araz Nizami Gəncəvi, Məhəmməd Füzuli, Mirzə Ələkbər Sabir və Səməd Vurğun

poeziyası ilə ona qədər gəlib çatan klassik şeir ənənəsini və üslubunu təkmilləşdirərək hamının gördüyü və bildiyi, lakin dilə gətirməyi bacarmadığı məsələləri ictimai düşüncənin məhsulu edib, Azərbaycanda vətəndaşlıq poeziyasının əsasını qoyub. Gənc yaşlarından başlayaraq yarım əsrdən artıq davam edən Məmməd Araz yaradıcılığı mənsub olduğu xalqa layiqli şair – vətəndaş xidməti nümunəsidir" (3). Onun şeirlərinin hər misrasından vətəninin hər bir çiçəyinin ətri, çaylarının şırıltısı, quşlarının cikkiltisi gəlir, xalqının ruhu duyulur. Buna görə də onun şeiriyyatı xalqı tərəfindən həmişə yüksək dəyərləndirilmiş, sevilmiş və mahnılar bəslənilərək dillər əzbəri olmuşdur.

## MƏMMƏD ARAZ KİMDİR

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin də məhz Məmməd Araz poeziyasına vurğunluğu heç də bir təsadüf deyildir. Bildiyimiz kimi, Heydər Əliyev hər zaman xalqına, vətəninə, millətinə bağlı, qəlbi həmişə xalqı ilə döyünən bir Lider olmuşdur. Bu mənada, onun xalqını, vətənini vəsf edən şair və yazıçılara da böyük hörməti var idi. Bu fikri onun Azərbaycan ədəbiyyatı tarixində yazıb-yaradan şair və yazıçılara böyük qayğıkeşlik, xüsusi diqqət göstərməsi, onların əksəriyyətinin yaradıcılıqlarını sevə-sevə mütaliə etməsi, çıxışlarında yeri gəldikcə onlardan sitatlar deməsi ilə əsaslandırmaq olar. Hətta Ulu Öndər xalqımızın istiqlaliyəti uğrunda qələmlərini silaha çevirən şairləri təltif edəndən bir gün sonra onlar haqqında "Dünən mən, öz yaradıcılıqları ilə suverenliyimizin əldə edilməsinə, Milli Dirçəliş prosesinə böyük töhfələr vermiş Bəxtiyar Vahabzadənin, Məmməd Arazın və mərhum Xəlil Rzanın suveren Azərbaycanın ən yüksək mükafatı olan "İstiqlal" ordeni ilə təltif edilməsi haqqında üç fərman verdim" – söyləyərək, ədəbiyyat və mədəniyyəti "insanlara təsir göstərən, onların əxlaqının, mənəviyyatının, ictimai-estetik baxışlarının formalaşmasına ən güclü vasitə" adlandırmışdır (7, s. 212-215). Belə ki, Heydər Əliyev hakimiyyətdə olduğu vaxtlarda dahi şəxsiyyətlərimizin təltif edilməsi, yubileylərinin keçirilməsi, onların xatirələrinin əbədiləşdirilməsi, külliyyatlarının işıq üzü görməsi istiqamətində çox mühüm işlər görmüşdür. Bunlar hər birimizə məlum olan danılmaz faktlardır.

Qeyd edək ki, Məmməd Araz da digər sənətkarlar kimi xalqımızın qədirbilən oğlu Heydər Əliyevin hakimiyyətdə olduğu zamanlarda öz layiqli yerini tutmuş, bir sıra mükafat və ya fəxri adlarla təltif olunmuşdur. Belə ki, şair 1972-1974-cü illərdə Azərbaycan Dövlət Nəşriyyatında baş redaktorun müavini, 1974-cü ildən "Azərbaycan təbiəti" jurnalının redaktoru vəzifəsində işləmiş, "Ulduz" jurnalı redaksiya heyətinin üzvü olmuş, həmçinin 1971-1981-ci illərdə Azərbaycan Yazıçılar İttifaqında poeziya bölməsinə rəhbərlik etmişdir. Bunlardan başqa, Məmməd Araz 1975-ci ildə Azərbaycan Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif olunmuş, 1978-ci ildə "Əməkdar mədəniyyət işçisi" fəxri adı verilmiş, 1992-ci ildə Azərbaycanın xalq şairi adına layiq görülmüş, 1995-ci ildə isə Ümummilli Lider Heydər Əliyev Xalq şairi Məmməd Arazı "İstiqlal" ordeni ilə təltif etmişdir. Həmçinin Ulu Öndərin təşəbbüsü ilə 16 aprel 1995-ci ildə şairin yaradıcılıq gecəsi keçirilmişdir. Məmməd Arazın yaradıcılığına həsr olunmuş bu axşamda dahi Ulu Öndərimiz iştirak etmiş və tədbirin sonunda belə bir nitq də söyləmişdir: "Bu gün biz Məmməd Arazın yaradıcılığının, şeirinin, onun bizim Azərbaycan xalqının mədəniyyətinə, ədəbiyyatına verdiyi töhfələri bir daha gördük, eşitdik, dinlədik və bir daha bunların Azərbaycan xalqı üçün faydalı, gərəkli olduğunu bildik. Və bir daha bu gün dərk edirik ki, Azərbaycan xalqının həyatında Məmməd Arazın yaradıcılığının nə qədər böyük əhəmiyyəti var. Həqiqətən də, bu belədir.

Son bir neçə ay mən fikirləşirdim ki, bizim bu ziyalıların, mədəniyyət və elm xadimlərinin hörmətini cəmiyyətdə qaldırmaq lazımdır. Çünki xalq həmişə öz ziyalıları, mədəniyyəti və elmi ilə tanınır. Şübhəsiz ki, xalqın tarixində sərkərdələrin də, siyasətçilərin də çox böyük rolu var. Ancaq xalq həmişə mədəniyyəti ilə, elmi ilə tanınır və keçmiş tariximiz də bunu sübut edir, bu gün də sübut edir, buna heç kəsin də şübhəsi yoxdur" (2).

**MƏMMƏD ARAZ YARADICILIĞI**

Heydər Əliyevin Məmməd Araz poeziyasına və şəxsiyyətinə müsbət rəğbətinin bir sıra səbəbləri vardır. Onlardan birincisi, şairin vətənini şeirlərində varlığı ilə tərənnüm etməsi və bütövlükdə azərbaycançılığı özündə əks etdirməsi idi. Onun "Azərbaycan, dünyam mənim", "Ana yurdum, hər daşına üz qoyum", "Şuşada bir gecə", "Oxuyan Təbriz", "İnsan qayalar" və s. şeirlərini sevə-sevə oxuyan Ulu Öndər heyrətə gəlirdi, kövrəlirdi.

Azərbaycan – qayalarda bitən bir çiçək,
Azərbaycan – çiçəklərin içində qaya.
Mənim könlüm bu torpağı vəsf eləyərək,
Azərbaycan dünyasından baxar dünyaya.
Azərbaycan – mayası nur, qayəsi nur ki...
Hər daşından alov dilli ox ola bilər.
"Azərbaycan!" – deyiləndə ayağa dur ki,
Füzulinin ürəyinə toxuna bilər (4, s. 100).

Və ya:

Qayaların keçmişini
qayalara yazdım, deyə.
Onda Vətən sanar məni
Bir balaca Vətən daşı,
Vətən daşı olmayandan
olmaz ölkə vətəndaşı... (4, s. 109)

Təqdim olunan bu misralar Heydər Əliyevin sanki ruhunu oxşayırdı, ürəyinin dərinliyində alovlanan fikirlərini Məmməd Arazın poetik dillə ifadə etdiyi misralarda görürdü, eşidirdi, hiss edirdi, tapırdı. Buna görə də, o, şairin yaradıcılığını yüksək qiymətləndirərək deyirdi: "Öz əsərləri ilə yüksək bədii sənətkarlıq və əsl vətəndaşlıq qeyrəti aşılayan, doğma Vətəni sonsuz məhəbbətlə sevən, qüdrətli qələmi ilə xalqımıza sədaqətlə xidmət edən Məmməd Arazın poeziyasını Azərbaycan torpağından, tariximizdən, el-obadan ayrı təsəvvür etmək çətindir" (1). Göründüyü kimi, "Azərbaycan ədəbiyyatı tarixində Azərbaycanın milli istiqlaliyyəti, birliyi və ərazi bütövlüyü uğrunda öz qələmilə mübarizə aparan əbədiyaşar sənətkarlardan biri də "Xətayinin qılıncını suvardım, Məmməd Araz karandaşı göyərdi" deyərək öz poeziyası ilə qələmini milli ideallar, dövlətçilik və ərazi bütövlüyü uğrunda mücadilədə silaha çevirən görkəmli söz ustadı Məmməd Arazdır. "Mənim yurdum hardan başlar? - ürəyimin kandarından..." - deyən şairin yaradıcılığında Azərbaycan bütün mənəvi

böyüklüyü, qüdrətilə əks olunur. Məmməd Araz yaradıcılığı və bədii düşüncəsində Azərbaycan bir Dünyadır, Kainatdır. Onun yaradıcılığında Azərbaycan öz əxlaqı, mənəviyyatı, dərin ruhi-mənəvi aləmi, zəngin dəyərləri və sairləri ilə bir baxış, dünyagörüşü, özünəməxsus bir dünyadır" (6).

İkincisi, Məmməd Arazın yaradıcılığında fəlsəfiliyin yeni, müasir dünyabaxış müstəvisində canlandırılması idi. Şairin yaradıcılığı oxucusunu düşündürür, onda niyə və nə üçün yaşadığı barədə müəyyən suallar yaradır. Y.Qarayevin təbirincə desək, "Bu seirlərdə şair bir ənənənin yox, min illik əxlaq, fəlsəfə, hünər və poeziya irsinin (yaddaşının!) varisi kimi çıxış edirdi: insan, təbiət, tarix, tale - bir assosiasiyada qovuşub kəsişirdi... Əsl, həqiqi, böyük Poeziya olan Məmməd Araz sözü də düşüncədə, əxlaqda və qeyrətdə belə yaddaşın şeirdə ifadəsidir." (4, s. 7)

Bir taleyin oyununda cütlənmiş zərik,

Yüz il qoşa atılsaq da qoşa düşmərik.

Bir zərrənin işığına milyonlar şərik,

Dünya sənin, Dünya mənim, Dünya heç kimin... (4, s. 166)

Məmməd Araz yaradıcılığının mövzu-məzmun mündəricəsi o qədər geniş, zəngin və əhatəlidir ki, onun sözünə vurğunluğun səbəblərini, əslində, saymaqla bitirmək olmur. Elə buna görə də Ulu Öndərin də ona rəğbətinin səbəbləri tükənməzdir. Onun şair haqqında fikirləri çoxdur və bu fikirlərdə şairin varlığı və sanki bütün poeziyası göz önündə canlanır. Heydər Əliyevin şair haqqında fikirlərindən biri də belədir: *"Xalq şairi Məmməd Araz millətimizin mənəvi təkamülündə, gənclərimizin estetik tərbiyəsi yolunda yorulmadan çalışaraq qədim və zəngin ənənələrə malik milli poeziyamıza gözəl töhfələr vermişdir. Şairin dərin fəlsəfi məzmunlu lirikası çağdaş Azərbaycan poeziyasını daha da zənginləşdirmiş, Məmməd Araz istedadının, təfəkkürünün bəhrələri olan yüzlərlə şer milyonların qəlbinə yol taparaq əbədi məskən salmışdır. Təkcə rəsmi təltifləri – xalq şairi, əməkdar incəsənət xadimi fəxri adları, Dövlət mükafatı deyil, bənzərsiz sənətindəki millilik, xəlqilik, ənənəyə sədaqət və novatorluq ona xalq məhəbbəti qazandırmışdır" (1).*

**SON**

Beləliklə, Məmməd Araz rəngarəng yaradıcılığı ilə Azərbaycan poeziyasını daha da zənginləşdirmiş, özünəməxsus keyfiyyətləri ilə xalqının sevgisini qazanmışdır. Başqa sözlə, *"Poeziyanın dumduru, şəffaf bulağı başına o, Arazın bulanıq və paralı sahilindən ayrılıb gəldi, özü ilə poeziyaya Arazın dərdini, ağrısını da gətirdi. Özü də tarixdən və təbiətdən, ana dilindən, bayatıdan, folklordan axan bir Araza döndü - Məmməd Araz!"* (4).

**ƏDƏBİYYAT**

**INTERNET RESURSLARI**

1. http://anl.az/el/emb/M.Araz/sitat.html

2. https://www.youtube.com/watch?v=KfwxKqt1Tic

3. https://nuhcixan.az/news/medeniyyet-turizm/20998-bu-gun-xalq-sairi-memmed-arazin-anadan-olmasindan-86-il-otur

4. Məmməd Araz. Seçilmiş əsərləri. 2 cilddə. I cild. Bakı: Lider, 2004, 224 s.

5. Məmməd Araz. Seçilmiş əsərləri. 2 cilddə. II cild. Bakı: Lider, 2004, 232 s.

6. Qasımov R. Azərbaycan ünvanlı Məmməd Araz poeziyası // https://525.az/site/?name=xeber&news_id=87927#gsc.tab=0

7. Асадуллаев С. Гейдар Алиев и литературный процесс. Баку: Нурлан, 2005, с. 212-215

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN BƏSTƏKARLIQ MƏKTƏBİ

**Güllü Həsən qızı İsmayılova**

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti

Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent

ORCİD=0000-0002-8494-8776

gullu.ismailova@mail.ru

**TEZIS**

Güllü İsmayılovanın "Heydər Əliyev və Azərbaycan bəstəkarlıq məktəbi" məqaləsində H.Əliyevin milli dəyər daşıyıcısı olan bəstəkarlara və onların irsinə olan münasibətindən və yanaşmasından danışılır. H.Əliyevin Ü.Hacıbəyli, Niyazi, Q.Qarayev, C.Hacıyev, F.Əmirov və d. bəstəkarlarla bağlı olan deyimləri və müəyyən faktlar araşdırılır. Məqalədə həmçinin bəstəkarların yaradıcılığında H.Əliyev şəxsiyyətinə münasibətdən yaranan əsərlər haqqında məlumat verilir.

***Açar sözlər:*** *bəstəkar, dirijor, musiqi, simfonik janr, muğam, irs və s.*

**ABSTRACT**

Gullu Ismayilova's article titled " Heydar Aliyev and the Azerbaijani composers' school" tells about H.Aliyev's opinion to the activities of composers and their heritage as a carrier of national value. H.Aliyev's statements and certain facts about U.Hajibeyli, Niyazi, Q.Qarayev, C.Hajiyev, F.Amirov and other composers are investigated. The article also provides information about the works created by the attitude towards the personality of H. Aliyev in the creativity of composers.

**Keywords:** composer, band-master, music, symphonic genre, mugam, heritage, etc.

## GİRİŞ

Azərbaycanın ümummilli lideri Heydər Əliyevin siyasi arenadakı səmərəli fəaliyyəti, dahi şəxsiyyət və uzaqgörən bir rəhbər olaraq müxtəlif sferalarda gördüyü genişmiqyaslı işlər, bu il anadan olmasının 100 illiyi münasibəti ilə bir daha xatırlanaraq yada salınır. Tarixi və siyasi proseslərin mahiyyətini dərindən anlayan lider olaraq "Bütün biliyimi, təcrübəmi və qüvvəmi Azərbaycan Respublikasının və xalqının rifahına həsr edəcəyəm" söyləyən Heydər Əliyev, doğrudan da, 24 il dövlət rəhbəri kimi Azərbaycanı məsuliyyətlə idarə etmiş, apardığı düzgün siyasət nəticəsində müstəqillik dövründə ölkəni vətəndaş müharibəsi və hazır olmadığımız daxili müharibə təhlükəsindən xilas edə bilmişdir.

XX əsrin dahi siyasətçilərindən biri, "Azərbaycan mədəniyyətinin hamisi" adlandırılan Heydər Əliyevin Azərbaycanla bağlı tarixi rolu danılmaz və unudulmazdır. H.Əliyev, təhsilə, elmə, mədəniyyətə, ümumiyyətlə, xalqın intelllektual səviyyəsinin artırılmasına qayğı göstərməyi öz fəaliyyətinin prioritet istiqaməti hesab edirdi. O, incəsənətin bütün sahələrini dərindən anlayan, musiqi, teatr, rəssamlıq haqqında rahat şəkildə danışa bilmək qabiliyyətinə malik səlahiyyətli bir insan kimi xatırlanır. Klassik musiqini sevən və anlayan H.Əliyevin təşəbbüsü ilə, musiqi zövqlərini formalaşdırmaq məqsədilə XX əsrin 70-80-ci illərində partiya işçiləri, daha sonra hakimiyyətə qayıdışında isə məmurlar həftənin cümə günləri simfonik konsertlərə dəvət olunurdular. Bu da onun incəsənətə, xüsusilə də musiqiyə olan məhəbbətindən, zövqləri Respublikada yüksək mənəvi-estetik ideallara hörmət atmosferi yaratmaq arzusundan qaynaqlanırdı.

H.Əliyevin yaradıcı insanlara olan həssas münasibəti, onlara dəyər verərək professionallıqla yanaşması və fəaliyyətləri üçün dəstəkləyici mühit formalaşdırması unudulmamalı və mütləq qeyd olunmalıdır. Yəni, dəyərlər istehsal edilən bir sahə kimi mövcud olan mədəniyyət sferasında, H.Əliyevin bəstəkar yaradıcılığına özünəməxsus şəkildə həssas yanaşması isə xüsusi vurğulanmalıdır.

### H.Əliyevin Azərbaycan professional bəstəkarlarına münasibəti

İncəsənətin bütün sahələrini, o cümlədən musiqi sferasını gözəl anlayan H.Əliyev, bəstəkarların yaradıcılığı və onların əsərləri haqqında sanki bir musiqişünas və tənqidçi kimi danışırdı. Azərbaycan professional bəstəkarlıq məktəbinin banisi Ü.Hacıbəylinin yaradıcılığını çox sevən və yüksək qiymətləndirən H.Əliyev, Azərbaycan bəstəkarlarının V qurultayındakı nitqində demişdir: "Biz bu gün professional musiqinin banilərinin, ilk növbədə Üzeyir Hacıbəyovun fəaliyyətini böyük minnətdarlıq və iftixarla xatırlayırıq. Onlar xalqa nəinki gözəl musiqi əsərləri bəxş etmiş, həm də Azərbaycanda bəstəkarlıq məktəbinin təməlini qoymuş və bu məktəbi yaratmışlar" (ÜHE,1996:76). Hələ sovet dövründə, 1975-ci ildə məhz H.Əliyevin təşəbbüsü və iştirakı ilə Bakıda Ü.Hacıbəylinin ev muzeyi açılmasını, dahi musiqi korifeyi Üzeyir bəyin 90, 100, 110 illk yubileylərinin təntənəli şəkildə keçirilməsinin təşkilatçısı və iştirakçısı kimi xidmətlərini musiqi ictimaiyyəti hər zaman xatırlayır. H.Əliyev, Üzeyir bəyin fəaliyyətindəki bütün məqamları, həqiqətləri tam olaraq anlayır, öz çıxışlarında onun bir işıqlı ziyalı kimi ana dilimizin saflığı və yad ünsürlərdən qorunması üçün fədakar münasibətini böyük rəğbətlə vurğulayırdı. Azərbaycanın ictimai fikir tarixində, elmin, mədəniyyətin və musiqinin inkişafında xidmətləri olan, dahi bəstəkar Üzeyir Hacıbəylinin anadan olmasının 110 illiyinə həsr olunmuş yubiley gecəsindəki nitqində Heydər Əliyev demişdir: "Əgər tarixə nəzər salsaq, Üzeyir Hacıbəyov üç hakimiyyət dövründə yaşamışdır... Üzeyir Hacıbəyov bütün

bu üç mərhələdə hakimiyyətin xarakterindən, formasından asılı olmayaraq, xalqına xidmət etmişdir. Bu gün bunu deməyə əsas var ki, o belə düşünmüşdür: hansı hakimiyyət olursa-olsun, xalqa sədaqətlə xidmət edən, xalqın irəli getməsinə çalışan adam heç bir şeylə hesablaşmamalıdır. Üzeyir Hacıbəyov belə olmuşdur"(ÜHE,1996:77).

Müasiri olduğu bəstəkarların yaradıcılığını yüksək qiymətləndirən H.Əliyevin, həm də Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Tofiq Quliyev kimi bəstəkarlarla dost münasibəti var idi. H.Əliyev, Q.Qarayevin çoxşaxəli yaradıcılığını belə qiymətləndirir: "Qara Qarayev bizə özünün bədii dəyərinə görə valehedici irs qoyub getmişdir. Qara Qarayevin adı, mütəfəkkir alim, görkəmli publisist kimi Azərbaycan elminin tarixinə yazılmışdır. Bəstəkar, pedaqoq, alim, rəhbər, ictimai xadim olan Qara Qarayev həmişə və hər işdə alovlu-musiqiçi tribundur. Qara Qarayevin adı, onun musiqisi ölməzdir. İllər, on illər keçəcək, bizim kimi yeni-yeni nəsillər də gözəlliyi Q.Qarayevin əsərləri vasitəsilə dərk edəcəklər" (Qarayev, 2008: 22).

H.Əliyev, F.Əmirovun zəngin milli elementlərdən qaynaqlanan musiqisi haqqında isə "Fikrət Əmirovun simfonik musiqisini daha çox sevirəm, çünki, Fikrətdə millilik, vətənə bağlılıq, doğmalıq var. Onun musiqisində Azərbaycan daha əzəmətli görünür" (Əliyev, 2013:104) fikirlərini söyləyir.

Azərbaycanın tanınmış şəxsiyyətləri arasında Tofiq Quliyevin xüsusi yeri olduğunu söyləyən, bəstəkarı 1997-ci ildə 80 illiyinə həsr olunmuş yubileyi münasibəti ilə "İstiqlal" ordeni ilə təltif edən H.Əliyev, təqdimetmə mərasimi günü Tofiq Quliyev xəstəxanada olduğu üçün xəstəxanaya gəlib ordeni orada bəstəkara təqdim etmişdi, bu da onun böyüklüyünün, sənətkara olan sonsuz hörmətinin ifadəsi demək idi.

Bakıda Niyazinin ev muzeyinin təntənəli açılışında, onu dünyada böyük hörmət qazanan sənət ustası adlandıran H.Əliyev, "Niyazinin ən böyük xidməti bundan ibarətdir ki, o, həm bəstəkar kimi milli musiqimizi zənginləşdirmiş, Azərbaycan mədəniyyətinə, milli musiqimizə böyük töhfələr vermiş və eyni zamanda, Üzeyir Hacıbəyovdan başlayaraq gənc bəstəkarlaradək, Azərbaycanın ən görkəmli bəstəkarlarının yaratdıqları əsərlərin meydana çıxması, xalqa çatdırılması, səhnələrdə tamaşaya qoyulması üçün misilsiz işlər görmüşdür"(Əliyev, 2013: 31) fikirlərini ifadə etmişdir.

1997-ci ildə H.Əliyev, Azərbaycan musiqi mədəniyyətinin inkişafındakı böyük xidmətlərinə və anadan olmasının 80 illiyi münasibətilə bəstəkar Cövdət Hacıyevi "Şöhrət" ordeni ilə təltif etmiş və onun yaradıcılığını belə xarakterizə etmişdi: "Siz ölkəmizdə milli simfonizmin yaradıcılarından biri kimi tanınırsınız. Musiqiniz vətəndaşlıq ruhu, dərin məzmunu və yüksək bədiiliyi ilə fərqlənir. Siz öz əsərlərinizdə dünya klassik musiqi ənənələri ilə yanaşı, Azərbaycan xalq musiqisinin müxtəlif janrlarının, eləcə də muğam sənətinin bədii ifadə vasitələrindən bacarıqla istifadə edirsiniz. Sənətsevərlərin böyük rəğbətini qazanmış bir sıra əsərləriniz Azərbaycan musiqi mədəniyyətinin qızıl fonduna daxil olmuşdur. Görkəmli bəstəkar, novator pedaqoq və tanınmış ictimai xadim kimi Sizin çoxsahəli fəaliyyətiniz yeni musiqiçilər nəsli üçün əsl örnəkdir" (Yusifova, 2013: 44).

80 illərin əvvəllərində məşhur dirijor Y.Mravinski, dirijor və bəstəkar İsmayıl Hacıyevin Leninqrad Filarmoniyasında keçdiyi təcrübə müddəti vaxtının bir il də uzadılması ilə bağlı SSRİ Nazirlər Sovetində mədəniyyət məsələlərinə baxan H.Əliyevə müraciət etmişdi. Bu məsələnin müsbət həllinə kömək edən H.Əliyev, yaradıcı insan İ.Hacıyevin sonrakı fəaliyyətində də ona böyük dəstək göstərmişdir (Aliyeva, 2012: 4).

H.Əliyevin 8 dekabr 2002-ci ildə məşhur dirijor və görkəmli bəstəkar Niyazinin 90 illiyinə həsr olunmuş yubiley gecəsində danışdıqları da yaradıcı insanlarla bağlı maraqlı faktlardan biridir. Ümummilli liderin söylədiklərinə əsasən, üç dahi insanın – Niyazi, Q.Qarayev və F.Əmirovun bir-biri ilə yola getməməsi kimi münasibəti onu çox narahat edirdi. O, 1973-cü ildə, bazar günü onları Zaqulbaya, dövlət bağına dəvət edir və bu üçlüyü barışdırmaqla, yaradıcı insanlar arasında yeni bir atmosfer yaratmağa nail olur.

1994-cü ildə Bakı metropolitenində Ermənistan xüsusi xidmət orqanları tərəfindən təşkil edilmiş terror hadisəsi hər bir insan kimi H.Əliyevi də sarsıtmışdı. Terror zamanı həlak olanlarla bağlı keçirdiyi məyusluğu, terrorun qurbanları arasında istedadlı pianoçu və bəstəkar Rafiq Babayevin olmasını böyük təəssüf hissi ilə çatdıran H.Əliyev, hər bir yaradıcı insana göstərdiyi həssas münasibətini bir daha ifadə etmişdi.

H.Əliyev hələ 2001-ci ildə R.Behbudovun xatirə gecəsində Ü.Hacıbəylinin “Arşın mal alan” filmi ilə bağlı köhnəlmiş kadrların bərpası məsələsini qoymuşdu. 12 il sonra, 2013-cü ilin mart ayında Heydər Əliyev Fondunun təşəbbüsü və "Ata Holdinq"in vəsaiti hesabına ABŞ-ın "G-Ray" şirkəti ilə uğurlu danışıqlardan sonra Hollivudda filmlərin bərpası və rənglənməsi üzrə aparıcı peşəkar heyət "Globul 3 Pictures" komandası tərəfindən ağ-qara variantda olan "Arşın mal alan" filminin bərpa və rənglənməsi həyata keçirilmişdir.

Onu da qeyd edək ki, dünyasını dəyişən görkəmli bəstəkarların xatirələrinin əbədiləşdirilməsi üçün ev muzeylərinin yaradılması, yubileylərinin təntənəli surətdə qeyd edilməsi, respublikamızın iri şəhərlərində onların adına küçə, məktəb, mədəniyyət ocaqları, musiqi kollektivlərinin verilməsi məhz bu dahi şəxsiyyətin adı ilə bağlıdır.

H.Əliyev, musiqi janrlarına da öz münasibətini bildirir, bəstəkarların simfonik musiqi sahəsində proqramlı musiqi əsərlərini daha çox yazmalarını tövsiyə edirdi. O, operettalardakı, mahnı janrındakı zəif cəhətləri göstərir, onlara cidi fikir verilməsini vurğulayırdı. Bəstəkarlara foklor və müasir musiqinin üzvi surətdə əlaqələndirilməsini məsləhət görürdü.

**H.Əliyev obrazı –Azərbaycan bəstəkarlarının yaradıcılığında**

Azərbaycanda milli ideologiyanın - azərbaycançılığın təbliğində müstəsna xidmətləri olan ümümmilli lider Heydər Əliyev şəxsiyyəti də daima ədəbiyyat və incəsənət xadimlərinin diqqət mərkəzində olmuş və onlar dəfələrlə siyasi xadimin obrazını öz əsərlərində canlandırılmaqla bunu vurğulamışlar. Yəni sağlığında da, eləcə də dünyasını dəyişəndən sonra da Azərbaycan bəstəkarları dərin hörmət və ehtiram əlaməti olaraq Heydər Əliyevin obrazını təcəssüm etdirən və ona ithaf olunmuş istər iri həcmli, istərsə də kiçik həcmli çoxsaylı orijinal əsərlər yazmışlar. Maraqlıdır ki, sağlığında istər sadə xalqın nümayəndələrinin, istərsə də ziyalı təbəqənin hörmət və məhəbbətini qazanan siyasi xadimə həsr olunmuş əsərlər arasında müxtəlif janrların (simfonik, kamera-instrumental və vokal və s.) nümunələri vardır. Onların arasında Cövdət Hacıyevin 8 saylı simfoniyası ("Onu zaman seçib") və "Ulu öndər" odası da verdır. Arif Məlikovun 8 saylı (“Əbədiyyət”) simfoniyasının yazılma ideyası 1994-cü ildə onun H.Əliyevlə birlikdə müsəlmanların müqəddəs torpağı olan Məkkədə olarkən yaranmışdı. Bəstəkar Ramiz Mirişli isə Heydər Əliyevə həsr olunmuş silsilə vokal əsərlərin müəllifidir, onların içərisində solist və xor üçün “Məşəl kimi yanan ürək” odası, “Adın şöhrət-şan yerimiz”, “Heydər ata”, “Atalar”, “Sənsiz” adlı mahnıları misal göstərmək olar. Firəngiz Əlizadənin 2003-cü ildə simfonik orkestr üçün yazdığı və “İthaf” adlandırdığı əsər, ilk dəfə H.Əliyev dünyasını dəyişdikdən sonra, 2004-cü il yanvarın 27-də Azərbaycan Dövlət Filarmoniyasının

əsaslı təmirdən sonra açılışında, bu əsəri sifariş edən M. Rostropoviçin dirijorluğu altında ifa olunmuşdu. 1992-ci ildə yazılan Vasif Allahverdiyevin "Heydər Əliyev - Ömür Yolu" simfonik poeması prezidentə həsr olunmuş ilk simfonik əsərdir, H. Əliyev dünyasını dəyişdikdən sonra o, həmçinin messo-soprano və kamera orkestri üçün "Sənsizlik" adlı elegiya da yazmışdır.

**NƏTİCƏ**

"Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir" söyləyən H.Əliyevin mədəniyyət konsepsiyası çox dərin və geniş anlayışdır. Ümumiyyətlə, humanizm prinsiplərinə söykənən H.Əliyevin cəmiyyət həyatında müstəsna rolu olan professional bəstəkar yaradıcılığına rəğbətindən və qayğıkeş münasibətindən qaynaqlanan hadisələr kifayət qədərdir. Belə ki, bu il anadan olmasının 100 illik yubileyi geniş şəkildə qeyd olunan, dahi şəxsiyyət kimi tarixə düşən Heydər Əliyev, Azərbaycan bəstəkarlıq məktəbinin hər bir istedadlı nümayəndəsinə, eləcə də onların yaradıcılıq irsinə öz diqqətli və həssas münasibəti ilə daima örnək olmuş və bunu Azərbaycançılıq dəyərinin, ideoloji modelinin bir hissəsi kimi həyata keçirmişdir.

**ƏDƏBİYYAT**

1. Əliyev Z. (2013) Heydər Əliyev. Səhnəarxası görüşlər", Bakı.

2. Qarayev Q. (2008) Biblioqrafiya: M.F.Axundov adına Milli Kitabxana. 3.Üzeyir Hacıbəyov Ensiklopediyası. (1996). B, "Azərbaycan" nəşriyyatı.

4.Aliyeva E. (2012) Velikiy lider lyubil i çenil iskusstvo. Bakinskiy raboçiy. 17 may

5.Yusifova A. (2013) Djevdet Qadjiev. Xronika jizni. Stati.Vıskazıvaniya, Baku, "Texsil".

6. İsmayılova G. (2013) Azərbaycan bəstəkarlarının yaradıcılığında Heydər Əliyev obrazının təcəssümü. Heydər Əliyev - 90 "Azərbaycan mədəniyyəti və incəsənəti H.Əliyevin Azərbaycançılıq ideologiyasının ideya-fəlsəfi əsası kimi" mövzusunda eimi-nəzəri konfransın materialları.

## H.ƏLİYEVİN ƏDƏBİYYATA OLAN ESTETİK BAXIŞI

**Dr. Ulduz Fərhad qızı Qəhrəmanova**

**ADPU-nun "Ədəbiyyat" kafedrasında baş müəllim**

**ulduzkahraman1@gmail.com ,**

**Xülasə:**

Ulu Öndər H.Əliyev Azərbaycan və dünya yazıçılarının yaradıcılıqlarına və şəxsiyyətlərinə həmişə yüksək dəyər vermişdir. H.Əliyev deyirdi ki, əsl sənət əsəri odur ki, sənətkar burada hər şeydən əvvəl özünü ifadə etsin. Sənətkara sifariş mövzu vermək olmaz. Mövzu seçmək sənətkarın öz işidir, onun istedadına aiddir. Xüsusilə qeyd etmək lazımdır ki, Sovet dövrü ədəbiyyatında yaradıcı adamlar üçün yaradıcılıq azadlığı adlı bir məfhum yox idi. Yaradıcılıq işi üçün seçilən mövzu sifariş xarakterli mövzular idi. Ümumiyyətlə, sosial sifariş

sənətkarın məharəti, həssas duyumu, dünyagörüşü ilə əlaqəli yoğrularsa, mükəmməl yaradıcılıq nümunəsi kimi ortaya çıxa bilər.

Ulu Öndər Heydər Əliyev ədəbiyyatda müasirlik və tarixiliyin vəhdətini xüsusi olaraq vurğulayırdı. H.Əliyevə görə, ədəbiyyatda tarixilik xalqın tarixi taleyinin əks olunmasıdır. Tarixi milli yaddaş tarixiliyin simvoludur. Çünki ictimai formasiyanın hər bir mərhələsində hər bir xalq öz tarixini dərk etməyə çalışır.

H.Əliyevin Azərbaycan ədəbiyyatının görkəmli şəxsiyyətlərinə olan münasibətinin parlaq təzahürü kimi sənət adamlarına təqdim etdiyi fəxri adları, ordenləri göstərmək olar. Belə ki, Sovet dönəmində yazıçı, şair, mədəniyyət işçilərinə o vaxtın ən yüksək fəxri adı olan "Sosialist Əməyi Qəhrəmanı", müstəqillik illərində "Şöhrət", "İstiqlal" ordenlərinin yazıçılara təqdim edilməsi H.Əliyevin ədəbiyyat elminə olan sevgi və diqqətindən irəli gəlirdi.

**Açar sözlər:** H.Əliyev, Azərbaycan ədəbiyyatı, sosial sifariş, tarixilik, müasirlik, fəxri adlar, orden və medallar

**Summary**

Great Leader H. Aliyev has always valued the creativity and personality of Azerbaijani and world writers. H. Aliyev said that the real work of art is where the artist expresses himself first of all. You can't order a theme for an artist. Choosing a subject is the artist's own business, it belongs to his talent. In particular, it should be noted that there was no concept of creative freedom for creative people in the literature of the Soviet period. The theme chosen for the creative work was custom themes. In general, social order can emerge as a perfect example of creativity if it is related to the artist's skill, sensibility, worldview.

Great Leader Heydar Aliyev especially emphasized the unity of modernity and historicity in literature. According to H. Aliyev, historicity in literature is a reflection of the historical fate of the nation. Historical national memory is a symbol of historicity. Because at every stage of social formation, every nation tries to understand its history.

Honorary titles and orders presented to artists by H. Aliyev can be shown as a bright manifestation of his attitude towards prominent figures of Azerbaijani literature. Thus, during the Soviet period, the highest honorary title "Hero of Socialist Labor" was awarded to writers, poets, and cultural workers, and during the years of independence, the "Fame" and "Istiqlal" orders were presented to writers due to H. Aliyev's love and attention to the science of literature.

**Keywords:** H. Aliyev, Azerbaijani literature, social order, historicity, modernity, honorary titles, orders and medals

Məlumdur ki, Ulu Öndər H.Əliyev Azərbaycan və dünya yazıçılarının yaradıcılıqlarına və şəxsiyyətlərinə həmişə yüksək dəyər vermişdir. H.Əliyev deyirdi ki, əsl sənət əsəri odur ki, sənətkar burada hər şeydən əvvəl özünü ifadə etsin. Sənətkara sifariş mövzu vermək olmaz. Mövzu seçmək sənətkarın öz işidir, onun istedadına aiddir. Xüsusilə qeyd etmək lazımdır ki, Sovet dövrü ədəbiyyatında yaradıcı adamlar üçün yaradıcılıq azadlığı adlı bir məfhum yox idi. Yaradıcılıq işi üçün seçilən mövzu sifariş xarakterli mövzular idi. XX əsr Azərbaycan

ədəbiyyatının böyük bir dövrünü Sovet ədəbiyyatı mərhələsi təşkil edirdi. Sovet dövrü ədəbiyyatı müstəsna bir mərhələ idi və Azərbaycan ədəbiyyatı tarixində 1920-1991-ci illəri əhatə edibdir. H.Əliyevə görə, Sovet dövrü ədəbiyyatının tarixi mərhələləri aşağıdakılardır:

1. Sovet dövrü ədəbiyyatının ilk təşəkkülü dövrü
2. Sovet dövrü ədəbiyyatının inkişafı dövrü

Ədəbiyyatda sosial sifariş problemi haqqında H.Əliyev Azərbaycan yazıçılarının X qurultayında yazıçı və şairlərə bildirmişdir: "...siz tam sərbəstsiniz, azadsınız və sərbəstlik, azadlıq şəraitində nə cür istəyirsinizsə, o cür yazın. Hansı mövzunu götürürsünüz, götürün, sizin öz işinizdir. Dövlət bu işlərə qarışmayacaqdır. Mən bunu sizə qətiyyətlə deyirəm" (5, 81)

H.Əliyev haqlı olaraq deyirdi ki, sosial sifariş konsepsiyası ədəbiyyatda həmişə olubdur. Hətta ənənə şəklinə də düşübdür. Məsələn: Nizami, Füzuli kimi dahi sənətkarlar öz poemalarını müəyyən sifarişlər əsasında yazıb yaratmışlar. Əlbəttə, bu, o demək deyil ki, hökmdarların sifarişi olmasa idi Nizami, Füzuli kimi yaradıcı şəxsiyyətlər nəhəng poemalarını yaratmayacaqdır. Əlbəttə, yaradacaqdır. Lakin təcrübə onu sübut edir ki, ictimai sifariş çox vaxt bu prosesi gücləndirmiş, ona istiqamət vermişdir. Ümumiyyətlə, sosial sifariş sənətkarın məharəti, həssas duyumu, dünyagörüşü ilə əlaqəli yoğrularsa, mükəmməl yaradıcılıq nümunəsi kimi ortaya çıxa bilər.

Hər bir şairin, yazıçının və dramaturqun ən böyük məziyyətlərindən biri onun mövzu seçmək bacarığıdır. Sənətkarı seçdiyi mövzu ilhama gətirməlidir. Yəni sənətkarın gördüklərini, duyduqlarını, dövrünün ondan tələb etdiklərini, başqalarının hələ müşahidə etmədiklərini və ya müşahidə edərək bu məsələ haqqında danışa bilmədikləri problemləri oxucuya söyləmək imkanını yaratmaq dövrün ictimai sifarişidir.

Ədəbi əsərlər istedadın məhsuludur, bəhrəsidir. "Əsl görkəmli əsərlərin yaradılması sənətkardan böyük istedadla yanaşı, həm də ardıcıl, gərgin çalışmağı, geniş həyat materialını toplayıb dərindən dərk etməyi tələb edir". (5, 79) Bu baxımdan yanaşanda xüsusilə qeyd etmək lazımdır ki, Ulu Öndər Heydər Əliyev ədəbiyyatda müasirlik və tarixiliyin vəhdətini xüsusi olaraq vurğulayırdı. H.Əliyevə görə, ədəbiyyatda tarixilik xalqın tarixi taleyinin əks olunmasıdır. Tarixi milli yaddaş tarixiliyin simvoludur. Çünki ictimai formasiyanın hər bir mərhələsində hər bir xalq öz tarixini dərk etməyə çalışır. "Hər bir sənətkar öz xalqının övladıdır və onun tarixi qarşısında məsuliyyət daşıyır...əvvəlki təcrübələrə arxalanmadan müvəffəqiyyətlə irəliyə getmək olmaz". (5, 84)

H.Əliyev tarixi simaların obrazını yartmağın tərəfdarı idi. Qeyd edək ki, tarixi mövzuda yazılan əsərlərin heç də hamısı bədii səviyyənin yüksəkliyi ilə seçilmir. "Bəzən tarixi əsərlərimizdə tarix var, sənət yoxdur, bəzisində isə əksinə, sənət var, tarix yoxdur" . (5, 86)

H.Əliyevin Azərbaycan ədəbiyyatının görkəmli şəxsiyyətlərinə olan münasibətinin parlaq təzahürü kimi sənət adamlarına təqdim etdiyi fəxri adları, ordenləri göstərmək olar. Belə ki, Sovet dönəmində yazıçı, şair, mədəniyyət işçilərinə o vaxtın ən yüksək fəxri adı olan "Sosialist Əməyi Qəhrəmanı", müstəqillik illərində "Şöhrət", "İstiqlal" ordenlərinin yazıçılara təqdim edilməsi H.Əliyevin ədəbiyyat elminə olan sevgi və diqqətindən irəli gəlirdi.

**Ədəbiyyat:**

1.Afad Qurbanov, Heydər Əliyev və Azərbaycan təhsilinin inkişafı, Bakı, Gənclik, 1997

2.Buludxan Xəlilov, Heydər Əliyev və mədəni irsimiz, Pedaqoji Universitetin xəbərləri, Bakı: ADPU, 24 aprel 2003, №3

3. Buludxan Xəlilov, Heydər Əliyev və azərbaycanşünaslıq, Pedaqoji Universitetin xəbərləri, Bakı: ADPU, 10 may 2004-cü il, №2

4. Buludxan Xəlilov, Azərbaycan dili: dünən və bu gün, Bakı, 2004

5.Tərlan Novruzov, Heydər Əliyev və ədəbiyyat məsələləri, Bakı, 2007

## HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN XALQININ MƏNƏVİ İNKİŞAFINDA ROLUNUN ÖYRƏNİLMƏSİNƏ DAİR MÜLAHİZƏLƏR

**p.ü.f.d Esmira Məmmədova**

**ADPU-nun "Azərbaycan dılı və onun tədrisi texnologiyası" kafedrasının baş müəllimi**

**0009-0008-3969-1669**

**Email: tunaryasin.memmedli@ mail.ru**

**ÖZƏT:**

Heydər Əliyevin Azərbaycan xalqı qarşısında xidmətləri misilsizdir, sənayenin, kənd təsərrüfatının, elminin, mədəniyyətin, sosial sferanın bütün sahələrinin inkişafında onun xüsusi rolu olmuşdur. Bu problem haqqında çoxsaylı kitablar, jurnal və qazet məqalələri yazılmış, televiziya ekranlarında verilişlər təşkil olunmuşdur. Lakin elə sahə də vardır ki, o haqda bu günə qədər nə sanballı yazılar dərc olunmuş, nə də xüsusi əhəmiyyətə malik olan tədbirlər keçirilmişdir. O da mənəviyyat sahəsidir. Azərbaycanın mənəvi inkişafı, mənəvi yüksəlişi, mənəvi tərəqqisində Heydər Əliyevin müstəsna rolu və fəaliyyəti olmuşdur. Məhz buna görə də bizim bugünkü məqalə Heydər Əliyevin Azərbaycan xalqının mənəvi inkişafında roluna həsr olunmuşdur.

"Mənəviyyat" anlayışı Azərbaycan dilində, xüsusən praktikada bir o qədər də dəqiq işlənilmir. Məsələn, rus dilində üç söz var: "духовность", "нравственность" və "мораль". Bu üç anlayış Azərbaycan dilində iki anlayışla əvəz olunur: "mənəviyyat" və "əxlaq". Əxlaq anlayışı bizim elmi ədəbiyyatda əsasən мораль anlayışının bir aspekti kimi işlənilir. Ona görə də mənəviyyat anlayışı həm "духовность", həm də "нравственность" anlayışlarının yüklərini daşımağa məruz qalır. Doğrudur, bir anlayış da var – "ruh". Lakin praktikda bu anlayış dini mənada istifadə olunur. Əlbəttə, bunlar hamısı elmi problemlərdir. Heydər Əliyevin Azərbaycan xalqının mənəvi inkişafında rolundan danışarkən, biz yuxarıda qeyd etdiyimiz, "нравственность" aspektini, millətin, cəmiyyətin və şəxsiyyətin daxili mənəvi saflığını, nəhayət, cəmiyyətin mənəvi sağlamlığı problemini nəzərdə tuturuq. Bütün zamanlarda yəni Heydər Əliyevin hakimiyyətdə olduğu dövrlərdə onun irsində cəmiyyətdə səmimiyyət, insanların bir-birinə qarşı diqqətli olması, hər bir şəxsin öz əməyi ilə ucalması, halal çörək yeməsi və bu qəbildən olan ideyaların hərtərəfli təhlil olunması bu gün böyük əhəmiyyətə malikdir. Onu da qeyd edim ki, söhbət yalnız o ideyaların formal mənimsəməsindən getmir. Söhbət onlardan düzgün nəticə çıxardıb, praktiki fəaliyyətimizdə səmərəli istifadə etməkdən gedir. bu problemi nəzərdən keçirərək, biz bir məqamı da qeyd etməli və nəzərə almalıyıq ki,

Sovet dövründə və hal-hazırda qurulmaqda olan cəmiyyətdə mənəviyyatı, mənəvi inkişafı, mənəvi təzyiqi və mənəvi tərbiyəni eyniləşdirmək olmaz. [ 4, 55]

**ANAHTAR KELİMELER:** siyaset, kurtuluş, eğitim sistemi, okul, kriz, politikacı

## CONSIDERATIONS ON STUDYING THE ROLE OF HAYDER ALIYEV IN THE SPIRITUAL DEVELOPMENT OF THE AZERBAIJAN PEOPLE

**MAMMADOVA ESMİRA**

**Summary**

Heydar Aliyev's services to the people of Azerbaijan are unparalleled, he had a special role in the development of industry, agriculture, science, culture, and all areas of the social sphere. Numerous books, magazine and newspaper articles have been written about this problem, and programs have been organized on television screens. However, there is also a field about which neither important articles nor significant events have been published. It is also a field of spirituality. Heydar Aliyev had an exceptional role and activity in the spiritual development, spiritual growth, and spiritual progress of Azerbaijan. That is why today's article is dedicated to Heydar Aliyev's role in the spiritual development of the Azerbaijani people.

If we pay attention to Heydar Aliyev's ideological legacy, we will see that the same problems were posed in one way during the Soviet period, and in another way during the independence period. At the same time, there are noticeable differences in the problems. For example, at that time, one of the most important places in Heydar Aliyev's political and educational activities was the fight against the disease of furniture. He always said that a person should be simple, not with wealth and ornaments, but should be spiritually rich and pure. The problem of spiritual wealth of a person is the most important and the most important of the problems facing the society, the state, the school and the community. According to the ideals and ideological directions of the society, Heydar Aliyev, first of all, emphasized the great and unparalleled educational role of labor. Both man and nation should be proud of hard and honorable work. Along with all this, Heydar Aliyev emphasized the moral factor in the relations of man to man, nation to nation, and certain classes to each other. Mutual care, mutual attention, mutual demands - these principles should form the basis of existing relationships between people.

**Keywords:** politics, liberation, education system, school, crisis, politician

**GİRİŞ:** Heydər Əliyevin ideya-nəzəri irsində diqqət yetirsək, onda görərik ki, eyni problemlər Sovet dövründə bir cür, müstəqillik dövründə isə başqa cür qoyulurdu. Bununla yanaşı problemlərdə də gözə çarpacaq dərəcədə fərqlər vardır. Məsələn, o dövrdə Heydər Əliyevin siyasi-tərbiyəvi fəaliyyətində ən mühüm yerlərdən birini əşyabazlıq xəstəliyinə qarşı mübarizə təşkil edirdi. O, həmişə deyərdi ki, insan sadə olmalıdır, var-dövlətlə, ziynətlə deyil, mənəvi cəhətdən zəngin, pak olmalıdır. İnsanın mənəvi zənginliyi problemi cəmiyyətin, dövlətin, məktəbin və icmatimaiyyətin qarşısında duran problemlərdən ən vacibi və ən

əhəmiyyətlisidir. Cəmiyyətin ideallarına və ideoloji istiqamətlərinə müvafiq olaraq Heydər Əliyev, birinci növbədə, əməyin böyük və misilsiz tərbiyəvi rolunu vurğulayırdı. İnsan da, millət də gərgin və şərəfli əmək üzərində ucalmalıdır. Bütün bunlarla bərabər, Heydər Əliyev insanın insana, millətin millətə, müəyyən təbəqələrin bir-birinə münasibətlərində mənəvi faktoru ön sıraya çəkirdi. Qarşılıqlı qayğı, qarşılıqlı diqqət, qarşılıqlı tələbkeşlik- bu prinsiplər insanlar arasında mövcud olan münasibətlərin əsas qayəsini təşkil etməlidir. [ 4, 51]

Nəhayət, o, Azərbaycan xalqının mənəvi yüksəlişi haqqında düşünərək hələ o dövrdə bəzi mənfi hallara və faktlara qarşı barışmaz mübarizəni çox yüksək qiymətləndirirdi. O hansı hallardır?

-Burada Heydər Əliyevin sərxoşluğa, müftəxorluğa, rüşvətxorluğa, bürokratizmə, proteksionizmə, qatı millətçiliyə və bu kimi mənfi cəhətlərə qarşı apardığı mübarizədən danışmaq yerinə düşərdi.

Heydər Əliyevin Azərbaycan xalqının mənəvi inkişafında, mənəvi tərəqqisində rolundan danışarkən bir məsələnin də üstündən keçmək olmaz. O da xalqın mənəvi qaynaqları, mənəvi kökləridir. XX əsr Azərbaycan tarixində Heydər Əliyevin danılmaz xidmətlərindən biri ondan ibarətdir ki, o xalqımızın min illiklərin süzgəcindən süzülüb gəlmiş mənəvi dəyərlərini mənəvi tərbiyə sisteminə hələ Sovet dövründə daxil etməyə nail olmuşdur. Ondan öncə heç kəs bu problemin belə bir yüksək səviyyəyə qaldırılmasına nail ola bilməmişdir.

Beləliklə, Sovet dövründə Heydər Əliyev fəaliyyətində bu məsələlər xüsusi əhəmiyyət kəsb etmişdir. Heydər Əliyev ideya-nəzəri irsində bir məsələyə xüsusi diqqət yetirilməlidir. O, iki, bir-birinə zidd olan sistemin ideoloqu olmuşdur. Bir çox məsələlərə, o cümlədən mənəviyyat məsələsinə Sövet dövründə özü təbliğ etdiyi mənəvi dəyərləri və mənəvi prinsipləri müstəqillik dövründə Heydər Əliyev qəbul edirdimi? Mənə belə gəlir ki, Heydər Əliyev burjua idealogiyası və burjua dünyagörnüşü prizmasında, ümumiyyətlə bir ictima-siyasi və iqtisadi sistem kimi kommunizmi tənqid edirdi. Lakin kommunizm dövründə istifadə olunan bütün mütərəqqi prinsipləri, humanist ideyaları, ümumibəşəri dəyərləri o, qəbul edir və yüksək qiymətləndirirdi. O cümlədən ümumbəşəri mənəvi dəyərləri müsbət qiymətləndirərək o, həmin dəyərlərin sosializmin tələbatlarına xidmət etməyini normal hesab edirdi, müstəqillik dövründə isə mövcud cəmiyyətin təlabatlarını ödəməyin də vacibliyini vurğulayırdı. Biz ayrı-ayrı mənəvi dəyərləri analiz etsək, onda açıq-aydın görərik ki, sosializm cəmiyyətində zəhmətkeş siniflərə xidmət edən, onların mənəvi yüksəlişinə təkan verən dəyərlərə Heydər Əliyev irsində xüsusi yer verilir. [ 5, 375]

**ARAŞDIRMA:** Müstəqillik dövründə ulu öndər birinci növbədə iki məqama diqqəti yönəldirdi. Milli və ümumbəşəri dəyərlərə, Heydər Əliyev belə hesab edirdi ki, bütövlükdə ölkəmizdə mənəvi tərbiyə sistemi milli –mənəvi dəyərlərimiz, Azərbaycan xalqının adət-ənənələri üzərində qurulmalıdır. Sovet dövründən fəqli olaraq, o, mənəvi tərbiyəyə sinfi prizmadan yanaşmadan uzaqlaşmışdır. Eyni zamanda o, belə hesab edirdi ki, ölkədə mənəvi tərbiyə ümumbəşəri dəyərlərdən təcrid olunmuş şəkildə aparılmamalıdır. Milli, mənəvi dəyərlər, həmiçinin ümumbəşəri dəyərlər cəmiyyətimizdə və ölkəmizdə işinin əsasını təşkil edir.

Heydər Əliyev irsində mənəviyyat problemi, xüsusilə mənəvi tərbiyə problemi müxtəlif prizmalardan araşdırılır və müxtəlif kontekslərdə analiz olunur. Məsələn, Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıdandan sonra Azərbaycan xalqının və Azərbaycan dövlətçiliyinin

qarşısında duran ən mühüm problem- Qarabağ problemi, o cümlədən ölkənin ərazi bütövlüyünün təmin olunması, müstəqil Azərbaycan dövlətinin möhkəmlənməsi, inkişaf etməsi və müdafiəsi problemi idi. Ona görə də Heydər Əliyev mənəviyyat probleminə, mənəvi zənginlik məsələlərinə, Azərbaycan dövlətçiliyinə və xalqına sadiqlik, onun tarixinə və mədəniyyətinə məhəbbət prizmasından yanaşırdı. Ümummilli liderimizin fikrincə, vətənə sonsuz məhəbbət, xalqa sevgi və ehtiram, Azərbaycan dövlətçiliyinin müdafiəsi uğrunda ölümə belə hazır olmaq mənəviyyatın ən parlaq nümunəsi və ən yüksək səviyyəsidir. Məhz bu baxımdan da o, mənəviyyatsızlıq, mənəvi düşgünlük və mənəvi yoxsulluq probleminə tənqidi yanaşırdı. Vətəni satanlar, vətənə və millətinə xəyanət edənlər, öz eqoist, şəxsi və korparativ maraqlarını ümummilli və ümumi dövlət maraqlarından üstün tutan subyektlər mənəvi şikəst və mənəvi yoxsul kimi xarakterizə olunurlar. Sözün əsl mənasında mənəviyyat birinci növbədə insanlarda, millətdə milli ləyaqət və milli qürur hisslərinin oyanmasına və inkişafına xidmət etməlidir. Əgər insanda şəxsi ləyaqət və milli ləyaqət hissləri yoxdursa, əgər onun milli qürur hissləri oyanmayıb və inkişaf etməyibsə, elə adamın heç bir mənəviyyatından söhbət belə gedə bilməz. Başqa sözlə desək, ləyaqətsiz və ya ləyaqətinin tapdalanması ilə barışan insan mənəviyyatsız insandır. Heydər Əliyev irsində bu problem xüsusi yer tutur.

Problemin bu aspektdə qoyuluşu dövrlə, tarixi situasiya ilə bağlıdır. Heydər Əliyevin ideya-nəzəri irsindən açıq aydın məlum olur ki, bu problemin ən çox aktuallaşma dövrü 90-cı illərin əvvəllərinə təsadüf edir. Bununla bərabər Heydər Əliyev vətənə xəyanət edənlərin, vəzifə hərislərinin, Azərbaycanı parçalamaq fikrinə düşənlərin mənəviyyatsızlığını və mənəvi yoxsulluğunu xüsusi vurğulayırdı. Məsələnin mahiyyəti ondan ibarətdir ki, bizim dərsliklərimizdə, çıxışlarımızda, məqalələrimizdə bu məsələnin iki aspektinə xüsusi diqqət verilməlidir. Birinci aspekt: müsbət nümunələr-əmək və müharibə qəhrəmanları, Azərbaycan xalqının iqtisadiyyatını və elmini, mədəniyyətini öz çiyinlərində daşıyan şəxslər onların mənəvi aləmi, mənəvi zənginliyi, mənəvi sağlığı. İkinci aspekt: mənfi nümunələr-Azərbaycanın dünənki, bugünkü həyatında mənfi rol oynamış, dövlətçiliyimizə, mədəniyyətimizə, mənəviyyatımıza ağır zərbə vurmuş adamların ifşası və tənqidi.

Biz onillərlə bu problemə-birtərəfli yanaşmış, tərbiyə işini birtərəfli aparmışıq. Biz çalışmışıq ki, hamının müsbət nümunələr zəminində tərbiyə edək. Bəzi hallarda həmin müsbət nümunələri seçməkdə də səhvlər olmuş əyintilər baş vermişdir. Əgər dünyanın bütün qəhrəmanlarının, ən böyük insanlarının nümunələrində biz bugünki və gələcək nəsilləri tərbiyə etsək də, o tərbiyə birtərəfli olacaqdır. Bu məsələyə hələ qədim filosoflar xüsusi diqqət yetirmişlər. Müsbət nümunənin və müsbət nümunə vasitəsilə tərbiyənin məzmunu bundan ibarətdir: “Bax, gör, insan necə olmalıdır, necə işləməli, necə yaşamalı, necə fəaliyyət göstərməlidir”. Ancaq qədim mütəfəkkirlər problemin ikinci tərəfini də yüksək qiymətləndirir, daima onu vurğulayırdılar. Problemin ikinci tərəfini aşağıdakı kimi təqdim etmək olar: “Bax bu insanın hərəkətinə, onun fəaliyyətinə, əməllərinə. Onlar pisdir, eybəcərdir, onların cəmiyyət üçün, başqaları üçün mənfi təsiri ola bilər. Ona görə də, sən belə hərəkətləri təkrar etməməlisən, belə işləri görməməlisən.” Beləliklə, əsl tərbiyə konsepsiyasında mənfi nümunələrin, faktların, hərəkətlərin də real həyatda yeri və rolu nəzərə almalıdır. Heydər Əliyev irsinə bu baxımdan yanaşsaq, onda görərik ki, o, bir tərəfdən, yüksək nümunələri, ülvi prisipləri, saf amalları təbliğ edərək ucalara qaldırır, millətin və cəmiyyətin mənəvi zənginləşməsinə nail olur. Digər tərəfdən, mənfi halları ifşa edərək vətən satqınlarını, millətə və dövlətə düşmən kəsilmiş insanları tənqid edərək milləti uçurumlara getməkdən xilas edir,

insanlarda bu mənfi hallara qarşı tənqidi münasibət formalaşdırır. Çox təəssüf ki, bizim pedaqoji ədəbiyyatda bu problem demək olar ki, işıqlandırılmır.

**BULGULAR:** Heydər Əliyevin Azərbaycan xalqının mənəvi inkişafında rolunu xüsusi öyrənmək və təbliğ etmək lazımdır. Bu elə bir geniş mövzudur ki, bir məqalə ilə onu əhatə etmək qeyri- mümkündür. O da birinci növbədə bununla bağlıdır ki, Heydər Əliyev ikisi bir-birinə zidd olan sosial siyasi sistemlərdə dövlət başında olmuş və Azərbaycan xalqına rəhbərlik etmişdir. Heydər Əliyev mənəvi tərbiyəyə, mənəvi inkişafa və mənəvi tərəqqiyə müxtəlif idealoji mövqelərdən yanaşmışdır. Sövet dövründə mənəvi tərbiyə, mənəvi tərəqqi məsələlərinə o əsasən kominst ideologiyası mövqe ilə yanaşırdı. Lakin o dövürdə də xüsusən 1979- cu ildə Bakıda keçirilən "Mənəvi tərbiyə"yə həsr olunan Ümumittifaq Elmi-praktiki konfransda da Heydər Əliyev əsas diqqəti insanın mənəvi sağlığına- insan mənliyinin və ləyaqətinin qorunmasına yönəltmişdir. Eyni zamanda o " Beynəlmiləlçilik", "Xalqlar dostluğu", insanların səfərbərliyi, sosial ədalət kimi problemləri ön sıraya çəkmişdir. Bütün sovet məkanında sosial ədalətin carçısı kimi, müdafiəçisi kimi, sosial ədaləti həyata keçirməyi bacaran iradəli dövlət xadimi kimi tanıyırdılar. SSRİ məkanında Heydər Əliyev birinci şəxs idi ki, o "Literatrurnaya qazeta" nın müxbirinə müsahibə verərək "Qoy ədalət zəfər çalsın" şüurı ilə Sovetlər ölkəsinə səslənmişdir.

Müstəqillik dövründə artıq Heydər Əliyev ideoloji məhdudluqdan azad idi. O mənəvi tərbiyə, mənəvi inkişaf, mənəvi tərəqqi məsələlərinə milli və ümumbəşəri dəyərlər prizmasından yanaşırdı.

Heydər Əliyevin fikrincə, bizim tərbiyə konsepsiyamız, mənəvi tərbiyə ilə bağlı proqramlarımız milli-mənəvi dəyərlər üzərində köklənməlidir. O, dünyəvi, demokratik, müstəqil Azərbaycanın memarı olaraq mütərəqqi, ümumbəşəri dəyərləri məsləhət görürdü və onları dərindən mənimsəyib, dərindək dərk edib bizim milli-mənəvi dəyərlərlə üzvi surətdə əlaqələndirib və onlardan bəhlənməyi məsləhət görürdü. Bu baxımdan demokratiya prinsiplərinə sadiqlik, demokratiyanın inkişafı və dərinləşməsi, insana hörmət, insan hüquqlarını qorumaq və nəhayət millətin, xalqın mənliyini qorumaq bizim ən başlıca vəzifəmizdir. Bu vəzifəni ardıcıl və ağılla həyata keçirmək üçün Heydər Əliyevin mənəvi-nəzəri irsinə müraciət etmək lazımdır.

**SONUÇ:** Nəhayət, bir məsələ ilə fikrimi yekunlaşdırmaq istərdim. O da milli şüurun, milli mənlik şüurunun, milli ləyaqət, milli qürur hissinin formalaşması və inkişafı məsələsidir. Düzdür, araşdırmalara əsasən 80-ci illərin sonlarında, 90-cı illərin əvvəllərində milli şüurumuzda müəyyən canlanma hiss olunurdu. Lakin canlanma heç də oyanış demək deyil. Hər şey anlaşmadan sonra həll olunur. Yəni milli şüurun inkişafı şüura tətbiq olunan istiqamətdən asılıdır. Məsələnin mahiyyəti ondan ibarətdir ki, şüur oyana bilər. Lakin şüurun oyanması hələ inkişaf demək deyildir. Ona görə də oyanmış milli hissləri müxtəlif isitqamətlərə yönəldərək, onu humanizm və sivilizasiya, yaxud da dini nadanlıq, qatı millətçilik, ya da faşizm ruhunda inkişaf etdirmək olar. Məhz həmin 80-ci iilərin sonu, 90-cı illərin əvvəllərində oyanmış, canlanmaqda olan milli şüur hərə bir istiqamətə yönəldirdi. Kimi türkçülüyə, kimi turançılığa, kimi də müsəlmançılığa sürükləyirdi. Ancaq heç kəs milli şüurun və milli şüurunun əsl Azərbaycançılıq istiqamətində inkişafına heç bir dəstək vermirdi. Azərbaycançılıq ideyası demək olar ki, Heydər Əliyevin siyasi və fəlsəfi vəsiyyətidir və Azərbaycan xalqının milli şüuru və milli mənlik şüuru bu istiqamətdə inkişaf etməlidir. Belə olarsa, özünüdərk,

özünürealizə, özünütəsdiq prosesləri də güclənir. bu isə Azərbaycan xalqının milli, mənəvi inkişafında yeni bir mərhələ olacaqdır.

**KAYNAKÇA:**


1. "Müstəqilliyimiz əbədidir." II kitab, Bakı, 1997, səh. 547
2. "Müstəqilliyimiz əbədidir" V kitab, Bakı,1998, səh. 134
3. Mehdiyev R. "Vətəndaş cəmiyyətinə yol açan ideyalar" Bakı, 2006
4. Azərbaycan Müəllmlər İnstitutunun xəbərləri, Bakı, "Müəllim",2008, 120 s.
5. Azərbaycan: Heydər Əliyevdən İlham Əliyevə, Bakı,2007
6. Əmrəli İsmayılov, Təhsil. Bilik. Məktəb,-Bakı, "Müəllim", 2006, 400 s.
7. Nigar Qəhrəmanova, Heydər Əliyevin siyasi- nəzəri irsində siyasi mədəniyyət və mənəvi dəyərlərin realizə olunmasının bəzi metodoloji problemləri haqqında. AMİ, Bakı, 2008
8. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. II kitab, Bakı, 1997
9. R. Mehdiyev. Azərbaycan: qloballaşma dövrünün tələbləri. Bakı,2005


# HEYDƏR ƏLİYEV YENİ TƏHSİL TARİXİMİZİN BANİSİDİR

**Dos. Dr. Məlahət ABDULLAYEVA**

Azərbaycan Dövlət Pedaqoji Universiteti

ORCID NO: 0000-0002-2228-1224

azeriteacher@yahoo.com

## ÖZET

Azərbaycan tarixinin Heydər Əliyev dövrü zaman baxımından bizə çox yaxındır. Dövlətçilik, müstəqillik, sosial-iqtisadi problemlərin həlli, elm və təhsilin inkişafı uğrunda gedən gərgin mübarizə bu dövrü ölkəmiz üçün çox dəyərli etmişdir. Bu gün yüksək dəyərləndirdiyimiz Heydər Əliyev dövrü gələcək nəsillərin qaynaqlandığı qiymətli irsdir.

1969-1982-ci və 1993-2003-cü illərdə Azərbaycana rəhbərlik etmiş Heydər Əliyev fenomen dahi şəxsiyyət idi. Müstəqil Azərbaycanın memarı olan ulu öndər Heydər Əliyev hakimiyyət ustadı idi. O qətiyyətli dövlət başçısı, müdrik siyasətçi, məsuliyyətli vətəndaş, cəsur və tədbirli sərkərdə, vətənini və millətini hədsiz məhəbbətlə sevən bir İnsan idi. Heydər Əliyev ən çətin anlarda belə millətinin elmini-təhsilini düşünürdü, hər zaman müəllimlərin yanında idi. "*Mən dünyada müəllimdən yüksək ad tanımıram*" deyən ulu öndər təhsil sahəsinə xüsusi qayğı ilə yanaşırdı.

1999-cu il iyunun 15-də ulu öndər Heydər Əliyevin sərəncamı ilə «Azərbaycan Respublikasının təhsil sahəsində islahat Proqramı» təsdiq edilmişdir. Bu proqram təsdiq edildiyi gündən ölkəmizin təhsil sistemində əsaslı dəyişikliklər baş verdi, təhsildə müasir yanaşmalar dövrü başlandı. Azərbaycan təhsilinin dünya təhsil sisteminə inteqrasiyası, təhsilimizin gələcək inkişaf yolları və perspektivləri müəyyənləşdirildi. Beləliklə, ölkəmizin yeni təhsil tarixinin təməli qoyuldu.

Ulu öndərin təhsil sahəsindəki məqsədyönlü xidmətləri hazırda öz gözəl bəhrələrini verməkdədir. Bu gün təhsil sahəsində həyata keçirilən islahatlar məhz Heydər Əliyevin təhsil strategiyasının davamıdır, ulu öndərin imzaladığı sərəncamların cəmiyyətə transformasiyasıdır. Müstəqil Azərbaycanın dünya təhsil sisteminə inteqrasiyası yolunda qazanılan nailiyyətlər ümummilli lider Heydər Əliyev siyasətinin müdrikliyi, uzaqgörənliyi, gərgin zəhməti, təşəbbüskarlığı, yaradıcı dühası və beynəlxalq nüfuzunun nəticəsidir.

Bu araşdırma 1993-2003-cü illərdə Azərbaycanın Prezidenti olmuş, ümummilli liderimiz Heydər Əliyevin təhsil siyasətindən bəhs edir. Araşdırmanın nəticəsinə görə qürurla deyə bilərik ki, müasir Azərbaycanın memarı, ümummilli liderimiz Heydər Əliyev ölkəmizin yeni təhsil tarixinin banisidir!

***Açar sözlər:*** *Ulu öndər Heydər Əliyev, ümummilli lider, təhsil sistemi, sərəncam, inkişaf*

## ABSTRACT

The era of Heydar Aliyev in the history of Azerbaijan is very close to us in terms of time. The intense struggle for statehood, independence, solution of socio-economic problems, development of science and education made this period very valuable for our country. The era of Heydar Aliyev, which we highly value today, is a precious heritage from which future generations originate.

Heydar Aliyev, who led Azerbaijan in 1969-1982 and 1993-2003, was a phenomenal genius. The great leader Heydar Aliyev, the architect of independent Azerbaijan, was a master of power. He was a resolute head of state, a wise politician, a responsible citizen, a brave and careful general, a man who loved his homeland and nation with immense affection. Heydar Aliyev pondered the science and education of his nation even in the most difficult moments. He was always with the teachers. The great leader who said "I don't know a name higher than a teacher in the world" paid special attention to education.

On June 15, 1999, the "Education Reform Program of the Republic of Azerbaijan" was approved by the order of the great leader Heydar Aliyev. Since the approval of this program, fundamental changes have taken place in the education system of our country, and the era of modern approaches in education has begun. The integration of Azerbaijani education into the world education system, the future development ways and perspectives of our education were defined. Thus, the foundation of the new educational history of our country was laid.

The goal-oriented services of the great leader in education are currently bearing their wonderful fruits. The reforms carried out in education today are the continuation of Heydar Aliyev's strategy for education and the reflection of the decrees signed by the great leader in the society. The achievements made in integrating independent Azerbaijan into the world education system are the result of the wise policy, foresight, hard work, initiative, creative genius and international reputation of the national leader Heydar Aliyev.

This study talks about the education policy of our national leader Heydar Aliyev, who was the President of Azerbaijan in 1993-2003. According to the results of the research, we can proudly say that the architect of modern Azerbaijan, our national leader, Heydar Aliyev, is the founder of the new educational history of our country!

***Keywords:*** *Great leader Heydar Aliyev, national leader, education system, order, development*

## GİRİŞ

Azərbaycan tarixinin Heydər Əliyev dövrü zaman baxımından bizə çox yaxındır. Dövlətçilik, müstəqillik, sosial-iqtisadi problemlərin həlli, elm və təhsilin inkişafı uğrunda gedən gərgin mübarizə bu dövrü ölkəmiz üçün çox dəyərli etmişdir. Bu gün yüksək dəyərləndirdiyimiz Heydər Əliyev dövrü gələcək nəsillərin qaynaqlandığı qiymətli irsdir. Bu irsi özündə əks etdirən saysız-hesabsız araşdırmalar aparılıb, kitablar yazılmışdır və yazılmaqda davam edir. Heydər Əliyev irsi Azərbaycan xalqının ən böyük sərvətidir.

1969-1982-ci və 1993-2003-cü illərdə Azərbaycana rəhbərlik etmiş Heydər Əliyev fenomen dahi şəxsiyyət idi. Müstəqil Azərbaycanın memarı olan ulu öndər Heydər Əliyev hakimiyyət ustadı idi. O qətiyyətli dövlət başçısı, müdrik siyasətçi, məsuliyyətli vətəndaş, cəsur və tədbirli sərkərdə, vətənini və millətini hədsiz məhəbbətlə sevən bir İnsan idi. Heydər Əliyev ən çətin anlarda belə millətinin elmini-təhsilini düşünürdü, hər zaman müəllimlərin yanında idi. "*Mən dünyada müəllimdən yüksək ad tanımıram*" deyən ulu öndər təhsil sahəsinə xüsusi qayğı ilə yanaşırdı. Heydər Əliyevin bu kəlamı illərdir ki, müəllimləri motivasiya edir və inanıram ki, gələcəkdə də müəllimlərin motivasiya mənbəyi olacaqdır.

Təhsil sahəsi hər bir ölkə üçün, o cümlədən müstəqil ölkəmiz üçün də prioritet sahə olduğundan hər zaman aktualdır və tükənməz araşdırmaya ehtiyac duyulur.

## ARAŞDIRMA

1993-cü ildə xalqın təkidi və tələbi ilə hakimiyyətə gələn Heydər Əliyev müstəqil Azərbaycanın demokratik və milli-bəşəri dəyərlərə malik ölkə olaraq formalaşması üçün özünün dövlətçilik strategiyasını, o cümlədən təhsil strategiyasını prioritet istiqamət kimi müəyyənləşdirdi.

Aydındır ki, bir milləti məhv etmək üçün onun elmini, təhsilini məhv etmək kifayətdir. Məhz bu konteksdən yanaşdıqda, Heydər Əliyev Azərbaycan xalqını məhv olmaqdan xilas etdi. Ölkəyə rəhbərliyinin ilk illərində sürətli iqtisadi inkişafın təmin edilməsini, Azərbaycanın dünyaya yaxından inteqrasiya olunmasını, beynəlxalq aləmdə nüfuzlu söz sahibinə çevrilməsini əsas məqsəd kimi seçən ümummilli lider ölkədə təhsil islahatları aparılmasının zəruriliyini vurğulayaraq, hər bir inkişafın elm və təhsildən asılı olduğunu qeyd edirdi. Ulu öndərin öz sözləri ilə desək: "*Təhsil sistemimizin hazırkı vəziyyətini, onun problemlərini dərindən öyrəndikdən sonra prioritet sahələr müəyyən edilməlidir*" [http://www.anl.az/down/meqale/xalqqazeti/xalqqazeti_dekabr2009/99233.htm]

1993-cü ildən başlayaraq "*Təhsil millətin gələcəyidir*" deyən ulu öndərin tapşırığı ilə təhsilə, təhsil işçilərinə dövlət qayğısı artırıldı. Əvvəlcə ibtidai siniflər, sonra isə yuxarı siniflər üçün dərsliklər dövlət vəsaiti hesabına çap olunmağa başladı. Müəllimlərin maaşları mütəmadi olaraq artırıldı.

Ümummilli liderimiz təhsil sistemimizdə olan problemlərin optimal həlli üçün Azərbaycan tarixində ilk dəfə təhsil sahəsində islahatlar aparılması üçün tapşırıqlar verdi. Bu

məqsədlə 1998-ci il martın 30-da Prezidentin sərəncamı ilə Təhsil Sahəsində İslahatlar üzrə Dövlət Komissiyası yaradıldı. 1998-ci ildə Azərbaycan müəllimlərinin birinci qurultayı keçirildi. Xalqımızın böyük oğlu Heydər Əliyev qurultayda tarixi çıxış etdi. Bu çıxış təhsil işçilərinin qarşısında duran vəzifələrin uğurlu həlli üçün əsl proqram idi. Qurultayda təhsil tariximizdə ilk dəfə Respublika Təhsil Şurası yaradıldı [Novruzov R., 2015]. Təhsil şurası bu gün də öz işini uğurla davam etdirir.

"*İndi bizim təhsil sistemimiz müstəqil Azərbaycanın gələcək inkişafını təmin etməlidir. Bu yolda keçiriləcək islahatlar gərək müstəqil Azərbaycanın milli mənafelərinin inkişafına yönəldilsin*" deyən Heydər Əliyev Azərbaycanda müasir təhsil strukturunun yaradılmasına, ciddi islahatların aparılmasına çalışırdı [Xəlilov S., 2010].

1999-cu il iyunun 15-də ulu öndər Heydər Əliyevin sərəncamı ilə «Azərbaycan Respublikasının təhsil sahəsində islahat Proqramı» təsdiq edildi. Bu proqram təsdiq edildiyi gündən ölkəmizin təhsil sistemində əsaslı dəyişikliklər baş verdi, təhsildə müasir yanaşmalar dövrü başlandı. Azərbaycan təhsilinin dünya təhsil sisteminə inteqrasiyası, təhsilimizin gələcək inkişaf yolları və perspektivləri müəyyənləşdirildi. Beləliklə, ölkəmizin yeni təhsil tarixinin təməli qoyuldu [Abdullayeva M., 2020].

Müstəqil respublikamızın memarı Heydər Əliyevin qayğısı ilə Təhsil İslahatı Proqramının əsas müddəaları Dünya Bankının maliyyə yardımı ilə həyata keçirilməyə başladı. Təhsil haqqında Qanun layihəsi hazırlanaraq ümumxalq müzakirəsinə verildi. Ümumi orta təhsilin dövlət standartları hökumət səviyyəsində təsdiq edildi.

Elə o dövrdən Azərbaycan təhsil sistemi dünyanın aparıcı dövlətlərinin təhsil sistemlərinə inteqrasiya etməyə başladı. Bu inteqrasiya təhsilimizin dünya təhsil standartlarına uyğun səviyyədə qurulmasına imkanlar yaratdı. Xüsusi istedadı olan şagirdlərə və gənclərə diqqət artırıldı, belə uşaqlar seçilərək adları "Qızıl kitab"a salındı. Cəmiyyət üçün hərtərəfli inkişaf etmiş şəxsiyyət formalaşdırılması məsələsi ön plana keçdi. Ölkəmizdə təhsilin məqsədi müəyyənləşdirildi və bu gün Azərbaycan Respublikasında təhsilin əsas məqsədi nədir?–sualına "Təhsil haqqında" qanunun I fəsil, 4-cü maddəsində cavab tapmaq olar. Təhsilin əsas məqsədi:

– Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqının milli ənənələrinə və demokratiya prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək;

– milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktiki biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli mütəxəsis-kadrlar hazırlamaqdır" [Azərbaycan Respublikasının Qanunu "Təhsil haqqında", 2012].

2002-ci il oktyabrın 4-də ulu öndərin imzaladığı "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin müvafiq texniki bazasının möhkəmləndirilməsi haqqında" sərəncamı milli təhsil sistemimizin inkişafında müstəsna rol oynamışdır. Bu sərəncamdan irəli gələn vəzifələrin yerinə yetirilməsi ümumtəhsil məktəbləri şəbəkəsinin genişləndirilməsinə, XXI əsr modern məktəblərin tikintisinə, ümumtəhsil məktəblərin maddi-texniki bazasının yeniləndirilməsi və möhkəmləndirilməsinə zəmin yaratmışdır. "Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair proqramın (2003-2007-ci illər) təsdiq edilməsi haqqında" Azərbaycan

Respublikası Prezidentinin 17 fevral 2003-cü il tarixli sərəncamı ölkədə bu sahədə yaranmış problemlərin aradan qaldırılması yönümündə müstəsna əhəmiyyətə malik dövlət sənədi olmuşdur. [http://anl.az/down/meqale/azerbaycan/azerbaycan_dekabr2008/63636.htm]

"*Təhsil sahəsi xalqımızın bu günü, millətimizin, dövlətimizin gələcəyi üçün ən vacib bir sahədir*" – deyən ümummilli lider Azərbaycan təhsilinin dinamik inkişafını təmin edən bir sıra sənədlər imzaladı. "Azərbaycan Respublikasının təhsil sisteminin təkmilləşdirilməsi haqqında" 13 iyun 2000-ci il, "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il, "Azərbaycan əlifbası və Azərbaycan Dili Günü (1 avqust) təsis edilməsi haqqında" 9 avqust 2001- ci il, "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanunun tətbiq edilməsi barədə" 2 yanvar 2003-cü il tarixli fərman və sərəncamlar təhsilimizin dünya standartları səviyyəsinə qaldırılmasında böyük rol oynadı. Bununla yanaşı, Azərbaycan tarixinin, ədəbiyyatının, coğrafiyasının, öyrədilməsinə, mükəmməl dərsliklərin hazırlanmasına, Azərbaycan dilinin öyrədilməsinə, xüsusilə dövlət dili statusunda təbliğinə diqqət artırıldı [Novruzov R., 2018].

Heydər Əliyevin apardığı dərin məzmunlu təhsil siyasəti ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrinin də maddi-texniki bazalarının yenilənməsinə, əmək bazarının tələblərinə cavab verən mütəxəssislərin hazırlanmasına səbəb oldu. Bu gün təhsil universitetlərindən təhsil-tədqiqat universitetlərinə keçən ali təhsil müəssisələrimiz ulu öndərin uzaqgörən təhsil siyasətinin nəticəsidir. Orta ixtisas və ali təhsil müəssisələrinə tələbə qəbulunun çoxsaylı ixtisası əhatə edən müxtəlif istiqamətlər üzrə aparılması, dünyanın inkişaf etmiş ölkələrinə müxtəlif təhsil səviyyələri üzrə ixtisaslaşmağa göndərilən tələbələr, onlara qayğı, dünya təhsil standartlarına uyğun interaktiv fənn proqramlarının və dərsliklərin hazırlanması H.Əliyevin təhsil strategiyasını əhatə edir.

Müstəqil Azərbaycanın təhsil sistemində, xüsusilə də ümumi təhsil sistemində islahatların qaçılmaz olduğunu diqqətə çatdıran ulu öndərimiz, eyni zamanda təhsil işçilərini islahat prosesinə həssas və ehtiyatla yanaşmağa çağırırdı. "*Dünya təcrübəsindən Azərbaycanın milli xüsusiyyətlərinə uyğun olan prinsiplər, qaydalar təhsil sistemimizə tətbiq edilməlidir. Biz dünyanın bütün ölkələrində - Qərbdə də, Şərqdə də əldə olunmuş nailiyyətləri dərindən öyrənməli və onlardan Azərbaycan üçün müsbət xarakter daşıyan cəhətləri ölkəmizin təhsil sistemində tətbiq etməliyik*" [Mərdanov M, 2010]

Bu gün birmənalı şəkildə deyə bilərik ki, ümummilli liderimizin rəhbərliyi, tövsiyələri ilə hazırlanmış proqramlar, seçdiyi strateji yol Azərbaycan təhsilinin, onun maddi-texniki bazasının uzunmüddətli, dinamik inkişafını təmin etmişdir. Hazırda ulu öndərimizin daxili və xarici siyasəti, iqtisadi plan və proqramları Heydər Əliyev məktəbinin layiqli yetirməsi, möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir [Novruzov R., 2018].

Heydər Əliyevin təhsillə, məktəblə həmişə sıx bağlı olması haqda özü belə deyirdi: "Məktəb, maarif, təhsil işi ilə həmişə sıx bağlı olmuşam. Hesab edirəm ki, cəmiyyət harada olursa olsun kəsib təhsilə xərcləməli, gənc nəslin savadına, biliyinə, müəllimə kömək etməlidir". O müəllimlik peşəsini ürəkdən sevmiş, müəllim əməyinə yüksək qiymət vermiş və heç də təsadüfi deyil ki, Heydər Əliyev Azərbaycanda ona təklif olunan müxtəlif fəxri adlardan yalnız "Xalq müəllimi" fəxri adını məmnuniyyətlə qəbul etmişdir [Əliyev H., 2002].

## NƏTİCƏ

Ulu öndərin təhsil sahəsindəki məqsədyönlü xidmətləri hazırda öz gözəl bəhrələrini verməkdədir. Bu gün təhsil sahəsində həyata keçirilən islahatlar məhz Heydər Əliyevin təhsil strategiyasının davamıdır, ulu öndərin imzaladığı sərəncamların cəmiyyətə transformasiyasıdır. Müstəqil Azərbaycanın dünya təhsil sisteminə inteqrasiyası yolunda qazanılan nailiyyətlər ümummilli lider Heydər Əliyev siyasətinin müdrikliyi, uzaqgörənliyi, gərgin zəhməti, təşəbbüskarlığı, yaradıcı dühası və beynəlxalq nüfuzunun nəticəsidir.

Təhsil sahəsi ölkəmiz üçün strateji əhəmiyyət kəsb etdiyindən bu gün də ölkə Prezidentimiz İlham Əliyevin daim diqqət və qayğısı ilə bu sahə inkişaf etdirilir. Müasir Azərbaycan təhsilinin inkişaf tarixini təhlil etdikdə məlum olur ki, ümummilli lider Heydər Əliyevin apardığı bütün islahatlar, qəbul etdiyi qərar və sərəncamlar, təşəbbüsləri, bir sözlə təhsil strategiya xətti ölkəmizin bu günkü və gələcək perspektivlərinin müəyyənləşdirilməsində başlıca rol oynamışdır. Ulu öndərin təhsil strateji xətti Prezident İlham Əliyev tərəfindən yeni müstəvidə və beynəlxalq təcrübə əsasında davam və inkişaf etdirilir, ölkəmizin tərəqqisi naminə böyük işlər görülür. Bu gün qürurla deyə bilərik ki, müasir Azərbaycanın memarı, ümummilli liderimiz Heydər Əliyev ölkəmizin yeni təhsil tarixinin banisidir!

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Qanunu “Təhsil haqqında”. Qanun nəşriyyatı, 2012.

2. Heydər Əliyev. Türkiyənin Qars Qafqaz Universitetinin fəxri doktoru diplomunun təqdim edilməsi mərasimində nitqi. 28 iyun, 2002-ci il. “Xalq” qəzeti, 5 iyul, 2002-ci il.

3. Xəlilov S. Heydər Əliyev və Azərbaycanda vahid elm-təhsil siyasətinin təməlləri. “Xalq qəzeti”, 12 may, 2010.

4. Novruzov R. Heydər Əliyevin təhsil siyasəti. “Xalq qəzeti”, 5 may, 2018.

5. Mərdanov M. Heydər Əliyev ideyaları müasır təhsil quruculuğunun əsasıdır. “Azərbaycan müəllimi”, 10 dekabr, 2010.

6. Məmmədzadə İ. Azərbaycan elm və təhsilinin himayədarı. “Xalq qəzeti”, 8 dekabr, 2010.

7. Abdullayeva M.V. Riyaziyyatın tədrisi metodikası-1 (Ümumi metodika). Dərs vəsaiti. Bakı, ADPU, 2020.

8. https://www.aqra.az/

9. https://www.muallim.edu.az/news.php?id=6595

10. http://www.anl.az/down/meqale/xalqqazeti/xalqqazeti_dekabr2009/99233.htm

11. https://old.xalqqazeti.com/az/news/politics/103879

# AZƏRBAYCAN ORDUSUNDA RADİASİYA, KİMYƏVİ VƏ BİOLOJİ KƏŞFIYATIN XÜSUSİYƏTLƏRİ

## Features of radıatıon, chemıcal and bıologıcal ıntellıgence ın the Azerbaıjanı army

**Milli təhlükəsizlik və hərbi elmlər üzrə fəlsəfə doktoru**

**polkovnik Ramil AXUNDOV**

Milli Müdafiə Universitetinin

Hərbi Elmi Tədqiqat institutunun professoru

Orcid: 0009-0001-8798-8044,

mr.axundov1@gmail.com

**mr.axundov1@gmail.com**

**XÜLASƏ**

Radiasiya, kimyəvi və bioloji kəşfiyyat komandir və qərargahı radiasiya, kimyəvi və bioloji vəziyyəti haqqında məlumatlarla təmin etmək üçün düşmənin kütləvi qırğın silahlarının tətbiqini vaxtında aşkar etməlidir. Ərazinin, havanın, obyektlərin və qoşunların radioaktiv və zəhərli maddələrlə çirklənməsinin mövcudluğunu, növünü, miqyasını və dərəcəsini müəyyənləşdirir. Vaxtında və müvəffəqiyyətlə aparılmış Radiasiya, kimyəvi və bioloji kəşfiyat məlumatların əsasında qəbul edilmiş qərarlar şəxsi heyətin yüksək döyüş qabiliyyətini və həyatda qalmasını təmin edir.

**Acar sözlər:** kütləvi qırğın silahları, nüvə,kimyəvi və bioloji terrorizm, çirklənmə, radiasiya, kimyəvi və bioloji kəşfiyyat və nəzarət.

**SUMMARY**

Radiation, chemical and biological intelligence must timely detect the application of enemy weapons of mass destruction in order to provide the commander and headquarters with information about the radiation, chemical and biological state. Determines the presence, type, scale and degree of contamination of the territory, air, objects and troops with radioactive and toxic substances. Decisions made on the basis of timely and successful radiation, chemical and biological reconnaissance data ensure high combat capability and survivability of personnel.

**Key words:** weapons of mass destruction; nuclear, chemical and biological terrorism; area of contamination; radiation and chemical reconnaissance and control.

## GİRİŞ

İnkişaf etmiş ölkələrin ordularının mövcud strategiyası hərbi-siyasi vəziyyətdən asılı olaraq həm genişmiqyaslı nüvə müharibəsinin aparılmasını, həm də kütləvi qırgın silahlarının komponentlərindən nöqtəvi zərbələr endirməyi istisna etmir. Bundan əlavə, mütəxəssislərin fikrincə, ayrı-ayrı ölkələr radiasiya, kimyəvi və bioloji mühafizə kompleksi sistemlərinin təkmilləşdirilməsi prosesi adı altında kütləvi qırğın silahları və digər yeni fiziki prinsipli silah növləri ilə hərbi əməliyyatlar aparmaq üçün qordularının yenidən silahlanmasını həyata keçirirlər [1].

Nəzərə alınmalıdır ki, nüvə, kimyəvi və bioloji silahların tətbiqi faktı üçüncü tərəfin təxribatı ilə müharibə edən dövlətlərin iradəsinə zidd olaraq planlaşdırılmadan baş verə bilər. Terror təşkilatları, qeyri-qanuni silahlı birləşmələri və düşmənin təxribat qrupları üçüncü tərəf kimi çıxış edə bilər ki, bu da təcavüzkara hücum vasitələrinin seçimində əllərini azad etməyə imkan verəcək [1]. Faktdır ki, terror təşkilatları kütləvi qırgın silahlarının hər hansı bir komponentini əldə etsələr humanitar normalara zidd olaraq onu dinc əhaliyə qarşı tətbiq edə bilərlər.

Günümüzdə kütləvi qırğın silahlarının geniş tətbiqi də daxil olmaqla qlobal müharibələrin alovlanması təhlükəsinin minimuma endirilməsi üçün səylərə baxmayaraq, son illərin hadisələri göstərir ki, silahlı mübarizə vasitələrindən istifadə ayrı-ayrı dövlətlər, millətlər və sosial qruplar arasındakı ziddiyyətlərin həllində getdikcə daha çox yayılmış formasına çevrilir. Bu, terror təşkilatlarının liderlərinin açıq bəyanatları və Suriya, İraq, Liviya və Ukraynadakı son hadisələrlə təsdiqlənir.

Nüvə obyektlərində mümkün terror təxribatı, eləcə də baş verə biləçək qəzalar yüksək təhlükə dərəcəsinə malikdir. Misal olaraq, Ermənistandakı istismar müddəti başa çatmış, bütün region üçün təhlükə mənbəyi olan Metsamor AES. 1976-cı ildə tikilən atom-elektrik stansiyası artıq köhnəlib, müasir standartlara cavab vermir və daha da dəhşətlisi seysmik zonada yerləşir. Bunlarda AES-da qəzanın baş vermə ehtimalını dəfələrlə artırır [2].

Böyük miqdarda nüvə materialları və yüksək daxili enerji istehlakı ilə digər nüvə qurğularından fərqlənən nüvə elektrik stansiyalarının reaktorlarında mümkün qəza və təxribatlar nəticəsində qlobal fəlakət baş verə bilər.

Beləliklə, bu gün dünyada radiasiya, kimyəvi və bioloji mühafizə milli və kollektiv təhlükəsizlik sisteminin təmin edilməsində zəruri elementə çevrilib. Buda öz növbəsində radiasiya, kimyəvi və bioloji şəraitin vaxtında aşkar edilməsi üçün bütün növ kəşfiyyat və nəzarətin aparılmasını mütləq edir. Bu tapşırıqların içrasında əsas güc Silahlı Qüvvələrin radiasiya, kimyəvi və bioloji mühafizə xidmətlərinin üzərinə düşür.

## TƏDQİQAT VƏ NƏTİCƏLƏR

Müasir döyüş əməliyyatları zamanı nüvə və kimyəvi silahların tətbiqi nəticəsində ərazinin və obyektlərin radioaktiv, kimyəvi çirklənməsi döyüş şəraitinin əsas amillərindən sayılır. Radiasiya və kimyəvi şərait nüvə və kimyəvi silahların tətbiqi zamanı ərazilərin, havanın, şəxsi heyətin zəhərlənməsi texnikaların, müxtəlif obyektlərin çirklənməsi nəticəsində yaranır, qoşunların döyüş fəaliyyətinə və döyüş qabiliyyətinə ciddi təsir göstərir. Radioaktiv və kimyəvi zəhərlənmənin şəxsi heyətə zərərvurucu təsir təhlükəsi, yaranmış radiasiya və kimyəvi şəraitin tez müəyyən edilməsini, qiymətləndirilməsini, eyni zamanda, bölmə və

hissələrin döyüş fəaliyyəti üzrə qərarın qəbul edilməsi zamanı onun təsirinin nəzərə alınmasını tələb edir [3].

Radiasiya və kimyəvi kəşfiyyat və nəzarət, radioaktiv və kimyəvi çirklənmə barədə qərargahların (bölmələrin) vaxtında xəbərdar edilməsi, mühafizə tədbirlərinin görülməsi, habelə mövcud şəraitdə ən uyğun hərəkətlərin müəyyənləşdirilməsi üçün zəruri olan istifadə faktı və faktiki radiasiya və kimyəvi vəziyyət barədə məlumat əldə etmək üçün aparılır.

Radiasiya, kimyəvi və bioloji (RKB) kəşfiyyatının vəzifələri bunlardır [4]:

- ətraf mühitin radioaktiv, kimyəvi və bioloji çirklənməsi sahələrinin mövcudluğunu və sərhədlərinin müəyyənləşdirilməsi;
- radiasiya dozalarının gücünü, zəhərli, toksik kimyəvi maddələrin və bioloji agentlərin mövcudluğunu və növünü, həmcinin konsentrasiyalarının müəyyənləşdirilməsi:
- radiasiya dozalarının ən zəif gücü olan istiqamətlərin (marşrutların, bölgələrin) müəyyənləşdirilməsi;
- RKB mühafizə qoşunlarının, tibbi, baytarlıq və sanitariya və mühəndis xidmətlərinin laboratoriyalarında spesefik indikasiyası (identifikasiya) üçün nümunələrin götürülməsi.

RKB kəşfiyyatının vəzifələrinin icrası yerüstü və hava RKB kəşfiyyatının hissələri (bölmələri), habelə bütün qoşun növlərinin, xüsusi qoşunların və arxa hissələrin xüsusi hazırlanmış qrupları (hesabları, ekipajları), habelə mülki müdafiə bölmələri tərəfindən həyata keçirilir.

Şəxsi heyətin kütləvi qırğın silahlarından təhlükəsizliyini təmin etmək məqsədi ilə bütün qüvvə, vasitələrdən, və metodlardan istifadə edərək düşmənin əks qruplaşmasının, nüvə və kimyəvi hücum vasitələrinin mövcudluğunu vaxtında müəyyənləşdirmək, yerlərini (koordinatlarını) və istifadəyə hazırlıq dərəcəsini müəyyən etmək mümkündür. Bundan əlavə, keçirələn RKB kəşfiyyat tədbirləri düşmənin kütləvi qırğın silahlarından istifadəyə hazırlığı barədə şəxsi heyyəti və əhalini vaxtında xəbərdar etməyə və lazımi mühafizə (qorunma) tədbirlərini görməyə imkan verir.

RKB kəşfiyyat məlumatları dərhal yuxarı qərargaha məruzə edilir və tabe olan bölmələrə çatdırılır. Komandirlər və qərargahlar düşmənin kütləvi qırğın silahlarının istifadəsinə birbaşa hazırlığı barədə kəşfiyyat məlumatları əldə etməklə və ya düşmən tərəfindən nüvə zərbələrinin planlaşdırılması barədə yuxarı instansiyadan məlumat almaqla zərbə ala biləcək və ya çirklənmə zonasında qala biləcək hissələri və bölmələri maksimum sürətlə xəbərdar edirlər.

Bilavasitə zərbə mərkəzlərində olan qoşunlar, habelə radioaktiv, zəhərli maddələrin və bakterial agentlərin yayıla biləcəyi ərazilərdə fəaliyyət göstərən bölmə və birləşmələrə düşmən tərəfindən kütləvi qırğın silahlarından istifadə edilməsi barədə dərhal məlumat verilir.

Radioaktiv, kimyəvi və bakterioloji (bioloji) çirklənmə barədə xəbərdarlıq bütün rabitə kanallarında vahid daimi siqnalın ötürülməsi yolu ilə, bölmələrdə isə əlavə olaraq səs və vizual siqnallarla həyata keçirilir. Şəxsi heyətin xəbərdar edilməsi nə qədər operativ olarsa, lazımi mühafizə (qorunma) tədbirlərinin görülməsi üçün daha çox vaxt qalacaq, düşmənin kütləvi qırğın silahlarından istifadəsinin onlar üçün qəfil olacağı və döyüş qabiliyyətinin itirilməsinə səbəb olacağı ehtimalı azalacaq.

Beləliklə, düşmən tərəfindən nüvə, kimyəvi və ya bioloji silahlardan istifadə edildikdə, məhvetmə ocaqlarının, yoluxma zonalarının, dağıntı, yanğın və daşqın ərazilərinin kəşfiyyatı aparılır, xilasetmə işləri və tibbi təxliyyə tədbirləri, dozimetrik və kimyəvi nəzarət həyata keçirilir, xaricə çirklənmə zonalarının sərhədləri işarələnir və yandan ötmə yolları yaxud çirklənmə (zəhərlənmə, yoluxma) səviyyəsinin ən aşağı olduğu istiqamətlər müəyyən edilir.

Qeyd etmək lazımdır ki, düşmənin kütləvi qırğın silahlarından istifadəsinin nəticələrinin qiymətləndirilməsi şəxsi heyətdə, silah və texnikada itkilərin hesablanmasını, habelə çirklənmə (zəhərlənmə, yoluxma), dağıntılar, daşqın və yanğınların xarakteri və miqyasının müəyyənləşdirilməsini əhatə edir. Nəticələrin qiymətləndirilməsi nüvə partlayışlarının parametrlərinin təyin edilməsi, müxtəlif növ kəşfiyyat, dozimetrik və kimyəvi nəzarət məlumatlarının, habelə birbaşa nüvə, kimyəvi, bakterioloji (bioloji) silahların təsirinə məruz qalan bölmə komandirlərinin hesabatları (məruzələri) əsasında həyata keçirilir.

RKB kəşfiyyatı vasitəsi ilə vaxtında əldə etdilən məlumatlar şəxsi heyətin qorunması üçün əlavə tədbirlər görməyə, qoşunlara radioaktiv, zəhərli maddələrin və bakterial agentlərin mümkün yayılması, onların fəaliyyət göstərdiyi ərazilərdə dağıntılar, daşqınlar və yanğınlar barədə məlumat verməyə, radiasiya, kimyəvi və bakterioloji (bioloji) kəşfiyyatın aparılması üçün vəzifələri aydınlaşdırmağa, bölmələri təhlükəli ərazilərdən çıxarmağa və əməliyyatların davam etdirilməsi üçün əsaslanmış bir qərar qəbul etməyə imkan verir.

Bundan əlavə, RKB kəşfiyyatının əldə etdiyi məlumatlar və düşmən tərəfindən kütləvi qırğın silahlarının istifadəsindən sonra aparılan proqnozlaşdırma nəticələri hissələrin və bölmələrin döyüş qabiliyyətinin dərəcəsini müəyyənləşdirməyə və sonradan onun bərpası və nəticələrinin aradan qaldırılması üçün tədbirləri müəyyənləşdirməyə imkan verir. Bu məlumatlar əsasında hissələrdə və bölmələrdə qismən xüsusi təmizləmənin, şərait imkan verdikdə isə tam xüsusi təmizləmənin aparılması, o cümlədən silahların, avadanlıqların, qoruyucu vasitələrin və geyim formalarının dezaktivasiyası, deqazasiyası və dezinfeksiyası, habelə şəxsi heyətin sanitar təmizləməsi barədə qərar qəbul edilir.

Qeyd etmək lazımdır ki, radiasiya və kimyəvi kəşfiyyat radiasiya-kimyəvi kəşfiyyat bölmələri və müşahidəçilər, kimyəvi müşahidə postları və kimyəvi kəşfiyyat patrullarını təmin edən silahlı qüvvələrin bütün bölmələrinin xüsusi təlim keçmiş qrupları, ekipajları tərəfindən həyata keçirilir. Bu bölmələr qoşunların tutduğu rayonlarda və onların hərəkət marşrutlarında radiasiya, kimyəvi müşahidə və ərazinin bilavasitə tədqiqi ilə öz vəzifələrini yerinə yetirir. Onlar müstəqil fəaliyyət göstərə və ya kəşfiyyat və mühafizədə fəaliyyət göstərən ümümqoşun bölmələrə daxil edilə bilər.

Qeyd edək ki, qoşunların hərəkət marşrutlarında, təchizat və təxliyyə yollarında RKB kəşfiyyatın aparılması komendant məntəqələri və hərəkət tənzimləmə postları cəlb edilə bilər.

Bütün hallarda radiasiya və kimyəvi kəşfiyyatın aparılması üçün təyin olunan bölmələr müşahidə cihazları, habelə kimyəvi kəşfiyyat və dozimetrik nəzarət cihazları, radiorabitə vasitələri, çəpərləmə nişanları, fərdi mühafizə vasitələri və digər xüsusi avadanlıqlarla təchiz edilməlidir.

Ərazinin hava radiasiya kəşfiyyatı radiasiya kəşfiyyat helikopterlərinin bölmələri, habelə radiasiya və kimyəvi kəşfiyyat cihazlarının quraşdırıldırılaraq bu məqsədlər üçün hazırlanmış uçuş aparatları tərəfindən aparılır [5].

Qeyri-spesefik bioloji kəşfiyyat düşmən tərəfindən bakterioloji (bioloji) vasitələrin tətbiqinin vaxtında aşkar edilməsi və qərargahların bakterioloji (bioloji) şəraiti qiymətləndirmək üçün lazımi məlumatlarla təmin etmək məqsədi ilə aparılır.

Qeyri-spesefik bioloji kəşfiyyat aparılması prosesində xarici əlamətlərlə və cihazların köməyi ilə düşmənin bioloji silahdan istifadə etməsi faktını və üsulunu təyin edilir, onun istifadə etdiyi bakterial agentləri və çirklənmiş ərazilərin sərhədləri müəyyən edilir, tədqiqat üçün nümunələr götürülür. Qeyri-spesefik bioloji kəşfiyyat bütün müşahidəçilər, müşahidə postları və müşahidə məntəqələri, ilk növbədə radiasiya və kimyəvi kəşfiyyat aparmaq üçün ayrılmış qüvvə və vasitələr tərəfindən aparılır. Bu cür kəşfiyyat orqanlarına tibb və baytarlıq xidmətlərinin mütəxəssisləri daxil ola bilər.

Alınan məlumatlar bioloji vəziyyəti proqnozlaşdırması və qiymətləndirməsi üçün istifadə olunur. Onlar şəxsi heyətin qoruması üçün tədbirlərin vaxtında görülməsi üçün vacibdir.

## NƏTİCƏ

Beləliklə, radiasiya, kimyəvi və bioloji kəşfiyyat düşmən haqqında məlumatların toplanması və öyrənilməsi üzrə tədbirlər sisteminin tərkib hissəsi olaraq, düşmənin nüvə və kimyəvi hücum vasitələrinə xüsusi diqqət yetirilərək daim və istənilən şəraitdə təşkil edilir və aparılır. Radiasiya, kimyəvi və bioloji kəşfiyyat nəticəsində düşmən tərəfindən nüvə, kimyəvi və bakterioloji vasitələrdən istifadənin mümkünlüyü (ehtimalı) və ya artıq istifadə olunmuş nüvə, kimyəvi və bakterioloji vasitələrin tətbiqi nəticələri öyrənilir və qiymətləndirilir.

Çirklənmə şəraitində fəaliyyət zamanı müvəffəqiyyətlə aparılan RKB kəşfiyyatı hissələrin və bölmələrin vaxtında təhlükəsizliyini təmin edir.

## ƏDƏBİYYAT


1. Axundov, R.Q. Hərbi məqsədlər üçün karbon adsorbentlərinin radiasiya termik üsüllarla alınması və modifikasiyası: / Milli təhlükəsizlik və hərbi elmlər üzrə fəlsəfə doktoru dissertasiyası) / – Bakı, 2021. – 158 s.
2. Axundov R.Q. Radiasiya və kimyəvi təhdidlərdən mühafizənin vəziyyəti və inkişaf perspektivləri // - Bakı: - Milli təhlükəsizlik və hərbi elmlər, - 2022.№3(12),s. 59-65.
3. Mənsiyev Q.Q. Kəşfiyyat məlumatları əsasında radiasiya və kimyəvi şəraitin qiymətləndirilməsi metodikası.– Bakı: Hərbi Nəşriyyat, 2015. – 80 səhifə.
4. Kimya qoşunlarının döyüş tətbiqi üzrə Təlimat – Bakı: Hərbi Nəşriyyat, 2016. – 216 s.
5. Axundov R.Q. Pilotsuz uçuş aparatlarının radiasiya və kimyəvi kəşfiyyatda tətbiqi // - Bakı: - Milli təhlükəsizlik və hərbi elmlər, - 2023.№2(15),s. 47-54.

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN TƏHSİL SİYASƏTİ

## Education policy of national leader Haydar Aliyev

**İmanova Tünzalə Fazil qızı**

**Füzuli rayon 1 saylı məktəbin**

**Azərbaycan dili və ədəbiyyatı müəllimi**

**Xülasə**

Azərbaycan təhsil tarixinin təqribən yarım əsrə bərabər dövrü və bu dövr ərzində qazanılan nailiyyətlər, uğurlar xalqımızın ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin həyatı və fəaliyyəti ilə bilavasitə bağlı olmuşdur. 1969-cu ildə Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlməsi ilə Azərbaycanda o vaxtkı rejimin bilərəkdən yaradıldığı durğunluq və gerilik çox qısa müddətdə böyük sürətli inkişafla əvəz olundu. Azərbaycanın sosial-iqtisadi, mənəvi-mədəni inkişafına zəmin yaradacaq mühüm qərarlara imza atmaqla ölkədə qarşıdan gələn onilləri əhatə edən iqtisadi, mənəvi-mədəni potensial yaradıldı, milli kadr çatışmazlığı onun zənginliyi ilə əvəzləndi. Məhz Heydər Əliyevin təhsil sahəsində verdiyi qərarlar və onların gedişinə nəzarəti ilə əldə edilən tərəqqi milli özünüdərkin yüksəlişini təmin etməklə müstəqil Azərbaycan dövlətinin yaranmasına xidmət edən strategiyanın bünövrəsini qoymuşdur. Bu zərurətdən irəli gəldiyinə görə milli təhsil quruculuğunda Heydər Əliyev təhsilin beynəlxalq meyarlara uyğunluğunu Azərbaycan təhsilinin başlıca prinsiplərindən biri hesab edir. Buna görə də təhsil sahəsində mövcud olan problemlərin aradan qaldırılması və Azərbaycanda dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə uyğun təhsil strategiyasının həyata keçirilməsi üçün ciddi tədbirlər həyata keçirmiş, mühüm tarixi fərman və sərəncamlar imzalamışdır. Təsadüfi deyildir ki, Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamında bu barədə deyilir: "Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə ...tarixi yaddaşın bərpası istiqamətində atdığı qətiyyətli addımlar o dövrdə milli ruhun canlanmasına xidmət göstərmiş, özünüdərki və soy-kökə qayıdışı təmin etmiş, müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşına çevrilmişdir."

**Açar sözlər:** Heydər Əliyev, siyasət, təhsil, Heydər Əliyev ili.

**Abstract**

The period of approximately half a century of educational history of Azerbaijan and the achievements and successes achieved during this period were directly connected with the life and activities of Heydar Aliyev, the national leader of our people, the founder of the independent state of Azerbaijan, an outstanding politician and statesman. In 1969, when Haydar Aliyev came to political power in Azerbaijan, the stagnation and backwardness deliberately created by the regime at that time in Azerbaijan was replaced by great rapid development in a very short time. By signing important decisions that will lay the groundwork for the socio-economic, spiritual and cultural development of Azerbaijan, the economic, spiritual and cultural potential covering the coming decades was created in the country, the

shortage of national personnel was replaced by its wealth. It is the decisions made by Heydar Aliyev in the field of education and the progress achieved through his control over their course that laid the foundation of the strategy that served the creation of the independent state of Azerbaijan by ensuring the rise of national self-awareness. Due to this necessity, Heydar Aliyev considers the conformity of education to international standards as one of the main principles of Azerbaijani education in the construction of national education. Therefore, he took serious measures to eliminate existing problems in the field of education and to implement an educational strategy in Azerbaijan in accordance with the experience of the developed countries of the world, and signed important historical decrees and orders. It is no coincidence that the Decree of the President of the Republic of Azerbaijan on the declaration of 2023 as the "Year of Haydar Aliyev" in the Republic of Azerbaijan states: "Haydar Aliyev, thanks to his extraordinary management skills, steel will and high patriotism, with his visionary and goal-oriented decisions .. .the decisive steps he took in the direction of the restoration of historical memory at that time served the revival of the national spirit, ensured self-awareness and a return to the roots, and became the cornerstone of the road to independent state building."

Keywords: Haydar Aliyev, politics, education, year of Haydar Aliyev.

## HEYDƏR ƏLİYEV SİYASƏTİNİN GƏNC NƏSLİN ELMİ DÜNYA GÖRÜŞÜNÜN FORMALAŞMASINDA ROLU

## The role of Hayder Alıyev's polıcy ın the formatıon of the scıentıfıc world vıew of the young generatıon

**B.ü.f.d., dosent Elnurə Fazil qızı Səfərova**

Azərbaycan Dövlət Pedaqoji Universiteti

https://orcid.org/0000-0002-4151-1750,

seferovaelnure@mail.ru

**B.ü.f.d., baş müəllim Zərifə Rəsul qızı İsmayılova**

Azərbaycan Dövlət Pedaqoji Universiteti

https://orcid.org/0000-0002-9700-0116

durna.huseynli.00@list.ru

**XÜLASƏ**

“Bizim bu günkü gəncliyimiz sağlam düşüncəli gənclikdir, vətənpərvər gənclikdir, xalqını, millətini sevən gənclikdir… Gənclərimiz mükəmməl təhsil almalı, həyatı dərindən öyrənməli, dünyada gedən prosesləri bilməlidir. Lazımi fəaliyyət göstərib öz xalqına, dövlətinə xidmət etməlidir.” *HEYDƏR ƏLİYEV*

Sağlam, gümrah, elmli cəmiyyət qurucuları yetişdirmək indi təhsilimizin qarşısında duran əsas vəzifələrdəndir. Gənclərdə düzgün elmi dünyagörüşü formalaşdırmadan bu vəzifəni həyata keçirmək mümkünsüzdür. Buna görə də hər bir müəllim şagirdlərə elmi dünyagörüşün

aşılanması işinə diqqəti artırmalıdır. Dünyagörüşü – insanın, ictimai şüurun, cəmiyyətin fəaliyyət istiqamətini və real aləmə münasibətini müəyyən edən baxışlar sistemidir. İctimai şüurun bütün formaları (elm, fəlsəfə, əxlaq, incəsənət, estetika, din və s.) bu sistemdə öz əksini tapır. Dünyagörüşü dünyaya, varlığa elmi, fəlsəfi, əxlaqi, estetik, siyasi, hüquqi, dini bilik, ideya və əqidələrin ümumiləşmiş sistemidir. Dünyagörüşünün mənşəyi cəmiyyətin maddi həyat şəraitində, varlıqdadır. Maddi həyat hadisələrinə baxış elmi və ya qeyri-elmi olur. Elmi dünyagörüşü reallıqlara, düzgün biliklərə, zəkaya, elmin nailiyyətlərinə əsaslanır, ümumbəşəri və milli dəyərləri özündə ifadə edir. Elmi dünyagörüşünə yiyələnmiş adam ilk növbədə əqlinin qüdrətinə arxalanır, həyata, gələcəyə, qurub yaratmağa səy edir, öz əqidəsi uğrunda mübarizə aparır. Müxtəlif vəziyyətlərdən çıxış yolunu tapır və ziddiyyətləri dərk edərək aradan qaldırmağı bacarır. Bütün bu xüsusiyyətləri ölkəmizdə yaxşı anlayan və həyata keçirilməsi üçün lazımı tədbirləri görən yeganə bir lider var idisə o da Heydər Əliyev idi. Ümummilli liderimiz Heydər Əliyev ölkədə gedən demokratik islahatlara, insan hüquqlarının qorunmasına həmişə xüsusi diqqətini yetirirdi. İctimai-siyasi, mədəni həyatımızın müxtəlif sahələrində mərhələli islahatlar apararaq Ümummilli liderimiz bütün bu proseslərdə gənclərin rolunu hər zaman diqqətdə saxlayırdı. Müxtəlif qurumlarda, dölət idarələrində, siyasi və iqtisadi arenalarda gənclərin fəal iştirakını təmin edirdi.

**Açar sözlər:** Heydər Əliyev, siyasət, gənclər, dünyagörüşü, təhsil.

## ABSTRACT

"Our youth today is a healthy-minded youth, a patriotic youth, a youth that loves its people and nation... Our youth should get excellent education, study life deeply, and know the processes going on in the world. He should perform the necessary activities and serve his people and state." HEYDAR ALIYEV

Educating healthy, cheerful, and knowledgeable society builders is one of the main tasks facing our education now. It is impossible to carry out this task without forming a correct scientific outlook in young people. Therefore, every teacher should pay more attention to instilling a scientific worldview in students. Worldview is a system of views that determines the direction of action of a person, social consciousness, society and attitude to the real world. All forms of social consciousness (science, philosophy, morality, art, aesthetics, religion, etc.) are reflected in this system. Worldview is a generalized system of scientific, philosophical, moral, aesthetic, political, legal, religious knowledge, ideas and beliefs about the world and existence. The origin of the worldview is in the material life conditions of the society, existence. The view of material life phenomena can be scientific or non-scientific. The scientific outlook is based on realities, correct knowledge, intelligence, achievements of science, and expresses universal and national values. A person who has acquired a scientific worldview first of all relies on the power of his mind, strives for life, the future, builds and creates, and fights for his beliefs. He finds a way out of various situations and is able to overcome contradictions by understanding them. Heydar Aliyev was the only leader who understood all these features well in our country and took the necessary measures to implement them. Our national leader Heydar Aliyev always paid special attention to democratic reforms in the country and protection of human rights. By making gradual reforms in various areas of our socio-political and cultural life, our National leader always kept in mind the role of young people in all these processes. It

ensured the active participation of young people in various institutions, regional administrations, political and economic arenas.

**Key words:** Heydar Aliyev, politics, youth, outlook, education.

## GİRİŞ

Ümummilli lider Heydər Əliyev hər zaman gənclərimizlə bağlı məsələləri öz siyasətinin əsas tərkib hissələrindən biri hesab etmişdir. Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrlərdə yüzlərlə yeni tədris ocaqları, gənclik mərkəzləri, hərbi məktəblər açılmış, minlərlə azərbaycanlı gənclər ali məktəblərdə təhsil almış, müxtəlif ölkəmiz üçün faydalı peşələrə yiyələnmişdir. Dahi Heydər Əliyevin dəstəyi və qayğısı sayəsində o zamanlar Sovetlər İttifaqının 50-dən artıq iri şəhərinin nüfuzlu ali məktəblərində bütövlükdə 80-dək sahəni əhatə edən 150 ixtisas üzrə çox sayda azərbaycanlı gəncin ali təhsil almasına, yüksək ixtisaslı mütəxəssis kimi yetişməsinə imkan və şərait yaradılmışdır. Azərbaycan gənclərinin 1 forumunda bu barədə danışan ölkə rəhbəri demişdir: "Bütün bunların hamısı o vaxtlar Azərbaycanın gələcəyi üçün yeni-yeni mütəxəssislər hazırlamaq məqsədi daşımışdır. Bu işə biz hələ 70-ci ildən başlamışdıq. Mən bu gün çox məmnuniyyət hissi ilə qeyd edirəm ki, bu, şəxsən mənim təşəbbüsümlə olmuşdur. Mən hələ o vaxtdan ölkəmizin gələcəyini düşünürdüm". Bu həmin illərin ən böyük nailiyyətlərindən idi.

## ARAŞDIRMA VƏ NƏTİCƏLƏR

Dövlətimizin gənclər siyasəti Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdən başlayaraq həmişə hədəfdə olan istiqamətlərdən biri olmuşdur. Belə ki, hələ Sovet hakimiyyəti illərində ümummilli liderimiz yüzlərlə Azərbaycan gəncinin ittifaqın bir çox böyük və mərkəzi şəhərlərində təhsil almalarına geniş şərait yaratmışdır ki, bu gənclər keçmiş SSRİ-nin aparıcı ali məktəblərinə bir çox ixtisaslar üzrə ali təhsil almağa göndərilir və savadlı, bacarıqlı kadr kimi vətənə dönərək uğurla fəaliyyət göstərməyə başlayırdılar. Bu gənclərdən böyük bir hissəsi bu günümüzdə müstəqil Azərbaycan Respublikasının dövlət quruculuğunda yaxından iştirak edir, hüquq-mühafizə sistemində baş vəzifələrdə çalışır, elmimizin, səhiyyəmizin, mədəniyyətimizin, idmanın inkişafında uğurla xidmət göstərirlər. Dahi öndərimiz savadı, qabiliyyəti, istedadı, bacarığı ilə seçilən gənclərə qayğı və diqqət göstərməyi hər zaman bacarırdı. Əsasən belə gənclərin bir çoxunu özü seçir, onların qabiliyyətini və biliyini sınaqdan keçirdikdən sonra xarici ölkələrə oxumağa, təcrübələrini artırmağa göndərirdi. Belə gənclər maddi cəhətdən təmin edilir, daha mükəmml təhsil almaları üçün hər cür şərait yaradılırdı. Ulu öndər H.Əliyevin ikinci dəfə hakimiyyətə dönüşünü ən çox dəstəkləyən, alqışlayanlar elə Azərbaycan gəncləri idi. Heydər Əliyev gənclərə arxalandığı kimi, gənclər də onu böyük bir şəxsiyyət, əvəzolunmaz tarixi lider, milli dövlət quruculuğumuzun əsas banisi kimi qəbul edirdilər. Dahi Heydər Əliyevin bu istiqamətdə həyata keçirdiyi siyasət gənc nəslin mənəvi, əxlaqi, vətənpərvər tərbiyyəsinin gücləndirilməsinə, həyat tərzlərinin, sosial rifahının yaxşılaşdırılmasına və geniş elmi potensialın yaradılmasına dəstəkləyirdi. Təsadüfü deyildir ki, Heydər Əliyev hər zaman gənclərə diqət və qayğı ilə yanaşır, onların təhsillə bağlı bütün problemlərini həll etməyə çalışırdı. Gənclərin ictimai, siyasi həyatda fəallığını artırmaq üçün həyata keçirilən Dövlət Proqramının tətbiqi, idarəetmə orqanlarında əsasən gənc mütəxəssislərə üstünlük verilməsi ümummilli lider H.Əliyev tərəfindən müəyyənləşdirilmiş gənclər siyasətinin uğurlu nəticəsidir. [5]

Azərbaycanda gənclərlərın iş yerlərinin təmin olunması sahəsində mühüm tədbirlərin gerçəkləşdirilməsi ulu öndərin adı ilə bağlıdır. “1993-cü ildə xalqın istəyi ilə hakimiyyətə qayıdan Heydər Əliyevin diqqət yetirdiyi mühüm istiqamətlərdən biri də gənclərlə iş olmuşdur. Həyata keçirilən gənclər siyasətinin başlıca məqsədi milli dəyərlərə söykənən, vətəninə, xalqına bağlı olan müasir düşüncəli gənc nəslin formalaşdırılması, bu gəncliyin potensialından dövlətin inkişafı naminə istifadə edilməsidir. Ölkədə demokratik prosesin sürətlənməsi ərəfəsində gənclərin təşkilatlanması məqsədi ilə dövlət başçısı tərəfindən 1994-cü il 26 iyul tarixində Gənclər və İdman Nazirliyinin yaradılması barədə fərman imzalandı”. Bununla da dövlətin gənclərlə bağlı siyasəti vahid mərkəzdən idarə olunmağa başladı. Ulu öndərimizin gənclərlə çox saylı görüşü, onlara etdiyi dəyərli tövsiyələr gənclərin ümummilli maraqlar və dövlət mənafeyi ətrafında birləşmələrinə xidmət edirdi. Bunun məntiqi nəticəsidir ki, 1996-cı ilin 2 fevralında Azərbaycan Gənclərinin Birinci Formu keçirildi. Formda gənclər və idman siyasəti sahəsində görülən işlərdən, gəncliyin qarşısında böyük məsuliyyətin dayandığından danışan ulu öndər Heydər Əliyev Azərbaycan gəncliyinin daha uğurlu sabahına inandığının vurğuladı. Həmin dövürdə gənclərin problemlərinin həllini təmin edən fərmanların imzalanması, qanunların qəbul edilməsi, gənclərin dövlət quruculuğuna fəal cəlb olunması dövlətin gənclər siyasətinə mühüm töhfə verdi. Bununla da Azərbaycan gəncinin tam hüquqlu vətəndaş kimi öz gələcəyinə sahib çıxması və ona göstərilən ehtimadı doğrultmağa çalışması üçün bütün şərait yaradıldı**.** Ümummilli liderimizin 1997-ci il 2 fevral tarixində imzaladığı fərmana əsasən həmin tarix “Azərbaycan gəncləri günü” elan edilmişdir. 1996-2002-ci illərdə qəbul olunmuş “Bədən tərbiyəsi və idman haqqında”, “Azərbaycanın gənc istedadlarına dövlət qayğısı haqqında”, “Gənc istedadlar üçün xüsusi təqaüdlərin təsis edilməsi haqqında”, “Dövlət gənclər siyasəti haqqında” qərarların, habelə “Gənc ailə” proqramı, “gənclərdə vətənpərvərlik və vətəndaşlıq hislərinin yüksəldilməsi haqqında”, “Ordudan tərxis olunmuş gənclərin məşğulluğu” dövlət sənədləri bu baxımdan təqdirə layiqdir. Əlbətdə ki, gəncliyə göstərilən dövlət qayğısı, onlarla bağlı qəbul edilən qərarlar gənc nəslin xoşbəxt gələcəyinə hesablanan addımlar idi. Heydər Əliyevin qaçqın və məcburi köçkün tələbə gənclərə göstərdiyi qayğı onun bütün ölkə vətəndaşları qarşısında göstərdiyi əvəzolunmaz xidmətlərinin tərkib hissəsidir. Fərəh hissi ilə deyə bilərik ki, bu gün də dövlətimiz gənclərə xüsusi diqqət və qayğı göstərir. Ümummilli liderimiz Heydər Əliyevin gənclər siyasəti onun layiqli davamçısı, dövlət başçısı İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Bu siyasət idmana göstərilən dövlət qayğısı ilə də öz əksini tapır. Təbii ki, bu yönümlü siyasət Azərbaycanın milli genefondunun qorunması, habelə gəncləri vətənpərvər ruhda tərbiyə etmək zərurətindən meydana gəlmişdir[1]

Bütün deyilənlərdən aydın olur ki, dünyagörüş təlim-tərbiyənin tərkib hissələrindən olub, şəxsiyyətin formalaşmasına xidmət edir. Şəxsiyyətin formalaşmasına irsiyyət, mühit və tərbiyə kompleks halda təsir göstərir. Tərbiyə insan cəmiyyətinin yarandığı ilk dövrlərdən meydana gəlmiş, şəxsiyyətin formalaşması prosesi olmuşdur. Tərbiyə sözünün lüğəti mənası da bəsləyib yetişdirmə, qidalandırma, böyütmə, alışdırma, vərdişetmə kimi tərcümə olunur. Tərbiyə – tərbiyəçi ilə uşaq arasında yaradıcı əməkdaşlıq şəraitində həyata keçirilən elə ikitərəfli qarşılıqlı fəaliyyət prosesidir ki, burada bir tərəfdən uşaq tarix boyu qazanılmış təcrübə və bilik sərvətləri ilə silahlanır, inkişaf edir, həyat yolunu müəyyənləşdirir, zehni, əxlaqi, tibbi-gigiyenik, iqtisadi, siyasi, hüquqi, ekoloji, bədii, fiziki, etik, estetik tərbiyəyə, faydalı adətlərə və davranış qaydalarına yiyələnir, digər tərəfdən tərbiyəçi özü kamilləşir, inkişaf edir. Deməli, tərbiyə şəxsiyyətin məqsədyönlü formalaşması və inkişafı prosesidir. Müasir şəraitdə tərbiyənin real məqsədi – gənclərin fərdi qabiliyyəti və istedadı əsasında hərtərəfli inkişaf

etdirilməsidir. Savadlı gənc mütəxəsislərin hazırlanması ümumtəhsil məktəblərindən başlayır. Dövlətimiz bu sahəyə də xüsusi diqqət yetirir. Azərbaycanda büdcənin ən böyük hissəsi təhsil xərclərinə yönəldilmişdir. Son illər həm dövlət vəsaiti hesabına, həm də Heydər Əliyev fondunun hesabına yüzlərlə məktəb tikilib, bu gün də sürətlə davam etdirilir. Azərbaycanda bütövlükdə təhsil infrasturukturu yenilənir, kompüterləşmə proqramı həyata keçirilir. Nəticədə gənclərimiz, şagirdlərimiz, tələbələrimiz dünyada baş verən bütün hadisələri yaxından izləyir, yeni müasir informasiya texnologiyalarına yiyələnirlər. Onlar dünyada gedən prosesləri təhlil etmək üçün imkanlar əldə edirlər. Bu gün Azərbaycan gəncləri xarici ölkələrə təhsil almağa, biznes qurmağa, təcrübə qazanmağa, işləməyə və s. faydalı işlər görməyə gedir. Xaricdə çalışan gənclərimizin böyük hissəsi bir neçə ildən sonra vətənə dönərək əldə etdikləri təcrübəni, işgüzarlığı və iqtisadi sistemin xüsusiyyətlərini ölkəmizdə tətbiq edirlər. [3]

Hər bir vətənpərvər müəllim dövlət və onun atributlarına dair bilikləri tədris edərkən Azərbaycan dövləti, onun gerbi, himni, bayrağı, Konstitusiyası haqqında şagirdlərin yaşına uyğun məlumatlar verir, bayrağımızın rəngləri, simvolları, gerbimiz haqqında anlayışları geniş izahını verir. Keçirilən mövzuların tədrisində bacardığı qədər inteqrativ yanaşaraq şagirdlərə vətənpərvərlik, hüquqi, iqtisadi tərbiyə elementləri aşılamalıdır. Təlim prosesində şagirdlərdə Vətəninə sevgi münasibəti, onun şərəfini, şöhrətini, qüdrətini hər zaman müdafiyə etmək üçün istək, mənəvi borc formalaşdırmalıdır. Vətənpərvərlik tərbiyəsinin gücü və səmərəliliyi, Vətən ideyasının şəxsiyyət tərəfindən nə dərəcədə mənimsənilməsini biz xalqımızda 44 günlük müharibədə gördük. Bu da Ulu Öndər siyasətinin gənclərdə vətənpərvər hissinin formalaşdırması və onun davamçısı olan prezidentimizin bu siyasəti düzgün istiqamətdə davam etməsinin müsbət nəticəsidir. Hər bir gəncimiz Vətən ideyasını öyrənərkən və hiss edərkən həyəcan keçirir, doğma kəndini, şəhərini, yurdunu, vətəninin bir hissəsi kimi görür. [4]

## NƏTİCƏ

Elmi dünyagörüşünə yiyələnmiş gənc:

- Dialektik qanun və qanunauyğunluqlarını dərk edir və öz fəaliyyətində onlara əsaslanır.
- Dünyada baş verən hadisələri izləyir və onlardan baş çıxarır, düzgün təhlil edir, məntiqi nəticə çıxarır.
- Cəmiyyət xeyrinə işləməyi özünə borc bilir, kimsəsizlərə, köməksizlərə arxa durur, xeyriyyəçiliklə məşğul olur.
- Vətəni, vətən övladlarını, xalqını sevir, onların maddi rifahi uğrunda mübarizlik göstərir.
- Öz üzərində müntəzəm işləyir, mənəvi zənginliyi, əxlaqi saflığı və fiziki kamilliyi özündə birləşdirməyə çalışır. [2]

Beləliklə, bu gün hər bir gənc dahi Heydər Əliyevin ideyalarını öz fəaliyyətində daim rəhbər tutmalı, Azərbaycan gəncliyinin lideri olan möhtərəm prezidentimiz İlham Əliyevin başçılığı altında Azərbaycanın müstəqilliyinin hər zaman yaşaması üçün istiqaməti bir hədəfə vurmalıdır. Bəli, bu günün gəncləri vətənpərvər, sağlam ruhlu, özünə inamlı, mübariz bir gənclikdir. Əminliklə qeyd edim ki, Azərbaycan gəncliyi dövlət başçısının iqtisadi, siyasi, mədəni toplumda fəaliyyətini birmənalı dəstəkləyir və gələcəyin davamçılarıdır.

**Ədəbiyyat**

1. Böyük xilaskar. Bakı, Ozan, 2004.

2. Müstəqilliyimizin təminatçısı. İ.Hüseynova. Bakı, Təhsil, 2004.

3. Dahi. M.Seyidov. Bakı. Şirvannəşr, 2004.

4. Zamanı Qabaqlayan Dahi. M.Seyidov, M.Rzayev. Bakı, Vektor nəşr evi, 2008.

5. H.Əliyev müasir gənclər siyasətinin banisidir. Ağcabədi rayon Heydər Əliyev mərkəzi, 2022

# LOZANNA KONFRANSI VƏ FRANSA-TÜRKİYƏ MÜNASİBƏTLƏRİNİN İNKİŞAFI

**Şəfa ƏBDÜRRƏHİMOVA**

ADU Regionşünaslıq kafedrasının baş müəllimi

AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun dissertantı

**Orcid id: 0000-0002-6434-0667**

**chafouniya85@yahoo.fr**

**XÜLASƏ**

Məqalədə I Dünya müharibəsindən sonra Yaxın Şərq daxil olmaqla Qərb regionunda yaranan geosiyasi vəziyyət, Osmanlı dövlətinin zəifləməsi fonunda yeni yaranmış dünya nizamında Fransa-Türkiyə münasibətlərinin arzu olunan səviyyədə olmamasından, Qərbin parçala, hökm et siyasətinə qarşı Türkiyənin mübarizə aparmasından bəhs olunur. Fransa Anadolunu işğal etmək niyyətində olan dövlətlərin sırasında yer almaqla, bilavasitə müttəfiq dövlətlərlə müqayisədə Türkiyədə üstünlüyü ələ almaq və yaranmış vəziyyətdən öz xeyrinə istifadə etmək üçün bir sıra hərbi oyunlara əl atırdı. Yaranmış mürəkkəb şəraitdə sərhəd xətlərinin, mübahisəli ərazilərinin müəyyən olunması və işğaldan qorunması məqsədilə Türkiyənin Qərb dövlətlərinə qarşı, xüsusilə də Fransa kimi irticaçı ölkə ilə birmənalı mübarizəsi ikitərəfli münasibətlərdə vəziyyəti bir qədər də kəskin həddə çatdırmışdı. 11 oktyabr 1922-ci il tarixli Mudanya müqaviləsi ilə bağlı danışıqlar ərəfəsində sülh danışıqları və həlli gecikən məsələlərin aydınlaşdırılması üçün Lozannada konfransın toplanmasına qərar verilmişdi. 21 noyabr 1922-ci ildə işə başlayan konfrans zamanı müttəfiq dövlətlər tərəfindən xüsusi komissiyalar yaradılmış və sonuncuya rəhbərlik maraqlara uyğun olaraq bölüşdürülmüşdü. Danışıqlar zamanı xüsusilə Fransa-Türkiyə nümayəndə heyətləri arasında yaranmış ziddiyyətlər konfransın işinə mənfi təsir etmiş, hətta danışıqların yarımçıq dayandırılmasına səbəb olmuşdur. İstər Türkiyə-Suriya sərhəd məsələsində, istərsə də iqtisadi və ticari sahələrdə, xüsusilə Osmanlı borcları məsələsində fransız-türk nümayəndələri arasında müəyyən uzlaşmaya varıldıqdan sonra konfrans öz işini bərpa etmişdir. Sonda dövlətlər razılığa gəlmiş və sülh sazişini imzalamışdılar. Lozanna sülh müqaviləsinin Birinci dünya

müharibəsinin sonunda imzalanan və etibarlılığını itirməyən yeganə müqavilə olması onu daha da əhəmiyyətli etmişdir. Beləliklə, Lozanna sülh müqaviləsi ilə Mustafa Kamal paşanın xarici siyasət prinsipləri, tamamilə olmasa da, böyük miqyasda həyata keçirilmişdir. Belə ki, Türkiyə Respublikası Osmanlı Dövləti statusundan ayrı və müstəqil bir dövlət olaraq qalib dövlətlər arasında etibar qazanmış və onlarla bərabər statusda müzakirədə iştirak etmə şansı əldə etmişdir.

**Açar sözlər:** I Dünya müharibəsi, Türkiyə, Fransa, Lozanna konfransı, sərhəd məsələləri, Osmanlı borcları.

**SUMMARY**

The article talks about the geopolitical situation in the Western region, including the Middle East, after the First World War, the lack of desirable French-Turkish relations in the newly created world order against the background of the weakening of the Ottoman state, Turkey's struggle against the divide and rule policy of the West. Being one of the states intending to invade Anatolia, France resorted to a series of military games to take advantage of Turkey and use the situation to its advantage in comparison with the allied states. In order to define the border lines and disputed territories and protect them from invasion, Turkey's unequivocal struggle against the Western countries, especially against a reactionary country like France, brought the situation in bilateral relations to an acute level. On the eve of the negotiations on the Treaty of Mudanya of October 11, 1922, it was decided to convene a conference in Lausanne for peace negotiations and clarification of outstanding issues. During the conference, which started on November 21, 1922, special commissions were created by the allied states and the leadership of the latter was distributed according to interests. During the negotiations, especially the contradictions between the delegations of France and Turkey had a negative impact on the work of the conference, and even caused the negotiations to be suspended. The conference resumed its work after reaching a certain agreement between the French-Turkish representatives, both on the Turkey-Syria border issue, and on the economic and commercial fields, especially on the issue of Ottoman debts. In the end, the states came to an agreement and signed a peace agreement. The fact that the Lausanne Peace Treaty was the only treaty signed at the end of the First World War that did not lose its validity made it even more important. Thus, with the Lausanne Peace Treaty, Mustafa Kemal Pasha's foreign policy principles were implemented to a large extent, if not completely. So, the Republic of Turkey, as a separate and independent state from the status of the Ottoman State, gained trust among the victorious states and got the chance to participate in the discussion on an equal status with them.

**Keywords:** First World War, Turkey, France, Lausanne conference, border issues, Ottoman debts.

## GİRİŞ.

Fransa-Türkiyə münasibətləri tarixin bütün dövrlərində diqqət çəkmiş, yerləşdikləri regionlarda mühüm güc kimi tanınan hər iki dövlət arasında münasibətlər heç də qənaətbəxş olmamaış, müxtəlif dövrlərdə Fransanın bölücülük və imperialist siyasəti bəzi Afrika və Yaxın

Şərq ölkələrinin sömürülməsi kimi mənfi nəticələrlə yadda qalmışdır. Dünyada erməni diasporasının ən güclü olduğu 3 ölkədən biri hesab olunan Fransanın Türkiyə ilə münasibətlərinin öyrənilməsi günümüzdə də aktualdır. Məqalədə I dünya müharibəsindən sonra Fransa-Türkiyə münasibətlərinin inkişafına və sabitləşməsinə təsir edən əsas amillərdən bəhs olunur.

Birinci dünya müharibəsindən sonra Osmanlı imperiyası ərazisinin bölüşdürülməsi uğrunda Qərb dövlətlərinin qızğın mübarizəsi gedirdi. Təsadüfi deyil ki, müharibənin bitməsinə baxmayaraq bu dövrdə dövlətlərarası münaqişələr və mübahisəli sərhəd məsələləri hələ də davam edirdi. 1920-ci illərdən artıq Fransa və Türkiyə hökumətləri arasında yaxınlaşma və münasibətlərin normallaşması nəzərə çarpır.

XX əsrin 20-ci illərinin əvvəllərində yunan ordularının Anadoludan təmizlənməsi və milliyyətçi hökumətin boğazlar ərazisi istisna olmaqla bütün Asiya Türkiyəsində yerləşməsi iki siyasi vəziyyət yaratmışdı: birincisi, müttəfiq dövlətlər hakimiyyətlərini zor gücü ilə bərpa etmək üçün hazır deyildilər; ikincisi, artıq qüvvədən düşmüş, tətbiq olunması qeyri-mümkün olan Sevr müqaviləsinin yerinə müttəfiq dövlətlərlə Mərkəzi Avropa dövlətləri arasındakı müharibənin nəticələrinə uyğun başqa bir müqavilənin imzalanması mümkün olmayacaqdı. Milliyyətçilərin qələbəsi sentyabrın 22-də artıq açıq şəkildə bəlli olmuşdu, indi isə müharibə diplomatik sahəyə keçmişdi.

11 oktyabr 1922-ci il tarixli Mudanya müqaviləsi ilə bağlı danışıqlar ərəfəsində sülh danışıqları üçün Lozannada konfransın toplanmasına qərar verilmişdi.

**Lozanna konfransına hazırlıq və komissiyaların təşkili.**

Türkiyə hökuməti nümayəndə heyətini konfransa yola salmazdan əvvəl Nazirlər Şurasının iclasında tələsik qeydə alınmış 3 səhifə həcmində olan 14 maddəlik bir təlimat verdi. Təlimatın ilk 7 maddəsi sərhədlərlə, növbəti 5 maddəsi yeni dövlətin nizamı, son 2 maddəsi isə Osmanlı dövlətinin tərkibindən çıxan ölkələrdəki nizamla bağlı idi (Oran vd., 2015: s.217-218). Belə ki, təlimatın verilməsində məqsəd sərhədləri müəyyənləşdirmək və bu sərhədlər daxilində müstəqil bir dövlət qurmaq idi. Burada diqqətləri ən çox çəkən məqam iki məsələ ilə bağlı heyətə qəti təlimatın verilmiş olması idi: əgər müttəfiqlər - 1) erməni məskəni yaratmaq (şərq sərhəddində); 2) kapitulyasiyaları qorumaq kimi məsələlərdə israr edərdilərsə, heyət Ankara ilə məsləhət belə etmədən onların təkliflərini rədd edəcək, hətta lazım gələrsə, danışıqları dayandırıb ölkəyə qayıdacaqdılar. Bu, Ankaranın bu məsələlərdə nə qədər həssas və qərarlı olduğunu göstərirdi.

Konfransın plenar iclası 21 noyabr 1922-ci ildə işə başlamışdır. Danışıqlar 1923-cü ilin fevral ayında yarımçıq qalmış, 1923-cü il aprelin 23-də yenidən başlanmış və sülh müqaviləsi, o cümlədən bununla əlaqəli digər sənədlər 1923-cü il iyulun 24-də imzalanmışdır.

Lozanna sülh danışıqlarında bir tərəfdə Türkiyə, digər tərəfdə isə İngiltərə, Fransa, İtaliya, Yaponiya, Rumıniya və Yuqoslaviya iştirak edirdi. Konfransa Türkiyənin istəyi və israrı ilə boğazlarla əlaqəli məsələlərlə bağlı danışıqlarda iştirak etmək üçün Sovet Rusiyası, Ukrayna və Gürcüstan da dəvət edilmişdilər (Gönlübol, Sar, 2013: s.48). ABŞ konfransa müşahidəçi göndərmişdi. Bolqarıstanın Egey dənizi ilə bağlı məsələsinin müzakirəsi zamanı bu dövlətin təmsilçisi də danışıqlara qatıldı.

Lozanna danışıqları zamanı problemlərin həlli üçün müəyyən komissiyalar yaradıldı. Onlar aşağıdakılar idi:

1. Birinci komissiya ingilis nümayəndə Kerzonun rəhbərliyi altında ölkə (ərazi məsələləri) və hərbi məsələlər (sərhədlər, vətəndaşlıq, milli azlıqlar, boğazlar rejimi və s.) ilə məşğul olacaqdı.

2. Rəhbəri italyan olan ikinci komissiya Türkiyədəki əcnəbilərə tətbiq olunacaq rejimlə bağlı məsələlərlə (mühakimə səlahiyyəti, kapitulyasiyalar, imtiyazlar və s.) məşğul olacaqdı.

3. Rəhbəri fransız olan üçüncü komissiyaya isə maliyyə və iqtisadi məsələlər (limanlar, dəmiryolları, şirkətlər, tibb məntəqələri), o cümlədən Osmanlı borcları ilə məşğul olmaq tapşırılmışdı (Berber, 2006: s.621).

Yuxarıda göstərilən bölgüyə əsasən belə qənaətə gələ bilərik ki, müttəfiqlərin hər biri öz maraqlarına uyğun komissiyaya rəhbərlik edirdi. Belə ki, İngiltərə Mosul və boğazlar, Fransa borclar, İtaliya isə kapitulyasiyalar, adalar və kabotaj hüququ məsələlərində həssas idilər.

Konfransa hazırlıqlar başlayan zaman Fransa tərəfi Osmanlı ərazilərindəki maraqlarını nəzərdən keçirməyə başladı. Türkiyə ilə müttəfiqləri arasında qısa müddət öncə yaşanan böhranda ("Çanaqqala") vasitəçilik edən Fransa münasibətlər düzələr-düzəlməz Türkiyədəki maraqlarını qorumaq üçün hərəkətə keçdi. Pele Puankareyə 1922-ci ilin oktyabrında göndərdiyi məktubda Osmanlı dövləti dövründə imzalanan və fransızlara imtiyazlar verən sazişləri sadalayırdı (MAE, no.177: s.225-226). İstanbuldakı Fransız Ticarət Palatası da kapitulyasiya sözünün "türk milli özünüdərkinə xələl gətirdiyi" üçün müasirləşdirilərək nəzərdən keçirilməsi və yerinə başqa bir sözün işlədilməsi ilə razılaşır; ancaq Türkiyədəki əcnəbilərin şəxsi heyətləri və malları ilə bağlı iddialara baxılması üçün qarışıq ya da beynəlxalq bir məhkəmə yaradılmasında israr edirdi (MAE, no.178: s.33). Fransa Türkiyənin iqtisadi müstəqilliyini yalnız özünün ticari inkişafına maneə törətmədiyi halda qəbul edə bilərdi. Sadaladığımız tələblər sonradan Lozannada danışıqların nəticəsiz qalaraq konfransa fasilə verilməsinə səbəb olan əsas amillərdən olacaqdı.

**Türk-fransız nümayəndə heyətləri arasındakı ziddiyyətlər.**

Lozannada noyabrın 21-də başlayan danışıqlarda türk və fransız müddəaları arasındakı ziddiyyət qısa zaman ərzində açıq şəkildə ortaya çıxdı. Bundan əlavə Lord Kerzonun sədrliyi ilə keçən sərhədlər və hərbi məsələlərlə bağlı komissiyada problemlərin – xüsusilə Mosul məsələsinin – olmasına baxmayaraq danışıqların yarımçıq qalmasına şərait yaradacaq bir gərginlik yaşanmadığı halda, fransızların idarə etdiyi iqtisadi-maliyyə işləri ilə Osmanlı borclarına baxan komissiyada sərt müzakirələr gedirdi. Hələ dekabr ayında baş nazir Rauf Orbay (1922-ci ilin iyulundan baş nazir kimi fəaliyyət göstərirdi) Ankarada fransız polkovnik Mujənə konfransdakı fransızların münasibətindən şikayətlənərək, "ingilislər uzaqgörəndilər, ... bizə Barrerin (Kamil Barrer, Lozanna konfransındakı fransız heyətində iştirak edən diplomat) maliyyə kapitulyasiyaları ilə əlaqəli fikirlərini bölüşmədiyini bildirmişdilər" deyirdi. Baş nazir sözlərinə əlavə edirdi ki, yalnız sülh müqaviləsi imzalandıqdan sonra fransızları qane edən ticarət sazişlərini gündəmə gətirə bilər (MAE, no.178: s.54). Məlumat üçün qeyd edim ki, yuxarıda adını qeyd etdiyim fransız polkovnik Lui Mujən 1922-ci ilin iyun ayında Fransa hökuməti tərəfindən Ankaraya qeyri-rəsmi təmsilçi olaraq göndərilmişdi. O, Lozanna

danışıqlarından əvvəl də Fransanın Ankara ilə diplomatik münasibətlərinin yaxşılaşmasına çalışırdı. Əvvəllər İstanbuldakı fransız hərbi mövqeləri ilə Osmanlı Hərbi Nazirliyi arasında əlaqə yaradan zabit kimi fəaliyyət göstərdiyindən bu dövrdə Ankaradan dəqiq və operativ məlumatların ötürülməsində əhəmiyyətli rol oynamışdı.

Lozannadakı danışıqlarda Türkiyənin cənub sərhədləri də müzakirə edildi. Lakin İskəndərun sancağının daxil olduğu Suriya ilə Türkiyə arasındakı sərhəd 20 oktyabr 1921-ci il Franklin-Buyon sazişi ilə qəti olaraq müəyyənləşdirilmişdi, buna görə də, konfransda Türkiyə ilə İngiltərə arasında münaqişə mövzusu olan Mosula görə razılaşa bilmədikləri Türkiyə-İraq sərhəddi geniş müzakirə olundu (Ada, 2013: s.59). Əvvəlcə fransız heyəti türk tərəfinin Türkiyə-Suriya sərhəddini müəyyənləşdirən Ankara sazişinin məzmununun Lozanna müqaviləsində təsdiq edilməsi təklifinə bu sazişin “yerli xüsusiyyət” (türklərin xeyrinə) daşıdığını irəli sürərək razılaşmamışdı. Lakin sonradan fransız nümayəndəsi Moris Bompar Türkiyə-Suriya sərhəddinin Ankara sazişi ilə müəyyənləşmiş formada Lozanna müqaviləsindəki protokollara daxil edilməsi ilə razılaşmışdı (Savaş, 2019: s.65). Maraq üçün qeyd edim ki, Moris Bompar 1909-1914-cü illərdə Fransanın Osmanlı imperiyasındakı səfiri olmuşdur.

Lozannada başlayan danışıqlar Türkiyənin kapitulyasiyaların davam etdirilməsi məsələsindəki barışmaz münasibəti və müttəfiqlərin, xüsusilə Fransanın əks istiqamətdəki israrları ucbatından 1923-cü il 4 fevral tarixində dayandırıldı. Türk heyəti danışıqlara ara verildiyi üçün Ankaraya geri qayıtdı. Fransa və Türkiyə arasındakı problemlərə bir həll yolu tapmaq üçün Ankaraya fransız təmsilçisinin göndərilməsi Parisdə müzakirə olundu. Ankaraya mütəmadi səfər etməsilə tanınan jurnalist Bert Jorj-Qolis bu təmsilçinin “İstanbuldakı türk rəhbərliyi ilə mübahisə edən” general Pele deyil, Jan Erbetin olmasını təklif edirdi (MAE, no.178: s.61). Mujən öz mesajlarında Ankarada Fransaya qarşı narazılıqların artmağa başladığını xəbər verirdi. Belə ki, Türkiyədə Mustafa Kamalı və hökuməti Fransanın sözlərini dinləyərək ordunun İzmirə daxil olduqdan sonra irəliləməsini dayandırmaqda günahlandırırdılar.

1923-cü il yanvar ayının sonunda Mujən “danışıqların dayandırılması Suriya sərhəddimizdə, xüsusilə Antepin cənubunda, Hələb və İskəndərunda çox ağır nəticələrə səbəb ola bilər” (Ada, 2013: s.60) deyə mərkəzinə xəbərdarlıq edirdi. Mujənin narahatlıqları boş yerə deyildi. Pele türk qəzetlərində Fransa əleyhinə kampaniyanın başladığını təsdiqləyirdi. Millət Məclisində aparılan danışıqlarda Milli And daxilində olması nəzərdə tutulan Mosul və Hatayın danışıq layihəsində yeni Türkiyənin sərhədləri xaricində göstərilməsi şiddətli şəkildə tənqid olunurdu.

Sancaq türkləri bu dövrdə Hatayı Ankaranın gündəminə gətirdilər. Ankara sancaqdan gələn tələbləri birbaşa dəstəkləməsə də, Fransaya qarşı diplomatik təzyiq etmək üçün bunlardan istifadə edirdi. Lozannada danışıqlara ara verildiyi vaxt yeni Türkiyəni idarə edənlər sancaqda baş verənlərə hər halda laqeyd qalmayacaqlarını ən yüksək səviyyədə göstərdilər. Sancaq təmsilçilərinin müraciətlərindən sonra Mustafa Kamalın 1923-cü il 15 mart tarixində Adanaya etdiyi səyahət vaxtı “40 əsrlik türk yurdu düşmən əlində əsir qala bilməz” sözləri gələcəkdə baş verəcəkləri xəbər verən ilk işarələrdən idi (Ada, 2013: s.61). Mustafa Kamalın bu sözləri Hatay məsələsi ortaya çıxandan sonra türk tərəfinin nə qədər qərarlı olduğunun sübutu kimi göstərilmişdir.

Mosula görə İngiltərəylə razılaşan Ankaranın Fransaya təzyiq etməsini bu ölkəni qərbdəki güc balansının zəif bir elementi hesab etməsiylə əlaqələndirə bilərik. Belə ki, Fransa Suriya və Livanı mandatlığı altında saxlaya bilmək üçün ehtiyacı olan nəsnələri əldə etməkdə çətinlik çəkirdi. General Quronun Suriya və Livan üçün istədiyi 23 milyon frank və 25.000 əsgərin qarşılığında ona sadəcə 7 milyon frank və 20.000 əsgər verilmişdi. Sonralar Quro istefa vermiş və yerinə 1923-cü ilin aprel ayında general Veyqan təyin edilmişdi (Ada, 2013: s.61). Bu səbəbdən Pelenin 22 fevral tarixində Parisə göndərdiyi qısa mesajını anlamaq çətin deyil. Ali komissar mesajında belə deyirdi: "Frankın qiymətdən düşməsi türk dairələrini əleyhimizə qaldırır... Əvvəllər İstanbulda mübadilə əməliyyatı franka görə sabitlənirdi... (indi) Türkiyə hökuməti xarici borca ehtiyacı olduğu zaman sterlinq almağı marağına daha uyğun görür" (MAE, no.178: s.153).

**Lozanna danışıqlarının II mərhələsi.**

Lozannada danışıqların ikinci mərhələsi aprelin 23-də başladı və müqavilə 3 ay sonra 24 iyul 1923-cü ildə imzalandı.

Lozanna müqaviləsindəki siyasi müddəalarla Türkiyənin sərhədləri müəyyənləşdi. Türkiyə-Yunanıstan sərhəddi Türkiyənin istəyinə uyğun olaraq müəyyən olundu. Türkiyə-İraq sərhəddinin isə müqavilənin qüvvəyə minməsindən etibarən 9 aylıq bir müddət ərzində Türkiyə ilə İngiltərə arasında qarşılıqlı anlaşma ilə müəyyənləşməsi qərarlaşdırıldı (Ada, 2013: s.62). Nəzərdə tutulan müddət ərzində məsələ həll olunmasa, tərəflər yaranan mübahisə ilə bağlı Millətlər Cəmiyyətinə müraciət edəcəkdilər. **Sərhəd xətti məsələsində son qərar verilənə qədər türk və ingilis hökumətləri sərhəd dəyişikliyinə səbəb olacaq hərbi və digər müdaxilələrə yol verməməyi öz üzərlərinə götürürdülər.** Lozanna müqaviləsində Türkiyənin istəyinə uyğun olaraq "kapitulyasiyaların hər cəhətdən ləğv edilməsi" ilə bağlı maddə də mövcud idi (Ada, 2013: s.62). Osmanlı borclarının ödənilməsi üçün nəzərdə tutulmuş vaxt uzadıldı. Həmçinin müqaviləyə əsasən boğazlar, məskunlaşma və məhkəmə hakimiyyəti ilə bağlı saziş və ticarət sazişi imzalandı.

Lozanna müqaviləsinin türk-fransız münasibətləri baxımından ən önəmli nəticəsi o oldu ki, Osmanlı dövründə kapitulyasiyalar və Dövlət Borc İdarəsindəki fransız payına uyğun olaraq Fransanın üstünlüyünə söykənən münasibətlər indi artıq "bərabərlik əsasında quruldu" (Ahmedov, 1984: s.652). Məsələyə aydınlıq gətirmək məqsədilə qeyd edim ki, yuxarıda adı çəkilən qurumun idarə olunmasında 2 türk, 1 ingilis, 1 fransız, 1 alman, 1 avstriyalı və 1 italyan olmaqla 6 müxtəlif ölkədən cəmi 7 nümayəndə iştirak edirdi. Dövlətin ən vacib gəlir mənbələri xarici borclar müqabilində bu idarənin rəhbərliyinə verilmişdi. Bir müddət sonra Osmanlı gəlirlərinin təxminən üçdə biri bu idarə tərəfindən mənimsənilməyə başlandı. Belə ki, 1912-ci ildə Maliyyə Nazirliyində 5500 məmur işlədiyi halda, Dövlət Borc İdarəsində 9 min məmur var idi (Ulusal, 2019). Osmanlı İmperiyasını yarımmüstəmləkə vəziyyətinə salan bu qurum Lozanna müqaviləsi ilə vergi gəlirlərinə nəzarət etməkdən məhrum edildi.

Müqavilənin 3-cü maddəsində 20 oktyabr 1921-ci il Franklin-Buyon sazişinin İskəndərun sancağı ilə əlaqəli maddəsinin etibarlılığının qorunmasının bildirilməsi Hatay məsələsi baxımından Lozannanın ən önəmli nəticəsi oldu. Beləcə sancağın xüsusi inzibati statusundan əlavə, ərazidə yaşayan türk əhalisinin mədəni haqları ilə Türkiyəyə verilən haqq və imtiyazlar təsdiq olunurdu (Ada, 2013: s.63).

## NƏTİCƏ.

Fransanın Birinci dünya müharibəsinin sonunda zəifləməsi kapitulyasiyalar məsələsində Türkiyə qarşısında üstünlüyünü itirdi.

Lozanna sülh müqaviləsi ilə Mustafa Kamal paşanın xarici siyasət prinsipləri, tamamilə olmasa da, böyük miqyasda həyata keçirildi. Boğazlarla Trakya sərhəddində ərazilərin silahdan təmizlənməsi və İstanbuldakı ordu sayının məhdudlaşdırılması istisna olmaqla, Türkiyə ərazi və hərbi problemləri cəhətdən müstəqilliyini əldə etdi (Berber, 2006: s.626).

Lozanna sülh müqaviləsinin Birinci dünya müharibəsinin sonunda imzalanan və etibarlılığını itirməyən yeganə müqavilə olması onu daha da əhəmiyyətli edirdi. Konfransa Osmanlı imperiyası və Türkiyə Böyük Millət Məclisi ayrı-ayrı dəvət edilmişdilər. Qərb dövlətləri Türkiyə hökumətini Osmanlı imperiyasının varisi hesab etsələr də, Türkiyə Böyük Millət Məclisinin səyləri və konfrans zamanı Türkiyə hökumətinin müstəqil fəaliyyəti Türkiyə Böyük Millət Məclisinin tanınması ilə nəticələndi.

Beləliklə, Türkiyə Respublikası Osmanlı Dövləti statusundan ayrı və müstəqil bir dövlət olaraq qalib dövlətlər arasında etibar qazandı və onlarla bərabər statusda müzakirədə iştirak etmə şansı əldə etdi. Lozanna müqaviləsi Ankaradakı yeni rejimin ilk önəmli beynəlxalq uğuru oldu.

Fransız ictimaiyyəti Lozannadakı nəticəni qənaətbəxş hesab etmədi. Həm aparıcı mətbuat qurumları, həm də parlament konfransdan fransızların və ingilislərin əldə etdiklərini qarşılaşdırdıqda "məyus olurdular". Həqiqətən də Fransa bir tərəfdən Kilikiyada və sancaq ərazisində yerli qüvvələrlə mübarizə aparmaq məcburiyyətində qalmış, digər tərəfdən ticarət və maliyyə maraqlarına uyğun olaraq ta 1919-cu ildən Jorj-Pikonun Sivasa getməsindən başlayaraq 1922-ci il "Çanaqqala böhranı" və Mudanyaya qədər - müxtəlif eniş-yoxuşlarla da olsa - Ankara ilə fikir ayrılığına dinc yollarla həll yolu tapmağa səy göstərmişdi. Çünki fransız hökuməti və Türkiyəyə investisiya yatıran fransız sərmayə dairələri maraqlarını və mənfəətlərini yalnız sülh şəraitində qoruyub inkişaf etdirə biləcəklərini düşünürdülər. Məlumat üçün qeyd edim ki, "Çanaqqala böhranı" 9 sentyabr 1922-ci ildə türk qoşunlarının İzmirə girməsindən və ingilis-fransız nəzarətində olan Boğazlar neytral bölgəsinə irəliləməsindən sonra ortaya çıxan siyasi və hərbi böhrandır.

Birinci dünya müharibəsində verilən itkilər və maddi sıxıntı fransız iqtisadiyyatı və cəmiyyətində dərin izlər buraxmışdı. Müharibədən sonra Kilikiyadakı qarşıdurma ilə eyni vaxtda Suriyada müqavimət hərəkatlarının davam etməsi, o cümlədən həll olunması qeyri-mümkün görünən Almaniyanın müharibə borcları məsələsi bu mənzərəni daha da dözülməz etmişdi. Bununla belə, Almaniyanın təzminatı ödəyə bilməməsi azmış kimi 1923-cü ilin əvvəllərində Fransa Rur ərazisini işğal edərkən müttəfiqlərinin sərt reaksiyası ilə də qarşılaşmışdı.

Lozannadan sonrakı dövrdə Türkiyə narahatlıq içində idi və Lozanna müqaviləsinin Fransa tərəfindən dəstəklənərək rəsmən qüvvəyə minməsini və səfirlik səviyyəsində təmsilçiliyin başlanmasını səbirsizliklə gözləyirdi. Fransa isə kapitulyasiyaların ləğv edildiyi bir mühitdə əvvəlki imtiyaz və maraqlarını qorumaqla bərabər Türkiyə-Suriya sərhəddinin qəti şəkildə müəyyənləşdirilməsinə səbirsizlənirdi. General Pellenin 1923-cü ilin dekabrında baş

nazir Puankareyə yazdığı "şəxsi" qeyddə qarşılıqlı mövqelər belə şərh olunurdu: "Türk hökuməti..., fransız məktəblərinin statusu, borc kuponları... məsələlərində bizi razı salmadıqca müqaviləni (Lozanna) dəstəkləməyəcəyimizi və səfir göndərməyəcəyimizi bilməlidir." (MAE, no.179: s.112) Sərhəd məsələsinə gəlincə, fransız rəsmiləri Ankaranın İngiltərə ilə arasındakı Mosul problemini həll etmədən sərhədi qətiləşdirmək fikrində deyildilər (MAE, no.179: s.176).

istifadənin təşkili, resursların itkisinin azaldılması, hasilat, istehsal, saxlanılma, nəql və emal proseslərinə çəkilən xərclərin optimallaşdırılması, neft-qaz müəssisələri və neft-qaz emalı müəssisələri şəbəkəsinə müxtəlif xidmətlərin-marketinq xidmətinin təşkili, satış-təchizat, insan resurslarının idarə edilməsi, layihələndirmə və texnoloji işləmələrin istehsalat tətbiqinə kimi olan tsiklinin reallaşdırılması və s. üzrə servis xidmətlərin göstərilməsi şəbəkəsi də inkişaf edir və təkmilləşir. Eyni zamanda, bu proseslər nəticəsində hasilatla məşğul olan kompaniyalarla servis kompaniyalar arasında bir çox sahələrdə qarşılıqlı, effektiv fəaliyyətin təşkili ilə bağlı mexanizmlər təkmilləşdirilir və bunun nəticəsində resurslardan səmərəli istifadənin müxtəlif modellərinin işlənib hazırlanması, o cümlədən emal proseslərinin təşkilinin effektivyinin daha ciddi arqumentlərlə əsaslandırılması mümkün olur. Bundan əlavə, neft və qaz müəssisələrinin xidmət kompaniyaları ilə qarşılıqlı əlaqələrinin effektiv həlqəsində neft-qaz emalı kompleksinin daha səmərəli təşkili mühüm və strateji fəaliyyət sahəsi kimi xarakterizə olunur. Bu amillərə diqqət yetirməyimizin əsas səbəbi ölkəmizdə neft-qaz resurslarından daha effektiv istifadənin təşkili ilə bağlı dünyanın müxtəlif məsləhət-servis kompaniyaları ilə əməkdaşlığına önəmin artırılmasının zəruriliyidir. Belə ki, neft-qaz resurslarının hasilatı və emalı proseslərinin balanslaşdırılması bununla bağlı dövlət siyasəti mexanizmlərinin təkmilləşdirilməsi, yenilənməsi, emal kompleksinin təşkili üzrə mümkün yeni iqtisadi vasitələrin tətbiqini sürətləndirməyə imkan verən dövlət proqramlarının və strateji tədbirlərin hazırlanaraq reallaşdırılması, neft-qaz resurslarının daha dərin emalına imkan verən komplekslərin yaradılması, modern və məhsuldar texnoloji qurğular hesabına keyfiyyətli və geniş çeşiddə hazır məhsulların alınması hesabına bütövlükdə neft-qaz sənayesinin rentabelliyinin yüksəldilməsi, bu sənaye sahəsinin xammal resursları ilə bərabər, hazır məhsullardan ibarət ixrac potensialının gücləndirilməsi və s. istiqamətlər üzrə səmərəli işin təşkili bütövlükdə milli iqtisadiyyatın inkişafına güclü təsir göstərə bilər və onun davamlı inkişafının təminatında əsaslı rol oynayardı. Qeyd edək ki, hazırda ölkəmizdə neft və qaz hasilatı ilə məşğul olan əsas dövlət strukturu-Dövlət Neft Şirkəti Türkiyədə neft-emalı və neft-kimya müəssisələri şəbəkəsinin yaradılması və inkişafı istiqamətində geniş həcmdə sərmayələr yatırır, işlər görür. SOCAR tərəfindən 2008-ci ildən başlayaraq, “Petkin” neft-kimya holdinqinin özəlləşdirilməsi prosesində fəal iştirak etməsi və bu istiqamətdə iri investisiya layihələrinin reallaşdırılmasına başlanılması diqqət çəkir. “SOCAR Turkey Enerji” şirkətinin əsas hədəflərindən biri Türkiyənin neft-kimya sahəsinə dərin inteqrasiya etmək və ən böyük investor kimi bu sahədə yüksək nəticələrə nail olmaqdır. 2016-cı ilin sonunda SOCAR tərəfindən Türkiyənin İzmir şəhərində yeni iri neft emalı zavodu istismara verildi. Zavod fəaliyyətə başladıqdan sonra təxminən 1000 nəfər daimi işlə təmin edilmişdir. Həmin zavodda il ərzində 1660 min ton nafta istehsal olunacaq və bu xammal neft-kimya kompleksi üçün əsas xammalardan hesab olunur. Müqayisə üçün bildirək ki, Azərbaycanda neft emalından alınan naftanın ümumi həcmi orta illik 500 min ton həcmindədir və bunun təxminən yarısı neft emalı müəssisələrində, yarısı isə neft-kimya kompleksində, konkret olaraq Sumqayıtda fəaliyyət göstərən “EP-300” qurğusunda emal olunur. Göründüyü kimi, ölkəmizdə neft emalı və neft-kimya istehsalı sahələrinin genişləndirilməsi, bu sahənin məhsuldar gücə malik qurğular hesabına kompleks inkişaf etdirilməsi ölkəmizdə emal sənayesinin inkişafına güclü təkan verə bilərdi. Qeyd edək ki, Azərbaycanda müasir neftkimya kompleksinin tikintisinə niyyətin olduğunu və hazırlıqların getdiyini əvvəldə bildirmişdik, amma son illərdə istismardan çıxarılan çoxlu sayda kimya və neftkimya qurğularının əvəzinə yeni istehsal güclərinin istismara verilməsini hələlik gözləmək lazım gəlir. Digər tərəfdən neftqazkimya istiqamətləri

üzrə emal şəbəkəsinin müasirləşdirilməsinin və yüksək texnologiyalar əsaslı yeni istehsal sahələrinin tikintisinin gecikdirilməsi bu sahənin elmi-texniki və insan potensialı resurslarına da mənfi təsir göstərməkdədir. Çoxlu sayda neft-qaz və neft-kimya emalı ilə bağlı elmi-tədqiqat işlərinin nəticələrinin, ixtiralar və patentlərin, səmərələşdirici təkliflərin istehsal proseslərinə tətbiq edilməsi baxımından imkanlar xeyli zəifləmişdir. Bundan əlavə, neftemalı kompleksinin genişləndirilməsi tədbirlərinin zəifliyi bazar iqtisadiyyatı şəraitində ölkənin neft məhsulları bazarına öz təsirini göstərməkdədir. Hazırda Azərbaycannın neft emalı sənayesi neftin emalının dərinləşdirilməsi istiqamətində inkişaf etdirilir. Bu isə neftdən alınan məhsulların çeşidinin genişləndirilməsi və neftkimyanın inkişafı üçün geniş perspektivlər açır. Bu halda əsas məsələlərdən biri optimal emal strategiyasının işlənib hazırlanması və onun reallaşdırılması üçün kompleks tədbirlərin görülməsidir. Məlumdur ki, ölkənin neft emalı və qaz emalı güclərindən də xeyli aşağı səviyyədə istifadə olunur və bu sahədə cəmlənmiş istehsal güclərinin, həm də texnoloji səviyyəsinin yenilənməsi tədbirləri həyata keçirilməlidir. Digər tərəfdən, uzun illərdir bu emal müəssisələrinin Bakı şəhərinin mərkəzi hissəsindən köçürülməsi tədbirlərinin həyata keçirilməsi problemi üzrə diskussiyalar gedir və artıq bu müəssisələrin Bakının sənaye rayonlarından biri olan Qaradağ rayonunun ərazisinə köçürülməsi, burada kifayət qədər iri neftqazkimya kompleksinin yaradılması planlaşdırılır. Bununla belə, bu iri perspektiv layihələr reallaşdırılana qədər mövcud emal potensialından səmərəli istifadənin təşkili və məhsuldarlığı üçün daha çevik, mobil və operativ tədbirlərin görülməsi zərurəti də diqqət çəkir. Belə ki, qeyri-neft sahələrinin inkişafının sürətləndirilməsi və, xüsusilə, güclü elm və kapital tutumuna malik neft-qaz kimya emal kompleksinin imkanlarından zəif istifadə edilməsi ölkənin iqtisadi təhlükəsizliyi baxımından da yolverilməzdir. Bir qrup müstəqil tədqiqatçılar qeyd edirlər ki, 2000-ci illərin ortalarında kimya sənayesində istehsalın artımı müşahidə olunsa da son illərdə bu sahədə ciddi azalmalar var. Kimya sənayesində yuyucu vasitələrin istehsalı sahəsində tənəzzül müşahidə olunur. Bundan əlavə kimya sənayesində yaranan əlavə dəyərin ÜDM-də və ölkə ixracında payı son son illərdə xeyli aşağı düşüb, ölkənin kimya məhsullarının idxalından asılılığını aradan qaldırmaq mümkün olmayıb. Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasında bildirilir ki, ölkədə sürətlə artan neft və qaz gəlirlərindən həddən artıq asılılıq makroiqtisadi tarazlığı poza və beləliklə, ölkəni potensial qlobal və regional iqtisadi böhranların təsirinə qarşı müdafiəsiz vəziyyətə sala bilər. Bu baxımdan, neft gəlirlərinin bir hissəsinin məqsədli şəkildə neftqazkimya emal kompleksinin təşkilinə yönəldilməsi təmin edilməli və bununla bağlı tədbirlərin intensiv həyata keçirilməsi reallaşdırılmalıdır. Ümumiyyətlə, ölkədə neftqazkimya emalı tədbirlərinin genişləndirilməsi və reallaşdırılması üçün bu sahələrin xammal resurslarından istifadənin strateji istiqamətləri müəyyənləşdirilməli, ixrac və emal strategiyaları təkmilləşdirilməli, əvvəldə qeyd etdiyimiz kimi yüksək texnologiyalar əsaslı və mütərəqqi dünya standartları səviyyəsində modern texniki-texnoloji emal bazasının yaradılması təmin edilməli, yeni istehsal kompleksləri tikilməli və istismara verilməli, neft və neft məhsulları tutumlarındakı şlamların emal edilməsi üçün qurğular inşa olunmalı, qaz xammallarından səmərəli istifadə üçün hər cür şərait yaradılmalı, qazın emal dərinliyi artırılmalı və qazemalı şəbəkəsi istismara verilməli, neftkimya kompleksinin inkişafının sürətləndirilməsi təmin olunmalıdır və s.

Qeyd edək ki, Azərbaycanda neft-qaz sənayesinin emal şəbəkəsinin müasirləşdirilməsi, neft-qaz resurslarının emalı potensialından istifadənin səmərəliliyinin təmin edilməsi və hazırda neft-qaz emalı kompleksinin təşkilini şərtləndirən amillərin daha dərindən öyrənilməsi,

elmi-iqtisadi əsaslandırılması, ölkəmizdə neft-qaz sənayesinin emal şəbəkəsinin genişləndirilməsi istiqamətlərini və perspektivlərini optimal müəyyənləşdirməyi şərtləndirir.

**Ədəbiyyat**

**1.** Əliyev Ş.T. Azərbaycanın kimya və neft-kimya kompleksinin qiymətləndirilməsi və yenidənqurulması istiqamətləri. Bakı, "Elm və təhsil", 2012. – 156 s.

2. Эванс Дж., Берман Б. Маркетинг. Сокр.пер. с англ. –М.: Экономика, 1990, 350 с.

**3.** SOCAR Turkey- iki qardaş ölkənin partnyorluğu// SOCAR plus. http://www.socarplus.az.

**4.** "Azərbaycan Respublikasının yanacaq-enerji kompleksinin inkişafı (2005-2015-ci illər) üzrə Dövlət Proqramı". Azərbaycan Respublikasının Prezidentinin 14.02.2015-ci il tarixli Sərəncamı ilə təsdiq edilmişdir. Bakı şəhəri, № 635..

**5.** Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 23 may tarixli sərəncamı ilə təsdiq edilmişdir. http://www.mns.gov.az.

**6.** "Azərbaycan Respublikasının milli iqtisadiyyat və iqtisadiyyatın sektorları üzrə strateji yol xəritəsi" Azərbaycan Respublikasının Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir. Bakı 2016, 126 s

**7.**Orucov M.M. "Dünya iqtisadiyyatında baş verən dəyişiklər fonunda Azərbaycan iqtisadiyyatının mövcud vəziyyəti" OYU. Ped.xəb. №50.

# NEFT SƏNAYESİNİN EMAL SƏBƏKƏSİNİN MOVCUD HALININ VƏ BU SAHƏDƏ MARKETİNQİN MÜASİR VƏZİYYƏTİNİN TƏHLİLİ

## Анализ текущего состояния перерaботочной сети нефтяной промышленности и текущего состояния маркетинга в этой области

## Analysıs of the current status of the oıl ındustry processıng network and the current status of marketıng ın thıs fıeld

**M.M. Orucov, S.R. İbrahimova**

Odlar Yurdu Universiteti

Bakı, Koroğlu Rəhimov 13.

**e-mail:** mayil-oruc@yahoo.com

**SUMMARY**

The article focuses on the analysis of the current state of the oil industry refining network and the current state of marketing in this area in the context of the global economic crisis. The article analyzes the current state of the refining network of the oil industry. In recent years, oil product refining networks have begun to grow against the backdrop of complex processes in the global economy. The applied marketing policy in this area and ongoing measures to improve marketing in the oil sector of the Republic made it possible to adequately respond to the risks and problems of the oil market.

***Keywords:*** oil strategy, fuel and energy resources, oil and gas industry, technological innovations, innovation strategy, petrochemical clusters, industrial parks, clusters.

**РЕЗЮМЕ**

В статье основное внимание уделяется анализу текущего состояния перерaботочной сети нефтяной промышленности и текущего состояния маркетинга в этой области в условиях мирового экономического кризиса. В статье анализируется текущая состояния перерaботочной сети нефтяной промышленности . В последные годы перерaботочные сети нефтяных продуктов стали расти на фоне сложных процессов в мировой экономике. Применяемая маркетинговая политика в этой области и проводимые мероприятии по совершенствовании в маркетинга в нефтяном секторе Республики позволили адекватно реагировать на риски и проблемы нефтяного рынка.

***Ключевые слова:*** нефтяная стратегия, топливно-энергетические ресурсы, нефтегазовая промышленность, технологические инновации, инновационная стратегия, нефтехимические кластеры, индустриальные парки, кластеры.

Son illərdə Azərbaycanda milli iqtisadiyyatın inkişafının dayanıqlılığının təmin edilməsi və ölkənin rəqabətqabiliyyətliliyinin artırılması üçün sistemli və kompleks tədbirlər görülməkdədir. Ölkəmiz dünyanın iqtisadi inkişaf tendensiyaları nəzərə almaqla, özünün sabit iqtisadi inkişaf modelinin və iqtisadi inkişaf prioritetlərini formalaşdırmışdır. Bütün bunlar 1994-cü ildən başlayaraq, həyata keçirilən yeni Neft Strategiyasının reallaşdırılması nəticəsində mümkün olmuşdur. Belə ki, bu Strategiyanın həyata keçirilməsi nəticəsində ölkəmizin milli və əvəzsiz sərvətləri olan karbohidrogen ehtiyatlarının – mineral resursların, ilk növbədə, neft və qaz ehtiyatların işlənməsi, müasir texnologiyalar əsasında hasılatının təmin edilməsi və dünya bazarlarına çıxışı mümkün olmuşdur. Bunula yanaşı, ölkə iqtisadiyyatının müxtəlif sahələrinin inkişaf perspektivlərinin reallaşdırılmasına, modern elm və kapital tutumlu yüksək texnologiyar əsaslı iqtisadiyyat sahələrinin formalaşdırılmasına başlanılmışdır.

Milli iqtisadiyyatın rəqabətqabiliyyətinin artması ilə yanaşı, ölkənin maliyyə resurslarının formalaşdırılmasında yeni, məhsuldar mənbələr yaradılmış, ölkə iqtisadiyyatının diversifikasiyalaşdırılması prosesləri genişləndirilmişdir. Amma, dünyada baş vermiş maliyyə böhranının fəsadları, iqtisadi transformasiyalar, valyuta böhranları, ölkənin əsas ixrac məhsullarından olan neft xammalının dünya bazarlarında qiymətinin qeyri-sabitliyi, mineral resursların ixracı ilə bərabər, onların daha səmərəli formada emalı məsələlərini aktuallaşdırmışdır. Bu problem bütövlükdə prioritet xarakterli məsələlər sırasındadır. Belə ki, əsas mineral resurslar olan neft və qazın səmərəli emal şəbəkəsinin qurulması kifayət qədər iri məbləğdə investisiya resursları və müasir yüksək texnologiyaların ölkəyə gətirilməsini tələb edir. Heç də təsadüfi deyildir ki, 2005-ci ildən başlayaraq, ölkədə bu istiqamətlər üzrə ardıcıl tədbirlər görülməkdədir. Məsələn, “Azərbaycan Respublikasının yanacaq-enerji kompleksinin inkişafı (2005-2015-ci illər) üzrə Dövlət Proqramı”nda neft emalı sahəsində ölkənin əsas neft emalı müəssisə olan “Azneftyağ” neft emalı zavodunda Avropa standartlarının (EVRO – 2005) tələblərinə cavab verən dizel və reaktiv mühərrik yanacağının istehsalı məqsədi ilə hidrogenlə təmizləmə kompleksinin tikilməsi, neft və neft məhsulları tutumlarındakı, neft şlamlarının emal edilməsi üçün qurğunun tikilməsi, Heydər Əliyev adına Bakı Neft Emalı zavodunda neftin ilkin emalı üzrə ELOU-AVT-6 qurğusunun istilik mübadiləsi sxeminin təkmilləşdirilməsi, tullantıların zərərləşdirilməsi, məhsulların keyfiyyətinin artırılması və itkilərin azaldılması məqsədi ilə modernləşdirilməsi, propan-propilen qazlarından oksiken tərkibli yüksək oktanlı benzin komponenti diizopropil efirinin alınması qurğusunun tikilməsi, dünya standartlarının tələblərinə cavab verən yüksək oktanlı benzinlərin istehsalının məqsədi ilə butan-butilen qazlarının alkilləşdirilməsi qurğusunun tikilməsi, qaz emalı sahəsində isə qazın emal dərinliyinin artırılması məqsədi ilə soyutma sisteminin tətbiq edilməsi, quru qazın təhvili, ölçü qovşaqlarının və istehsalat sahələrində avtomatik nəzarət-ölçü sistrminin müvafiq olaraq tikilməsi və yenidən qurulması, qazın emal dərinliyini artırmaq məqsədi ilə emal gücü 2,5 mlrd. kub. m /il olan müasir tipli qaz emalı qurğusunun tikintisi, istehsalın fasiləsiz və səmərəli iş rejimini təmin etmək məqsədi ilə emal və əmtəə parkı qurğularının, suyun dövretmə və zavodun elektrik təchizatı sisteminin həyata keçirilməsi və s. tədbirlərin reallaşdırılması nəzərdə tutulmuşdur [1]. Bu tədbirlərin əksəriyyəti artıq icra edilmişdir və yaxud icra prosesindədirlər.

Qeyd edək ki, ölkədə yanacaq-enerji resurslarından istifadənin mövcud vəziyyəti üzrə təhlili, ilk növbədə, əsas yanacaq-enerji resursları olan neft hasilatının təhlilini şərtləndirir.

Cədvəl .1-in məlumatlarından göründüyü kimi 2004-ci illdə ölkəmizdə neft emalı 6300.0 min ton təşkil edərk 2008-ci ilə qədər artaraq 7347.9 min ton təşkil etmişdir. 2008-ci ildən isə neft emali azalmaga başlayaraq 2021-ci ildə 5812.8 min ton təşkil edərək 2004-cü illə müqayisədə 487,2 min ton , yaxud 7,7 faiz azalmışdır.

Statistik melumatlara diqqət yetirsək neft emalının 2004-2021-ci illər ərzində azalmasına baxmayaraq H.Əliyev adına BNEZ – da neft emalı 3183.9 m in tondan 4278,2 min tona qədər cəmi 1094,3 min ton, yaxud 34.4 faiz artmışdır. Bu muddət ərzində ölkəmizdə nüft emalının azalmasının əsas səbəbi Azər neft yağ NEZ-da neft emalının 2004-cü ildə 3114.1 min tondan 2021-ci ildə 1579.5 min tonadək azalması ilə əlaqədardir. Cədvəlin məlumatlarından göründüyü kimi Respublika üzrə neft hasilatının 2021-ci ildə 2004-cü illə müqayisədə 2,2 dəfə artmasına baxmayaraq neft emalı bu müddət ərzində 7,7 faiz azalmışdır. Neft emalı 2004-cü ildə neft hasilatının 40.4 %-ni, 2008-ci ildə 16,4%-ni, 2016-cı ildə 14,6%-ni, 2019-cu ildə 16,3%-ni, 2020-ci ildə 17,1%-ni, 2021-ci ildə isə 16,8%-ni təşkil etmişdir. Neft hasilatının ümumi həcmində neft emalının 2004-cü ildə 40.4%-dən 2021-cu ildə ki, 17.1% -ə düşməsi heft resurslarından qeyri səmərəli istifadə edildiyini göstərir. Belə ki, neft emalı şəbəkəsi müəssisələrinin istehsal güclərinin artırılması və yeni emal müəssisələrinin tikilməsi nəticəsində neft emalı məhsullarının artırılması nəticəsində ölkəmiz daha cox qazanc əldə edə bilərdi. Ölkədə neft-qaz sənayesinin emal şəbəkəsinin obyektiv təhlilini vermək üçün, ilk növbədə, ümumi olaraq, emal sənayesinin göstəricilərinin təhlili daha məqsədəuyğun olardı. Belə ki, neft strategiyasının reallaşdırılması, neft-qaz yataqlarının mənimsənilməsi və hasilatın həcminin artırılması, emal proseslərinin təkmilləşdirilməsi sayəsində 2010-2021-ci illər ərzində emal sənayesinin ölkə üzrə sənayenin ümumi həcmində xüsusi çəkisinin az da olsa, artımına nail olmuşdur. Məsələn, əgər 2010-cu ildə bu göstərici üzrə emal sənayesi 20,5 % xüsusi çəkiyə malik idisə, 2015-ci ildə bu rəqəm 29.9 %, 2019-cu ildə 25,1% təşkil etmiş və 2021-ci ildə isə 28.8% olmuşdur.

Cədvəl 1.

Azərbaycan Respublikasında 2004-2021- cu illər ərzində

neft emalının (min ton) vəziyyəti

| | İllər | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | 2004 | 2008 | 2012 | 2016 | 2019 | 2020 | 2021 |
| Neft hasilatı (mln. ton) | 15.6 | 44.5 | 43.4 | 41.1 | 37.5 | 34,5 | 34,6 |
| Neft emalı cəmi | 6300.0 | 7347.9 | 6172.5 | 6009.4 | 6189.7 | 5874,9 | 5812,8 |
| O cümlədən H.Əliyev adına BNEZ | 3183.9 | 4780.1 | 4002.5 | 4233.2 | 4554.5 | 4323,9 | 4278,2 |
| Azər neft yağ NEZ | 3114.1 | 2567.9 | 2170.0 | 1776.2 | 1735.2 | 1551,0 | 1534,6 |

Mənbə: Azərbaycan Respublikasının statistik göstəriciləri

Ümumi olaraq, ölkə sənayesində məhsul istehsalının həcminin 2015-2022-cü illərdəki vəziyyəti barədə məlumatlar Cədvəl 2.-də verilmişdir. Cədvəl 2-nin təhlilinə baxsaq, ilk

növbədə, 2015-2021-ci illərdə emal sənayesinin ümumi sənaye məhsul istehsalında payının 29,9 %-dən 28,8 %-ə qədər düşdüyü diqqət çəkir, o cümlədən, 2021-ci ildə neft məhsullarının istehsalının emal sənayesində payı 2015-ci ildə ki, 9,4 %-dən 6,8 %-dək düşmüş, lakin, kimya sənayesinin payı isə 1,3 %-dən 3,1 %-dək artmışdır. Amma bunlara baxmayaraq, göründüyü kimi, neft emalı sahəsini artım tempi mövcud potensiala adekvat deyildir və bu proseslərin inkişafının sürətləndirilməsi vacib zərurət olaraq qalmaqdadır.

Cədvəl 2.

Azərbaycan Respublikasında sənaye məhsulunun (işlərin, xidmətlərin) həcmi

(carı qiymətlərlə)

| | 2015 | | 2018 | | 2019 | | 2021 | |
|---|---|---|---|---|---|---|---|---|
| | mln. man | %-lə | mln. man | %-lə | mln. man | %-lə | Mln .man | %-lə |
| Bütün sənaye | 26369 ,4 | 100. 0 | 47677 ,0 | 100. 0 | 46999 ,2 | 100. 0 | 55229 ,1 | 100. 0 |
| o cümlədən: mədənçıxarma sənayesi | 16375 ,4 | 62.1 | 34947 ,2 | 73.3 | 32903 ,5 | 69.9 | 36230 ,3 | 65,6 |
| Emal sənayesi | 7884, 4 | 29.9 | 10441 ,3 | 21.9 | 11796 ,8 | 25.1 | 15906 ,0 | 28,8 |
| ondan: neft məhsullarının istehsalı | 741.1 | 9.4 | 616.0 | 5.9 | 731.4 | 6.2 | 1081, 6 | 6,8 |
| kimya sənayesi | 102,5 | 1.3 | 114,8 | 1.1 | 611,0 | 1.3 | 493,1 | 3,1 |
| rezin və plastmass məmulatların istehsalı | 47,3 | 0.6 | 73,1 | 0.7 | 94,4 | 0.8 | 111,3 | 0,7 |

Mənbə: Azərbaycan Respublikasının statistik göstəriciləri

Ölkə üzrə mədənçıxarma və emal sənayesinin fəaliyyətinin təhlili ilə bağlı əsas göstəricilər Cədvəl 3.-də öz əksini tapmışdır. Cədvəl 3.-ü təhlil etsək, görərik ki, mədənçıxarma sənayesində 2013-2021-ci illər ərzində əsas istehsal fondlarının dəyəri 1,5 dəfə artdığı halda, emal sənayesində bu göstərici 1,3 dəfə təşkil etmişdir. Bununla belə, əvvəldə bildirdiyimiz kimi, ölkədə qaz kondensatı da daxil olmaqla, neft hasılatı 2013-cu ildə 43,5 mln. ton təşkil etdiyi halda, 2021-ci ildə cəmisi 34.6 mln. ton olmuşdur.

Bu müddət ərzində əsas neft emalı məhsullarından olan avtomobil benzinləri istehsalının

həcmi 2013-cü ildə 1407.1 min ton olduğu halda 2021-ci ildə 245.7 min ton azalaraq 1161.4 min ton təşkil etmişdir, o cümlədən dizel yanacağı istehsalı üzrədə azalma müşahidə olunmuşdur. Belə ki, 2013-cü ildə 2307,5 min ton dizel yanacağı istehsal olunmuşdursa, 2021-ci ildə 227.3min ton azalaraq 2080,2 min ton. təşkil etmişdir. Bu dövr ərzində əsas neft-kimya məhsulu olan sürtkü yağları, soba mazutu, neft bitiumu, neft koksu, mühərrik yanacağı istehsalında da azalma diqqəti cəlb edir.

Cədvəl 3.-i təhlil etsək, görərik ki, neft və təbii qaz hasilatının az bir hissəsi digər enerji məhsullarının istehsalının, yəni emalının genişləndirilməsinə yönəldilir və s.

Qeyd edək ki, ölkəmizdə neft və qaz resurslarının emalı proseslərinin əksəriyyəti Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) tabeliyində olan müəssisələrdə və onların emal qurğularında həyata keçirilir.

Əvvəldə qeyd etdiyimiz kimi, ölkədə neft-qaz emali və neft-kimya məhsullarının alınması sahəsində əsas fəaliyyətlə məşğul olan istehsal müəssisələri və təsərrüfat subyektləri ARDNŞ-nin tabeliyindədirlər. Şirkətin neft emalı zavodlarında 2013-cü ildə 6533,0 min ton xam neft emal olunmuş və 2021-ci ildə isə neft emalı 343.3 min ton azalaraq 6189.7 min ton təşkil etmişdir. Bu azalma nəticəsində 2021-ci ildə 106,3 min ton avtomobil benzini, 112,1 min ton reaktiv mühərrik yanacağı, 227,3 min ton dizel yanacağı, , 52,6 min ton bitum və s. məhsullar az istehsal edilmişdir. Ümumilikdə, 2021-ci ildə neft emalının dərinliyi 93,6 % təşkil etmişdir.

Cədvəl .3-ə nəzər salanda, görərik ki, 2013-2021-ci illər ərzində neftin emal dərinliyi dəyişkən olmuş və 2021-ci ilin yekununda 93,6 % təşkil etmişdir. Bu göstərici 2013-cu ildə ki, 92.1% müqayisədə artmışdır.

Cədvəl 3

Azərbaycan respublikasında mədənçıxarma və emal sənayesinin işinin əsas göstəriciləri

| | 2013-cü il | 2017-ci il | 2018-ci il | 2021-ci il |
|---|---|---|---|---|
| **I Mədənçıxarma sənayesi** | | | | |
| Məhsulun həcmi (qüvvədə olan faktiki qiymətlərlə), mln. manat | 24655.0 | 27712.5 | 34627.5 | 35735.0 |
| Əsas istehsal fondları, mln. manat | 38527,4 | | | 57791,1 |
| **Natura ifadəsində istehsal** | | | | |
| Neft hasilatı (qaz kondensatı da daxil olmaqla), mln. ton | 43.5 | 38.7 | 38.8 | 34.6 |
| o cümlədən əmtəəlik | 43.2 | 38.6 | 38.7 | 37.5 |
| təbii qaz hasilatı, mlrd. kub. m. | 29.2 | 28.6 | 30.5 | 43.9 |
| o cümlədən əmtəəlik | 17.9 | 18.2 | 19.2 | 32.6 |
| **II. Emal sənayesi** | | | | |
| Məhsulun həcmi (qüvvədə olan faktiki qiymətlərlə), mln. manat | 7243.8 | 9723.5 | 10465.4 | 11793.8 |
| Əsas istehsal fondları, mln. manat | 5976,6 | | | 7769,6 |
| Neft emalı-cəmi | 6533.0 | 5810.0 | 6095.75 | 6189.72 |
| Benzinlər-cəmi | 1514.5 | 1383.6 | 1390.21 | 1408.17 |
| Avtomobil benzinləri | 1407.1 | 1215.2 | 1185.64 | 1161.38 |
| Onlardan A-95 | 160.9 | - | - | - |
| A-92 | 1234.9 | - | - | - |
| A-80 | 11.3 | - | - | - |
| kimya üçün benzin fraksiyası | 107.4 | 168.4 | 204.63 | 249.79 |
| Reaktiv mühərrik yanacağı | 703.2 | 588.0 | 617.04 | 591.13 |
| Dizel yanacağı | 2307.5 | 1849.2 | 1921.78 | 2080.20 |
| Açıq rəngli məhsullar | 4525.2 | 3820.17 | 3920.09 | 4079.50 |
| Təmizlənmiş quru qaz | 244.0 | 200.6 | 204.02 | 197.92 |
| Təmizlənmiş quru qaz | 52.5 | 60.1 | 53.60 | 54.27 |
| Mühərrik yanacağı DT | 187.9 | 46.5 | 34.11 | 32.55 |
| Sürtgü yağları | 46.6 | 35.0 | 50.93 | 22.91 |
| Soba mazutu | 268.0 | 236.1 | 106.57 | 126.46 |

| | | | | |
|---|---|---|---|---|
| Neft bitumu | 312.7 | 237.1 | 289.67 | 260.09 |
| Neft koksu | 223.0 | 226.9 | 243.9 | 238.44 |
| Emal dərinliyi, % | 92.1 | 91.9 | 94.05 | 93.60 |

Mənbə: Azərbaycan Respublikasının statistik göstəriciləri

Beləliklə, Azərbaycanda neft-qaz sənayesinin emal səviyyəsinin artırılması və bu sahənin fəaliyyətinin ölkəmizdəki neft-qaz resurslarının ehtiyatları və hasılatın adekvatlığı baxımından təşkilinin intensivləşdirilməsi, bu sahəyə xarici və daxili investisiyaların həcminin yüksəldilməsi, müasir texnologiyalar əsaslı emal istehsalı sahələrinin yaradılması üçün bir sıra kompleks tədbirlərin və strateji vəzifələrin həyata keçirilməsi məqsədəuyğun sayıla bilər:

- neft-qaz sənayesinin emal səviyyəsinin müasir vəziyyəti ölkənin iqtisadi inkişaf modelinin

prioritet istiqamətlərinə müvafiq olaraq, obyektiv qiymətləndirilməsi zərurət olaraq qalır;

- neft-qaz sənayesinin emal qurğularının modernləşdirilməsi, yüksək texnologiyalar əsaslı istehsal

qurğularının istismara verilməsi prosesləri intensivləşdirilməlidir;

- neft-qaz xammal resurslarından səmərəli istifadənin təmin edilməsi məqsədi ilə hasilat sektoru

ilə bərabər, bu sahəyə də xarici investisiyaların, o cümlədən daxili investisiyaların da cəlbinin

sürətləndirilməsi üçün stimullaşdırıcı kompleks tədbirlərin işlənib hazırlanması və bununla bağlı

praktiki mexanizmlərin reallaşdırılması vacib şərtlər kimi diqqət çəkir;

- neft-qaz xammalı resurslarının əlverişli emal sahələrindən olan neft-kimya sahəsinin başlanılmış

modernləşdirmə proseslərinin intensivliyinin artırılması və bu sahənin mövcud texnoloji

qurğularının xammal təhcizatının sabit təmin olunması məsələləri kompleks baxılmalı və nəzərə

alınmalıdır;

- neft-qaz xammalı üzrə emal sahələrinin genişləndirilməsində özəl sahibkarlığın və biznes

subyektlərinin iştirakının təşkili və stimullaşdırılması mexanizmləri, o cümlədən, konkret

fəaliyyət istiqamətləri müəyyənləşdirilməli, qanunvericilik bazası təkmilləşdirilməli, bu sahədə

müasir və rəqabətqabiliyyətli emal müəssisələrin yaradılmasına baxılmalıdır və s.

Azərbaycanda neft-qaz sənayesinin emal şəbəkəsinin müasir vəziyyətinin obyektiv təhlilinin aparılması və mövcud emal potensialından istifadənin qiymətləndirilməsi bu sahədə innovasiyalardan istifadə edilməsinin vacibliyini qeyd edir.

İnnovasiyaların mahiyyəti və klasterdə fəaliyyət göstərən müəssisələrdə innovasiyaların tətbiqi məsələlərinə əsasən ölkədə innovasiyalı inkişafın idarə olunması, yerli, eləcə də xarici investorların fəaliyyəti məqsədilə əlverişli mühitin yaradılması, müasir texnika və texnologiyanın cəlbi, idarəetmə sahəsinin təkmilləşdirilməsi, burada xarici təcrübənin tətbiq edilməsi ölkəmizin inkişaf strategiyasının əsas istiqamətlərindəndir. Beləliklə ölkəmizin inkişaf strategiyasının məqsədinin əsasını innovasiyalı inkişafın təkmilləşdirilməsi, dünyaya inteqrasiya olunması və ölkədəki mövcud inkişaf davamlılığının təmin olunmasıdır.

İnnovasiyaların mahiyyəti insanın bu və ya digər sahədə fəaliyyətinin səmərəliliyini artırmaq üçün elmi-texniki nailiyyətlərdən istifadə edilməsindən ibarətdir. İnnovasiyaların növləri aşağıdakılardır:

- Texnoloji innovasiyalar yeni və ya təkmilləşdirilmiş texnika və ya texnologiyanı nəzərdə tutur.

- İstehsal innovasiyaları yeni və ya daha təkmil formada əmtəə hazırlanmasına yönəlmişdir.

- Təşkilati-idarəetmə innovasiyaları institusional səviyyədə yerinə yetirilir. Yəni, yeni idarəetmə

mexanizmlərini nəzərdə tutur.

-Sosial innovasiyalar isə sosial istiqamətlər üzrə yeniliklərin tətbiqini özündə əks etdirir.

-Bazis innovasiyaları iqtisadiyyatın durğunluqdan canlanmaya, sonra isə yüksəlişə doğru

hərəkətinin əsasıdır. Bazis innovasiyalarıtexnikanın (texnologiyanın) yeni nəsillərinin əsasında

duran elmi kəşflərə və iri ixtiralara əsaslanan elmi-texniki yeniliklərdir.

İnkişaf etmiş ölkələrdə innovasiya strategiyasının aşağıdakı tipləri reallaşır:

a) hücum, məqsəd - bazarda öncül yerlərin tutulması, elmi yeniliklərə çəkilən məqsəd-lərdir;

b) müdafiə, məqsəd - öncülün (liderin) bəzi yeniliklərini və dəyişikliklərini götürməklə bu öncülün

(liderin) arxasınca möhkəm durmaq, elmi yeniliklərə çəkilən xərclər liderə nisbətən aşağıdır;

c) imitasiya, məqsəd - hər iki qrup liderlərin nailiyyətlərini təkrar edərək və ölkənin və ya

müəssisənini spesifik üstünlüklərindən istifadə edərək bu liderlərin dalınca getmək; elmi

yeniliklərə çəkilən xərclər aşağıdır;

ç) asılı, məqsəd - innovator müəssisələr üçün subkontrakt işlərin yerinə yetirilməsi vasitəsilə özünü

mühafizə etmək; elmi yeniliklərə çəkilən xərclər cüzidir;

d) ənənəvi, məqsəd - konservativ texnologiyalardan istifadə etməklə, özünü mühafizə etmək; elmi

yeniliklərə çəkilən xərclər minimumdur;

e) opportunist, məqsəd - bazarda sərbəst (boş) dəliklərin doldurulmasıdır; elmi yeniliklərə çəkilən

xərclər taktiki mülahizələrlə müəyyən olunur.

İnnovasiya prosesi müxtəlif sahələrdə ixtiraların praktiki olaraq təkmilləşdirilməsi və işlənməsidir. Bu elmi biliklərin innovasiyaya çevrilməsidir, bunu ideyadan konkret məhsula, texnologiya və ya xidmətə qədər baş verən və təcrübi istifadə ilə yayılan ardıcıl hadisələr zənciri kimi də təsəvvür etmək olar. İnnovasiya prosesi məhsulun fəaliyyət sahəsinə tətbiqi ilə bitmir, tətbiqdən sonra da inkişaf etməkdə və təkmilləşməkdə davam edir. İnnovasiya prosesi tətbiq sahəsi ilə sıx qarşılıqlı əlaqəyə istiqamətlənib; onun təmayülü, sürəti və məqsədləri fəaliyyət göstərdiyi və yaradıldığı sosial-iqtisadi mühitdən asılıdır.

İnnovasiya strategiyası– uzunmüddətli proqnozlaşdırmaya, daxili və xarici amillərin müqayisəsinə, resurs məhdudiyyətlərinin uçotuna əsaslanan səmərəli texniki və texnoloji inkişaf yollarının seçilməsidir. İnnovasiya strategiyasının formalaşması və reallaşması həm bütövlükdə, milli iqtisadiyyatın, həm də onun ayrı-ayrı sahələrinin inkişafının zəruri şərtidir.

İnnovasiyaların planlaşdırılması innovasiya menecmentinin müəyyən edilmiş məqsədlərinə, resurslarla təmin edilmə imkanlarına və bazarlarda mövcud tələbə uyğun olaraq innovasiya fəaliyyətinin əsas istiqamətlərini və proporsiyalarını işləyib hazırlamaqdan ibarətdir. İnnovasiyaların planlaşdırılması gedişində aşağıdakı problemlər həll edilir:

1) innovasiyalı müəssisənin məqsədləri detallaşdırılır və onlar ayrı-ayrı struktur bölmələrinin və

icraçıların nəzərinə çatdırılır;

2) həyata keçirilən layihələrin siyahısı formalaşır;

3) zəruri resursların tərkibi və mənbələri müəyyən edilir;

4) ayrı-ayrı işlərin və layihələrin həyata keçirilməsi növbəliliyi və müddətləri razılaşdırılır [2, s,10-15].

Dövlətin inkişaf strategiyasını şərtləndirən amillərdən biri də dövlətin innovasiyaların tətbiqi və idarə edilməsi istiqamətində dövlət tənzimlənməsi tədbirlərinin həyata keçirilməsidir. Dövlətin innovasiya siyasətinin əsas məqsədivə vəzifələrimilli iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin yüksəldilməsi və innovasiyanın inkişafı üçün əlverişli sosial-iqtisadi, təşkilatı və hüquqi şəraitin yaradılması, həmçinin bu sahəyə sərmayə qoyulması üçün əlverişli şəraitin yaradılması,innovasiya infrastrukturunun yaradılması və inkişafına kömək, innovasiya fəaliyyətinin sahəsində əməkdaşlığın inkişafı, texnoloji inkişafın proqnozlaşdırılması, innovasiya fəaliyyətinin sahəsində kadrların hazırlığının, təkmilləşdirmənin təşkili və ixtisaslarının artırılması və.s. ibarətdir.

Dövlət innovasiya siyasətinin əsas prinsipləriisəaşağıdakılardır:

- elmi-texniki yaradıcılığın azadlığı;

- əqli mülkiyyətin mühafizəsi;

- sosial-iqtisadi inkişaf prioritetlərinin əldə olunması, onların innovasiya fəaliyyətinə yönəldilməsi;

- milli innovasiya fəaliyyəti komponentlərinin səmərəli qarşılıqlı əlaqələrinin təmin edilməsi;

- innovasiya fəaliyyətinin inkişafının bazar mexanizmlərindən istifadə etməklə dövlət tənzimlənməsi üsulları və formalarının optimal birləşməsi;

- innovasiya fəaliyyətinin stimullaşdırılması;

- innovasiya infrastrukturu və innovasiya fəaliyyəti subyektlərinə dövlət dəstəyinin iqtisadi səmərəliliyi və nəticəviliyi;

- innovasiya layihələrinin müsabiqə əsasında reallaşdırılması üçün büdcə vəsaitlərinin ayrılması.

İnnovasiya fəaliyyətinin dövlət tənzimlənmə formaları aşağıdakı istiqamətlər üzrə həyata keçirilir:

- innovasiya fəaliyyəti sahəsində normativ hüquqi aktların qəbulu;

- innovasiya inkişaf proqramlarının hazırlanması və həyata keçirilməsi;

- texniki normalaşdırma və standartlaşdırmanın həyata keçirilməsi;

- texnoloji inkişafın proqnozlaşdırılmasının təşkili.

Müasir innovasiya yönümlü iqtisadiyyata keçidlə əlaqədar yerli innovasiya şirkətlərinin yaradılması texnoloji sıçrayışa, iqtisadiyyatın yüksək texnoloji sahələrinə investisiyanın cəlb edilməsinə və sənayenin ümumi artımına kömək edir. Çünki innovasiya infrastrukturlu müəssisələr Azərbaycanın neft məhsullarının xarici bazara çıxmasına dəstək verə bilər.

Aparılan araşdırmalar göstərir ki, neft emalı müəssisələrində innovasiyaların tətbiqi və idarəedilməsinin düzgün təşkil edilməsi geniş təkrar istehsalı prosesinin təmin edilməsində zəruridir.

İnnovasiya fəaliyyəti prosesində marketinq tələb və təklifi reallaşdıran idarəetmə prosesi hesab edilir. Marketinq cəmiyyət üçün səmərəli olan innovasiya məhsullarının istehsalı və istehlakını həyata keçirən anlayışdır.

Ölkədə elmi-texniki fəaliyyət sahələri indiyədək cəmiyyətin sosial-iqtisadi inkişafının əsasını təşkil etməmişdir. Respublikamızda bu fəaliyyətin əsasını birbaşa xarici investisiyaların cəlb edilməsi təşkil edir. Ölkəyə yeni texnologiya, menecment üsulları və mexanizmləri gətirilir. Xarici texnologiya və lisenziyalar almaqla şirkətlər xarici bazara çıxış imkanı qazana bilirlər. Bundan başqa, ölkəyə nəzarət olmadan texnologiyaların axın etməsi ölkə üçün təhlükəli hesab edilir. Ölkəmizin texnologiya sahəsində təhlükəsizliyin təmini baxımından texnologiyaların transfer mərkəzi yaradılması zəruridir.

Bu baxımdan digər idarəetmə mexanizmləri ilə yanaşı klasterlərin təşkili və inkişafı həmçinin innovativ idarəetməyə yol açır.

Klaster oxşar səciyyəvi xüsusiyyətlərə malik olan çoxsaylı elementlər və ya eyni bir qrupda toplaşmış parametrlər.

Regional inkişafın klaster əsaslı sənaye siyasətində biznes liderləri, dövlət, institusional strukturlar yeni rəqabət iqtisadiyyatında aktiv iştirakda imkanlar qazanırlar. Bu səmərəli rəqabət şəraiti üçün iqtisadiyyatın bütün subyektlərində qarşılılı asılılıq və kollektiv məsuliyyət yaradır. O, iqtisadi artımın, sosial rifahın yüksəldilməsi istiqamətində regional səviyyədə dövlətlə özəl sektor arasında konstruktiv qarşılıqlı təsir elementi olaraq çıxış edir.

Tədqiqatlar göstərir ki, ölkədə yeni industrial siyasətin daha səmərəliliklə formalaşması regional iqtisadi islahatların təkmilləşməsi və dərinləşdirilməsi taktikası ilə bağlı olacaqdır. Bu təməl üzərində regionlarda texnoparklar, biznes inkubatorları şəbəkəsinin geniş tətbiqi, azad iqtisadi zonaların təsisi, müasir elmtutumlu istehsal sahələrinin, sənaye komplekslərinin yaradılması iqtisadi təhlükəsizliyin növbəti qarantına çevriləcəkdir.

Reallıq belədir ki, Azərbaycan Respublikasında sənayenin yerləşməsi üzrə bir sıra əyalət şəhərlərində müvafiq ixtisaslaşmalar getmişdir. Bu gün inkişaf etdirilən regional siyasətdə klasterli yanaşma əsasında həmən şəhər və məntəqələrdə müvafıq ixtisaslaşmalar dərinləşdirilməli və davamlı stimullaşdırılmalıdır. Bunun üçün ilk növbədə regionların təbii sərvətlərinin, iqtisadi potensialının, istehsal infrastrukturunun, büdcə prosesinin, daxili investisiya imkanlığının, əmək ehtiyatlarının, regional və inteqrir bazarın vəziyyətinin müvafiq marketoloji tədqiqatlar və inventarizasiya prosesləri çevrəsində bir daha müfəssəl qiymətləndirilməsi ehtiyaclıdır.

Regionlarda sənaye klasterlərinin formalaşdırılmasına eyni zamanda zəruri qlobal rəqabətədavamlılıq keyfiyyətində baxılmalı, ondan iqtisadi ixtisaslaşmanın mühüm aləti kimi xarici rəqabətlə bağlı qloballaşma maneələrinin dəf edilməsində səmərəliliklə istifadə olunmalıdır.

Azərbaycanda regional klasterlərin formalaşdırılmasının stimullaşdırılması mahiyyətcə uzunmüddətli parametrlərdə əks olunan regional sənaye siyasətinin ilk, başlanğıc mərhələsi kimi özünü təqdim edəcəkdir. Klasterlərin inkişafının stimullaşdırılması isə imitasiya xarakteri daşımamalı, regional rəqabət üstünlükləri və ixtisaslaşmalardan maksimal istifadəni qarşıya əsas məqsəd olaraq çıxarmalıdır. Aparılan təhlili araşdırmalar göstərir ki, dövlətin regionların perspektiv mərhələdəki yeni sosial-iqtisadi inkişaf proqramının məhz sənaye prioritetli klasterli strategiya üzərində qurulması ümumi iqtisadi qalxınmanın dayanıqlığını və uzunmüddətliliyini daha dolğun sistemdə təmin edəcək və köklü struktur çevrilişləri ilə müşayiət olunacaqdır [3, s.56].

Modernləşmədə neft-kimya klasterlərinin təcrübəsi göstərir ki, neft-kimya klasterlərinin xarici ölkələrdə formalaşması və inkişafı təcrübəsi təşkilatın klaster formasının neft-kimya sənayesinin ən perspektiv inkişaf istiqamətlərindən biri olduğunu təsdiq edir.

Neft-kimya sənayesi dünya iqtisadiyyatının fəal inkişaf edən sahəsidir. O, sənaye istehsalının maşınqayırma, avia- və avtomobil sənayesi, elektrik enerjisinin istehsalı və ötürülməsi, kənd təsərrüfatı, yüngül sənaye və s. kimi sahələrinə müəyyən təsir göstərir.

Xarici və yerli mənbələrin təhlili dünya neft-kimya sənayesinin aşağıdakı inkişaf meyillərini aşkar etməyə imkan vermişdir:

1. Dünya neft bazarında qeyri-sabit vəziyyət. 2014-cü ildən başlayaraq neftin qiymətinin aşağı düşməsi təklifin çoxluğu (neft çıxarılmasının yeni texnologiyalarının tətbiqi sayəsində) və dünya iqtisadiyyatının artım sürətinin azalması nəticəsində tələbin də azalması, həmçinin enerji resurslarından daha effektiv istifadə dünya neft bazarında vəziyyətin sabitliyini pozmuşdur.

2.Asiya ölkələrində neft-kimya sənayesinin intensiv inkişafı. Asiya neft bazarlarının dayanıqlı inkişafının əsas hərəkətvericii qüvvəsi Çinin və Hindistanın inkişafı olmuşdur.

3.Xammalın alternativ mənbələrdən çıxarılması: şist neft və qaz, bituminoz qumlardan neft çıxarılması, kömür plastlarından metan çıxarılması və s. Şist neft və qaz yataqları dünyanın bir çox yerlərindən çıxarılır, o cümlədən ABŞ, Rusiya, Çin, Kanada və başqa ölkələr iri ehtiyatlara malikdirlər. Sənaye miqyasında  işlər ABŞ-da və Kanadada gedir. Bituminoz qumlardan Kanadanın Alberta əyalətində, ABŞ-da və Çində isə lömür plastlarından metan hasilatı çıxarılır.

4.Avropada, bir tərəfdən, neft-kimya sənayesinin əsas istehsal fondlarının köhnəlməsi prosesi baş verir, digər tərəfdən Avropa ölkələri yeni texnologiyaların və nou-haunun əsas istehsalçıları kimi qalmaqdadır. Eləcə də Avropa neft-kimya məhsulları bazarı əvvəlki kimi dünyanın ən iri bazarıdır.

5.Regional, milli və millətlərarası səviyyələrdə neft emalı və neft-kimya müəssisələrinin, yaxın və yardımçı sahələrin müəssisələrinin, həmçinini, maliyyə-kredit və digər təşkilatların – neft-kimya klasterlərinin formalaşması və inkişafı.

Bir sıra ölkələrdə artıq neft-kimya klasterləri formalaşmışdır ki, onlar həmin ölkələrin iqtisadiyyatının ixtisaslaşmasını müəyyən edir və beynəlxalq miqyasda rəqabətqabiliyyətliliyini yüksəltməyə imkan yaradırlar [4, s.5-7].

Bununla əlaqədar olaraq neft-kimya klasterlərinin formalaşmasının xarici ölkə təcrübəsinin tədqiqi aktual hesab edilir. Tədqiqat obyekti kimi doqquz xarici ölkə neft-kimya klasterini götürək:

- Şimali Amerikada: Texas (ABŞ), Alberta (Kanada);
- Avropada: Antverpen (Belçika), Rotterdam (Hollandiya), Reyn-Rur (Almaniya), Tarraqona (İspaniya);
- Fars körfəzi ölkələrində: Cubayl (Səudiyyə Ərəbistanı), Əbu-Dəbi (BƏƏ);
- Asiya regionunda: Curonq (Sinqapur).

İlk neft-kimya klasterləri ABŞ-da və Avropada formalaşmışdır. Hyüstonda (Texas, ABŞ) klasterin payına 1940-cı illərdə neft məhsullarının ümumi həcminin 30%-i və ölkədə istehsal olunan etilen, propilenin 50%-i düşürdü.

Texas iri istehsal güclərinin cəmləşdiyi qabaqcıl  neftçıxarma, neft emalı və neft-kimya mərkəzidir. Dünya neft məhsulları istehsalında Hyüston liderdir. Houston Ship Channel isə ABŞ-da ən iri neft-kimya kompleksidir ki, burada 125-dən artıq neft emalı və neft-kimya şirkəti yerləşir.

Cədvəl 4

| Güclü tərəflər | Zəif tərəflər |
|---|---|
| -beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşir;<br>- rəqabətqabiliyyətli xammala təmin edilib;<br>-yüksək innovasiya potensialı;<br>-yüksək ixtisaslı əmək resurslarının olması. | -enerji resurlarının yüksək qiyməti;<br>-əmək resurslarının bahalığı;<br>-ARRR meqaklasterinin və Tarraqona klasterinin fəaliyyətini və inkişafının koordinasiyasını həyata keçirən mərkəzi orqanların olmaması;<br>-nəqliyyat infrastrukturunun həddən artıq yüklənməsi. |
| İmkanlar | Təhlükələr |
| -infrastruktur obyektlərinin inkişafına və əsas fondlara investisiyaların cəlb edilməsi;<br>-Tarraqonada və Rotterdamda klasterlərin ərazisinin məhdudlaşdırılması probleminin həll edilməsi | -karbohidrogen xammal mənbələrindən uzaq olması;<br>-əsas istehsal fondlarının köhnəlməsi və aşınması;<br>-yeni istehsalların yerləşdirilməsi və mövcud istehsalların inkişafı üçün klaster ərazilərinin məhdudluğu. |

Avropa neft-kimya klasterlərinin SWOT-analizinin nəticələri

Hazırda Texasın neft emalı və neft-kimya klasteri ABŞ iqtisadiyyatının inkişafının prioritet istiqamətlərindən biri kimi seçilmiş 6 klasterdən biridir. Bu klasterin inkişafının məqsədi Texasın milli və beynəlxalq səviyyələrdə rəqabətqabiliyyətliliyinin yüksəldilməsidir. Klasterin rəhbəri Hyüston limanının rəhbərliyidir.

Şimali Amerika neft-kimya klasterlərinin mühüm üstünlüyü dünyada ən böyük karbohidrogen ehtiyatlarının olmasıdır. Son illər ABŞ-da və Kanadada ənənəvi neft və qaz yataqlarından hasilatın aşağı düşməsi meyli müşahidə olunur, lakin qeyri-ənənəvi mənbələrdən karbohidrogen xammalın çıxarılması (Kanadanın neftli qumları, ABŞ və Kanadanın şist neft və qazı) fəal inkişaf edir.

Avropada neft-kimya klasterlərinin yaranması və inkişafı İkinci dünya müharibəsindən sonrakı dövrə təsadüf edir: 1955-ci ildə Rotterdam (Hollandiya), 1960-cı illərdə Antverpen, Tarraqona və Reyn-Rur.

Antverpen və Rotterdam neft-kimya klasterləri müvafiq dəniz limanlarına inteqrasiya etmişlər. Reyn-Rur neft-kimya klasterinin fəaliyyətini və inkişafını dövlət-özəl şirkətləri: ChemSite və ChemCologne idarə edir.

Antverpen, Rotterdam və Reyn-Rur üç ölkədə fəaliyyət göstərən üç müstəqil klaster olsa da, elmi ədəbiyyatda onları birləşdirir və vahid meqaklaster (ARRR- baş hərfləri ilə) kimi nəzərdə tuturlar. Bu 3 klasterin meqaklasterdə birləşməsinin başlıca amili ümumi infrastrukturun köməyi ilə müəssisələrin texnoloji qarşılıqlı əlaqəsidir. ARRR hazırda dünyanın ən yüksək inteqrir neft-kimya klasteri hesab edilir.

İspaniyanın Tarraqona klasterinə gəldikdə isə, burada Şimal və Cənub sənaye parkları birləşərək Tarraqona limanı ilə bağlı bir klaster yaratmışlar. Şimal sənaye parkında neft emalı zavodları cəmləşmiş, Cənubda isə neft-kimya zavodları fəaliyyət göstərir. Antverpen və Rotterdamdan fərqli olaraq, Tarraqona limanı klasterin strukturuna daxil edilməmişdir. Tarraqona klasterində onun fəaliyyəti və inkişafına məsul olan idarəedici şirkət də yoxdur.

Cədvəl 5

Fars körfəzi ölkələrinin neft-kimya klasterlərinin SWOT-analizinin nəticələri

| **Güclü tərəflər** | **Zəif tərəflər** |
|---|---|
| -dünyada ən iri karbohidrogen xammalı mənbəyinə yaxın olması;<br>-neft-kimya sənayesinə dövlət dəstəyi;<br>-klasterlərin inkişafı üçün azad ticarət və sənaye zonalarının olması. | -nisbətən aşağı innovasiya potensialı, bu da zəif inkişaf etmiş innovasiyalı infrastrukturla bağlıdır;<br>-ixtisaslaşmış işçi qüvvəsinin kifayət qədər olmaması;<br>- klasterlərdə dövlət müəssisələrinin hakim mövqe tutması;<br>-kiçik və orta sahibkarlığa dəstəyin kifayət qədər olmaması. |
| **İmkanlar** | **Təhlükələr** |
| -Afrikada, Asiyada, xüsusilə də Hindistanda böyüyən iri bazarlarla ticarət əlaqələri;<br>-Asiya əmək resursları bazarına yaxınlıq;<br>-yeni texnologiyaların tətbiqi(qısamüddətli perspektivdə);<br>-innovasiya aktivliyinin yüksəldilməsi (uzunmüddətli perspektivdə). | - klasterlərin inkişafına göstərilən maliyyə dəstəyinin qeyri-sabitliyi;<br>-yüksək texnoloji neft-kimya istehsallarının zəif inkişaf etməsi. |

Mənbə: Cədvəl internet saytının məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

1980-ci illərdə neftin və qazın qiymətləri kəskin qalxan zaman Fars körfəzi ölkələri yerli neft-kimya sənayesini inkişaf etdirmək üçün özlərinin ucuz xammalından istifadə etmişlər. Nəticədə iki iri neft-kimya klasteri: Cubayl (Səudiyyə Ərəbistanı) və Əbu-Dəbi (BƏƏ) formalaşmışdır. Əbu-Dəbidə olan klasterin tərkibində 4 dövlət neft-kimya şirkəti (Takreer, Borouge, Chemaweyat, Fertil) fəaliyyət göstərir. Neft və qazın tədarükünü və emalını da dövlət

müəssisələri yerinə yetirir. Neft, qaz, neft-kimya sənayesinin inkişaf məsələləri dövlət şirkətinin Əbu-Dəbidə yerləşən ADNOS şirkətinin sərəncamındadır.

Cubayl klasterinin qabaqcıl şirkəti – Saudi Basic Industries Corp.-dir (SABIC). Aktivlərinin 70%-i dövlətə məxsusdur. SABİC Yaxın Şərqdə ən iri korporasiya sayılır.

Bu klasterlərin əsas üstünlükləri – dünyada ən iri neft və qaz ehtiyatlarına sahib olmalarıdır.

RİA Reytinq agentliyinin məlumatlarına əsasən, BƏƏ-də neft və qaz ehtiyatlarının ümumi dəyəri 1,6 mln. dollar, Səudiyyə Ərəbistanında – 1,1 mln. dollardır (dünya üzrə müvafiq olaraq 3-cü və 6-cı yerlər). Asiya regionunda ən böyük neft-kimya klasteri Corunq adasında (Sinqapur) yerləşir.

Corunq klasteri 1976-cı ildə yaradılmışdır. Klaster ayrıca olaraq süni yaradılmış Corunq adasından və Sinqapur adasının bir hissəsindən ibarətdir. 1990-cı illərdə hökumət burada klasterin inkişafına 23 mlrd. dollar vəsait qoymuşdur. Ölkədə ali təhsil müəssisələrinə bu klaster üçün işçi qüvvəsi, yüksək ixtisaslı kadrlar hazırlasın. Eyni zamanda, xarici ölkələrdən mütəxəssislər dəvət olunmuş, elmi baza yaradılmışdı.

Klasterin açılışı 2000-ci ildə baş tutmuşdur, indiyədək də istehsalın davam etdirilməsi üçün onun ərazisi genişləndirilir. Klaster plug and pay prinsipi üzrə fəaliyyət göstərir: bu klaster hazır infrastrukturu (telekommunikasiyalar, nəqliyyat, kommunal) olaniri logistika mərkəzinə çıxışı olan neft-kimya meydanıdır.

Sənaye parklarının planlarının işlənib hazırlanmasına məsul olan təşkilat Jurong Town Corporation (JTC) dövlət korporasiyasıdır, o, torpaq sahibi və infrastrukturun sahibi kimi çıxış edir, bununla belə, Sinqapirun Ticarət və sənaye nazirliyinə tabedir.

Cədvəl 6

**Curonq neft-kimya klasterinin SWOT-analizi verilmişdir**

| **Güclü tərəflər** | **Zəif tərəflər** |
|---|---|
| -plug and pay prinsipi üzrə fəaliyyət;<br>-yüksək innovasiya potensialı;<br>-fəal dövlət dəstəyi;<br>-ixtisaslaşmış əmək resursları | -biznesin aparılmasının yüksək xərcləri: icarə haqqı, əmək haqqı, enerji resursları, sənaye və içməli su təchizatı |
| **İmkanlar** | **Təhlükələr** |
| -yeni rezidentlərin cəlb edilməsi;<br>-Sinqapurun başqa sənaye sahələri tərəfindən klasterin məhsulunu almaq üçün daxili artan tələb (elektronika, plastik kütlə istehsalı, dərman sənayesi | - karbohidrogen xammalı mənbəyindən uzaq olması;<br>-yeni istehsalların yerləşdirilməsi və mövcud istehsalların inkişafı üçün klaster ərazilərinin məhdudluğu. |

Mənbə: Cədvəl internet saytının məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Bu cədvəllərdə verilən 9 neft-kimya klasterinə xarakterik olan ümumi güclü tərəfləri ayırmaq olar. Bu klasterlər əsas nəqliyyat dəhlizlərinin qovuşuğunda yerləşərək əlverişli mövqedədirlər. Klasterlərin yerləşdirilməsini müəyyən edən başlıca amillərdən aşağıdakıları göstərmək olar: karbohidrogen xammalına yaxınlıq (Cubayl, Əbu-Dəbi, Texas), logistika marşrutlarının qovuşuğunda yerləşmiş klasterlər (Rotterdam, Antverpena Corunq, Texas), məhsulların satış bazarlarına yaxınlıq (Avropa klasterləri).

Klasterlər inkişaf etmiş nəqliyyat infrastrukturu ilə: boru kəmərləri, dəmiryol, avtomobil və su nəqliyyatı ilə təmin olunmuşdur. Nəzərdən keçirdiyimiz 9 klasterdən 8-i öz ərazilərində dəniz limanlarına malikdirlər.

Neft-kimya klasterlərinə daxil olan müəssisələrin dayanıqlı inkişafı üçün onların qarışıq, yaxın sahələrlə qarşılıqlı əlaqəsi zəruridir. Bu neft-kimya klasterlərindəki müəssisələr sənayenin maşınqayırma, elektronika, elektrik enerjisinin istehsalı və ötürülməsi kimi sahələrlə möhkəm əlaqələr qurmuşdur.

Xarici ölkələrdə neft-kimya klasterlərinin formalaşması təcrübəsi sübut edir ki, onların uğurlu inkişafının vacib şərti dövlət dəstəyi və iştirakıdır. Dövlətin iştirakı və dəstəyi aşağıdakı əsas istiqamətlər üzrə həyata keçirilir:

1.Neft-kimya klasterinin formalaşması, fəaliyyəti və inkişafının idarəedilməsi. Yuxarıda nəzərdən keçirdiyimiz 9 klasterdən 6-sında klasterin fəaliyyətinə və inkişafına məsul orqan dövlət şirkətidir.

2.Klasterlərin inkişafına maliyyə dəstəyi. Bu, özünü klasterə daxil olan müəssisələrə subsidiyaların ayrılmasında göstərir. Maliyyə dəstəyinin formalarından biri müştərək dövlət-özəl layihələrin həyata keçirilməsidir. Bu layihələr klasterlərin infrastrukturlarının inkişafına yönəldilir. 6-cı cədvəldə bir sıra ölkələrin neft-kimya klasterlərində dövlət-özəl layihələrin nümunələri verilmişdir.

Klasterlərin inkişafı üçün əlverişli şəraitin yaradılması: müvafiq qanunvericilik bazasının işlənib hazırlanması, vergi güzəştlərinin verilməsi, daxili tələbin və məhsulun ixracının stimullaşdırılması və s. Belə ki, məsələn, Texasda klasterlərin dəstəklənməsinin əsas alətləri əlverişli vergi siyasəti və klasterlərə daxil olan müəssisələr üçün inzibati maneələrin aşağı salınmasıdır.

Bütövlükdə, xarici ölkələrdə neft-kimya klasterlərinin formalaşması və inkişafı təcrübəsi neft-kimya sənayesində təşkilatın klaster formasının tətbiqinin səmərəliliyini təsdiqləyir [5, s42-47].

Ərazi-sahə neft klasteri effektiv strateji idarəetmənin forması kimisənaye klasteri – alıcı-tədarükçü və tədarükçü-alıcı, və ya ümumi texnologiyalar, ümumi alıcılar və ya bölgü kanalları, və ya ümumi elmi tədqiqatlarla bir-biri ilə əlaqədə olan sahələr qrupudur.

Regional klaster – iştirakçıları bir-birinə qapalı coğrafi yaxınlıqda yerləşən sənaye klasteridir (bir və ya yaxın sahələrin firmalarının coğrafi aqlomerasiyası).

Sənaye rayonu – istehsal prosesi ilə, bir qayda olaraq bir sahədə və ya sahəvi seqmentdə əlaqədə olan firmaların konsentrasiyası. Biznes-şəbəkələrə kommunikasiyalarla və qarşılıqlı münasibətlərlə əlaqədə olan bir neçə müəssisə daxildir.

Regional klasterlə sənaye rayonu arasında fərq ondan ibarətdir ki, sənaye rayonu yeganə sahə və ya hətta sahənin bir seqmenti bazasında meydana gəlir, regional klasterlər isə əsasən bir sıra qarşılıqlı əlaqəli sahələrdən ibarətdirlər.

Seçilmiş önəmli müəssisələrin bazasında sənaye klasterləri qurmaq mümkündür – bu, son tələbatları ödəyən müəssisələr qrupu olub, satışdan başlayaraq elmi-tədqiqat və sıx kooperasiya ilə birləşmiş müəssisələrdir. daha konkret desək, klaster dedikdə, coğrafi əlamətləri üzrə cəmləşmiş və dəyər yaratmaq məqsədilə bir-biri ilə qarşılıqlı münasibətdə, rəqabətdə olan müstəqil innovasiya texnologiyaları yaradıcılarının şəbəkəsidir. Bu kontekstdə neft hasilatı və neft emalı istehsalçılarının məhsullarının müəyyən edilməsi deməyə imkan verir ki, neft klasteri regional ərazi-sahəvi neft kompleksinə bərabərdir.

Klasterlərin başqa təsnifatları da vardır, məsələn, sıxışdırılmış müəssisələrin klasteri, qabaqcıl klaster, transmilli klaster.

Sıxışdırılmış müəssisələrin klasterinin xarakterik cəhətləri kimi məhdud sosial kapitalı, etimadsızlığı, dağıdıcı rəqabəti və məhdud innovasiyalılığı göstərmək olar. Bu klasterdə daha zəif yer ondan ibarətdir ki, onun bütün müəssisələri az və ya çox dərəcədə eyni əmtəə istehsal edir, bir müəssisədə məhsulun uğurlu innovasiyaları digər müəssisələrdə də sürətlə mənimsənilir, bütün müəssisələr yenidən eyni məhsulu istehsal edir. Bundan başqa, müəssisələrin texniki və kommersiya potensial çox zəifdir.

Məşhur Amerika iqtisadçısı M.Porter tərəfindən işlənib hazırlanmış, analiz subyektini formalaşdırmaq, dəstəkləmək, inkişaf etdirmək və rəqabət üstünlüklərindən istifadə etmək qabiliyyətini müəyyən edən amilləri təsvir edən Daymond modelində rəqabətqabiliyyətliliyinin aşağıdakı əsas mənbələri seçilir:

- regionun yaranmış potensialı kimi müəyyən edilən şərtlər, bura coğrafi, təbii-iqlim, demoqrafik,

istehsal, elmi və başqa şərtlər daxildir;

- lokal və xarici (yerli, reegional) mənbədən yaranan məcmu tələb, - bu, həm də klasterin zəruri

rəqabətqabiliyyətliliyinin formalaşması mənbəyidir;

- digər sahələrlə bağlılıq dərəcəsi. Bu, mal və xidmətlərin istehsalı sahəsində kooperasiya və

inteqrasiya səviyyələrini əks etdirir və ixtisaslaşma nəticəsində istehsalın effektivliyinin

yüksəldilməsi hesabına rəqabətqabiliyyətliliyi mənbəyidir;

- firmanın strukturu, ümumi və funksional strategiyalar, bu regionda rəqabət mübarizəsinin

səviyyəsi onların inkişafını daha intensiv edir, yeni texnologiyaların tətbiqini, əmək

məhsuldarlığının artmasını və məsrəflərin aşağı düşməsini stimullaşdırır ki, bu da

rəqabətqabiliyyətliliyi mənbəyidir.

Porter modelinin zəruri elementləri kimi aşağıdakıları da göstərmək olar:

- əlverişli imkanlar; bu halda dünya maliyyə bazarlarında kəskin pozitiv dəyişikliklərlə bağlı

təsadüflər, valyuta kotirovkalarının dəyişməsi, tələbin gözlənilmədən artması, həmçinin digər

fors major şəraitlər nəzərdə tutulur;

- təsərrüfat subyektlərinin təsərrüfat fəaliyyətinə hökumətin təsiri, bu, müxtəlif səviyyəli iqtisadi

idarəetmə sistemlərin işinin effektivliini müəyyən edir.

Məlum olduğu kimi, klasterin tərkibinə müxtəlif sahəli müəssisələr, federal və regional idarəetmə orqanları, elmi-tədqiqat təşkilatları, müxtəlif səviyyəli tədris müəssisələri daxildir. Onların hamısı klasterin inkişafında iştirak edətək, bütün gücün və imkanların cəmləşdirilməsinə kömək edirlər ki, bu da həmin klasterin rəqabətqabiliyyətliliyini müəyyən edir.

Regionda klasterlərin yaradılması və inkişaf etdirilməsi təşəbbüsü ilə yerli icra və qanunverici orqanların timsalında dövlət çıxış edə bilər. Faktiki olaraq isə, klasterlərin inkişafı üzrə təşəbbüslər hər şeydən əvvəl, sahibkarlıq sektorundan gəlir, dövlət isə ikinci dərəcəli rol oynayır. Klasterin iştirakçılarına klasterləşmədən qazanc əldə etməyə imkan verən amilləri sadalayaq:

- rəqabət - klasterin inkişafın hərəkətverici qüvvəsi kimi;

- qapalı məkan daxilində müəssisələrin lokallaşdırılması;

- istehsal prosesinin və istehlakın ərazi yaxınlığı (tədarükçülərin, avadanlığın quraşdırma işlərini

həyata keçirən firmaların, distribütorların və son istehlakçıların);

- klaster çərçivəsində sosial infrastrukturun olması. Bu, texnologiyaların və bilikləri

yerdəyişməsini sadələşdirməyə imkan verir ki, bu da klasterin artımına kömək edir.

Müəssisələr şaquli inteqrasiya strategiyasından istifadə etməklə, klaster daxilində istehsalın effektivliyini yüksəldirlər. Sənaye sahələri ilə infrastruktur arasında şaquli sektorlararası əlaqələr ümumi inkişafa kömək edir.

Regional əsasda klasterlərin formalaşması qarşılıqlı əlaqəli sahələrin coğrafi konsentrasiyası yüksək olanda yerlərdə müşahidə oluna bilər. Bu da birbaşa investisiyaların köməyi ilə kapital və texnologiyaların axınını artırmağa imkan verir. Neft kompleksinin klaster formasında formalaşması neft hasilatı və neft emalı daha çox cəmləşən regionlarda daha effektivdir. Lakin onların regionlar üzrə bölüşdürülməsi heç də bərabər deyildir. Bu, aşağıdakı rayonlarda müşahidə olunur: Volqa rayonunda – 39,9%, Qərbi Sibirdə - 35,8%, Xəzərdə - 11,3%, Şərqi Sibirdə - 6%, Şimal-Qərbdə - 2,1%, Uzaq Şərqdə - 4,9%. Adıçəkilən bütün təşkilatlar klasterin inkişafında iştirak edir və beləliklə, onlar bir-biri ilə əməkdaşlıq etməklə, bir-birinitamamlayır və bununla da, regionda güc və imkanlarının xüsusi effektli konsentrasiyasının yaradılmasına kömək etmiş olurlar ki, bu da satış bazarlarını uğurla qazanmağa imkan verir.

Klaster təhlili zamanı nəzərdə tutulur ki, hər bir konkret sahə qalanlarından ayrı nəzərdən keçirilə bilər və sistemli şəkildə klaster daxilində inkişaf edə bilər. İstənilən diversifikasiyalı iqtisadiyyat özünün əsas məhsullarının rəqabətqabiliyyətliliyini əlaqəli sahələrin (maya dəyəri, keyfiyyət və əsas məhsulun servisinin xüsusiyyətləri asılı olan) vəziyyətini yaxşılaşdırmaqla daha sürətlə yüksəldə bilər. Aydındır ki, baza sahə yaranarkən klasterə aid olan tədarükçü sahələrin və istehlakçı sahələrin də inkişafı baş verəcək [6, s.221-224].

Regional neft kompleksi elə klasterlərə aiddir ki, orada klasterin subyektlərinə öz rəqibləri ilə müqayisədə daha böyük qazanclar əldə etməyə imkan vardır

Qeyd etmək lazımdır ki, bu amillərin təsiri və tərkibi ayrı-ayrı regionlarda tərəddüd edə bilər.

Müvafiq klasterə daxil olan neft kompleksi müəssisələrinin məqsədlərinin birləşməsi sırf bazar münasibətləri əsasında həyata keçirilə bilməz. Zənnimizcə, bütün təsərrüfat subyektləri üçün dövlət tənzimlənməsi sistemində həyata keçirilən tədbirlər kompleksu olmalıdır [95.s.86].

**Ədəbiyyat**

**1.** "Azərbaycan Respublikasının yanacaq-enerji kompleksinin inkişafı (2005-2015-ci illər) üzrə Dövlət Proqramı". Azərbaycan Respublikasının Prezidentinin 14.02.2015-ci il tarixli Sərəncamı ilə təsdiq edilmişdir. Bakı şəhəri, № 635.

2. Azərbaycan Respublikasının milli iqtisadiyyat və iqtisadiyyatın sektorları üzrə strateji yol xəritəsi" Azərbaycan Respublikasının Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir. Bakı 2016, 126 s

3. Hacızadə E., Regional industrial inkişafa klasterli yanaşma, Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı: problemlər, inkişaf meyilləri» mövzusunda respublika elmi-praktiki konfransının materialları. AMEA-nın İqtisadiyyat İnstitutu, Lənkəran Dövlət Universiteti. Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu. Bakı: 2011. 0.3 ç.v.s.256

4**.** Вишнякова А.Б., Паньков М.С. Мировой нефтяной рынок и особенности его ценообразования// Вестник Самарского государственного экономического университета. Самара, 2013. №6, (104), с.9.**5.** А.Некипелов, М.Головнин. Стратегия и тактика денежно-кредитной политики в условиях мирового экономического кризиса. "Вопросы экономики"" - № 1-2010

**5.** " Первушина А.С. Зарубежный опыт развития нефтехимических кластеров// Вестник Самарского государственного университета, 2015, № 1 (123), с.42-47.

6. Orucov M.M. "Dünya iqtisadiyyatında baş verən dəyişiklər fonunda Azərbaycan iqtisadiyyatının mövcud vəziyyəti" OYU. Ped.xəb. №50.

# AQRAR SEKTORDA KREDİT SİYASƏTİNİN FORMALAŞMASININ METODOLOJİ ƏSASLARI.

**H.Z. Əliyeva, F.A. Ələkbərova**

Odlar Yurdu Universiteti

Bakı, Koroğlu Rəhimov 13.

e-mail: əliyeva.hafizə@gmail.ru

Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illər üçün sosial-iqtisadi inkişafının Dövlət Proqramında göstərilən mühüm məsələlərdən biri aqrar sahəni də daxil etməklə iqtisadiyyatin real bölməsində kredit siyasətinin problemlərinin həll edilməsidir. [3].

Kredit siyasəti – bankın, müştərilərini kreditləşdirmə sahəsində həyata keçirdiyi tədbirlər sistemidir və bank bunu müəyyən vaxt dövründə nəzərdə tutulmuş regionda öz strategiya və taktikasını reallaşdırmaq üçün həyata keçirir.

Kredit siyasəti strategiya baxımından, bütövlükdə kredit bazarında konkret bankın prioritetlərini, prinsiplərini və məqsədlərini, taktika baxımından isə kredit müqavilələrini, bunların aparılma qaydalarını, kredit prosesinin təşkilini həyata keçirən zaman öz, məqsədlərinin reallaşması üçün bankın istifadə etdiyi maliyyə və digər alətləri özündə birləşdirir. Beləliklə, kredit siyasəti bankın kredit şöbəsinin işçilərinin səmərəli fəaliyyəti üçün zəruri olan ümumi şərait yaradır, işçilərin səylərini birləşdirir və təşkil edir, səhvlərin və qeyri-rasional qərarların qəbul edilməsi hallarının ehtimalını azaldır.

Kredit siyasəti bir tərəfdən kreditləşdirmə sisteminin, digər tərəfdən isə bank siyasətinin tərkib hissəsidir. Eyni zamanda bank siyasəti ümumiləşdirici anlayış kimi bir sıra elementlərin məcmusunu əks etdirir: əmanət siyasəti; kredit siyasəti; müştərilərə hesablaşma-kassa xidmətləri göstərilməsinin təşkili sahəsindəki siyasət; faiz dərəcəsi siyasəti; müəyyən bank əməliyyatlarının aparılması üzrə siyasət; bank risklərinin idarə edilməsi sahəsindəki siyasət; mənfəətlilik və rentabellik sahəsindəki siyasət; işçilərin idarə olunması üzrə siyasət.

Bununla belə, bank siyasəti fiziki şəxslərlə iş üzrə siyasəti, korporativ müştərilərlə iş üzrə siyasəti, aqrar bölmənin və kiçik biznesin müəssisələri ilə qarşılıqlı münasibətlər üzrə siyasəti özündə birləşdirərək, müştəri əlamətinə görə qurula bilər. Ancaq, kredit siyasəti istənilən halda müstəqil xarakter daşıyacaq və bu mənada kredit siyasəti, kommersiya bankının fəaliyyətinin qurulduğu bank siyasətinin təməlini təşkil edir.

Kredit siyasətinin mühüm fərqləndirici xüsusiyyəti ondan ibarətdir ki, o, kreditin hərəkəti ilə əlaqədar olan siyasətdir.

Bankın kredit siyasətinə, bank siyasətinin bir elementi kimi baxaraq qeyd etmək lazımdır ki, kredit siyasətinin məqsədləri bankın ümumi strateji məqsədləri ilə üzvi şəkildə bağlıdır və onun bank siyasətinin məqsədləri ilə uzlaşır.

Kommersiya bankının bank və kredit siyasəti onun elementi kimi ümumi məqsədə malikdir: əmanətçilərin pul vəsaitlərinin yerləşdirilməsindən mənfəət əldə edilməsi, eləcə də mənfəətin sabitliyi və artımını təmin edən xidmətlərin həcminin və spektrinin artırılması istiqamətində bankın dinamik inkişafı. Müvafiq olaraq kredit siyasətinin məqsədi, cəlb edilmiş vəsaitlərin səmərəli yerləşdirilməsi üçün şərait yaratmaq və bankın mənfəətinin davamlı artımını təmin etməkdir. Konkret kommersiya bankı səviyyəsində onun siyasəti, bankın rentabelliyini, etibarlılığını və likvidliyini təmin etmək məqsədilə kredit prosesinin təşkili sahəsində strategiya və taktika formasında ifadə olunur.

Kredit siyasətinin formaları tarixi aspektdə, kredit siyasətinin mahiyyəti ilə onun həyata keçirilməsinin predmeti arasındakı qarşılıqlı əlaqəni ifadə edir. Bazara keçid zamanı kredit siyasətinin məzmunu və təzahür formaları dəyişir. Planlı-amirlik, monobank sistemi şəraitində kredit siyasətinə, bankların və onların müştərilərinin real tələbatları nəzərə alınmadan, ümumdövlət siyasəti kimi əsasən makroiqtisadi səviyyədə baxılırdı. Bazar iqtisadiyyatına keçid şəraitində, kredit siyasətini makro və mikroiqtisadi səviyyədə (konkret bank səviyyəsində) tədqiq etmək üçün ehtiyac yaranmışdı. Qeyd etmək lazımdır ki, kredit münasibətlərinin iqtisadi formalarından, təşkilati formaları (bank qaydaları, normalar, kredit münasibətlərinin təşkili sahəsində qaydaları) fərqləndirmək lazımdır.

Qeyd etmək lazımdır ki, hal-hazırda bütün banklar üçün eyni olan vahid kredit siyasəti yoxdur. Hər bir konkret bank özünün fərdi kredit siyasətini öz maraqlarını və fəaliyyət göstərdiyi regiondakı iqtisadi, siyasi, sosial vəziyyəti nəzərə alaraq, konkret bankın fəaliyyətinə təsir edən xarici və daxili risklərin bütün məcmusunu diqqətə alaraq özü müəyyən edir. Bankın öz kredit siyasəti olmadığı və ya aşağı keyfiyyətli kredit siyasəti olduğu hallarda, bankın məcmu riski artır.

Kommersiya bankının kredit siyasəti müəyyən sərhədlərə malikdir. Kredit siyasətinin sərhədlərinə müəyyən bir hədd, icazə verilən normalar kimi baxaraq qeyd etmək lazımdır ki, kommersiya bankının kredit siyasəti aşağıdakılarla müəyyənləşdirilir:

a) Azərbaycan Respublikasının ümumi pul-kredit siyasəti və özünü kommersiya banklarının fəaliyyətinin iqtisadi normativləri, limitləri və digər göstəriciləri şəklində konkret ifadə edən bank tənzimlənməsi siyasəti ilə;

b) kommersiya bankının məxsusi strategiya və taktikası ilə. Makroiqtisadi səviyyədə kredit siyasətinin genişlənməsi sərhədləri iqtisadiyyatın tələbatı ilə, mikroiqtisadi səviyyədə isə (kommersiya bankı səviyyəsində) - kredit potensialı ilə (bankın resurs bazası və onun fəaliyyət göstərdiyi bazarın konyukturası) müəyyən edilir.

Bankın kredit siyasətinə aşağıdakı amillər təsir göstərir: iqtisadiyyatın ümumi vəziyyəti (inflyasiyanın səviyyəsi, ÜDM-in artım tempi, büdcə kəsiri və s.), Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fiskal və büdcə siyasəti vasitəsilə Azərbaycan Respublikasının pul-kredit siyasətinə təsiri (iqtisadi norma və normativlərin yaradılması, açıq bazarda valyuta və qiymətli kağızlarla əməliyyatların aparılması); kommersiya bankının kreditlərinə onun müştərilərinin (aqrar bölmədə) tələbatı; bankın fəaliyyətinin regional xüsusiyyətləri (bank xidmətlərinə olan tələb və təklifin nisbəti, bank fəaliyyətinin ixtisaslaşması, rəqabətin səviyyəsi və s.); kommersiya bankının kredit potensialı (banka cəlb olunmuş vəsaitlərdən likvidlik ehtiyatlarını çıxılmaqla); bank üçün qəbul edilə bilən risk; bank işçi heyətinin peşəkar hazırlığı, ixtisas səviyyəsi və təcrübəsi.

Hər bir konkret kommersiya bankında kredit siyasətinin formalaşması ümumi prinsiplərə riayət edilməsini tələb edir. "Müasir rus dilinin lüğəti"-də prinsip sözünə aşağıdakı tərif verilir: "Prinsip (latınca Principium - əsas, başlanğıc) – hər hansı elmi sistemin, nəzəriyyənin əsas başlanğıc vəziyyətidir..." Fəlsəfi mənada "prinsip" sözü adətən “əsas, başlanğıc, mənşə, ilkin, rəhbər edici ideya, davranışın, fəaliyyətin əsas qaydası kimi müəyyən edilir”. Belliklə kredit siyasətinin prinsipləri dedikdə, onun hazırlanması və həyata keçirilməsi üçün lazım olan əsas qaydalar, ilkin vəziyyət başa düşülür.

Azərbaycanlı alim, iqtisad elməri doktoru M.M. Bağırov kredit prinsipləri barədə yazır: "kreditləşmənin prinsipləri kredit siyasətinin mahiyyətinin təcəssümüdür." [2.səh.137; 3. Səh.42]. Panova Q.S. kredit siyasətinin formalaşmasının prinsipləri haqqında danışarkən, “Kommersiya bankının kredit siyasəti” kitabında yazır: "Kredit siyasətinin ümumi prinsipləri dedikdə, makroiqtisadi səviyyədə Mərkəzi Bankın apardığı dövlət kredit siyasəti və hər bir konkret kommersiya bankının kredit siyasəti üçün eyni olan prinsipləri başa düşürük. Bankın kredit siyasətinin mühüm ümumi prinsipləri kimi, biz kredit siyasətinin elmi əsaslandırılmasını, optimallığını, səmərəliliyi və həmçinin kredit siyasətinin elementləri arasindaki birliyi, ayrılmaz əlaqələri hesab edirik "[4. Səh.182].

Həyatın obyektiv reallıqları və onu müəyyənləşdirən subyektiv amillər nəzərə alınmaqla tərtib olunmuş, elmi cəhətdən əsaslanandırılmış kredit siyasəti dövlətin və bankın maraqlarını daha dolğun ifadə etməyə imkan verir.

Kommersiya bankının kredit siyasətinin spesifik prinsipləri fikrimizcə aşağıdakılardır: gəlirlilik, rentabellik, həmçinin təhlükəsizlik, etibarlılıq (çünki bank gəliri nəyin bahasına olursa deyil, fəaliyyətini inkişaf etdirdiyi bazarın reallıqlarını nəzərə almaqla əldə etməyə çalışır).

Azərbaycan və xarici ölkələrin iqtisadçı alimlərinin kredit siyasətinin formalaşdırılması prinsipləri barədə fikirlərini təhlil edərək belə bir nəticəyə gəlmək olar ki, səmərəli və məqsədyönlü kredit siyasətinin formalaşdırılması üçün mövcud prinsiplərə aşağıdakıların əlavə olunması zəruridir:

- konkretlik, bu kredit siyasətinin əsas müddəalarının müxtəlif variantlarda təfsir olunmasını istisna edə bilər;

- Praktiki fəaliyyətdə tətbiq oluna bilmək prinsipi;

Təəssüf ki, mövcud vəziyyətin təhlili göstərdi ki, bir çox Azərbaycan banklarında kredit siyasəti bu bankların işçi heyəti tərəfindən həyata keçirilən əməli tədbirlər üçün real təlimat deyil, bank nəzarəti orqanları qarşısında hesabat üçün bir sənəddir.

Kredit siyasətinin prinsipləri bir-birilə sıx bağlıdır. Prinsiplərdən hər hansı birinin pozulması digərilərinin pozulmasına gətirib çıxara bilər. Bankın kredit siyasətinin prinsiplərinin belə qarşılıqlı əlaqəsi və qarşılıqlı asılılığı bütövlükdə kredit siyasətinin ayrı-ayrı elementlərinin onlara dialektik vəhdətdə baxaraq öyrənilməsinin zəruriliyini müəyyən edir.

Kredit portfelinin formalaşmasında mənfəətin maksimallaşdırılması üçün bank sistemli yanaşma tətbiq etməli, kredit siyasətinin bütün elementlərini vəhdətdə, optimal qərar əldə olunanadək onların reallaşması üzrə vasitələri dəyişdirərək, qarşılıqlı əlaqədə istifadə etməlidir. Bu cür qərar kommersiya bankının kredit siyasətinin əsasına qoyulmuş kredit

standartlarının ən yaxşı kombinasiyasını müəyyənləşdirəcək, o cümlədən: iqtisadi normativləri və Azərbaycan Respublikası Mərkəzi Bankının digər tələblərini, həmçinin bank daxili normaları: potensial borcalanların kreditqabiliyyətliyinin minimal səviyyəsini, kreditləşmənin müddəti, borcun vaxtında ödənilməsini stimullaşdırma siyasətini, borcun qaytarılmasını təmin etmə ilə bağlı bank xərclərinin səviyyəsini və başqalarını.

Kredit siyasəti bütövlükdə kredit prosesinin təşkili üçün əsas yaradır. İşlənib-hazırlanmış və yazılı surətdə əks olunmuş kredit siyasəti kreditlərin səmərəli idarə edilməsinin təməl daşıdır. Siyasət, kreditlərin verilməsi və idarə edilməsi üçün məsul olan bank işçilərinin rəhbər tutmalı olduqları obyektiv standartları və parametrləri müəyyənləşdirir. Nə zaman ki, kredit siyasəti düzgün ifadə olunur, yuxarıda dəqiq həyata keçirilir və bankın bütün səviyyələrində yaxşı başa düşülür, onda, o bank rəhbərliyinə kreditlər sahəsində düzgün standartları saxlamağa, lazımsız risklərin qarşısını almağa və kredit işinin inkişaf imkanlarını düzgün qiymətləndirməyə imkan verir.

Bizim fikrimizcə, müəssisələrin problemlərinin və aqrar bölmədə siyasətin kompleks həlli üçün, maliyyə siyasətinin realizə edilməsi məqsədi ilə maliyyə ehtiyyatlarina maliyyə-kredit mexanizminin təsir üsullarindan istifadə yolunun idarəetmə prosesini əks etdirən, ağıllı maliyyə menecmenti lazımdır. Maliyyə vəsaitlərinin idarə edilməsi sahəsində menecment planlaşdırma, təşkil etmə, əlaqələndirmə, təşviq etmə və nəzarət etmə funksiyalarının yaradıcı surətdə yerinə yetirilməsini təklif edir ki, onları həyata keçirərək menecerlər, təşkilatda çalışan işçilərin əmək məhsuldarlığının artması və məqsədlərə uyğun nəticələrin əldə olunması üçün şəraiti təmin etmiş olurlar.

Rusiya Dövlət İdarəçilik Universitetinin alimlərinin fikrincə, maliyyə menecmentinin ayrı-ayrı istiqamətlərinin idarəedilməsi ölkənin maliyyə-kredit sisteminin bütün bölmələrində idarəetmə obyekti ilə müəyyən edilir. Dövlətin maliyyə vəsaitlərinin və kreditinin, sığorta və bank işinin, müəssisələrinin maliyyəsinin idarə edilməsi zamanı maliyyə resurslarına təsirin spesifik forma və metodları müxtəlif ola bilər. Buradan belə bir nəticə çıxır ki, həll edilən məsələlərin spesifikliyi idarəetmə əməyinin (fəaliyyətinin) mürəkkəb, yaradıcı təbiətini (xarakterini) müəyyən edir və burada da məqsədlərin qoyulması, onlara nail olunmasının metod və üsulların işlənib-hazırlanması, həmçinin birgə fəaliyyətin təşkili, menecerlər adlanlandırılan işçilər kateqoriyasının əməyinin əsas məzmununu təşkil edir.

Bu məsələ barədə digər alimlərin də yanaşmaları var və onlara görə, maliyyə menecmenti strateji və taktiki məsələlərin əldə olunmasına yönəldilmiş maliyyə müəssisələrinin idarə edilməsi elmidir [5.səh.15-16]. Rusiya Federasiyası Hökuməti yanında Maliyyə Akademiyasının (menecment və bazar akademiyası; Maliyyə menecmenti İnstitutu) iqtisadçılarının fikrinə görə müəssisə vergi mühitinin çətin şəraitində, mənfəətin kütləsi və dinamikasının tənzimlənməsi, səhmdarların mülkiyyətinin artırılması, səhmlərin kurs dəyərinə nəzarət, dividend siyasəti, müəssisənin dəyərinin artması məsələlərində müxtəlif maraqlara malik ola bilər, lakin bütün bunlar və müəssisənin fəaliyyətinin digər sistemləri bazar sivilizasiyası tərəfindən hazırlanmış və maliyyə menecmenti elmində praktiki baxımdan əlaqəli və son dərəcə faydalı sistem şəklində birləşdirilmiş universal metodların köməyi ilə idarə oluna bilir. Onlar rus maliyyə menecmenti məktəbini qərb məktəbindən fərqləndirən əsas cəhətləri də göstərmişlər ki, bunlarada aiddir: konkret maliyyə hesablamalarında qərbi Avropa praqmatizminin amerikan konseptualizmi ilə birləşməsi və hər növ risklərin azaldılması.

Qərb alimləri maliyyə menecmentinə müəyyən plana uyğun olaraq həyata keçirilən kapitalın hərəkəti kimi baxaraq bir qədər fərqli mövqedə dururlar. Belə ki, məşhur amerikalı iqtisadçı Van Horn J. K. qeyd edir ki, firma hər an müxtəlif mənbələrdən daxil olan kapitalların məcmusu kimi baxıla bilər: şirkətin kapitalına öz vəsaitlərini qoyan investorlar tərəfindən, firmanın fəaliyyəti nəticəsində əldə edilən gəlirlərdən. Bura, həmçinin, mal və xidmətlərin istehsalı üçün nəzərdə tutulmuş əsas vasitələrin alınmasını, istehsal və satış üçün vacib şərt olan əmtəə ehtiyatlarının yaradılmasını, debitor borclarının maliyyələşdirilməsini, nəğd pullar və likvid qiymətli kağızları da daxil edirlər [6. Səh.10].

Bütün bunların hamısını Van Horn J.K. kapitalın hərəkəti hesab edir və qeyd edir ki, bunların məcmusu maliyyə menecmentini əks etdirir [6.səh.328].

Bundan başqa o, bir qədər də irəli gedərək, maliyyə menecmentinin rolunu bütövlükdə müəssisənin idarə olunması səviyyəsinədək genişləndirir.

Maliyyə menecmenti, həm də səhmdarların yaxud mülkiyyətçilərin gəlirlərini

maksimallaşdırmaq məqsədilə maliyyə vəsaitlərinin optimal strukturunu formalaşdırmaq və saxlamaq üçün mikroiqtisadi səviyyədə firmanın maliyyəsinin idarə edilməsini özündə cəmləşdirən spesifik sahə kimi də təqdim edilir [6.səh. 328].

Qeyd olunur ki, maliyyə menecmentinin nəzəriyyəsi digər iqtisadi fənlərlə sıx bağlıdır ( sxem 1.1) və aşağıdakı funksiyaları özündə cəmləşdirir:

- maliyyə təhlili və qərar qəbul etmə; qısamüddətli maliyyə resurslarından istifadənin planlaşdırılması; uzunmüddətli maliyyə resurslarından istifadənin planlaşdırılması;

- riskin təhlili, qərarın qəbul edilməsi və onun icra edilməsi; qərarın icrasına nəzarət.

| Maliyyə menecmenti | Əsas fənlər |
|---|---|
| 1. İnvestisiyaların təhlili | 1. Təsərrüfat fəaliyyətinin təhlili |
| 2. Bazarın təhlili | 2. Mikroiqtisadiyyat |
| 3. Kapitalın və onun strukturunun idarə edilməsi | 3. Makroiqtisadiyyat |
| 4. Resursların idarə edilməsi | 4. Beynəlxalq iqtisadi münasibətlər |
| 5. Dividend siyasəti | 5. Marketinq |
| | 6. Təhlilin kəmiyyət üsulları |

**Sxem 1.1 Maliyyə menecmenti nəzəriyyəsinin digər fənlərlə qarşılıqlı əlaqəsi.**

İ.İ. Qerçikova maliyyə menecmentinin iqtisadi metodları ilə qarşılıqlı əlaqələr üzrə funksiyaları təsnifləşdirərək, onları iki blokda qruplaşdırır: xarici maliyyənin idarəedilməsi üzrə blok (firmanın aktivlərinin idarə edilməsi; pul vəsaitlərinin hərəkəti; müştərilərlə

hesablaşmalar; maddi-istehsal ehtiyatlarının idarə edilməsi; qısa və uzunmüddətli xarici maliyyələşdirmə mənbələrinin cəlb edilməsi) və firmadaxili uçot və maliyyə nəzarəti (istehsal uçotunun aparılmasına nəzarət; smetanın tərtib edilməsi məsrəfləri, əmək haqqı və verginin ödənilməsinə nəzarət; maliyyənin daxili idarəedilməsi və məlumatın kənar istifadəçilərə verilməsi üzrə mühasibat uçotu məlumatlarının yığımı və emalı; maliyyə hesabatı, balans, mənfəət və itkilər haqqında hesabat, pul vəsaitlərinin hərəkəti üzrə hesabat, maliyyə hesabatının təhlili və onun nəticələrinin daxili və xarici audit üçün istifadə edilməsi; firmanın maliyyə vəziyyətinin qiymətləndirilməsinin tərtib edilməsi və düzgünlüyünə nəzarət ) üzrə blok [7.səh.212].

Eyni zamanda onun tərəfindən maliyyə menecmentinin aşağıdakı funksiyaları təklif edilir: maliyyə hesabatının təhlili, pul vəsaitlərinin proqnozlaşdırılması, səhmlərin buraxılması, kreditlərin alınması; investisiyalarla əməliyyatlar; firmanın birləşməsi və udulması əməliyyatlarının qiymətləndirilməsi.

Lakin, son illərdə informasiyalara investorlar, kreditorlar və tənzimləyici idarələr kimi daxili və xarici istifadəçilərin daha təcili tələbləri nəticəsində, maliyyə menecmenti sahəsində əhəmiyyətli dəyişikliklər baş vermişdir. Hal-hazırda maliyyə bütün səviyyədən olan menecerlərin istifadə etdiyi alətə çevrilmişdir ki, onlar da aşağıdakı funksiyaları yerinə yetirirlər: strateji istiqamət (elə bir vaxt gəlib çatır ki, firmalarda müxtəlif məqsədlərə nail olmağın öz missiya və strateqiyasının müəyyən etmək ehtiyaci yaranır və maliyyə təhlili, formalaşan strateqiyanın reallığını müəyyən etməyə kömək edir): maliyyənin idarə edilməsi (firmalar ehtiyatlara malikdirlər və bu ehtiyatlardan konkret məsələlərin yerinə yetirilməsi üçün istifadə edirlər); mənfəətin planlaşdırılması; pul axınları.

Bizim fikrimizcə maliyyə menecmentinin funksiyası müəyyən ölçüdə istehsalın, bazarın və ticarətin idarə edilməsi funksiyaları ilə üst-üstə düşməlidir. Buraya planlaşdırmanı, proqnozlaşdırmanı, təşkili informasiyanı, koordinasiyanı, təhlili və nəzarəti də aid etmək olar.

Maliyyə menecmentinin planlaşdırılması, istehsalın genişləndirilməsinin həyata keçirilməsi yollarının müəyyən edilməsini və inkişafın gedişinin elmi cəhətdən qabaqcadan görülməsini əks etdirir və bununla yanaşı o, ölkənin iqtisadiyyatının planlaşdırılmasının tərkib hissəsidir. Maliyyə menecmentinin planlaşdırılması aparıcı rola malikdir və firmanın təşkili, planlar, maliyyə və kredit resurslarının bölüşdürülməsi metodları əsasında həyata keçirilir Maliyyə menecmentinin planlaşdırılmasının ilkin mərhələsi proqnozlaşdırma və həmçinin idarəetmənin bütün funksiyalarıdır. Proqnozlaşdırma gələcəyin detallarını tapmaq cəhdləri deyil, o, gələcək halların dialektik determinasiyasından çıxır və gələcək hallara mümkün variantların geniş seçimini nəzərə alan ehtimallı yanaşma lazımdır. Yalnız belə yanaşma nəticəsində proqnozlaşdırma, maliyyə menecmentində məqsədin, planın, proqramın, lahiyənin əsaslandırılmasında optimal variantın seçilməsi üçün səmərəli istifadə edilə bilər.

Maliyyə menecmentinin sonrakı funksiyası hər şeydən əvvəl, idarəetmə orqanları sisteminin formalaşmasının seçimində onların tabe olunması və qaydaya salınması qaydasında əks edilən təşkiletmədir. Məsələn, bankın maliyyə menecmentini prinsipial sxemini aşağıdakı kimi vermək olar (sxem 1.2). Bu prinsipial sxemin dayanıqlığı maliyyə, təşkil, kommersiya, kapital funksiyaları vasitəsilə özünü göstərir .

Göründüyü kimi ümumi maliyyə menecmenti, bankda maliyyə menecmentini və bankda heyətin idarə edilməsini özünə daxil edir. Bankda heyətin idara edilməsi bankın ümumi

menecmentində böyük rol oynayır, belə ki, mikroiqtisadi səviyyədə maliyyə menecmentinin bütün sisteminin müvəffəqiyyəti işçilərin seçimindən, yerləşdirilməsindən, əmək haqqından və stimullaşdırmadan çox asılıdır.

**Ədəbiyyat**

1.Azərbaycan Respublikası regionlarının 2009-2013 illərdə sosial-iqtisadi inkişafı dövlət proqramı (14.IV.2009).

2.Багиров М.М. Кредитная политика коммерческих банков. Издательство Госкомитета по технике и науке Азербайджанской Республики, Баку, 1997 г, 80 с.

3.Багиров М.М. Банки и банковские операции. Баку, Нурлан, 2003. – 512 с.

4. Панова Г.С. Кредитная политика коммерческого банка. М.: Финансы и статистика, 2001. – 464 с.

5. Milli iqtisadiyyatın müasir inkişaf modeli M.M. Orucov. OYU. Ped.xəb.№54.

6. Ван Хорн Дж. Основы управления финансами. М.: Ф и С, 1996, 832 с.

7. Герчикова И.Н. Менеджмент. М.: Банки и биржи. 1997, с.212.

## Heydər Əliyevin sosial-iqtisadi siyasətinin prioritet yanaşma metodologiyası

**Əli Əlirzayev**

*iqtisad elmləri doktoru, professor, əməkdar elm xadimi*

**Emin Əlirzayev**

*iqtisad üzrə fəlsəfə doktoru*

*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC).*

Prioritet yanaşma - səmərəli sahə və istiqamətlərin müxtəlif şəraitdə formalaşması və onun idarəetmədə məqsədlər kimi istifadə edilməsi, reallaşması yolları və metodlarını əhatə edir.

Prioritetlər hər bir ölkədə əsaslandırılmaqla qiymətləndirilir. Onun qiymətləndirilməsi nəticələri olaraq dinamizm, dayanıqlı inkişaf və özünün nəticələri sosial-iqtisadi səmərənin yüksəldilməsində rolu ilə ölçülür.

Prioritetlər bütöv iqtisadi və sosial inkişaf konsepsiyasının dominantı və aparıcı mərkəzəmələgətirici həlqəsi kimi əsaslandırılır.

Prioritetlər iqtisadi və sosial inkişafın qlobal və lokal meyarlarının reallaşması üçün əsas xarakteristikalar və fəaliyyətlər məcmusunu əhatə edir.

Prioritetlər ierarxik qoyuluşa malik olmaqla, inkişafın perspektivi və elmi əsasları olmaqla tərtib edilir.

Prioritetlərin oynadığı rola görə və səmərə göstəricilərinə görə seçimlər əsasında onların reallaşması mexanizmləri tərtib edilir.

Prioritetlərin seçilməsi və əsaslandırılması iqtisadi idarəetmə, təşkilatı-iqtisadi fəaliyyət, elmi mülahizələr, təcrübə, praqmatik yanaşma metodları və mexanizmləri ilə reallaşır.

Prioritetlər tarixi dinamizm göstəriciləri olmaqla onun tərtibi və reallaşması, mövcud reallıqlar və strateji dəyişmələr məqsədini güdür.

Azərbaycan iqtisadi və sosial inkişaf dinamikasında müxtəlif dövr və iqtisadi sistemlərdə Ulu öndər Heydər Əliyevin siyasətində aparıcı mexanizm kimi əsaslandırılır və reallaşdırılır.

Planlı təsərrüfat sistemində prioritetlər respublika resursları əsasında inkişaf istiqamətlərini əhatə etmişdir.

Prioritet istiqamətlər aparıcı xalq təsərrüfatı həlqəli olmaqla, onun təşkili və idarə edilməsi digər sahələrin və problemlərin həllinə təkan verir və dominant rolunu oynayır.

1960-1982-ci illərdə planlı təsərrüfat sistemində Azərbaycanın inkişafının əsas prioritet istiqamətləri onun potensialının və perspektiv struktur dəyişmələrinin əsasını yaradan sahə, ərazi və fəaliyyət problemlərini əhatə etmiş, əsas istiqamətlər aşağıdakı məsələlərin həllinə yönəlmişdir:

- İqtisadi artımla yanaşı, onun bölgüsü və yenidən bölgüsündə respublikanın payının ədalətli təmin olunması və respublikada iqtisadi artımla sosial inkişaf arasında tarazlığın, maraqların balanslaşdırılması;
- Respublikada iqtisadi və sosial sahələrin tarazlığı və əlaqəli inkişafı üçün zəruri olan gəlirlərin formalaşması rıçaqlarının elmi əsaslarla təşkil edilməsi;
- Respublikada iqtisadi potensial olaraq təbii, əmək və digər resursların istehsalı, emalı və sahələrarası komplekslər yaradılması, sənayenin inkişafı və onun digər sahələrə təsirinin gücləndirilməsi strategiyasının hazırlanması və tətbiqi;
- Azərbaycanda resurs potensialı olaraq kənd təsərrüfatının inkişafı, onun məhsul və xidmətlərinin aqrokompleks iqtisadi sistemlərdə ifadəsi üçün idarəetmə sisteminin təkminləşməsi;
- Struktur siyasətin aparıcı rolunu nəzərə almaqla məqsəd resurs və proqram metodlarının təşkili;
- Regionların sosial-iqtisadi inkişafında məhsuldar qüvvələrin ərazi planlaşmasında sosial prioritetlərə üstünlük verilməsi və mərkəzləşdirilmiş resursların region inkişafında rolunun yüksəldilməsi;
- Regionlarda sosial infrastrukturun və əhalinin sosial müdafiəsi üçün məşğulluğun artırılması və məskünlaşma siyasətin səmərəli təşkilinin mexanizmlərinin təkmilləşməsi.

Bu istiqamətlərdə aparılan Heydər Əliyev siyasəti respublikanın inkişafında rolunu artıraraq, onun ictimai əmək bölgüsündə yerini, ixtisaslaşma istiqamətlərini və əhalinin maddi-mənəvi tələbatının ödənilməsində öz töhfəsini vermişdir.

Heydər Əliyevin regional iqtisadi və sosial idarəetmə təcrübəsi daima sadədən mürəkkəbə sahələr və funksional idarəetmədən makrosəviyəli idarəetmə metodologiyası ilə zənginləşir.

1982-1987-ci illərdə ittifaq səviyyəli problemlərin miqyası və resurs potensialı, təşkili və idarə edilməsi ilə bağlı strateji və mərkəzləşdirici funksiyaların həll edilməsilə səmərəli nəticələr əldə olunmuşdur.

İttifaq səviyyəli problemlərin sosial aspektləri birbaşa və dolayısı Nazirlər Kabinetinin birinci müavini kimi Heydər Əliyevin səlahiyyətləri və vəzifə bölgüsü konteksində həll olunurdu. SSSR-in resurs potensialı və məqsədləri ümumi və istiqamətverici olmaqla, təbii-coğrafi resursları, həmçinin dünya əmək bölgüsü sistemində sosial dövlətin üstünlüklərini reallaşdırmaq kimi qlobal məqsədlər və prioritetlər ön planda idi.

Planlı təsərrüfat sistemində korporativ idarəetmə metodları məhz Heydər Əliyevin idarəetmə rolu ilə təmin olunmuşdur. Nazirlər kabinetinin birinci müavini kimi, ona elm, təhsil, səhiyyə və iqtisadi inkişaf sahələri tapşırılmışdır. Heydər Əliyev bu dövrdə problemləri özünəməxsus yanaşma metodologiyası, dövlət səviyyəsində və SSSR məkanında daha yeni mexanizmlərin tətbiqi ilə həll edirdi.

SSSR-in təbii resurslarının iqtisadi dövriyyə cəlb edilməsi və sosial inkişaf üçün bir sıra aparıcı sahələrin prioritetliyi plana keçdi. Bu fəaliyyətlərdə sosial inkişaf daha üstün və qərar qəbulu üçün amil olaraq qəbul edilirdi. Belə ki, uzaq şərqin resurslarından istifadə üçün nəqliyyat, rabitə və məskunlaşma əsas amil kimi stimullaşdırıldı.

Sosial siyasətin əsas istiqaməti olaraq, rifahın yüksəldilməsi və əhalinin bütün qrupları üzrə ədalətli siyasətin formalaşması, planlı təsərrüfat sistemində özünün göstəriciləri və mexanizmləri ilə təşkil olunurdu.

Əhali problemi, onun təhsil səviyyəsi və mədəni inkişaf strategiyası mərkəzləşdirilmiş resurslar hesabına bu problemlərin həlli yolları funksional proqramlar üzrə öz reallığını tapır. Belə ki, əhalinin istehlakını təmin edən "xalq təsərrüfatında istehlak məhsullarının" tələbata uyğun istehsalı üzrə proqrama və "Elmi texniki tərəqqi və onun sosial nəticələri" kompleks proqramlarına birbaşa təşkilatçılıq funksiyası Heydər Əliyev tərəfindən həyata keçirilirdi. Bu məqsədlə Heydər Əliyev SSSR-in ən sanballı alimlərini dəvət etməklə işlək komissiyalar və elmi-tədqiqat işlərinin aparılmasına rəhbərlik etmişdir. Bu proqram proqnoz xarakterli olub elmin və texnologiyanın insan inkişafı və onun sosial ehtiyaclarının ödənilməsində rolunu qiymətləndirərək təşkilatı-iqtisadi mexanizmləri əhatə etmişdir.

Heydər Əliyevin iqtisadi islahatlar proqramları və reallaşma mexanizmləri sosial inkişaf nəzəriyyəsinin real meyllərini və dəyişmələri nəzərə almaqla əməli alət olması mahiyyəti ilə təşkil olunmuşdur. Onun iqtisadi islahatlar üzrə fəaliyyətində müasir dövrün tələbləri və praqmatik tənzimlənən iqtisadi sistemin təşkili öz əksini tapır. Belə ki, potensial yanaşma perspektiv inkişafın imkanlarını artırmaq və onlardan istifadə yollarını təkminləşdirmək istiqamətlərini müəyyənləşdirmişdir.

Planlı təsərrüfat sisteminin nəzəri-metodoloji əsası olaraq bir sıra mexanizmlər xüsusiyyətləri ilə fərqlənir. Təbii ki, vahid təsərrüfat sistemi kimi inkişafın bütün aspektlərini, ziddiyyətləri qiymətləndirmək və təkmilləşdirmək sferasında problemlər yaranmışdır. İqtisadi

inkişafda və regionların tarazlı inkişaf dinamikasında, əmək və pay bölgüsündə ədalətli və təşəbbüskarlığa səylər bir sıra ziddiyyətləri ilə təzahür etmişdir.

SSSR-in dağılması və müstəqil inkişaf strategiyası hər bir ölkənin bazar iqtisadiyyatına uyğun transformasiya modelini tələb edirdi. Bazar iqtisadiyyatına keçid yeni və daha fəal iqtisadi sosial dəyişmələr və risklərlə mübarizə tələb edirdi. Belə şəraitdə əvvəlcə Naxçıvan MR-də, sonra isə 1993-cü ildən respublikaya başçılıq edən Heydər Əliyev optimal seçimlər əsasında uzaqgörənliklə strateji idarəetmə və inkişaf prioritetlərini müəyyənləşdirə bildi ki, bu əsasda formalaşan sosial-iqtisadi bünövrə Müstəqil Azərbaycanın iqtisadi və sosial inkişafının transformasiya modelində öz əksini tapdı.

Müasir şəraitdə Azərbaycan Respublikasının inkişaf modeli Heydər Əliyevin yaratdığı və reallaşdırdığı prinsiplər, praqmatik dəyişmələr və potensialın iqtisadi dövriyyə cəlb edilməsinə dair tövsiyələrilə idarə olunur. Təbii ki, bu modelin girişi və nəticələrini müxtəlif, çoxşaxəli və prinsipial yeniliklər kimi izah etmək olar. Bizim məqsədimiz - prioritet istiqamətləri qiymətləndirməyin bazar tipli modelinin əsas istiqamətlərini elmi cəhətdən izah etməkdir.

Heydər Əliyev planlı təsərrüfat sistemindən bazar iqtisadiyyatına keçidin mərhələli şəkildə və iqtisadi mexanizmlərlə yaradılmasının əsasını qeyd etmişdir.

Heydər Əliyev bazar iqtisadiyyatının əsasları kimi, mülkiyyət, sahibkarlıq, bölgü və sosial münasibətləri ön plana çəkdi. Məhz sosialyönümlü təşəbbüskarlıq və sosial ədalət prinsiplərini əsas götürərək onların iqtisadi və təşkilati əsaslarını yaratdı. İlkin növbədə miras qalmış milli sərvətin özününküləşdirilməsi prinsiplərini reallaşdırdı.

Özəlləşmənin prinsipləri əmlakın istifadəsinin səmərəli təşkili və sosial ədalət, təşəbbüskarlıq və innovasiyalı rəqabət qabiliyyətli təsərrüfat fəaliyyətini təşkil etməkdir.

Heydər Əliyevin bazar şəraitində regional iqtisadiyyatın əsas əlamətləri aşağıdakılar hesab olunur:

- Konseptual yanaşma;
- Strateji hədəflər və məqsədli fəaliyyətin təşkili;
- Resurslara əsaslanma və differensial parametrlər və şəraitlərə uyğun idarəetmə mexanizmləri tətbiq etmək;
- Sosial prioritetlərə amil kimi baxmaqla münasibətlər sisteminə tövsiyələr vermək;
- İnnovativ yanaşma ilə yeni texnologiyalara rəqabətyönümlü strateji mexanizmlər tətbiq etmək;
- Sosial müdafiə və sosial təminat sisteminin çevik və ədalətli prinsiplərini tətbiq etmək;
- Regionların kompleks inkişafında resursların iqtisadi dövriyyə cəlb edilməsinin forma və metodlarının differensial yanaşma ilə idarə edilməsilə yerli tələbatın ödənilməsini tarazlaşdırmaq;
- Bazar tipli inkişaf modelində prioritet olaraq ixracat potensialını artırmaq, idxal-ixrac siyasətində respublika iqtisadi və sosial inkişafına təsir edən struktur dəyişmələri qiymətləndirmək;
- İnteqrasiya siyasətində aparıcı sahə və fəaliyyətlərin üstünlüklüyünü nəzərə almaqla dünya iqtisadiyyatına inteqrasiya olmaq səylərini stimullaşdırmaq.

Bazar tipli iqtisadiyyatda təşkilati-idarəetmədə çeviklik, real, iqtisadiyyata söykənmək, praqmatik səmərəli dəyişmələri və dinamikanı təmin etmək metodologiyası əsas rol oynayır.

Bazar iqtisadiyyatına keçid onun şərtləri və mexanizmlərinin təşkili dövrü olaraq uyğun islahatlar ilə mümkün olmalı idi. Bu istiqamətlərin dünya təcrübəsi və Azərbaycan iqtisadi potensialının xüsusiyyətlərini nəzərə alaraq Heydər Əliyevin transformasiya modeli təşəkkül tapdı. Potensiala uyğun olaraq formalaşmış meyllər və perspektiv dəyişmələrin tarazlı və səmərəli, balanslı idarə edilməsi metodologiyasının konseptual əsasları yarandı.

İlkin növbədə resurslara əsaslanan və əsaslı kapital axınına səbəb olan prioritetlərin tərkibi və reallaşmasına dövlət siyasəti kimi baxıldı. Azərbaycanın karbohidrogen ehtiyatlarının istifadəsi üçün zəruri olan investisiya və bacarıqların bazarının cəlb edilməsi yolu ilə "Əsrin müqaviləsi layihəsi" tərtib edildi. Bu müqavilədə dövlət və şirkətlərin cəlb edilməsi ilə neft hasilatı, onun bölgüsü, iştirak payı və gəlirlərin bölüşdürülməsinin metodları və göstəriciləri təsdiq edildi. Bu kontraktların məqsədi və məcmusu resurslarının istifadəsində iştirak edən ölkə və mərkəzlərin maraqları, stimullaşdırma mexanizmləri və infrastruktur layihələrində hər bir dövlət və şirkətlərin xüsusi gəlirləri hesabına iştirak payı və öhdəlikləri qanunla təsdiq edildi.

Azərbaycan maraqları onun gəlirləri, infrastruktur obyektləri və həmçinin təkrar istehsala qoyulan xərcləri nəzərə almaqla təşkil olunmuşdur. Heydər Əliyev bu müqavilələrdə Azərbaycanın iştirakını, dövlət iştirakı kimi vurğulayaraq, şirkət mənafelərindən üstün olmasını vurğulamışdır[1].

Azərbaycan Respublikasında bazar iqtisadıyyatına keçidin ilkin şəraiti uzun müddət böhran keçirən ölkə iqtisadiyyatının tənəzzül dövründə baş verməli idi. Azərbaycanın makroiqtisadi göstəriciləri ilbəil 40 faizə qədər azalma, infilyasiya səviyyəsinin 1600-1700% olması və ərazilərin işğal altında olması baxımından potensial yanaşmada tamamilə yeni və riskli müstəvidə həll olunmalı idi.

Azərbaycanda iqtisadi potensialın xüsusiyyətləri, onun iqtisadi artıma təsirinin səmərəli variantlarını qiymətləndirməklə bazar iqtisadiyyatının formalaşması və səmərəsi idarə edildi.

Azərbaycanda karbohidrat ehtiyatlarının, kənd təsərrüfatı istehsalının, təbii coğrafi şəraitin sosial-iqtisadi dövriyyə cəlb edilməsi 1996-cı illərdən başlayaraq keyfiyyətcə yeni Azərbaycan iqtisadiyyatını formalaşdırdı. Müstəqil Azərbaycanın iqtisadi inkişaf prioritetləri, onun sahə iqtisadiyyatı və sosial inkişaf meyllərinə dəstək və dövlət tənzimlənilməsi strategiyası hazırlandı.

Prioritet yanaşma baza iqtisadiyyatı dövründə ictimai əmək bölgüsü, sahibkarlıq fəaliyyətinin idarə edilməsi, sosial üstünlük və perspektiv struktur dəyişmələr üzrə innovativ təsirlər mexanizmləri əsas istiqamət olaraq 1993-2003-cü illərdə əsas siyasət olmaqla sonrakı dövlərdə keyfiyyətcə yeni mərhələyə daxil olur.

Sahibkarlığın əsas istiqamətləri və formaları, dövlət və sahibkarlıq fəaliyyətində qarşılıqlı təsirlər idarətmədə uzlaşma metodları tətbiq edildi. Heydər Əliyevin iqtisadi islahatlar proqramları sahə, ərazi və ayrı-ayrı strateji fəaliyyətlərüzrə öz nəzəri və praktiki

---

[1] "*Bəsirət ünvanı*" Bakı Odlar Yurdu 2002

rolunu artırdı. Regionlarda inkişaf iqtisadi artımın tərkib hissəsi olmaqla 2004-cü ildə regional proqramların tərtibi ilə bağlıdır.

Prioritetlərin iqtisadi dövriyyə cəlb edilməsi müasir şəraitdə iqtisadiyyatın təşkili və onun idarə edilməsi üçün metodoloji əsas rolunu oynadı.

Müasir şəraitdə aşağıdakı iqtisadi və sosial prioritetlər öz aktuallığı ilə ön plana keçirildi:

- Konseptual yanaşma və məqsədlər, vəzifələr və öhdəliklər ierarxiyasının, onun strukturunun əsaslandırılması;
- Strateji yanaşma metodologiyası daha prioritet mexanizm olaraq planlaşma, qiymətləndirmə və tənzimləmə siyasətində tətbiq etmək;
- Tarazlı balansı və qarşılıqlı əlaqədə olan proseslərin və əlaqələrin, fəaliyyətinin sistem təsviri və reallaşmasını idarə etmək;
- Sosialyönümlü iqtisadi islahatların həyata keçirilməsi və sosial inkişaf strategiyasının dominant rolunun təmin edilməsi, rifah, sosial müdafiə və regional inkişafın strateji hədəfləri və resurs təminatı yollarının inkişaf strategiyasının işlənilməsi;
- Müasir şəraitdə dünya proseslərinin təsirinə uyğun olaraq daxili bazar siyasətinin və əhali rifahının yüksəldilməsi üçün mühafizəkar təminat iqtisadiyyatının təşkili və idarə edilməsi;
- İşğaldan azad edilmiş regionların iqtisadi və sosial inkişaf strategiyasına uyğun olaraq makroiqtisadi və resurs təminatının perspektiv inkişaf strategiyasının əsaslandırılması;
- İqtisadi resursların sahə və ərazi üzrə kompleks istifadəsi təkrar istehsalı üçün əlverişli stimullar sisteminin əsaslandırılması;
- Ölkədə maliyyə və kredit sisteminin inkişaf iqtisadiyyatı baxımından təkmilləşməsi və onların iqtisadi artıma təsirinin, motivizasiya sisteminin təşkili və idarə edilməsi.

Müasir şəraitdə iqtisadi və sosial inkişafın əsas istiqamətləri Heydər Əliyevin əsasını qoyduğu islahatlar və perspektiv struktur siyasətin reallaşması ilə baş verir. Prioritetlər əsasında idarəetmə qlobal səviyyəli sahələr, fəaliyyətlər üzrə baş verir. İslahatlar əhatə dairəsi sistemi olaraq sahələri, əraziləri və fəaliyyətləri özündə birləşdirməklə, dinamizm və səmərəlilik prinsiplərini özündə birləşdirir.

Qlobal səmərə olaraq konseptual yanaşmada rifah və yoxsulluq problemlərinin həlli istiqamətləri nəzərdə tutulur. İnkişafın bütün istiqamətləri, dəyişmələr və müdaxilələrin məcmu və sinergetik səmərəsi əhalinin rifahı təşkil edir.

Müasir şəraitdə əhali rifahında respublikada regional inkişaf, məşğulluq səviyyəsinin artırılması, yoxsulluğun azaldılması, həmçinin minimal təminatın dövlət tənzimlənilməsi konseptual yanaşmanın hədəfləri olaraq iqtisadi siyasətin əsas meyarlarıdır.

Müasir prioritetlər resurslara əsaslanan qərarlar, strategiyalar və mexanizmlərə əsaslanır. Aparılan islahatlar və prioritetlərin məqsədi insan tələbatının ödənilməsi, sosial sahələrin inkişafı və infrastruktur sahələrinin daxili və xarici turistlərin axını üçün genişlənməsi baş verdi.

1996-cı ildən başlayan artıma ölkə iqtisadiyyatında struktur dəyişmələrə əsas verdi. Azərbaycanda iqtisadi və sosial resursların səmərəli istifadəsi yolları təkmilləşdi. Müasir şəraitdə insanın inkişafı üçün təhsil, səhiyyə, mədəniyyət, elm və digər infrastruktur sahələri

özünün bazar münasibətləri şəraitində məzmun və formasını dəyişdi. Dövlət mülkiyyəti ilə yanaşı, özəl sektorun inkişafına dəstək rəqabətqabiliyyətli mühit yaratdı.

1996-cı ildən Azərbaycan iqtisadiyyatında makrosəviyyəli göstəricilərin artım dinamikası əvvəlcə artıma sonra isə sabitləşmə mərhələsinə daxil olur.

Ölkənin inkişaf dinamikasında struktur dəyişmələr baş verir. Bu, daha çox karbohidrogenlərin hasilatı və qeyri-neft sektorunun artımı ilə xarakterizə olunur.

Azərbaycanda müasir regional siyasət ölkə iqtisadiyyatının potensialı nəzərə alınmaqla sosial inkişafa yönəldilən Heydər Əliyev siyasətinin reallaşmasının yeni modifikasiyasıdır. Bununla belə, işğaldan azad olunmuş regionların inkişaf strategiyası, surətlənmə və inteqrasiyaya cəhd əhali rifahında sosial müdafiə sisteminin təkminləşməsi hədəflər olaraq, bütün təsərrüfat əlaqələrini və fərdi səyləri özündə birləşdirir.

İqtisadi və sosial inkişaf strategiyası sənayeləşmə, alternativ resurslar, məşğulluq və iqtisadi-sosial potensialın daha səmərəli alternativ istifadəsinin innovasiyalı yeniləşməsi əsas metodlar kimi təkmilləşir.

İnnovasiyalı iqtisadiyyat elmin, təhsilin və yeni texnologiyaların tətbiqi və idarəetmə sisteminin sosial məqsədlərə yönəlməsi istiqamətlərini müəyyən edir. Bu məqsədlər 1993-cü ildən varislik prinsipinə əsaslanmaqla, mühafizəkar və səmərəli inkişaf modelinə söykənir.

Dünya ölkələrinin təcrübəsi ilə yanaşı, ölkə iqtisadiyyatında sosialyönümlü siyasət özünün üstünlükləri və dünyəviliyi ilə seçilir. Azərbaycanda daxili siyasət olaraq, təşəbbüskarlıq, innovativ və stimullar üzərində yeni iqtisadi mərhələdə aşkarlıq və ədalətli sistem qurmaq mexanizmləri fəaliyyət göstərir. Belə ki, sosial sahədə dövlət sosial sığorta sistemi, Asan Xidmət, DOST kimi təşkilatı iqtisadi institutlar və mexanizmlər Heydər Əliyevin hələ planlı təsərrüfat sistemində korrupsiya və rüşvətxorluğa qarşı mübarizənin sivil və dünya standartları səviyyəsinə uyğun əsasını qoyduğu reformların davamlı inkişaf formasıdır.

Müasir şəraitdə ədalətli sistemin yeni aspektləri Heydər Əliyevin kadr siyasəti və xidməti olan sosial-mədəni və əmək qabiliyyətli insanların sosial təşəbbüskarlığına dəstək mexanizmləri ilə təkmilləşir. Hesab edirik ki, kadrların seçilməsi və yerləşməsi onların maddi və maliyyə stimullaşma mexanizmləri azad edilmiş regionların inkişafı üçün tətbiq ediləcəkdir.

İnsan amili Heydər Əliyevin siyasətinin əsas meyarı və məqsədi idi. Onun təhsil və səhiyyə, elm və infrastruktur siyasəti müasir şəraitdə yeni mexanizmlər və səmərə ilə özünün əksini tapır.

Müasir şəraitdə iqtisadi və sosial inkişafın əsas istiqamətləri Heydər Əliyevin iqtisadi idarəetmə prioritetlərinin reallaşmasında dünya inkişaf və qloballaşma təsirlərini nəzərə almaqla reallaşır.

Qloballaşma, dünya böhranı, həmçinin pandemiya və Azərbaycanda işğal edilmiş regionların inkişaf strategiyasını nəzərə alan siyasət yeni idarəetmə modelini formalaşdırır. Bu aspektlərin həlli yolları sürətlənmə və bərpa dövrü olaraq iqtisadiyyatda yeni mərhələnin anatomiyasını, onun daxili və xarici parametrlərinin, mexanizmlərinin hər birinin yenilənməsi və səmərəli təşkili yollarını əsaslandırır.

**Bu tələblərə münasibətdə Heydər Əliyev məktəbinin, onun idarəetmə və əlaqələrinin birbaşa canlı şahidi və iştirakçısı olan prezident İlham Əliyev müasir**

**problemlərin və həlli mümkün olmamış məsələlərin səbəb və nəticələrini qiymətləndirməkdə potensial imkanlara malikdir.**

Heydər Əliyevin praqmatik fikirləri onun İlham Əliyevin haqqında dediyi həqiqətdə özünü tapır: "İlham Əliyevin həm biliyinə, həm ağlına, həm bacarığına, həm də insan keyfiyyətinə görə Azərbaycanın siyasi səhnəsində öz yerini tapır"

Sosial infrastruktur obyektlərinin parametrliyi işğaldan azad edilmiş regionların dirçəlişi proqramında öz əksini tapır. Təbii ki, prioritet yanaşma müasir metod və mexanizmlər vasitəsi ilə reallaşır. Daha üstün fəaliyyət - yol, mənzil, enerji və səhiyyə, təhsil təminatıdır. Bu sahələrin inkişafı investisiya mənbələri və yeni texnologiyaların cəlb edilməsi ilə mümkünlüyü bütün layihələrdə öz əksini tapır.

Regional olaraq təsərrüfat əlaqələrinin və təşkilati-idarəetmə strukturunun yeni forma və metodları tətbiq edilir.

Sosial infrastruktur obyektləri olaraq resursların iqtisadi dövriyyə cəlb edilməsində məskunlaşma və yenilənmə strategiyası əsas yer tutur. İnfrastruktur layihələrin üstünlüyü xarici investorların axınına təsir etməklə iş yerlərinin açılmasına və daxili resursların alternativ məqsədlər üçün istifadəsinə şərait yaradacaq.

Azərbaycanda resursların təkrar istehsalı ilə bazar gəlirlərinin bölgüsü və yenidən bölgüsünün hüquqi bazası təkmilləşir. Belə ki, beynəlxalq səviyyəli layihələrdə respublika resurslarının təkrar istehsalı üçün iştirak və pay bölgüsü arasında olan prinsiplər Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu inteqrasiya siyasətidir.

Birazda online sifarişin mənfi cəhətləri istehsalçı üçün olan hissəsinə toxunmaq istəyirəm.

- Daha çox rəqabətin olması
- Kuryerin səhvinə görə mağazanı günahlandırmaq
- Fırıldağçılara görə müştəri güvənsizliyi və bunun nəticəsində müştəri ödənişi məhsulu aldığdan sora ödəniş etmə istəyi bununlada müştərilərin komissiya xərclərini nəzərə almaması.

Bəzi hallarda öncədən sifariş mütləqdir məsələn yeni il və 8 mart ərfəsində sifarilərdə ciddi şəkildə gecikmə ola bilər .Məhsulun böyük həcimdə olması kargonun yüksək qimətə olmasına gətirib çıxara bilər.Birdigər diqqət edilməliməsələrdən biridə Məşhur olmayan heç vaxt sınanmamış saytlarda alış-veriş etməməyə çalışın.Məlumatlarınızı daxil etməzdən əvvəl əvvəllər heç bir saxtakarlıq fəaliyyəti olmadığından əmin olun. Sifarişdə səhvlər hissəsinə də toxunmaq istərdim .Onlayn alış-veriş bir az risklidir, çünki keyfiyyətsiz, zədələnmiş və ya hətta tamamilə səhv əşyalar ala bilərik. Bu halda, satılan məhsulu geri qaytarıla biləcəyinə əmin olun. Uyğun olmayan əşyaların qaytarılması və dəyişdirilməsi qaydalarını və şərtlərini bildiyinizə əmin olun, adətən belə qaydalar saytda yazılır. Qaytarma haqqında məlumat tapa bilmirsinizsə, şirkətlə telefon və ya e-poçt vasitəsilə əlaqə saxlamağınız məsləhət görülür.



Online sifariş zamanl  Nə etməli?

- Mağazadan bir şey seçin, sonra internetdən eyni modeli alın
- Bir az daha çox vaxt sərf edəcəksiniz, amma pula qənaət edəcəksiniz və əmin olacaqsınız ki, sizə gələcək tam olaraq istədiyiniz kimi olacaq.

# HEYDƏR ƏLİYEV AZƏRBAYCANIN GÖMRÜK SİYASƏTİNİN BANİSİR

**Cümşüd Nuriyev.**

**Odlar Yurdu Universiteti.**

**Siyasi elmlər doktoru, professor**

nuriyevjumshud@gmail.com;

cumshud.nuriyev@list.ru

**Xülasə**

Məqalədə Ümummilli lider Heydər Əliyevin həm Ьovet dövründə, həm də müstəqillik illərində Azərbaycanın gömrük sisteminin formalaşması üçün gördüyü işlər siyasi müstəvidə araşdırılmışdır. Gəlinən nəticə ondan ibarətdir ki, Ulu Öndər həmişə Azərbaycanın siyasi və iqtisadi maraqlarının qorumuş və ölkəmizin bu günkü müasir gömrük siyasətinin memarı olmuşdur. Onun ağıllı və uzaqgörən siyasətini yüksək peşəkarlıqla icra edən Prezident İlham Əliyev bu ənənəyə sadiq qalmış və uğurla həmin siyasəti həyata keçirir.

**Açar sözlər:** Ümummilli lider Heydər Əliyev, Azərbaycan, gömrük sistemi, gömrük siyasəti, qərar, sərəncam,

**Özet**

Makalede hem Yovet döneminde hem de bağımsızlık yıllarında ulusal lider Haydar Aliyev'in Azerbaycan'ın gümrük sisteminin oluşumu için yaptığı çalışmalar siyasi düzeyde incelenmiştir. Sonuç, Büyük Önder'in her zaman Azerbaycan'ın siyasi ve ekonomik çıkarlarını koruduğu ve ülkemizin modern gümrük politikasının mimarı olduğudur. Akıllı ve ileri görüşlü politikasını yüksek bir profesyonellikle uygulayan Cumhurbaşkanı İlham Aliyev, bu geleneğe sadık kalmış ve bu politikayı başarıyla uygulamaktadır.

**Anahtar Kelimeler:** Milli lider Haydar Aliyev, Azerbaycan, gümrük sistemi, gümrük politikası, karar, düzen,

**Резюме**

В статье на политическом уровне исследована работа общенационального лидера Гейдара Алиева по формированию таможенной системы Азербайджана как в Советский период, так и в годы независимости. Делается вывод, что Великий Вождь всегда защищал политические и экономические интересы Азербайджана и был архитектором современной таможенной политики нашей страны. Президент Ильхам Алиев, с высоким

профессионализмом проводивший свою умную и дальновидную политику, остался верен этой традиции и успешно осуществляет эту политику.

**Ключевые слова:** Общенациональный лидер Гейдар Алиев, Азербайджан, таможенная система, таможенная политика, решение, указ.

**Summary**

The article examines the work of national leader Heydar Aliyev on the formation of the customs system of Azerbaijan both in the Soviet period and in the years of independence at the political level. It is concluded that the Great Leader has always defended the political and economic interests of Azerbaijan and was the architect of the modern customs policy of our country. President Ilham Aliyev, who pursued his smart and far-sighted policy with high professionalism, remained faithful to this tradition and successfully implements this policy.

**Keywords:** National leader Heydar Aliyev, Azerbaijan, customs system, customs policy, decision, order,

Azərbaycan Respublikasının gömrük sistemi xalqımızın Ümummilli lideri Heydər Əliyev tərəfindən müəyyən edilən siyasətə uyğun olaraq formalaşmış və inkişaf etmişdir. Gömrük xidmətinin ölkə iqtisadiyyatının inkişafında rolunu yüksək qiymətləndirən ulu öndər bu orqanın fəaliyyətini daim diqqətdə saxlayırdı. Hər il Yanvar ayının 30-nu gömrük işçilərinin peşə bayramı günü kimi qeyd edilməsi də məhz Heydər Əliyevin adı ilə bağlıdır. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 10 yanvar 1997-ci il tarixli Sərəncamı ilə yanvarın 30-u gömrük əməkdaşlarının peşə bayramı günü elan edilmişdir. Artıq ölkəmizdə müasir gömrük xidməti formalaşdırılmışdır.

Ümummilli lider Heydər Əliyev dövlət başçısı kimi müstəqil gümrük siyasətinin formalaşması sahəsindəki fəaliyyətini şərti olaraq iki mərhələyə bölmək olar:

1. 1969-1987-ci illəri əhatə edən sovet dövrü;
2. 1993-2003-cü illəri əhatə edən müstəqillik illəri.

Azərbaycanın dövlətçilik tarixində xüsusi yeri və rolu olan H.Əliyev 14 iyul 1969-cu ildə Azərbaycan SSR Kommunist Partiyası Mərkəzi Komitəsinin I katibi seçildikdən sonra, qısa müddət ərzində, digər sahələrlə bərabər gömrük işinin təşkili sahəsində də ciddi addımlar atıldı. Məhz Onun hakimiyyətə gəlişindən sonra gömrük sistemində uzun müddət ərzində hökm sürən qeyri-millətlərin (əsasən ermənilərin və rusların) hökmranlığına çox ustalıqla son qoyuldu.

Belə ki, H.Əliyevin təkidi ilə gömrük orqanlarındakı rəhbər vəzifələrə azərbaycanlılar təyin olunmağa start verildi. Qısa zaman kəsiyində Azərbaycan ərazisində fəaliyyət göstərən hər üç gömrükxananın (Bakı, Astara və Culfa) rəisləri vəzifəsinə milli kadrlar təyin olundu və gömrük sistemində adi vəzifələrdə çalışan azərbaycanlılar SSRİ-nin müxtəlif ali təhsil ocaqlarına oxumağa göndərildi. Tezliklə qeyri-azərbaycanlıları yerli kadrlar əvəz etməyə başladı.

Gömrük işi sahəsinə diqqəti artıran H.Əliyev Azərbaycanın gömrük tarixini araşdırtdı və ölkəmizdə ilk gömrükxananın açılmasının 175 illiyinin qeyd olunması barədə Azərbaycan

Kommunist Partiyasının Mərkəzi Komitəsi Bürosunun 31 mart 1981-ci il tarixli qərarını imzaladı.

Azərbaycan KP MKBürosunun 6 saylı protokolunun beşinci paraqrafı "Bakı gömrükxanasının 175 illiyi ilə əlaqədar tədbirlər haqqında" adlanırdı. [1].

Qərarda göstərilirdi:

1. Bakı gömrükxanasının 1982-ci ilin Fevral ayında Bakı şəhəri ictimayyətinin Bakı gömrükxanasının 175 illiyinə həsr olunmuş təntənəli yubiley keçirilməsi haqqındakı təklifi qəbul edilsin (təklif Bakı gömrükxanasının rəisi, III dərəcəli gömrük xidməti müşaviri E.M.Zülfüqarzadənin imzası ilə Azərbaycan KP MK-ya 18 fevral 1981-ci ildə 759 saylı qeydiyyatla daxil olmuşdur). Azərbaycan KP MK-nın Bakı Şəhər Komitəsi təntənəli tədbirlərin hazırlanması və keçirilməsinə lazımi köməklik göstərsin.
2. Bakı şəhər İcrayyə komitəsi Bakı gömrükxanasının binasının fasadına "Bakı gömrükxanası 7 fevral (25 yanvar) 1807-ci ildə yaradılmışdır" sözləri yazılmış xatirə lövhəsi quraşdırsın.
3. Azərbaycan KP MK-nın Xarici əlaqələr şöbəsi Bakı gömrükxanasının və 3-5 nəfər gömrük işçisinin Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin Fəxri fərmanları ilə təltif olunması barədə təkliflər hazırlasın.
4. Bakı gömrükxanasına tapşırılsın ki, 1 yanvar 1982-ci ilə qədər Bakı gömrükxanası haqqında şəkilli broşur hazırlasın və "Dövlətnəşrkom" onu çap ertsin.
5. Dövlət Teleradio Komitəsi, respublika qəzetlıərinin redaksiyaları Bakı gömrükxanasının işinə həsr olunmuş materiallar hazırlasın və çap etsin.
6. Azərbaycan SSR Nazirlər Soveti Bakı gömrükxanasının yubiley tədbirlərinin keçirilməsi ilə bağlı maliyyə və təsərrüfat məsələlərinə baxsın və həll etsin.

Bu Qərarda diqqətdən kənarda heç nə qalmamışdır. Tarixi faktın vaxtında aşkarlanması və qeyd olunması Heydər Əliyevin müstəsna xidmətidir. Çünki həmin sənəd bir daha təsdiq edir ki, Azərbaycan Rusiya İmperiyasının işğalına məruz qalsa da, ermənilərin indi yaşadıqları ərazilərində gömrük sistemi olmamışdır. 1925-ci ilə qədər İrəvan gömrük postu Naxçıvana tabe olmuşdur.

Maraqlıdır ki, H.Əliyevin Qərarın altındakı imzası ikinci dəfə hakimiyyətə gəldikdən sonra da olduğu kimi qalmışdır. Bu isə Onun həyatda daima öz prinsiplərinə sədaqətli olduğunu göstərir.

Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa olunmasından qısa müddət sonra - 1992-ci il yanvarın 30-da yaradılmış Dövlət Gömrük Komitəsi, ilk illərdə mürəkkəb ictimai-siyasi vəziyyət, vətəndaş qarşıdurması və digər səbəblərdən, sistemin qurulması, kadr siyasəti, dövlət büdcəsinin gəlir hissəsinin formalaşdırılması, ölkənin iqtisadi maraqlarının və təhlükəsizliyinin qorunması, xarici-iqtisadi fəaliyyət və idxal-ixrac əməliyyatlarına dövlət nəzarət sisteminin yaradılması, qaçaqmalçılığın və strateji əhəmiyyətli malların qanunsuz yolla ölkədən çıxarılmasının qarşısının alınması üzrə vəzifələrinin öhdəsindən gələ bilməmişdir.

1993-cü ilin iyun ayında Azərbaycanda yaranmış gərginliyi aradan qaldırmaq, ölkəni parçalanmaqdan qurtarmaq, vətəndaş müharibəsinin qarşısını almaq, dövlətin müstəqilliyini və suverenliyini itirmək təhlükəsini aradan qaldırmaq,ümumiyyətlə, Azərbaycanın bir dövlət kimi məhv olmasının qarşısını almaq üçün xalqımız öz böyük oğlunu -Heydər Əliyevi təkidlə hakimiyyətə dəvət etdi. Xalqımızın təklifini qəbul edən Ümummilli lider Heydər Əliyev

hakimiyyətə qayıtdıqdan sonra bütün sahələrdə olduğu kimi, gömrük sistemində də köklü islahatlara start verildi. 1995-ci ildən başlayaraq gömrük orqanları öz işini yenidən qurmağa başladı.

1995-ci il yanvarın 9-da Azərbaycan Prezidentinin yanında gömrük işinin təşkilinə həsr olunmuş müşavirə respublikada gömrük xidmətinin yenidən qurulması, inkişafının əsas istiqamətləri və prinsiplərini müəyyən etdi. Heydər Əliyev həmin müşavirədə Dövlət Gömrük Komitəsinin fəaliyyətini təhlil edərkən demişdir: **“Gömrük orqanları Azərbaycan öz müstəqilliyini əldə edəndən sonra yaranmışdır. Onlar fəaliyyət göstərir, ancaq mən ümumən deyə bilərəm ki, müstəqillik dövründə əldə etdiyimiz nailiyyətlərlə yanaşı, böyük nöqsanlarımız, çatışmazlıqlar da var. Bunların başlıcası iqtisadiyyatın belə vəziyyətə düşməsi, xarici ölkələrlə iqtisadi əlaqələrin sağlam, düzgün əsasda qurulmamasıdır. Bu çatışmazlıqların mövcud olmasının əsas səbəblərindən biri gömrük orqanlarının işindəki nöqsanlardır” [2].**

Gömrük sisteminin qurulmasında, kadr siyasətində, dövlət büdcəsi qarşısında öhdəliklərin yerinə yetirilməsində ciddi nöqsanlara yol vermiş və strateji əhəmiyyətli malların qaçaqmalçılıq yolu ilə ölkədən çıxarılmasına şərait yaratmış Gömrük Komitəsi rəhbərliyini tutduğu vəzifədən uzaqlaşdırmaqda dövlət başçısı Heydər Əliyevin əsas məqsədi Azərbaycan gömrük orqanlarının işinin kökündən dəyişdirilməsi, sağlam əsaslar üzərində qurulması idi.

1995-ci ilin əvvəllərindən etibarən, Dövlət Gömrük Komitəsi yeni rəhbərliyi qısa müddət ərzində kadr potensialını yeniləşdirməsi, gömrük nəzarətinin səmərəsinin və xidməti intizamın gücləndirilməsi, struktur dəyişikliklərinin həyata keçirilməsi, gömrük buraxılış məntəqələrinin texniki resurslarının möhkəmləndirilməsi və yeni gömrük postlarının yaradılması, avtomatlaşdırılmış idarəetmə sisteminə keçid, tarif-tənzimləmə sisteminin təkmilləşdirilməsi və s. tədbirlər nəticəsində respublikada gömrük işinin yenidən qurulmasına başlanıldı.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin 1997-ci il yanvarın 30-da Dövlət Gömrük Komitəsinin yaradılmasının 5-ci ildönümünə və gömrük əməkdaşlarının peşə bayramı gününə həsr edilmiş təntənəli yığıncaqdakı proqram xarakterli nitqində gömrük sistemində yaranmış problemlərin həlli yolunun tələbkarlıq və nizam-intizam, peşəkarlıq mühitinin formalaşdırılması, kadrlarla işin yenidən qurulması, hər bir gömrük işçisinin öz dövlətinə sadiqlik prinsipinin əsas meyara çevrilməsi sayəsində mümkünlüyünü göstərmiş, Azərbaycan iqtisadiyyatına zərbə vuran qaçaqmalçılığın ictimai təhlükəliliyini qeyd etməklə ona qarşı ciddi mübarizənin zəruriliyini vurğulamışdır. Heydər Əliyev Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi vəzifəsinin yerinə yetirilməsində, dünya birliyində respublikamızın demokratik, hüquqi bir dövlət olaraq tanınmasında gömrük xidmətini də mühüm dövlət orqanı kimi ön cərgədə görmək istədiyini bildirirdi: **“Azərbaycan müstəqil bir dövlət kimi daim yaşayacaq. Azərbaycanın müstəqilliyini qoruyub saxlamaq və ihkişaf etdirmək bütün istiqamətlərdə aparılan tədbirlər nəticəsində ola bilər. bu istiqamətlərdən biri də yüksək səviyyəli gömrük xidmətinin yaranmasıdır. Onun üçün bir daha qeyd edirəm, siz dünya təcrübəsindən istifadə etməlisiniz. Bizim azərbaycanda nə gömrük məktəbi, nə gömrük universiteti, nə də gömrük akademiyası olubdur... Həqiqi gömrük işini təşkil etmək üçün iki əsas şərt lazımdır. Birincisi, gömrük işçisi gərək bilikli olsun, öz peşəsini yaxşı mənimsəmiş adam olsun, mənəviyyatca təmiz olsun, öz işinə sadiq olsun, müstəqil Azərbaycanın iqtisadiyyatının möhkəmləndirilməsinə sadiq olsun. Ikinci tərəfdən, gərək onun təcrübəsi ilə, biliyi ilə yanaçşı, maddi-texhiki bazası, müasir texnikası, ləvazimatları**

**olsun. Bunları yaratmaq lazımdır. Bu da sizin vəzifənizdir... Hesab edirəm ki, sizin qarşınızda, Azərbaycan gömrük təşkilatının, Gömrük Komitəsinin qarşısında duran vəzifələr çox böyükdür və siz bu vəzifələri layiqincə yerinə yetirməyə özünüzü səfərbər etməlisiniz. Gömrük xidmətinin vəzifəsi təkcə iqtisadi xarakter daşımır, yəni gömrük xidməti Azərbaycanın dövlət müstəqilliyinin qorunması üçün lazım olan bir təşkilat kimi, eyni zamanda, başqa funksiyalar da daşıyır. Bu funksiyaların hamısını siz layiqincə yerinə yetirməlisiniz" [3].**

Dövlət Gömrük Komitəsinin rəhbərliyi Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin bu çıxışını özünün fəaliyyət proqramı kimi qəbul edərək, bu dahi İnsanın fikirlərini ardıcıl olaraq həyata keçirməyə başladılar. Prezidentin tapşırığına uyğun olaraq gömrükxanaların maddi-texniki bazası yeniləşdirilməyə başlanmaqla bərabər, dünyada mövcud olan müasir avadanlıqlar və texnika da alındı. Bu gün də həmin proses davam edir.

Dövlət Gömrük Komitəsinin rəhbərliyi altında milli kadrların yetişdirilməsi və ali təhsil ocaqlarında gömrük ixtisası üzrə təhsil alan tələbələrin dərs vəsaitlə ilə təmin olunması prosesinə start verildi. Qısa müddət ərzində azərbaycan dilində gömrük işinin əsasları, gömrük işinin təşkili, gömrük hüququ, gömrük rəsmiləşdirilməsi, gömrük ekspertizası, xarici iqtisadi əlaqələr, gömrük tarixi, gömrük əməliyyatları, gömrük prosedurları və sair haqqında dərsliklər, dərs vəsaitləri, tədris metodiki proqramlar, əyani vəsaitlər çap olundu.

Azərbaycan Respublikasının dövlət büdcəsinin formalaşmasında Dövlət Gömrük Komitəsinin rolu xeyli artırıldı, gömrük işinin iqtisadi göstəriciləri və maddi-texniki resursları, informasiya təminatı yaxşılaşdırıldı, gömrük qanun-vericiliyinin formalaşdırılması, hüquqi-normativ sənədlərin hazırlanması həyata keçirildi, Azərbaycan gömrüyünün beynəlxalq təşkilatlarla əlaqəsinin daha da möhkəmləndirilməsi və təcrübə mübadiləsi aparılması sahəsində səylər geniş xarakter aldı.

Azərbaycan Respublikasında gömrük işinin formalaşmasında onun qanunvericilik və hüquqi-normativ bazasının yaradılması əsas yer tutur. Gömrük işinin hüquqi əsaslarının yaradılması sahəsində mühüm rol oynayan, 1995-ci ildə qəbul olunan "Gömrük tarifi haqqında" Qanun (13 iyun 2013-cü ildə yeni qanun qəbul olunmuşdur) və Azərbaycan Respublikasının 10 iyun 1997-ci il tarixli qanunu ilə təsdiq edilən "Gömrük Məcəlləsi"ndə (2011-ci ilin sentyabr ayında yeni məcəllə qəbul edilmişdir)dövlətin daxili və xarici siyasətinin tərkib hissəsi olan vahid gömrük siyasətinin məqsədləri ifadə olunmuşdur [4].

Azərbaycan Respublikasında xarici ticarətin tənzimlənməsinə dair qəbul edilmiş Prezident fərmanları, Nazirlər Kabinetinin müvafiq qərar və sərəncamları, həmçinin digər hüquqi-normativ sənədlər idxal-ixrac əməliyyatlarına gömrük nəzarətinin təkmilləşdirilməsi sahəsində mühüm rol oynasa da, Gömrük Məcəlləsinin təsdiq olunması, hələ 20 iyun 1995-ci ildə imzalanmış "Gömrük tarifi haqqında" qanunun qüvvəyə minməsi gömrük işinin hüquqi bazasını daha da möhkəmləndirdi. Bu qanuna əsasən, Nazirlər Kabinetinin 12 yanvar 1998-ci il tarixli qərarı ilə "Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən və bu ərazidən çıxarılan malların gömrük qiymətləndirilməsi sisteminin tətbiqi Qaydaları" təsdiq edildi. Gömrük tarifi və valyuta tənzimlənməsi haqqında Azərbaycan Respublikasının qanunları gömrük orqanlarına valyuta nəzarətini həyata keçirmək hüququ verdi və gömrük rüsumlarının dəqiq hesablanaraq vaxtında dövlət büdcəsinə köçürülməsi tələbini qoydu. [5].

Gömrük qanunvericiliyinin inkişafında Azərbaycan Prezidentinin 27 oktyabr 1998-ci il tarixli fərmanı ilə təsdiq edilmiş Dövlət Gömrük Komitəsi haqqında Əsasnamə də mühüm yer tutur. Bu sənəddə ölkədə gömrük siyasətinin strateji məsələlərinin müəyyənləşdirilməsi və həlli mərhələsində DGK-nın funksiyaları öz əksini tapmışdır.

Azərbaycan Gömrük Təşkilatının işini dünya standartlarına yaxınlaşdıran mühüm sənədlərdən biri də Azərbaycan Respublikasının 7 dekabr 1999-cu il tarixli qanunu ilə təsdiq olunmuş "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə" oldu. Gömrük orqanlarına hüquq-mühafizə səlahiyyətinin verilməsi ona qaçaqmalçılıq və gömrük işi sahəsində digər cinayətlərin qarşısının alınmasında məqsədyönlü tədbirləri həyata keçirməyə imkan verdi.

Gömrük qanunvericiliyinin inkişafında Azərbaycan Respublioksı Prezidenti H.Əliyevin 27 oktyabr 1998-ci il tarixli 6 saylı Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respubliksı Dövlət Gömrük Komitəsi haqqında" Əsasnamə mühüm yer tutur. Əsasnaməyə görə DGK Azərbaycan Respubliokasında gömrük işi sahəsində dövlət siyasətini həyata keçirən Mərkəzi İcra hakimiyyəti orqanıdır.[6].

Ümummilli Liderin təklifi ilə gömrük siyasətinin strateji məsələlərinin müəyyən edilməsi mərhələsində DGK-ya önəmli yer verildi. Belə ki, vahid gömrük sisteminin yaradılması; xarici iqtisadi fəaliyyətin gömrük-tarif tənzimlənməsi mexanuizminin təkmilləşdirilməsi; milli bazarə xarci rəqabətin zərərli təsirlərindən qorunması; keyfiyyəsiz  və vaxtə keçmiş malların idxalının qrşısının alınması; ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi; qaçaqmalçılıq və gömrük qaydalarının pozulmasının qarşısının alınması və aradan qaldırılması; Azərbaycan xalqının bədii və arxeoloji sərvərlərinin, intellektual mülkiyyətinin, nadir flora və fauna nümunələrinin qeyri-qanuni dövriyyəsinin qarşısının alınması; valyuta əməliyyatlarına mükəmməl nəzarət sisteminin yaradılması; müasir mərhələdə gömrük siyasətinin hazırlanması və sair məsələlərdə Dövlət Gömrük komitəsinə verilmiş səlahiyyətlər Heydər Əliyevin nə qədər uzaqgörən, bacarıqlı və əvəzolunmaz dövlət xadimi olmasını bir daha sübut edir.

1998-ci ilin sentyabr ayında, "Gülüstan" sarayında Avropa İttifaqının TACİS-TRASEKA proqramının yaxından köməyi sayəsində təşəbbüskarı Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev olmaqla "Tarixi-İpək Yolunun bərpası" mövzusunda beynəlxalq konfrans keçirildi. Konfransın işində 32 ölkədən olan dövlət və hökumət başçıları, həmçinin 12 beynəlxalq təşkilat iştirak etmişdi. Forumun işi "Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin inkişafı məqsədi ilə Beynəlxalq Nəqliyyat üzrə Əsas çoxtərəfli Saziş"in və həmin Sazişə Texniki Əlavənin imzalanması ilə nəticələndi.

Bu sənədlərdə Avropa, Qara dəniz regionu, Qafqaz, Xəzər və Mərkəzi Asiya regionları arasında iqtisadi münasibətlərin, ticarət və nəqliyyat əlaqələrinin inkişafı nəzərdə tutulmuşdu.

Heydər Əliyev Dünya Gömrük Təşkilatının ölkəmizdə keçirilən bütün tədbirlərini diqqət mərkəzində saxlamış, onlarla görüşmüş və öz təkliflərini vermişdir. ÜGT Baş katibi M. Dane Bakıda «Prezident Heydər Əliyev və Azərbaycanda gömrük xidmətinin inkişafı» mövzusunda keçirilən simpoziumda dünya miqyasında Heydər Əliyev şəxsiyyətinin böyüklüyündən danışarkən demişdir: **"Mən nə vaxt Azərbaycana gəlirəmsə, mütləq onu ziyarət etməliyəm. Heç vaxt unuda bilmərəm ki, O,  Azərbaycan və dünya gömrüyü üçün nə qədər möhtəşəm işlər görüb. Azərbaycan iqtisadiyyatının inkişafı, xalqın rifah halının yüksək səviyyəyə qalxması üçün əlindən gələni əsirgəməyib. Heydər Əliyev hər zaman düşünürdü ki, ölkə iqtisadiyyatının modernləşməsində gömrüyün rolu böyükdür. ÜGT Regional Tədris**

**Mərkəzinin Bakıda fəaliyyətə başlaması da məhz onun xidmətlərindəndir. Reallaşdırmaq istədiyimiz bütün məsələlərdə hər zaman bizə dəstək oldu. Doğrudur, cismən aramızda olmasa da, O, daim hər birimizin qəlbindədir. Azərbaycanın yeni prezidenti cənab İlham Əliyevlə də gözəl əlaqələrimiz var. Bu gün İlham Əliyev də eyni şəkildə bizi dəstəkləyir ki, daha böyük işlər görək" [7].**

Ölkə prezidenti olarkən, bütün türk dünyasının Lideri səviyyəsinədək yüksəlmiş, İslam ölkələrinin ən parlaq siyasi liderlərindən biri olan Heydər Əliyevin təklifi və təşəbbüsü ilə həyata keçirilmiş, Azərbaycan Respublikasının siyasi həyatında mühüm əhəmiyyət kəsb edən aşağıdakı xidmətləri qeyd etmək lazımdır:

1. Hal-hazırda ümummilli liderin adını daşıyan Heydər Əliyev Hava Limanının tikilməsi. Hava limanında maddi-texniki bazasına və müasir avadanlıqlarla təzhizatına görə gömrük işinin təşkili dünya standartları səviyyəsindədir;
2. Naxçıvan Muxtar Respublikasının paytaxtı Naxşıvan şəhərində beynəlxalq standartlara cavab verən hava limanının tikilməsi və müasir tələblərə cavab verən gömrük işinin təşkili;
3. Bakı, Naxçıvan, Lənkəran, Astara, Biləsuvar, Tovuz, qazax, Balakən, Xaçmaz və Qusarda müasir standartlara cavab verən gömrük orqanlarının binalarının və keçidlərinin tikilməsi və ya bəzilərinin rekonstruksiyası;
4. Türkiyə Cümhuriyyəti və İran İslam respublikası ilə sərhədyanı bölgələrdə yaşayanların vizasız gediş-gəlişi üçün sazişlərin imzalanması;
5. Gömrük sisteminin təmərküzləşməsi, vahid uniforma və digər atributların hazırlanması və qəbul edilməsi;
6. Dövlət Gömrük komitəsinin dünya arenasında özünəməxsus yer tutması və Ümumdünya Gömrük Təşkilatında aparıcı gömrük orqanlarından birinə çevirilməsi strategiyası;
7. Gömrük terminallarının yaradılması;
8. Mütərəqqi gömrük siyasətinin formalaşdırılması;
9. Müstəqil Dövlətlər Birliyi məkanında ən yaxşı müasir texnika ilə təmin olunmuşgömrük sisteminin yaradılması;
10. Azərbaycan Respublikası və İran İslam Respublikası arasında Astara-Astara dəmir yolunun çəkilməsinə razılığın alınması (Ümummilli Liderin bu ideyası Azərbaycan respublikasının Prezidenti İlham Əliyev tərəfindən artıq həyata keçirilib);
11. Azərbaycan sərhədlərinin möhkəmləndirilməsi ilə bağlı gördüyü tədbirlərin nəticəsində qaçaqmalşılığın və narkotok vasitələrin olkə ərazisindən keşirilməsinin qarşısının alınması;
12. Qəzet kağızlarının əlavə dəyər vergisi və gömrük rüsumlarından azad edilməsi;
13. Ölkəyə idxal edilən qəzet və jurnalların əlavə dəyər vergisindən azad edilməsi;
14. Dövlətin mühün atributlarından biri olan gömrük sisteminə sərbəst fəaliyyət qazandırılması və onun mühüm ideologiyaya çevrilməsi;
15. Gömrük orqanlarının təşəbbüsü ilə keçirilən beynəxalq tədbir iştirakşılarının və xaici ölkələrin gömrük orqanları rəhbərlərinin prezident tərəfindən qəbul olunması ənənəsi;
16. Azərbaycan Respublikasının müstəqilliyinin və suverenliyinin qorunması sahəsində Dövlət Gömrük Komitəsinin mühüm hailiyyətlər qazanması [8].

Gömrük işinin təşkil edilməsi və gömrük siyasətinin formalaşdırılması üçün Ümummilli Lider 23 Qanun, 6 fərman və 23 Sərəncam imzalamışdır. Ümummilli liderin gömrük orqanları üçün verdiyi tövsiyələr bu gün də gündəlik işdə rəhbər tutulmaqdadır.

Memarı və qurucusu xalqımızın Ümummilli lideri Heydər Əliyev olan müstəqil Azərbaycan dövləti genişmiqyaslı inkişaf yolu ilə uğurla addımlayır. Bu dövr ərzində dünya təsərrüfatına inteqrasiya istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər, sosial-iqtisadi islahatlar Azərbaycanın beynəlxalq aləmdə nüfuzunu qaldırmış və dünya birliyində layiqli mövqe tutmasını təmin etmişdir.

Ədalət naminə qeyd etmək lazımdır ki, yalnız hərtərəfli dünyagörüşünə malik, ictimai-siyasi hadisələrdən, mürəkkəb və çətin proseslərdən baş çıxaran şəxsiyyət xalqını öz arxasınca apara bilir və onu idarə etməyi bacarır. Möhtərəm Prezidentimiz İlham Əliyevin fəaliyyəti buna parlaq misaldır. Ümummilli liderimiz Heydər Əliyevin siyasi kursu bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir, ölkədə genişmiqyaslı iqtisadi və sosial tədbirlər həyata keçirilir.

İstifadə olunmuş ədəbiyyat:

1. https://files.preslib.az/projects/toplu/v2/f3_1.pdf
2. C.Q.Nuriyev, A.Ə.Əliyev, M.C.Atakişiyev. «Gömruk işinin təşkili və idarə edilməsi». Ali məktəblər üçün dərslik (yenidən işlənmiş və tamamlanmış variantda). Azərb. dilində. Bakı, 2009. 293 səh.
3. C.Q.Nuriyev, V.İ.Əliyev, S.N.Axundov. Azərbaycan gömrüyü 25. Bakı-2017, 240 s.
4. http://anl.az/down/meqale/azerbaycan/2010/may/118515.htm
5. https://e-qanun.az/framework/26154
6. https://e-qanun.az/framework/16660
7. https://e-qanun.az/framework/5559
8. C.Q.Nuriyev. Azərbaycanın Gömrük tarixi. Bakı, "Qarabağ" nəş.-2007. 204 səh.

# RƏQƏMSAL IQTISADIYYATDA BIZNES RISKLƏRININ IDARƏ EDILMƏSI

## Business risk management in the digital economy

### Управление рисками в бизнесе в условиях цифровой экономики

**Sevinc İmamyar qızı**

**Odlar Yurdu Universiteti**

**“İqtisadiyyat və iqtisadi münasibətlər” kafedrası**

**Xavər Namizəd qızı**

**Odlar Yurdu Universiteti**

**“İqtisadiyyat və iqtisadi münasibətlər” kafedrası**

**Xülasə**

Məqalədə texnoloji sxemlərin dəyişməsi ilə müşayiət olunan iqtisadi turbulentlik şəraitində müəssisələrə daha əsaslı qərarlar qəbul etməyə imkan verən risklərin idarə edilməsi məsələlərindən bəhs edilir. Tədqiqat göstərdi ki, risklərin idarə edilməsi funksiyasının rəqəmsal transformasiyaya lazımi səviyyədə hazır olması ilə müəssisə sürətlənmiş dəyişiklik tempi, rəqəmsallaşmaya investisiyalardan gözləntiləri aşmaq, eləcə də davamlı inkişafı təmin etmək kimi bir sıra üstünlüklər əldə edir. Məqalə rəqəmsal transformasiya zamanı risklərin idarə edilməsinin əsas aspektlərini vurğulayır. Belə qənaətə gəlinir ki, rəqəmsal transformasiya kontekstində biznesin idarə edilməsinə ağlabatan yanaşma o halda mümkündür ki, biznes riskləri nəzərə alaraq məlumatlı və əsaslandırılmış biznes qərarları qəbul etmək üçün hər gün kifayət qədər məlumat və məlumat əldə etsin.

**Açar sözlər:** risklərin idarə edilməsi, rəqəmsal transformasiya, qeyri-müəyyənlik, rəqəmsal texnologiyalar.

**Резюме**

В статье рассматриваются вопросы управления рисками, которое позволяет предприятиям принимать более обоснованные решения в условиях экономической турбулентности, сопровождающей смену технологических укладов. Исследование показало, что при должном уровне готовности функции управления рисками к цифровой трансформации, предприятие получает ряд преимуществ таких, как ускоренные темпы изменений, превышение ожиданий от инвестиций в цифровизацию, а также обеспечение устойчивого развития. В статье освещены ключевые аспекты управления рисками в ходе цифровой трансформации. Сделан вывод, что разумный подход к управлению бизнесом в условиях цифровой трансформации возможен, только если бизнес каждый день получает достаточно данных и информации для принятия осознанных и обоснованных бизнес-решений с учетом рисков.

**Ключевые слова**: управление рисками, цифровая трансформация, неопределенность, цифровые технологии.

**Summary**

The article deals with the issues of risk management, which allows enterprises to make more informed decisions in the conditions of economic turbulence that accompanies the change of technological patterns. The study showed that with the proper level of readiness of the risk management function for digital transformation, the enterprise receives a number of benefits, such as an accelerated pace of change, exceeding expectations from investments in digitalization, as well as ensuring sustainable development. The article highlights the key aspects of risk management in the course of digital transformation. It is concluded that a reasonable approach to business management in the context of digital transformation is possible only if the business receives enough data and information every day to make informed and informed business decisions, taking into account risks.

**Key words:** risk management, digital transformation, uncertainty, digital technologies.

Xarici mühitdə yüksək turbulentliklə səciyyələnən müasir biznes şəraiti, qloballaşma prosesləri, yeni bazarların yaranması, yeni texnologiyaların yaranması və mürəkkəbliyi, istehlakçı tələbatının dəyişməsi və onun strateji davamlılığı biznesin dayanıqlı inkişafına təsir edən risklərin yaranmasına səbəb olur. İqtisadi proseslərin rəqəmsal transformasiyası kontekstində təsərrüfat subyektlərinin risklərinin idarə edilməsi problemi xüsusi aktuallıq kəsb edir. Müəssisələrin fəaliyyəti investisiya, sənaye, istehsal və digər fəaliyyətlər nəticəsində yaranan müxtəlif risk növləri ilə əlaqələndirilir. Risklərin idarə edilməsi təşkilatın idarəetmə sisteminin bir hissəsidir, performansın səmərəliliyinə nail olmağa kömək edir, səhv qərar qəbul etmə ehtimalını azaldır və mənfi hadisələrin mənfi nəticələri riskini azaldır.

Mövcud şəraitdə bu risklərin müəyyənləşdirilməsinə, eləcə də onların idarə olunması probleminin həllinə ehtiyac var. Qeyd etmək lazımdır ki, ən ciddi problemlərdən biri strateji dayanıqlılıq üçün risklərin idarə edilməsi sistemini hazırlayarkən və tətbiq edərkən müəssisələrin müəyyən bir zamanda olduqları inkişaf mərhələsini, risklərin idarə edilməsi sistemi və mövcud olanların yetkinliyini nəzərə almamasıdır. [1].

Müasir şəraitdə sənaye təşkilatlarında risklərin idarə edilməsi sistemlərinin tətbiqi strateji məqsədlərə nail olmağa, təşkilatın dəyərini artırmağa, biznesin səmərəliliyini və effektivliyini təmin etməyə kömək edir ki, bu da əsasən həm qısa, həm də uzunmüddətli perspektivdə strateji dayanıqlığın təmin edilməsinə yönəlib.

Müasir şəraitdə biznes strukturlarının fəaliyyətində iqtisadi proseslərin rəqəmsal transformasiyası proseslərini nəzərə almaqla risklərin idarə edilməsi sisteminin nəzərdən keçirilməsi məqsədəuyğundur. Rəqəmsal transformasiya iş yerlərinin və gəlirlərin yaradılması üçün bütün strategiyaların dəyişdirilməsi, rəqiblərə müqavimət göstərən çevik idarəetmə modelinin tətbiqi, dəyişən tələblərə tez cavab verilməsi, əməliyyatların rəqəmsallaşdırılması və təchizat zəncirində genişləndirilmiş əlaqələrin formalaşdırılması üçün biznesin yenidən nəzərdən keçirilməsi prosesidir; dizayn, istehsal, marketinq, satış, təqdimat və məlumatlara əsaslanan idarəetmə modellərində İnternetdən funksional istifadə.

McKinsey & Company-yə görə, rəqəmsal transformasiya daim dəyişən və inkişaf edən rəqəmsal iqtisadiyyatda müştərilərə və işçilərə yeni dəyər təqdim etmək üçün texnologiyaların, biznes modellərinin və proseslərin yenidən qurulmasıdır [2]. Rəqəmsal transformasiyanın

sürəti əslində istehlakçıların ehtiyacları ilə müəyyən edilir: məhsulun hazırlanmasından istehsala qədər olan müddət qısalır, bazara çıxarılma vaxtı qısalır, istehlakçıların ehtiyaclarını tez ödəyən məhsul çeşidi optimal və daha sürətli qərar qəbul etməklə mümkün olur. istehsalın hər mərhələsində rəqəmsal məlumatlar əsasında proseslərin yaradılması. Bu proses əməliyyatların məhsuldarlığını artırır və onların xərclərini azaldır. Klassik biznes modelləri yox olur və onların yerini çevik, anında dəyişən biznes modelləri tutur.

İqtisadi proseslərin rəqəmsal transformasiyası kontekstində risklərin idarə edilməsi fəaliyyətləri müəssisənin sabit inkişafına risk hadisələrinin təsirinin potensial nəticələrinin miqyasından xəbərdar olan bütün səviyyələrdə menecerlərin diqqətini getdikcə daha çox cəlb edir. Risklərin idarə edilməsi sisteminin yaradılması prosesi kifayət qədər uzun vaxt aparır və əhəmiyyətli inzibati və insan resurslarının cəlb edilməsini tələb edir. Risklərin idarə edilməsi sisteminin qurulması metodologiyası fəaliyyətin xüsusiyyətlərindən, davam edən biznes proseslərindən, biznes mühitindən, daxili və xarici maraqlı tərəflərdən və digərlərindən asılı olaraq hər bir müəssisə üçün həmişə fərdi olur.

Hədəf risk idarəetmə modeli aşağıdakı komponentləri əhatə edir:

• risklərin idarə edilməsi infrastrukturu;

• strateji və biznes planlaşdırma proseslərinin bir hissəsi kimi risklərin idarə edilməsi;

• risklərin idarə edilməsi üçün kifayət qədər resursların təmin edilməsi;

• risklərin idarə edilməsi prosesində rol və məsuliyyətlər bütün iştirakçılar tərəfindən müəyyən edilir və başa düşülür;

• rəhbərlik risklərin idarə edilməsi siyasətini müəyyən edir və saxlayır;

• təşkilat risklərə təsir etmək üçün yanaşmaları müəyyən edir;

• təşkilatın riskləri riskin əhəmiyyətini qiymətləndirmək üçün istifadə olunan meyarlar daxilindədir;

• risklər haqqında daimi məlumat mübadiləsi aparılır;

• monitorinq və davamlı təkmilləşdirmə aparılır.

Effektiv risklərin idarə edilməsi sisteminin qurulması hazırda müəssisənin davamlılığını təmin edən əsas amildir. Risk hadisələrinin idarə edilməsi strateji və əməliyyat proqramlarının və layihələrinin tərkib hissəsinə çevrilməlidir.

Bu baxımdan, yaranan riskləri vaxtında müəyyən etməyə və onlara operativ reaksiya verməyə imkan verən effektiv risk idarəetməsinin qurulması məsələləri aktualdır. Bir çox sənaye təşkilatlarında, onların inkişaf mərhələsinə, habelə mövcud risklərin idarə edilməsi sisteminin yetkinlik səviyyəsinə uyğun gələn risklərin idarə edilməsi sisteminin formalaşdırılması yolu ilə təşkilatın strateji dayanıqlığının idarə edilməsinə ehtiyac artır.

Müəssisədə risklərin idarə edilməsinin təşkili altı mərhələdə baş verir:

1. Risklərin idarə edilməsi sisteminin formalaşdırılması şəraitinin və məqsədlərinin müəyyən edilməsi. Riskin dəqiq qiymətləndirilməsi və azaldılması üçün onun yarandığı şəraiti tanımaq vacibdir. Riskin sərhədlərinin müəyyən edilməsi təşkilat və bu riskin mövcud olduğu mühit arasında əlaqəni müəyyən etməyə kömək edəcəkdir.

2. Risklərin müəyyən edilməsi (diaqnozu). Riskin identifikasiyası müəyyən edilmiş təhlükələrlə əlaqəli xüsusi risklərin müəyyən edilməsi prosesidir. Bütün risklər ayrı-ayrı layihə səviyyəsində daha böyük və əhəmiyyətli risklərdən tutmuş kiçik risklərə qədər aydın şəkildə müəyyən edilməli və sənədləşdirilməlidir. Rəqəmsal indikativ xidmətlər toplusundan istifadə etməklə risklərin müəyyənləşdirilməsi prosesinin səmərəliliyini artırmaq üçün ən böyük funksionallığa malik olan və risklərin müəyyənləşdirilməsi prosesinin səmərəliliyini artırmağa imkan verən yeni veb platformaları müəyyən etmək üçün İnternet resurslarına daim nəzarət etmək tövsiyə olunur.

3. Riskin qiymətləndirilməsi. Müəyyən edilmiş müxtəlif riskləri başa düşmək və bu xüsusi riskin nə qədər təhlükəli və nə qədər ehtimal olduğunu müəyyən etmək. Qiymətləndirmə iki amili nəzərə alır: əhəmiyyət və ehtimal. Bu mərhələyə müəyyən edilmiş hər bir riskin baş vermə ehtimalının və təsirinin qiymətləndirilməsi və risklərin qısa siyahısının tərtib edilməsi daxildir. Risk kiçik və ya məqbuldursa, kiçik düzəlişlərlə davam etdirilə bilər. Lakin gələcəkdə onlara daim nəzarət edilməlidir. Risk yüksəkdirsə, ilkin planın həyata keçirilməsindən əvvəl prioritet məsələ kimi azaldılmalıdır. Riskin təhlili və qiymətləndirilməsi kəmiyyət və keyfiyyət göstəricilərini təmin edir. Xüsusilə, özəl riskin aktivləşmə ehtimalının və təsirinin qiymətləndirilməsi xarici mühitin təhlili yolu ilə həyata keçirilir, burada xəbər axını, ictimaiyyətə açıq makroiqtisadi göstəricilər, konsaltinq şirkətlərinin və ya yüksək ixtisaslı mütəxəssislərin analitik tövsiyələri təhlil edilən məlumat kimi istifadə edilə bilər. . Bu modellərin müəssisə strukturunun biznes proseslərinə modelləşdirilməsi və ekstrapolyasiyası üsullarından istifadə etməklə risk dəyərinin dəyərini qiymətləndirmək tövsiyə olunur.

4. Təsir üsullarının seçimi. Şirkətin bütün əsas riskləri müəyyən edildikdən sonra şirkət bu risklərə məruz qalmanın ölçülməsi üçün ardıcıl yanaşma inkişaf etdirməlidir. Əks təqdirdə, şirkət eyni riskə məruz qalan iki (və ya daha çox) bölməyə fərqli kapitalın ayrıldığı çətin vəziyyətə düşə bilər. Bu, şirkət daxilində münaqişəyə səbəb ola bilər.

Bundan əlavə, bütün müəyyən edilmiş risklər haqqında məlumat toplamaq və daim yeniləmək lazımdır. Bununla əlaqədar olaraq, şirkət müxtəlif şöbələrə öz məlumatlarını ötürməyə imkan verən, lakin ümumi riskləri birləşdirməyə imkan verən formatda mərkəzləşdirilmiş İT sisteminə malik olmalıdır. Risklərin idarə edilməsi proseslərinin səmərəliliyinin artırılması məqsədilə müxtəlif messencerlərdən istifadə etməklə effektiv məlumat mübadiləsi kanallarının yaradılmasının təmin edilməsi tövsiyə olunur. Belə kanallar risklərin idarə edilməsi proseslərinin iştirakçıları arasında şaquli və üfüqi qarşılıqlı əlaqələri əhatə etməlidir. Korporativ messencerlərin əhəmiyyəti 2020-ci ildə, geniş yayılmış kilidləmə və şirkətlərin uzaq formata keçid dövründə nəzərəçarpacaq dərəcədə artdı. Ən sadə variant kimi Telegram, Viber, Whats App və s. kimi platformalardan istifadə etmək olar [3].

5. Risklərin monitorinqi və təhlili. Monitorinq və nəzərdən keçirmə işlənmiş nəzarət mexanizmlərinin riskin yaratdığı təhlükəyə təsirinin başa düşülməsini əhatə edir.

6. Nəticələrin qiymətləndirilməsi. Biznes sahiblərinin və rəhbərliyin nəinki əsas risklərin mövcud olduğunu anlamaları, həm də şirkətin artıq nə etdiyini və risklərin reallaşmaması və səhmdarların məqsədlərinə çatması üçün başqa nə etmək lazım olduğunu anlamaları vacibdir.

Beləliklə, risklərin idarə edilməsi təşkilatda mümkün risklərin erkən müəyyən edilməsi, təhlili və cavab tədbirləri təcrübəsidir. Risklərin idarə edilməsinin tətbiqi mürəkkəb bir prosesdir, çünki o, müəssisənin bütün işçilərindən işin strukturunu aydın şəkildə başa düşməyi

və sistemin dəyərini dərk etməyi tələb edir. Menecerlər bütün işçilərə vurğulamalıdırlar ki, bu, müəssisənin öz biznes strategiyasını həyata keçirməsinə kömək edəcək və hər kəsə peşəkar nüfuzu və karyera perspektivləri baxımından faydalı təsir göstərəcək bir vasitədir. Rəqəmsal transformasiya kontekstində risklərin idarə edilməsinin aşağıdakı prinsiplərini ayırd etmək olar:

1. Maksimum qələbə. Maksimum qazanc prinsipinin mahiyyəti ondan ibarətdir ki, bütün mümkün investisiya alternativləri arasından aşağı və investor üçün ən məqbul olan risklərdə iqtisadi nəticələrin yüksək səmərəliliyini təmin edən biri seçilir.

2. Optimal nəticə dəyişkənliyi. Optimal nəticə dəyişkənliyi prinsipinin mahiyyəti ondan ibarətdir ki, qəbul edilən qərarların bütün mümkün alternativləri arasından, şirkətin inkişafı ilə bağlı strateji mövqedən seçimin qalib gəlmək və uduzmaq şansı olan birinə verilir. eyni kapital qoyuluşlarında cüzi bir geriləmə var.

3. Optimal nəticə ehtimalı. Praktikada bu prinsipin istifadəsi, bir qayda olaraq, optimal dəyişkənlik prinsipi ilə birləşdirilir.

4. Qazanc və riskin birləşməsinin optimallığı. Mükafat və riskin optimal birləşməsi prinsipinin əsas xüsusiyyəti ondan ibarətdir ki, menecer proqnozlaşdırılan mükafat və risk səviyyəsini təhlil etməli, həmçinin proqnozlaşdırıla bilən bir mükafat əldə etməyə imkan verən bir əməliyyata kapital yatırmaq barədə qərar verməlidir, lakin eyni zamanda yüksək risk səviyyəsinə diqqət yetirin. .

Çevik risk idarəetmə sistemi aşağıdakı prinsiplərə əsaslanmalıdır:

1. Komandanın diqqəti. Risklərin idarə edilməsinin hər bir iştirakçısı əsas məqsədə çatmaq üçün ona və bütün komandaya həvalə edilmiş vəzifələri, bu vəzifələrin həllinə cəlb olunan alətləri, resursları başa düşməlidir.

2. Çarpaz funksionallıq - strateji məqsədə nail olmaq üçün müxtəlif şöbələrin əməkdaşlarının ideya və həll yollarını yaradan vahid qrupda birləşməsini nəzərdə tutur. Beləliklə, komandanın məhsuldarlığı artır və hazırlanmış həllərin təşkilat daxilində yüksək dərəcədə inteqrasiyası təmin edilir.

3. İterativ dedikdə işin 1-3 həftəlik kiçik sabit vaxt intervallarında aparılması, hər zaman intervalının sonunda məhsulun kiçik, lakin işlək variantının yaradılması nəzərdə tutulur.

4. Əlaqə - risklərin idarə edilməsi prosesinin iştirakçıları ilə maksimum qarşılıqlı əlaqəni və məlumat mübadiləsini nəzərdə tutur ki, bu da toplanmış təcrübə hesabına komandanın işini optimallaşdırmağa imkan verir.

5. Müstəqillik - işçilərin səlahiyyətlərinin artırılmasını nəzərdə tutur. Daha çox müstəqilliyin verilməsi işçilərin məsuliyyətini və təşəbbüskarlığını stimullaşdırır, risklərin idarə edilməsi mədəniyyətinin səviyyəsini artırır.

Risklərin idarə edilməsi prosesində riskin əhəmiyyətinin göstəricisinə xüsusi diqqət yetirilməlidir. Onun dəyəri nə qədər yüksək olsa, bu tip riskin idarə edilməsi prosesi bir o qədər baha başa gələcək. Əhəmiyyəti yüksək olan risklər uzunmüddətlidir və tükənmiş resurslar və azalan gəlirlər fonunda onları idarə etməyi çətinləşdirir.

Risklərin idarə edilməsi proseslərinin səmərəliliyini artırmaq üçün 3 aya qədər müddətə müəyyən edilmiş risklərin aktivləşmə ehtimalının yenidən qiymətləndirilməsi ilə hər ay xarici

mühitin planlı təhlilinin aparılması məqsədəuyğundur. Proqnozlaşdırılan riskin aktivləşməsi ehtimalının artması əməliyyat tədbirlərinin hazırlığının əlavə yoxlanılması və xarici vəziyyətdəki dəyişikliklər nəzərə alınmaqla onlara əlavələrin hazırlanması üçün bir siqnal ola bilər.

Xarici mühitin planlaşdırılmış təhlili əvvəllər müəyyən edilmiş risklərin yenidən qiymətləndirilməsi ilə müşayiət olunmalıdır, eyni zamanda risk parametrlərində dəyişikliklərin göstəricisindən istifadə etmək məqsədəuyğundur. Göstərici göstəriciləri risklərin idarə edilməsi üzrə qabaqlayıcı tədbirlərin həyata keçirilməsi ilə əlaqədar əsas risk parametrlərində baş verən dəyişiklikləri əks etdirir və riskdən əvvəlki mərhələdə risklərin idarə edilməsinin effektivliyinə işarə edən göstərici kimi çıxış edir.

Rəqəmsal texnologiyalar, bir qayda olaraq, öz dinamikliyi, hadisələrin unikallığı və yüksək qeyri-müəyyənlik dərəcəsi ilə seçilir. Rəqəmsal texnologiyaların tətbiqi prosesində tez-tez aşağıdakı maneələr yaranır: müəssisənin rəqəmsallaşmasına kifayət qədər hazırlıq olmaması, obyekt haqqında tam məlumatın olmaması, layihə iştirakçılarının lazımi səriştə və bacarıqlarının olmaması, səmərəsiz biznes prosesləri və gözlənilməz xərclər. təşkilatda risklərin idarə edilməsi sisteminin formalaşdırılması ehtiyacı.

Beləliklə, menecerə idarəetmə sahəsində qərarların qəbul edilməsinin bütün mərhələlərində təhlilin nəticələrinə əsasən təhlil və tövsiyələr verən müəssisənin müəyyən şöbəsi səviyyəsində risklərin idarə edilməsinin həyata keçirilməsi məqsədəuyğundur. Uğurlu risklərin idarə edilməsi üçün əsas amillərdən biri iqtisadi subyektlərin fəaliyyətində idarəetmə mədəniyyətinin, yəni qərarların qəbulu və həyata keçirilməsi mədəniyyətinin tərkib hissəsi olması və davamlı inkişafı olmalıdır.

Sonda demək istərdik ki, şirkətin fəaliyyətində təşkilati risklərin idarə edilməsi onun uğurlu fəaliyyəti üçün böyük əhəmiyyət kəsb edir, çünki o, xarici və daxili ətraf mühit amillərindəki dəyişikliklərə tez reaksiya verməyə, riskin təsirini minimuma endirməyə və şirkəti qorumağa imkan verir. mənfi nəticələrdən. Bununla belə, işçilərin riskə münasibətini qəsdən və idarə oluna bilən şəkildə dəyişdirəcək, daha yetkin risk mədəniyyəti yaratmağa imkan verəcək ən yaxşı variantı tapmaq üçün risk mədəniyyəti nümunələrinin daha dərindən araşdırılması tələb olunur.

**Ədəbiyyat siyahısı:**

1. Гранатуров В. М. Экономический риск: сущность, методы измерения, пути снижения. М.: Дело и сервис. 2010.

2. Махмудова Н. Ж. Оценки рисков промышленного предприятия // Наука сегодня: фундаментальные и прикладные исследова. 2021.

3. Беланова Н.Н. Оценка ключевых бизнес-рисков компаний // Креативная экономика. – 2022

# MÜASİR DÖVRDƏ BIZNES STRATEGIYASININ TƏŞKILI VƏ IDARƏ EILMƏSININ NƏZƏRI ƏSASLARI

**Odlar Yurdu Universiteti**

B.m.: Əliyeva Hafizə Zirəddin qızı

Müəllim: Ələkbərova Fəridə Asif qızı

**Xülasə**

Məqalədə müəssələrini səmərəli fəaliyyətinin həyata keçirilməsinin əsasını təşkil edən biznes strategiyasının mahiyyəti araşdırılır. Bu məqsədlə, məqalədə biznes strategiyasının seşilməsi prinsipləri dünya təcrübəsi əsasında tədqiq edilir.

Məqalənin sonunda isə ölkəmizin biznes fəaliyyətinin strateji istiqamətləri nəzərə alınaraq, respublikanın müəssisələrində biznes strategiyasının formalaşdırılması istiqamətləri təklif eailir.

**Açar sözlər:** biznes, strategiya, müəssisə, fəaliyyət, marketinq, idarəetmə

**Резюме**

В статье müəssələrin эффективной деятельности, составляющих основу осуществления в суть стратегии бизнеса. С этой целью, в статье бизнес стратегии seşilməsi принципов, на основе мирового опыта исследуется.

В конце статьи, а в нашей стране стратегические направления деятельности с учетом республики, на промышленных предприятиях бизнес стратегии формирования направления предложение.

**Ключевые слова:** Стратегия бизнеса, маркетинга, управления, предприятий, деятельность,

**Abstract**

In the article the effective operation of industrial facilities that investigated the nature of the business strategy. To this end, an article in business strategy on the basis of international experience is being studied seşilməsi principles.

At the end of the article and the strategic directions of the business of the country, taking into account the proposals of the formation of business strategy at eailir areas.

**The key words**: Business, strategy, enterprise, activity, marketing, management

Hal hazırda, müasir dövrdə Azərbaycan Respublikasında bazar münasibətlərinin inkişafı, iqtisadi-təsərrüfat əlaqələrinin genişləndirilməsi üçün son illər ölkədə güclü islahatlar aparılmış, dövlət səviyyəsində zəruri tədbirlər həyata kecirilmişdir. Bu isə bazar münasibətlərinə əsaslanan iqtisadiyyatın formalaşması və inkişafına təsir göstərməklə bilavasitə biznez fəaliyyətinə yönəldilmışdir.

Ulu öndərimiz H.Ə.Əliyevin 10 sentyabr 2002-ci ildə Azərbaycan Respublikasında "Sahibkarlığın inkişafına dövlət himayəsi sayəsində əlavə tədbirlər" haqqında Fərmanı

Respublikada biznes fəaliyyətinin, sahibkarlığın inkişafına böyük təkan verdi. Davamlı olaraq "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafına Dövlət Proqramında", "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)", "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2009-2013-cü illər)" istər bütövlükdə ölkədə, istərsə də region və bölgələrdə biznes fəaliyyətinin inkişafında böyük rol oynamışdı.

Biznes sisteminə işgüzar münasibətlərin subyektləri, biznesin infrastukturu, idarəetmə sistemi (menecment), marketinq, fəaliyyetin qiymətləndirilməsi və s. aiddir.

Biznesin nəzəriyyə və praktikası işin təşkili və idarə olunmasına müxtəlif strateji yanaşmalar hazırlamışdır. Bu daxili amillərin məcmusu, müvafiq biznes sahəsindəki tendensiya, qarşıya qoyulmuş məqsədin xarakteri və bir sıra digər amillərlə şərtlənir

Biznes strategiyasının seçilməsi maliyyə vəsaiti tələb edir. Belə ki, hücum strategiyasında prinsipcə yeni texnoloji qərarların hazırlanmasına, müdafiə strategiyasında texnoloji təkmilləşdirməyə əlavə pul vəsaiti sərf olunur. Hərçənd ki, hər bir strategiyanın həyata keçirilməsi nəticəsində firma müəyyən uğur qazanmaqla yanaşı iflasa da uğraya bilər. Çünki, hər bir strategiyanın özünəməxsus riskləri və gözlənilməz nəticələri vardır. Deməli, dayanıqlı, uğurlu fəaliyyət göstərmək üçün sahibkar müxtəlif növ strategiyaları əlaqələndirməyi, istehsal prosesində bir strategiyadan digər strategiyaya keçməyi və ən səmərəli strategiya növünü seçməyi bacarmalıdır. Bazar konyukturunun dəyiçilməsinə daha taz reaksiya verməyi bacaran, risklərdən qorxmayan və yeni mükəmməl texnoloji qərarları asanca qəbul edən sahibkar öz fəaliyyətində çox vaxt müvəffəqiyyət qazanır.

İqtisadçı P. Druker tərəfindən müəyyən edilmiş hücum strategiyasının növlərini nəzərdən keçirək. Onlar sahibkarlıq xarakteri daşıyır, müəssisənin konkret şəraitinə uyğun olaraq hazırlanmasına xüsusi təşəbbüskar və yaradıcı yanaşma reallaşmasında isə məqsədyönlülük və israrlıq tələb edirlər.

«Kütləvi zərbə» strategiyası sahibkarı yeni bazarlarda yaxud yeni sahələrdə lider mövqelərini zəbt etməyə yönəldir. Lakin bu bütün sahibkarlıq strategiyaları arasında ən risklisidir. O, səhvləri bağışlamır və öz bəxtini yenidən sınamağa imkan yaratmır, yalnız hərdənbir. Baxmayaraq ki, «kütləvi zərbə» strategiyasında uğurlu sonluq zamanı böyük nəticələr əldə olunur və bu, çox zaman uğursuzluqla, tənəzzüllə nəticələnir. Bu strategiyanın yalnız məhdud həcmli yeniliklərindən istifadəyə münasibətdə həyata keçirilməsi məqsədəuyğundur. Belə ki, yeniliklərin tətbiqi mənbələri və onların dinamikasının dərin təhlili və düzgün anlanmasını və eləcə də qüvvələrin və çoxlu miqdarda resursların fövqəladə mərkəzləşdirilməsini tələb edir.

Bu strategiyanı əsas götürərək «Dyupon» kompaniyası ağır əmək sayəsində yeni neylon sintetik lifini yaradaraq, kütləvi praktiki fəaliyyətə-bir neçə iri zavodun tikilməsinə və iri reklam kompaniyasının aparılmasına başlamışdır. Şirkətin cəhdləri möhtəşəm uğurla – yeni istehsal sahəsinin yaradılması ilə nəticələnmişdir.

Müdafiə, yaxud sağalma strategiyası müəssisə tərəfindən bazar payının saxlanmasını və bazardakı mövqeyinin qorunmasını nəzərdə tutur.

Müdafiə strategiyası firmanın malik olduğu bazar payının və bazardakı mövcud durumunun, mövqeyinin qorunmasına yönəlmiş tədbirlər sistemini əhatə edir. Bu strategiya o

zaman tətbiq olunur ki, firmanın bazardakı mövqeyi qənaətbəxş hesab olunur, yaxud onun fəal irəliləmə strategiyasını davam etdirməsi üçün kifayət qədər resursları olmur; firma «hücuma keçməkdən» daha güclü rəqiblərin əkshücumuna məruz qalmamaq, yaxud dövlətin cəza tədbirlərinə düçar olmamaq üçün imtina edir.

Bundan başqa, Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilən "Gulf Travel Show" sərgisində işğalçılardan azad edilmiş Qarabağ bölgəsinin turizm potensialı haqda və müvafiq tədbirlərdən sonra bölgənin yeni turizm destinasiyaları sırasına daxil ediləcəyi barədə məlumat verilib. Azərbaycan Turizm Bürosu, həmçinin Londonda keçirilən dünyanın tanınmış turizm sərgilərindən olan Dünya Səyahət Bazarı sərgisində ("WTM London-2020") iştirak edib. Virtual görüşlər çərçivəsində iştirakçılar Dağlıq Qarabağ və ətraf rayonların turizm potensialı barədə məlumatlandırılıblar.

Qarabağda baş plana uyğun olaraq aparılan böyük tikinti və quruculuq işləri bölgədə daha çeşidli turizm xidmətlərinə səbəb olacaq.

**ƏDƏBİYYAT:**


1. **Turizm fəaliyyətinin tənzimlənməsi,B.Bilalov Bakı-2006**
2. **http://turizm.az**
3. **http://tourism.gov.az**
4. **http://az.m.wikipedia.org**
5. **http://www.agro.gov.az**
6. **http://iqtisadiislahat.org**

UOT № 379.85

# TURİZM MƏHSULUNUN ÇEŞİDLİ VƏ KEYFİYYƏTLİ DƏYİŞMƏSİ

## Varıety and qualıty change of the tourısm product

## Разнообразие и качество изменения туристического продукта

**Nərgiz MƏMMƏDZADƏ**

**Odlar Yurdu Universiteti-**

**EMAIL:** nargiz_adu@mail.ru

**SUMMARY**

The article talks about the variety and quality of the tourism product, the criteria and quality that play the main role in the creation of the tourism product.

The quality of the tourism product, the components of production features and quality standards aimed at meeting consumer needs at an economic level are reviewed.

***Keywords:*** tourism product, change of tourist profile, quality, attractiveness

**РЕЗЮМЕ**

В статье говорится о разнообразии и качестве туристского продукта, о критериях и качестве, играющих главную роль при создании туристского продукта.Рассмотрены качество туристского продукта, составляющие характеристики производства и стандарты качества, направленные на удовлетворение потребностей потребителей на экономическом уровне.

***Ключевые слова:*** туристический продукт, изменение туристского профиля, качество, привлекательность

### Giriş.

İnsanların ehtiyac duyduqları mücərrəd və konkret olan bütün mal və xidmətlər, məhsul anlayışını meydana gətirir.Turizm məhsulu, insanların daimi yaşadıqları yeri müvəqqəti tərk edərək, evə qayıtmalarına qədər keçən müddətdə səyahətə getdikləri yerdə satın aldıqları və bu mərhələdə faydalandıqları, istifadə etdikləri bütün mal və xidmətlərlə qazandıqları təcrübələrin məcmusu kimi başa düşülür.Daha aydın desək, turizm məhsulu, turistin səyahət boyunca istifadə etdiyi yaşayış, yemək-içmək, nəqliyyat, əyləncə və bu kimi digər bir çox mal və xidmətlərin məcmusudur.

Turizm müəssisələri bir turistin bütün ehtiyacını tək başına ödəyə bilməz.Yəni, mehmanxanalar, nəqliyyat şirkətləri və səyahət agentlikləri öz imkanlarıyla bütün turizm fəaliyyətini hayata keçirə bilmirlər.Buna görə də turizm marketinqi müxtəlif elementlərlə bir araya gətirilmiş məhsul konsepsiyasına əsaslanır.Turizm istehlakçısı üçün əhəmiyyətli olan əsas məsələ, ən yaxşı və ən ucuz məhsulu seçməkdir.

Turizm müəssisələrinin əsas məqsədi, istehlakçıları razı salmaları ilə istehsalçılara mənfəət qazandırmaq arasında tarazlıq yaratmaqdır. Turizm məshulu, digər mal və xidmətlərdən fərqli xüsusiyyətlərə malikdir.Tur avtobusun keyfiyyəti və komfortu ilə yanaşı sürücünün və işçilərin də yaxşı xidmət göstərməsi turizm məhsulunu ifadə edir.Turizm məhsulunun müxtəlif komponentlərdən ibarət olan vahid quruluşu, bu məhsulu daha ətraflı araşdırmağı tələb edir.Turizm məhsulu ilə bağlı bir çox təriflər mövcuddur.Olalı və Timura görə turizm məhsulu , turistlərin ehtiyaclarını qarşılaya bilən mal və xidmətlərin qarışığından ibarət olan bir paketdir.Usal və Orala görə isə turizm məhsulu, müasir insanın ehtiyaclarını qarşılamaq üçün bir araya gətirilmiş və yenidən tərtib edilmiş təbii, ictimai, siyasi və psixoloji məlumatlardan ibarət olan kompleks mal və xidmətlər məcmusudur.Turizm məhsulunu dar və geniş olmaqla iki hissəyə bölən Burkart və Medlikə görə, dar mənada, turistin satın aldığı hərşey turizm məhsuludur.

Geniş mənada isə turizm məhsulu, mürəkkəb bir məhsuldur və turistin istifadə edərək faydalana biləcəyi hər cür mal və xidməti ifadə edir. Middleton isə turizm məhsulunu, ümumi turizm məhsulu və ticari turizm məhsulu olmaqla iki hissəyə bölür.Ümumi turizm məhsulu, turistin yerləşdiyi məkanı tərk edib, yenidən həmin məkana dönənə qədər istifadə etdiyi mal və xidməti ifadə edir.Ticari turizm məhsulu isə, yaşayış, nəqliyyat, yemək-içmək və istirahət kimi turizm müəssisələrinin təqdim etdiyi turizm məhsulunun komponentlərindən ibarətdir.

Kotler, Boven və Maknes isə turizm məhsulunu, hər hansı bir turizm xidməti və ya xidmətlərinin məcmusu kimi müəyyən etmişlər. Bu məhsul, fiziki obyektləri , xidmətləri , insanları , yerləri, təşkilatları və fikirləri də əhatə edir. Hacıoğluna görə isə turizm məhsulu iki şəkildə ərsəyə gəlir. Birincisi, bir ölkə və ya regionun sahib olduğu bütün [2] təbii, tarixi və turistik resursların meydana gətirdiyi turizm məhsuludur. İkincisi isə, turistlərin tətil etmələrinə imkan verən bütün xidmətlərin, yəni paket turun tərkibinə daxil olan turizm xidmətlərinin məcmusundan ibarətdir.

Turizm məhsulunun ən əhəmiyyətli xüsusiyyəti, bir-birini tamamlayan konkret və mücərrəd mal və xidmətdən ibarət olmasıdır. Nəqliyyat, yaşayış, yemək-içmək, əyləncə kimi məhsulların bir araya gəlməsi turizm məhsulunun konkret tərəfini meydana gətirərkən, turistlərin bu xidmətləri satın alarkən qarşılaşdıqları müsbət və ya mənfi hadisələr isə turizm məhsulunun mücərrəd tərəfini ifadə edir.Turizm məhsulu, turistin yerləşəcəyi məkan kimi otel ya da istifadə edəcəyi nəqliyyat vasitəsi kimi avtobus və ya təyyarə hesab olunmur.Bu sadalananlar, turizm istehlakçısının gözündə müxtəlif ehtiyacları qarşılayan fayda, qazanc və təcrübə kimi görünür.

Təbii, sosial-mədəni, iqtisadi və psixoloji amillər, özəl turizm müəssisələri, yerli, regional, beynəlxalq səviyyədə olan idman, festival, sərgi, şənlik və tədbirlərlə yanaşı, regionun marka imici də turizm məhsullarının mürəkkəb bir məhsul ola bilmələri üçün əsas komponentləri təşkil edir.Turizm məhsulunun ərsəyə gətirilməsində aşağıdakı meyarlar əsas rol oynayır.

---

[2]M. Castells, The Rise of Network Society, I, The Information Age. Economy, Society and Culture, Wiley-Blackwell, Hoboken 2010

- Cəzbedicilik- Turistin səyahət etmək istədiyi yerlər arasında seçim etməsinə təsir göstərən amillərdən biridir.Bu amil yerli və milli səviyyədə olduğu kimi beynəlxalq səviyyədə də ola bilər.Cəzbedici səyahət yerləri kimi Nabran, Şahdağ,Tufandağ, Antalya, Quşadası, Venesiyanı mial göstərmək olar.

- Səyahət yeri imici- Moda şəhəri Milano, romantizmin paytaxtı Paris, Misir piramidaları,Hollandiyanın lalə və yel dəyirmanları və Phuket adalarının ziyarətçilərinə yaşatdığı əsrarəngiz gecə həyatı, bu yerlərin turizm sektoruna tədqim etdiyi marka və imic anlayışını meydana gətirir.

Bir çox ölkələr böyük səy göstərərək turistlərin seçə biləcəkləri səyahət yeri uğurunda mübarizə aparırlar.Səyahət ediləcək hər bir ölkənin özünəməxsus fərqli xüsusiyyətləri vardır.Planetin bir çox yeri təbii və tarixi resurslarla zəngin olsa da, bəzi yerlərdə bu tip zənginliklər mövcud deyil.Lakin bu tip çətinliklər strateji idarəetmə prinsiplərinə əsaslanaraq, avantaja çevrilə bilərlər.Məsələn, hər tərəfdən su ilə əhatələnmiş Hollandiyada yaşamaq gündəlik həyata mənfi təsir göstərdiyi halda, turistlərə belə bir yerin maraqlı olduğunu göstərərək bu ölkəni ziyarət etmələri tövsiyyə olunur.Belə olduğu halda, dezavantaj avantaja çevrilir.

**Məsələnin qoyuluşu və həlli.**Turizm məhsulunun mücərrəd ünsürlərdən meydana gəlməsi və xidmətlərin standartlaşdırılması, turizm məhsulunu digər məhsullardan fərqlənməsinə səbəb olur. Bu xüsusiyyətlərin bir hissəsi turizmin xidmət sektorunun bir növü olması ilə əlaqələndiyi halda, digər bir qismi isə turizm məhsulunun özünəməxsus amilləri ilə əlaqəlidir.

1.Turizm məhsulunun istehsal edildiyi yerdə istehlak edilməsi mütləqdir.

2.Turizm məhsulu mürəkkəb quruluşa malik bir məhsuldur.Turizm məhsulu, birdən çox xidmətin yəni yeyib-içmək, əyləncə və nəqliyyatın birləşməsindən meydana gəlir.

3.Turizm məhsulu tədarük edilə bilməz. Xidmət və ya məhsul vaxtında satılmalıdır ( otel otağı,təyyarə kreslosu və s.).Turizm məhsulunun əldə edilib daha sonra istifadə edilməsi və ya satılması mümkünsüzdür.

4.Turizm məhsulu konret bir məna ifadə etmədiyinə görə, subyektiv qiymətləndirmədən daha çox istifadə olunur.

5.Turizm məshulu cəzbedicilik, faydalılıq, asan əldə edilmə kimi xüsusiyyətlərə malik olmalıdır.

6.Turizm məhsulunda imic anlayışı əhəmiyyətli rol oynayır.

7.Bütün turistik mal və xidmətlərin istehsal vahidləri eyni ölçüdə ola bilməz.

Turizm məhsulu istehsal edən müəssisələr, məhsulların planlaşdırılması və inkişaf etdirilməsi üçün müxtəlif metodlardan istifadə edirlər.Bu metod həm turizm istehlakçısı tələbində yüksək elastikliyi yəni dəyişkənliyi, həm də hər keçən gün artan rəqabət üstünlüyünü təmin etmək baxımından mühüm əhəmiyyət kəsb edir.Turizm məhsulları beş mərhələdə qiymətləndirilə bilər.

1.Əsas məhsul.İstehlakçının müəyyən istək və ehtiyaclarını qarşılamaq üçün nəzərdə tutulan məhsuldur.Hər hansısa bir mehmanxananın təqdim etdiyi əsas məhsul, yaşayış və

yemək-içmək xidmətləridir.Əsas məhsul, turizm istehlakçısının istehlak davranışlarını əks etdirir.

2.Görünən məhsul. Əsas məhsul olan otel otağının yerləşdiyi məkan, mənzərəsi, böyüklüyü kimi fiziki xüsusiyyətləri görünən məhsulun tərkibinə daxildir.Otelin fiziki görünüşü və təqdim etdiyi məhsul və xidmətlər görünən məhsuldur.

3.Qabaqcıl məhsul.Turizm müəssisələri əsas məshulla birgə təqdim edirlər. Görünən məhsulla eyni xüsusiyyətə malik olan qabaqcıl məhsul, istehlakçıya əlavə fayda verir.Məsələn, resepsionistin oteldə mövcud olan uşaq baxıcılığı kimi görünən məhsulu uşaqlı bir ailəyə təklif etməsi, ailənin işini asanlaşdıracaq və bu da qabaqcıl məhsul anlayışını daha daha aydınlaşdıracaq.Beləliklə, qabaqcıl məhsul anlayışı, arzu edilən məhsul olub turizm məhsul istehsalçılarına digər turizm müəssisələrinə görə rəqabət üstünlüyünü təmin edəcək.

4. Gözlənilməyən məhsul.Turizm istehlakçılarının istək və gözləntilərindən daha çoxunu təqdim edir. Gözlənilməyən məhsullar əsas məhsulları əvəz edə bilməsə də istehlakçını məmnun edən sürpriz məhsullardır.

5.Potensial məhsul. Potensial məhsullar, müəssisələrin gizli silahları və ya gizli sirləri olaraq da adlandırılır.

Müəssisələrin bazardakı paylarını qorumaq üçün göstərdikləri səylərə turizm məhsulunun çeşidləndirilməsi deyilir.Bir-birindən fərqli dizayna və ada malik olan müxtəlif məhsul çeşidi vardır.Turizm məhsulunun çeşidləndirilməsi dedikdə, turizm müəssisələrinin, bazardakı paylarını qorumaq üçün yeni məhsullar istehsal edərək və yeni bazarlara girərək əhatə dairələrini genişləndirilməsi nəzərdə tutulur.Turizm məhsulunun çeşidləndirilməsi iki formada ola bilər.Bunnlardan ilki, alternativ turizm məhsullarının inkişaf etdirilməsidir.Altnernativ turizm məhsulu dedikdə, günəşin, dənizin və sahillərin istifadə edildiyi kütləvi turizmə alternativ olaraq inkişaf edən turizm növləri nəzərdə tutulur.Belə ki, alternativ turizm, təbii ehtiyatları qoruyaraq , əhalinin turizm ilə əlaqədar fəaliyyətlərini nəzarət altında saxlayır. Alternativ turizm anlayışı, ədəbiyyatda uzun zamandan bəri istifadə edilən bir anlayış olmaqla yanaşı, bu turizm növü ilə əlaqədar ümumi olaraq iki təməl yanaşmadan bəhs edilir. Birinci yanaşmaya görə, alternativ turizm, digər turizm növlərinə bağlı bir turizm növüdür.İkinci yanaşmaya görə isə alternativ turizmin yaranması, ənənəvi turizmdən fərqli xüsusiyyətlərə malikdir.Bu xüsusiyyətlər, turizm tələbinə xas olan xüsusiyyətlərdir.

Turizm məhsulunun kompleks bir quruluşa malik olması və komponentlərin çoxluğu, marketinq baxımından çox diqqətli davranılmasını tələb edən bir vəziyyətdir.

Dünyada internet və digər texnologiyaların yayılması ilə müasir dövrə damğasını vuracaq çox böyük dəyişikliklər baş verir. Texnoloji inkişafla yanaşı, iqtisadi, sosial-mədəni, demoqrafik, siyasi, ekoloji və s. dəyişikliklər turizm sahəsində istehlakçıların [3]gözləntilərinin zamanla dəyişməsinə səbəb olmuşdur. Xüsusilə 1990-cı ildən etibarən turizm trendlərinə müşahidə edilən sürətli dəyişimə cavab verə bilmək üçün ölkələr, fərqli turizm

[3]https://www.academia.edu/38198967/Turistik_Ürün_Çeşitlendirmenin_Sürdürülebilir_Destinasyonlar_Açısından_Önemi_pdf

məhsulları ərsəyə gətirmək üçün böyük səy göstərmişlər.Turizmdən daha çox qazanc əldə etmək və beynəlxalq turizm bazarında yaxşı bir mövqe tutmaq istəyən ölkələrin, turizm çeşidləndirilməsindən istifadə etmələri mütləqdir.Turizm məshulunun çeşidlənirilməsi ilə turistlərə yəni turizm tələbinə aid yeni imkanlar təqdim edilərək müəyyən turizm mərkəzlərində müşahidə edilən sıxlıq aradan qaldırılmış olur.Turizm məshulunun çeşidləndirilməsi səbəbləri aşağıda göstərilmişdir:

- Turizmdə baş verən dəyişikliklər. Bugün kütləvi turizmin öz yerini alternativ turizmə verdiyi müşahidə edilir. Kütləvi turizmdə iştirak edən turistlər, fərqlilik axtarırlar.

- Turist profilinin dəyişməsi. Turizmdə baş verən yeniliklərdən biri də turistlərin davranışlarında və seçimlərindəki dəyişikliklərdir.Buna görə də ölkələr, turizm siyasətini yenidən gözdən keçirirlər və beynəlxalq tələbə aid dəyişiklikləri və yenilikləri yaxşı analiz edərək, rəqabət strategiyalarını bu dəyişikliyə əsasən tətbiq etməyə çalışırlar.

- Rəqabət.Sürətlə gedən qloballaşma prosesi rəqabətə təsir göstərir.Qloballaşma, sektorlar arasındakı rəqabəti daha da gücləndirir.Belə ki, uğur əldə etmək üçün, davamlı olaraq yeniliklərdən istifadə etmək və rəqiblərdən fərqli məhsullar hazırlamaq lazımdır. Dünya turizminin qabaqda gedən ölkələri, regional və milli strateji planlardan istifadə edərək, turizm fəaliyyətini sabit və davamlılıq prinsipləri əsasında idarə etməyə çalışırlar.

- Texnologiya.Texnologiya sahəsindəki yeniliklər, beynəlxalq turizmin də inkişafına da böyük təsir göstərmişdir. Xüsusilə səyahət agentlikləri və tur operatorlar, kompüter texnologiyasından istifadə etməklə, qısa müddətdə xidmətin reallaşmasını təmin edirlər. Televiziyada və ya internetdə detallarıyla görə bildiyi yerləri ziyarət etmək istəyənlərin sayı artmışdır. İnternet istifadəsinin sürətlə yayılması turizm müəssisələrinin, internet vasitəsilə satış etmələrini asanlaşdırmışdır.

Bir ölkədə tətbiq edilən turizm məhsulu siyasəti, o ölkənin turizmdən əldə edəcək iqtisadi gəlirlərinin və ictimai faydalarının göstəricisidir. Turizm məhsulu nə qədər cəzbedici olarsa, əldə edilən gəlir də bir o qədər yüksək olar.

Turizm məhsulunun çeşidləndirilməsi, turizmin mövsümi sıxlığının aradan qaldırılmasında əhəmiyyətli və təsirli bir strategiyadır. Turizmin istehlakçı seçimlərini nəzərə alaraq yeni potensiallı sahələr yaratmaq məqsədiylə inkişaf etdirilməsi nəzərdə tutulan turizm məhsulları aşağıdakılardır:

- Müalicə və sağlamlıq turizmi;

- Kongres turizmi;

- Dini turizm;

- Eko-turizm;

- Kruiz turizmi.

**Nəticə.**Keyfiyyət, turizm müəssisələrin işlətdiyi strateji bir anlayış olub, istehlakçılar tərəfindən müəyyən edilən əsas ünsürlərdən biridir.Keyfiyyət, standartlara uyğunlaşma və ya funksiyalar arasındakı uyğunluq kimi də başa düşülür.İndiki dövrdə keyfiyyət anlayışının tərifi dəyişdirilərək daha yeni bir formaya salınmışdır.Keyfiyyətin elastik və dinamik olması, bu mövzuda bir çox yeni tərifin meydana gəlməsinə səbəb olmuşdur. Keyfiyyət ilə bağlı olan, bir neçə tərifə nəzər salaq:

- Keyfiyyət, müştərinin mal və ya xidmət ilə əlaqədar duyduğu məmnuniyyətdir.

- Keyfiyyət, müştərinin istədiyidir.

- Keyfiyyət, mal və ya xidmətin müştəri gözləntilərini və ehtiyaclarını qarşılaya bilmə qabiliyyətidir.

- Keyfiyyət, qüsursuz məhsulun yaradılmasıdır.

- Keyfiyyət, hər cür səhvin aradan qaldırılmasıdır.

- Keyfiyyət, istənilən xüsusiyyətlərə uyğunlaşmaqdır.

Turizm məhsulunun keyfiyyəti, istehlakçı ehtiyaclarını iqtisadi səviyyədə qarşılamağı məqsəd qoyan istehsal xüsusiyyətlərinin komponentlərindən ibarətdir.

**Ədəbiyyat**

1. Əlirzayev Ə.Q. " Turizmin iqtisadiyyatı və idarə edilməsi " Bakı 2011

2. Əlirzayev Ə.Q. Aslanova S.İ. " Turizmin inkişafının sosial iqtisadi problemləri " Bakı 2006

3. İlqar Hüseynov, Nigar Əfəndiyeva " Turizmin əsasları " Bakı 2007

4. Rəhman Səfərov " Turizm sahəsindsə qiymətlərin formalaşması və inflyasiyanın ona təsiri " Məqalə Bakı 2010

5.https://www.academia.edu/38198967/Turistik_Ürün_Çeşitlendirmenin_Sürdürülebilir_Destinasyonlar_Açısından_Önemi_pdf

6.M. Castells, The Rise of Network Society, I, The Information Age. Economy, Society and Culture, Wiley-Blackwell, Hoboken 2010

# İnnovasiya potensialından səmərəli istifadə müasir iqtisadi siyasətin prioritetidir

**Səttərova Nərmin Mədəd qızı**

Odlar Yurdu Universiteti. Bakı şəhəri

**e-mail:** sattarova.narmin95@mail.ru

Müasir Azərbaycanın memarı Ümummilli Lider Heydər Əliyev müasir dünyada elm və texnikanın həlledici rolunu daim vurğulayırdı. Azərbaycanın sosial-iqtisadi inkişafında innovasiya amilini önə çəkən Ulu öndər iqtisadi artım və sosial rifah cəmiyyəti quruculuğunda innovasiyalı inkişafa daim önəm verirdi. Azərbaycan Respublikasında innovasiyalı inkişafın iqtisadi siyasətin prioritetliyi Heydər Əliyev ideyalarının həyata keçirilməsi sayəsində mümkün olmuşdur. Hazırda "Azərbaycan Respublikasında da innovasiya siyasətinin həyata keçirilməsinə dövlət səviyyəsində çox böyük əhəmiyyət verilir" [1, s.32]. Milli iqtisadiyyatın bütün sahələrində innovasiya potensialının dəstəklənməsi və səmərəli inkişafı məqsədilə kompleks xarakterli tədbirlər həyata keçirilir.

Elmi biliklərin və ideyalann, kəşflərin və ixtiraların innovasiyaya çevrilməsi dövrünü əhatə edən innovasiya prosesinin kəmiyyət və keyfiyyət parametrləri, habelə nəticələri, indiyə qədər aparılmış tədqiqatlardan göründüyü kimi innovasiya potensialından asılıdır. İnnovasiya potensialına iqtisadi subyektlərin öz məqsədlərinə çatmaq üçün fəallaşdırıla bilən, indiyə qədər aşkar edilməmiş və istifadə olunmamış imkanların məcmusu kimi, elmi-texniki işlərin nəticələri, yeni texnika, texnologiya və məhsullar barədə informasiya ehtiyatları, innovasiyalı fəaliyyət üçün zəruri olan amillər və şərtlər sistemi kimi və s. baxanlar vardır. İnnovasiya potensialının yeni ideyalara rəvac verə bilməsi yeni texnika, texnologiya və məhsullar barədə informasiya ehtiyatlarının xarakteristikaları ilə əlaqədardır. Belə ki, innovasiya potensialı və informasiya ehtiyatları arasında qarşılıqlı fəallaşdırıcı təsir mühiti sayəsində həmin ehtiyatlar müvafiq potensial formalaşdırmaqla yeni ideyalar üçün impuls olur.

Elmi, texniki və texnoloji imkanlara və infrastruktur təminatına, mövcud ehtiyatların hərəkətə gətirilməsində insan amilinin aparıcı rolu tədqiqatçıların diqqət mərkəzindədir. "İnnovasiya potensialı aşağıdakı innovasiya fəaliyyəti ehtiyatları ilə xarakterizə olunur: - alim-təşkilatçı və alim-mütəxəssis, innovatika sahəsində təşkilatçı - mütəxəssis sistem kadrları, onların sayı, elm sahələri üzrə strukturu, bilik səviyyəsi; - maddi-texniki baza: iş yerlərinin müasir innovasiya və informasiya texnologiyaları və s." [3, s. 19].

İnnovasiya potensialının reallaşdırılması innovasiyalı inkişaf proseslərində baş verir. Həmin proseslər mürəkkəb olub, etibarlı surətdə proqnozlaşdırıla bilmir. Bu və digər səbəblərdən innovasiya potensialının reallaşdırılması prosesinə münasibətdə də fərqli yanaşmalar rast gəlinir [2]. Haqqında danışılan fərqlər, əhəmiyyətli dərəcədə innovasiya potensialının reallaşdırılması imkanlarına münasibətdə tədqiqat məqsədinin və ya təcrübi ehtiyacın önə çəkilməsi, innovasiya potensialına münasibətdə metodoloji bazanın, əsasən təşəkkülü səviyyəsindən çıxış edilməsi halları ilə şərtlənir. Sistemin səmərəliliyinin yüksəldilməsi məqsədi ilə innovasiya potensialının reallaşdırılması prosesi kimi innovasiyalı fəaliyyətin səmərəliliyin qiymətləndirilməsi parametrləri kimi aşağıdakılar önə çəkilir: "məhsulların keyfiyyət və istehsalın səmərəliliyi baxımından rəqabət qabiliyyətinin artırılması; ənənəvi texnologiyanın stabil idarə edilməsi və innovasiyalı fəaliyyət üçün resursların dəyəri arasında balans; mövcud sistemin idarəetmə prosesi ilə birgə sistemin dəyişiklikləri qavramaq

qabiliyyətinin inkişafı; innovasiyalı fəaliyyət üzrə tədbirlərin işlənib hazırlanmasında sosial-iqtisadi sistemin bütün elementlərinin qarşılıqlı fəaliyyətinin təşkili” [4, s. 91-92].

İnnovasiya potensialının reallaşdırılmasının elmi-texniki, təşkilat və investisiya istiqamətləri üzrə həyata keçirilməli tədbirlər kompleksini əhatə etməsi nəzərdə tutulur. Bu halda, yeni texnologiya və texnikanın layihələndirilməsi, yaradılması və istifadəsi tədbirlərindən tutmuş, müəssisənin investisiya siyasəti və strategiyasının reallaşdırılmasına və səmərəliliyin monitorinqinə qədər geniş spektrdə işlər yerinə yetirilməlidir. İnnovasiya potensialını və onun reallaşdırılması prioritetlərini şərtləndirən amillər qismində bazarın cari vəziyyəti, müştəri ehtiyacları, texnoloji-iqtisadi inkişaf baxımından gələcək meyillər və proqnozlar xüsusi qeyd edilməlidir. Innovasiya potensialının reallaşdırılması prosesləri kimi innovasiyalı fəaliyyət yeniliklərə ehtiyacdan tutmuş, onun iqtisadi məqsədəuyğunluğunun təmin edilməsinə qədər bütün mərhələlərdə aşağıdakı qabiliyyətləri nümayiş etdirməlidir: “sistemin məqsədəuyğun (cəmiyyət tərəfindən tələb olunan) yenilikləri əsaslandırmaq və inkişaf etdirmək qabiliyyəti; sistemin innovasiyanı kommersiya dəyərinə çevirmək qabiliyyəti; sistemin innovativ məhsulu yaymaq qabiliyyəti"[5,s.166].

Zənnimizcə, innovasiya potensialı - innovasialı fəaliyyətlərin ilkin texnoloji-iqtisadi və institusional şərti, müxtəlif resursların zəruri həcmi və nisbəti, iqtisadi subyektlərin innovasiyalı məhsul istehsalı imkanları və qabiliyyəti kimi xarakterizə oluna bilər. Odur ki, həmin potensialdan istifadə səmərəliliyinin yüksəldilməsi məhdud resursların bölgüsündən əldə edilən effekti şərtləndirən əsas amillərdən biri hesab edilməlidir. Bu və digər səbəblərdən innovasiya potensialından səmərəli istifadə milli iqtisadiyyatın və onun ayrı-ayrı sahələrinin inkişafının prioritet istiqaməti olmalıdır.

**ƏDƏBİYYAT**

1. Abbaszadə M. Azərbaycanda müasir innovasiya siyasətinin ölkənin iqtisadi inkişafında rolu. //Elm və İnnovativ Texnologiyalar Jurnalı № 14, 2020. DOI: 10.30546/2616-4418. 14.2020.32, s.32-45

2. Algina, M.V., & Bodnar, V.A. (2011). Innovative potential of economic system and its evaluation. Modern technologies of management, Vol. 1(1). Retrieved from: http://sovman.ru/article/ 0101).

3. Qasımov F.H., Nəcəfov Z.M. İnnovasiyalar: yaranması, yayılması va inkişaf perspektivləri Bakrı, “Elm”,2009, 416 s.

*4.* Гуреев П. М., Гришин В. Н. Инновационный потенциал: проблемы определения и оценки// Инновации №4 (222), 2017, с.89-92

5. Тхабит А.Ф. К вопросу о понятии инновационного потенциала корпорации// Фундаментальные исследования. 2014. № 8-1. С. 161-166; URL: https://fundamental-research. ru/ru/article/view?id=34527 (дата обращения: 26.11.2021

# ŞƏRQ ÖLKƏLƏRİNDƏ BEYNƏLXALQ MALİYYƏ MƏRKƏZLƏRİNİN FORMALAŞMASINA DAİR NƏZƏRİ BAXIŞLAR VƏ KONSEPSİYALAR.

## Теоретические взгляды и концепции формировании международных финансовых центров в Восточных странах

## Theoretical views and concepts of formation_international financial centers in Eastern countries

i.ü.f.d. Əfqan Əbülfəz oğlu Musayev.

OYU iqtisadiyyat və iqtisadi münasibətlər kafedrasının baş müəllimi,

G-mail; afqn.hunna@gmail.com

Elbrus Kamil oğlu Novuzov

OYU iqtisadiyyat və iqtisadi münasibətlər kafedrasının müəllimi

, e-mail : zirve_11@mail.ru

**Резюме :**

В основе формирования международных финансовых центров лежат монетаристские, классические, неоклассические, кейнсианские, институционалистские, постиндустриаль -ные и едино-цивилизационные теории и взгляды. Несмотря на то, что научно-теоретичес-кие взгляды формировались в Европе и Америке в разное время, мы видим, что взгляды, принадлежащие Европе и Америке, распространяются и на Азию. Отношение европейско-го капитализма к Ближнему Востоку, Африке, Юго-Восточной и Юго-Восточной Азии как к колониям не позволяло установить равноправные отношения в этой области.

Несмотря на то, что Китайская Народная Республика является социалистической по системе управления, они обеспечивают экономическое развитие, применяя новую инновационную инвестиционную модель.

**Ключевые слова;** монетарист, институционалист, единая цивилизация, постоянный доход, спрос на деньги, конфуцианское учение, прецедент, юридическая трихонометрия.

**Abstrakt.**

The formation of international financial centers is based on monetarist, classical, neoclassical, Keynesian, institutionalist, post-industrial and single-civilizational theories and views. Despite the fact that scientific and theoretical views were formed in Europe and America at different times, we see that the views belonging to Europe and America are also spreading to Asia. The attitude of European capitalism towards the Middle East, Africa, Southeast and Southeast Asia as colonies did not allow the establishment of equal relations in this area.

Despite the fact that the People's Republic of China is socialist in its management system, they provide economic development by applying a new innovative investment model.

**Keywords;** monetarist, institutionalist, single civilization, permanent income, demand for money, Confucian doctrine, precedent, legal trichonometry.

Qloballaşan dünya iqtisadiyyatının mühüm tərkib hissələrindən biri olan beynəlxalq maliyyə mərkəzlərinin formalaşması sahəsində nəzəri müddəalar və yanaşmalar dünya iqtisadi inkişafının nəzəri-metodoloji əsaslarının ayrılmaz tərkib hissəsi kimi öyrənilr.

Beynəlxalq maliyyə mərkəzlərinin (BMM-nin) formalaşmasının əsasında monetarıst, klassik, neoklassik, keynsçi, institusionalist, postsənaye və vahid sivilizasiya nəzəriyyələrini və baxışlarını görmək olur. Nəzəri baxəşların təsiri dünyanın hər yerində eyni deyil. Bir regionla bağlı formalaşan nəzəri baxışların dünyanın digər regionları ilə müqayisədə oxşar və fərqli cəhətləri mövcuddur. Elmi-nəzəri baxışların zaman etibarı ilə, müxtəlif dövrlərdə Avropada və Amerikada formalaşmasına baxmayaraq, XX əsrin sonlarında və XXI əsrin əvvəllərində Asiya ölkələri iqtisadiyyatını təhlil edərkən Avropa və Amerikaya aid olan baxışlar Asiyaya də şamil edildiyinin şahidi oluruq. Avropa kapitalizminin istər yaxın şərqə, Afrikaya, cənubi şərqi və cənub-şərqi Asiyaya müstəmləkələr kimi yanaşılması bu ərazidə bərabərhüquqlu münasibətlərin qurulmasına imkan vermirdi.

XX əsrin 70-ci illərindən sonra şərq ölkələrinin iqtisadi inkişafının yüksəlişi bu regionlara münasibəti də dəyişdi. İnvestorların maraq dairəsi bir çox hallarda ABŞ və Avropadan şərqə tərəf yönəlməyə başlandı. Asiyada formalaşmaqda olan beynəlxalq maliyyə mərkəzlərini aşağıdakı xüsusiyyətlərə görə səciyyələndirsək, onların formalaşma metodlarına dair nəzəri baxışları üzə çıxara bilərik:

1) liberallaşma, dövlətin iqtisadiyyata müdaxiləsi;
2) səmərəlilik, rəqabət, tələb-təklif, texnostruktur, planlı bazar iqtisadiyyatı;
3) pul vəsaitlərinə münasibətin, kapitalın hərəkətinin açıqlığı;
4) qeydiyyat və əməliyyat prosedurlarının sadəliyi;
5) nəzarətin, tənzimləmənin və mühasibat uçotunun beynəlxalq standartlara uyğunluğu;
6) inkişaf etmiş maliyyə infrastrukturunun, xidmət sektorunun təşkili;
7) makroiqtisadi və siyasi stabillik;
8) yaşayış üçün əlverişli mühitin və infrastrukturların mövcudluğu.

Şərqi Asiya BMM-lərinin formalaşması prossesinə dövlət müdaxiləsi klassik, neoklassik, monetarist və vahid sivilizasiya nəzəriyyəçilərinin baxışlarında minimuma endirilmişdir. Onların əleyhinə merkantilistlər, keynsçilər və institusionistlər isə dövlətin iqtisadi prosseslərə, o cümlədən BMM-lərinin formalaşmasına müdaxiləsinin vacibliyini irəli sürürdülər.

Rus iqtisadçılarından İ.K.Klyuçnikov və digərləri BMM-nin səmərəliliyini şərtləndirən beş amili qeyd etmişdir [1]. Fikrimizcə, BMM-nin formalaşması prossesində də bu amillər nəzərə alınmalıdır. İlk olaraq vurğulamaq lazımdır ki, BMM-lərinin formalaşmasında səmərəliliyin öncədən hesablanması cox önəmlidir. Hesablama prossesində iqtisadi amillərlə yanaşı siyasi, coğrafi, sosial amillər də nəzərə alınmalı və ehtimal nəzəriyyəsi əsasında səmərəliliyin qiymətləndirilməsini həyata keçirtmək olar. Şərti olaraq təqdim olunan düsturda bölgü əsasında S-səmərəlilik N-nəticə olmasını təxmin etsək, bu düsturla səmərəliliyin hesablanmasına nail olmaq olar.

$$S * (\underline{a+b+c}) \; (\underline{x) : y}) = N$$

d e

Burada, S-səmərəlilik ; a-ictimai-siyasi vəziyyət; b-maddi-texniki imkanlar; c-tələbat; x-beynəlxalq maraq dairələri; y-rəqabətlilik; d-ehtimal nəzəriyyəsi; e-bazarlarda təsir dairəsi ; N- nəticədir. Məntiqi əsasla tərtib olunmuşbu düstur - səmərəliliyin nəticəyönümlü olmasının vacibliyini ortaya qoyur. Hər hansı bir iddiaçı ərazidə (a+b+c)- yəni ictimai siyasi vəziyət müsbətdirsə, maddi-texniki imkanlarin tətbiqinin qarşısı alınmırsa və həmin regionda belə bir mərkəzin yaradılmasına yüksək tələbat varsa, bu halın ehtimal əsasında təhlili aparılmalıdır.

Ehtimalların özünü doğrultması üçün bu regionda beynəlxalq maraq dairələrinin mövcudluq əmsalı rəqabətqabiliyyətliliyə nisbətlə, qonşu region bazarlarına təsirinə bölünməlidir. Məsələn İstanbul, TelAviv, Dubay, Qatar maliyyə mərkəzlərinin formalaşması prossesində.

Zənnimizcə, bu hesablamaları aparmadan BMM-nin səmərəliliyik amillərini şərtləndirən 1.1 saylı cədvəldəki vəziyyət nəzəriyyədə mümkün olsa da praktik olaraq effektli ola bilməz (bax cədvəl 1.1). Çünki, Şərqi Asiya ölkələrində BMM-lərinin formalaşması prossesində - səmərəlilik və liberallaşma ilə yanaşı rəqabət, tələb-təklif, texnostruktur, planlı bazar iqtisadiyyatına dair nəzəri baxışlar da diqqətdə saxlanılmalıdır. Nəzərə almaq lazımdır ki, klassik və neoklassik baxışlarda iqtisadiyyatın mahiyyət etibarı ilə təkmıl rəqabət iqtisadiyyatı olması, qeyri-təkmil rəqabətin meydana gəlməsinin təsadüfiliyi öz əksini tapır. Yəni iqtisadiyyatın tarazlıqda olması və qeyri-tarazlığın təsadüfi olması, məcmu tələb-məcmu təklif modelində əsas rolun məcmu təklifə verilməsi, pulun hesablaşma və tədavül vasitəsi olması kimi baxışlar diqqət mərkəzində saxlanılır.

**Cədvəl 1.1.1. BMM-nin səmərəlilik amilləri.**

| **N** | **əmək resurslarının keyfiyyəti** | **biznes mühiti** | **bazar imkanları** | **infrastrukturun inkişafı** | **rəqabət qabiliyyətliliyi** |
|---|---|---|---|---|---|
| **a** | işçilərin peşəkarlığı | tənzimləmə | maliyyə məhsullarının müxtəlifliyi | əmlakın qiyməti | qiymət səviyyəsi |
| **b** | əmək bazarının çevikliyi | vergitutma | maliyyə bazarının həcmi | nəqliyyat şəbə-kəsinin inkişafı | həyat keyfiyyəti |
| **c** | biznes təhsilinin keyfiyyəti | korrupsiya | maliyyə xidmətlərinin mövcudluğu | rabitə sistemləri | sahəvi qanunvericilik |
| **d** | biznesin başlamasının şərtləri | iqtisadi azadlıqlar | on-line imkanlar | ictimai iaşə | inzibati qarışmama |

*Mənbə: Cədvəl real prosseslər ümumiləşdirilərək müəllif tərəfindən tərtib edilmişdir.*

Keynsçi nəzəriyyənin nümayəndələri isə əksinə-bazarların təkmıl rəqabət iqtisadiyyatlı deyil, qeyri-təkmilliyi, iqtisadiyyatın cox vaxt qeyri-tarazlıqda olması, ümumi tarazlığın

təsadüfiliyini, məcmu tələb – məcmu təklif modelində əsas rolun məcmu tələbə verilməsini qəbul edir, pulların sərvət olaraq müstəqil dəyərə malik olmasını birmənalı olaraq qəbul etmirlər.

Keynsçi baxışların ABŞ və Avropa iqtisadiyyatına tətbiqi nəticəsində bu ölkələr böhrandan çıxmışlar. Nəzərə almaq lazımdır ki, Şərqi Asiya ölkələrində siyasi münasibətlər maliyyə mərkəzlərinin formalaşması amilinə də əhəmiyyətli dərəcədə təsir edə bilir. Burada hər bir maliyyə mərkəzinin formalaşmasının özünəməxsus xüsusiyyətləri də vardır. Bu, ilk növbədə regionun hər bir ölkəsinin siyasi və iqtisadi sisteminin müxtəlifliyi və bunun təsir və maraq dairəsinin də müxtəlif olması ilə əlaqədardır. Beynəlxalq maliyyə mərkəzləri ilk olaraq ABŞ və Avropada formalaşsa da, hər halda həmin formalaşma olduğu kimi şərq ölkələrində tətbiq olunmamışdır. Burada ənənəvi xarici ticarət əlaqələri və milli xüsusiyyətlər nəzərə alınmışdır. Regionda qarşılıqlı ticarətdən daha cox faydalanmaq və mənfəət əldə etmək istəyi bir cox güzəştlərin yaranmasına səbəb olmuşdur. Bu güzəştlər həm iqtisadi (vergi, gömruk, bank xidməti və s.), siyasi, mədəni, sosial, infrastruktur, həm də mənəvi (etika, qarşılıqlı hörmət, ədalətlilik, sözünə bütövlülük və s.) sahələri əhatə etmişdir.

Monetaristlərin də “permanent gəlir ideyası və pul tələbi nəzəriyyəsi” kimi baxışları şərq ölkələri BMM-lərinin formalaşmasına təsir edən nəzəriyyələrdəndir. Monetaristlər bildirirlər ki:

1. *iqtisadiyyata dövlət müdaxiləsi iqtisadiyyatın təbiətinə ziddir;*
2. *dövlətin iqtisadiyyatın real sektoruna müdaxıləsi arzu edilməzdir;*
3. *dövlətin məqsədi bazar mexanizminin əsaslarını saxlamaqla iqtisadi sabitliyi təmin etmək olmalıdır;*
4. *iqtisadi subyektlər uyğunlaşma gözləmələri nəzəriyyəsinə müvafiq hərəkət etməlidirlər;*
5. *ev təsərrüfatları öz gəlırlərini cari gəlırdən deyil, daimi-permanent gəlirdən cıxış edərək planlaşdırmalıdırlar;*
6. *“məcmu tələb–məcmu təklif” modelində tənzimləməyə üstünlük verilməlidir;*
7. *pul yalnız sərvət deyil, həm də aktivlərin elementlərindən biridir.*[2 ]

Monetarizm nəzəriyyənin görkəmli nümayəndələri Milton Fridman, Karl Brunner, Alan Meltser, Anna Şvarsdır. Bu nəzəriyyənin banisi, 1976-cı ildə iqtisadiyyat üzrə Nobel mükafatı lauteatı olmuş Milton Fridman hesab olunur. Monetarizm nəzəriyyəsi əsasında ABŞ dolları dünyanın aparıcı valyutasına çevrildi. Avropa dövlətləri "Avropa İttifaqında" birləşərək vahid valyuta- "avro"nu yaratdılar. Kreditləşmə əsasında pulun alınıb-satılması ilə əlaqədar kulli miqdarda gəlır əldə edildi. Fikrimizcə, Tokio BMM-nin formalaşmasının ümumi prinsiplərinin başında monetarizm durur. Lakin şərqdə monetarist baxışların həm müsbət, həm də mənfi təsirləri meydana çıxmışdır. Əsas mənfi təsir valyuta asılılığının ola bilməsidir. Bu hal 1997-ci il Asiya maliyyə böhranı zamanında qabarıq formada özunu biruzə etdirdi. Fikrimizcə yeni formalaşmaqda olan BMM-lərdə bu hal diqqətdə saxlanmalıdır.

Şərq ölkələri üzrə ən geniş valyuta bazarlarına sahib olan Tokio BMM, daha sonra Şanxay, Sinqapur, Kuala-Lampur, Dubay, Qətər, İstanbul Beynəlxalq Maliyyə Mərkəzlərinin formalaşması prossesində də monetarist ideyalara üstünlük verilmişdir. Cənubi-Şərqi Asiya ölkələrində maliyyə böhranından sonra “vahid valyuta təşəbbüsləri”, yaxın şərqdə körfəz ölkələrinin vahid ortaq valyuta-qızıl dinar, Çin, Rusiya, İran, Türkiyə arasında milli valyutalarla hesablaşmaların tədqiqi də monetarist ideyaların nəticəsi hesab edilə bilər.

Neoklassik nəzəriyyəyə müxalif olan İnstitusionalist nəzəri baxışlar ABŞ ərazisində yaranmasına baxmayaraq şərqi Asiya ölkələrində də öz əksini tapma bilmişdir. U.Hamilton tərəfindən "xalqların adət və ənənələrinə əsaslanan düşüncə və ya hərəkət tərzi" kimi öz əksini tapan İnstitusionalizm Tokio, Osaka, Şanxay və.s kimi beynəlxalq maliyyə mərkəzlərinin strukturca formalaşması prossesində geniş tətbiq edilmişdir. Düzdür, şərqdə konfutsi təlimi üstünlük təşkil etsə də, hər halda həmin təlim Hamiltonun bir çox baxışları ilə üst-üstə düşür. İnstitusionalizmin nümayəndələri Karl Poloni və Con Helbreyt cəmiyyətin inkişafını "yeni industrial transformasiyada və texnostrukturların inkişafında" görürdülər. Onlar hesab edirdilər ki, "Plan və bazar həm kapitalizmdə, həm də sosializmdə mövcuddur. Texnostrukturların tətbiqi konverqensiyanı pozaraq bu cəmiyyətləri yaxınlaşdıracaq və ümumi inkişafa səbəb olacaqdır" [3]. Çinin seçdiyi iqtisadi-inkişaf modeli Çin ərazisində formalaşmış BMM-də nəzərə alınmışdır**.**

BMM-nin formalaşması nəzəriyyələrindən biri də sənaye cəmiyyəti və postsənaye nəzəriyyəsidir. Bu ideyanın məşhur nümayəndələri Fransız sosioloqu Raymon Aron, Jak Ellul, amerikan alimi Con Helbreyt, amerikan sosioloqu Daniel Bell, amerikan sosioloqu, "Üçüncü dalğa" kitabının müəllıfı Elvin Toffler və başqalarıdır. Bu tədqiqatçılar eyni bir ideyanın nümayəndələri olsalar da, baxışları fərqli olmuşdur. Professor D.Vəliyev J.Ellelün və C.Helbreytin fikirlərini təhlil edərək qeyd etmişdir ki, "Jak Ellülün fikrincə yeni cəmiyyətlər iqtisadi qanunları yalnız modifikasiya etməklə kifayətlənmir, həm də onların mahiyyətini də dəyişdirir, mülkiyyətin aparıcı rolu aradan qaldırılır, iqtisadi hakimiyyət korporasiyaların əlinə keçir, dövləttin köməyi ilə varlı və kasıb qütblər ləğv edilir. Con Helbreytin fikrincə isə müasir dünya planlaşdırılan və bazar sistemlərindən ibarət iki sistemdir. Planlaşdırılan sistemə dövlət və cəmiyyət üzərində nəzarəti həyata keçirən iri korporasiyaları, bazara isə kiçik və xırda biznesi aid edərək belə bir nəticəyə gəlmişdir ki, azad rəqabətə nisbətən oliqopoliyaların hökmranlıq etdiyi bazarlarda tənzimləmə və planlaşdırma aparmaq daha asandır. İstehsalın iki sistemə bölünməsinin əsasında istehsalın təşkilati-texniki amilləri dayanır" [4] .

Beynəlxalq əhəmiyyətli iqtisadi inkişaf nəzəriyyələrindən biri də vahid sivilizasiya nəzəriyyəsidir. Bu nəzəriyyənin görkəmlı nümayəndələrindən milliyyətcə Yapon olan amerikan alimi Frensis Fukuyama, amerikan professoru Semuel Hantinqton hesab olunur. Nəzəriyyənin mahiyyəti ondan ibarətdir ki, dünyanın bütün dövlətləri vahid siyasi, sosial və iqtisdi quruluşa-liberal demokratiyaya gəlib çıxacaqlar. Professor Semuel Hantinqtonun fikrincə XX əsrin sonlarında dünya çoxqütblü cəmiyyət halına gələcək və səkkiz əsas sivilizasiyanı əhatə edəcək: qərb, İslam, indus, pravoslav, Çin, Yapon, Afrika və Latın Amerikası sivilizasiyaları. Qərbin iqtisadi inkişafı tədricən Asiya iqtisadi inkişafı ilə əvəz olunacaq. Beləliklə Şərq ölkələri BMM-nin formalaşmasnda əsas rola malik olmasa da, inkişaf perspektivlərinin proqnozlaşdırılmasında "vahid sivilizasiya" baxışları üstünlük təşkil etməkdədir. [5]

Şərqi Asiya ölkələrinin BMM-nin formalaşması prossesində iqtisadi nəzəriyyələrlə yanaşı hüquq nəzəriyyələrinin də əhəmiyyəti böyükdür.Lakin BMM-nin subyektləri olaraq beynəlxalq əhəmiyyətli məhkəmə sistemi, audit, təhlükəsizlik sistemi, inzibati, vergi və mülki hüquqlar, hüquq sistemlərinin fərqliliyindən nəzəri əsaslarla dəqiq tədqiq edilməlidir. Nəzərə alınmalıdır ki, BMM-nin formalaşması prossesində hüquq sistemlərinin mövcud statusu dəyişdirilərək, qarışıq hüquq sistemi yaradılmalı və ya biri digərinə uyğunlaşdırılmalıdır. Bu baxımdan da nəzəri baxışların tədqiqi əhəmiyyətlidir. Nəzərə alsaq ki, dünya maliyyə

mərkəzlərinin formalaşmasının əsasında "presedentlər"lə yanaşı milli hüquq sistemləri də durmuşdur, belə qərara gəlmək olar ki, hüquq nəzəriyyələri iqtisadi nəzəriyyələrin məntiqi davamı olmalıdır.

Hüquq sistemlərinin təsnifatı hüquqşünas alimlər tərəfindən daima diqqət mərkəzində olmuş və tədqiq edilmişdir. Müasir hüquqşünaslıqda daha geniş yayılmış təsnifatı fransız alimi Rene David təqdim etmişdir. O, 1950-ci ildə "Müqayisəli mülki hüququn elementar kursu" kitabında Avropa hüquq sistemini roman-german və anqlo-sakson sistemlərinə bölmüşdür. Daha sonra fikrini təkmilləşdirərək, sosialist ailəsini də artıraraq, trixonometriya-üçlük nəzəriyyəsini irəli sürmüşdür. Onun fikirləri 1964-cü ildə "Müasir dövrün əsas hüquq sistemləri" əsərində öz əksini tapmışdır [6]. Sonradan onun təlimini öz yetişdirməsi Kamilla Jofre-Spinoza davam etdirmişdir.

Hesab edirik ki yeni formalaşdırılan Beynəlxalq Maliyyə Mərkəzlərində hüquq trixonometriyasına xüsusi yer ayrılmalı və müasir dövrün əsas hüquq sistemlərindən geniş istifadə olunmalıdır.

Yəhudi əsilli alman alimi K.Svaygertin və X.Kyotsun irəli sürdükləri təsnifatlar da diqqətəlayiqdir. K.Svaygertin və X.Kyotsun 1971-ci ildə "Xüsusi hüquqda hüquqi müqayisəyə giriş" əsərində trixotomiya konsepsiyasını davam etdirilmişdir.[7]. Müəlliflərin fikrincə,"hüquq stili" hüquq sisteminin təsnifatının əsasında durur və beş faktoru əhatə edir:

1. *hüquq sisteminin yaranması və təkamülü;*
2. *hüquqi düşüncənin özünəməxsusluğu;*
3. *spesifik hüquq institutları;*
4. *hüquq mənbələrinin təbiəti və təfsiri üsulları;*
5. *ideoloji faktorlar.*

Bu əsasda müəlliflər 7 hüquq dairəsi müəyyənləşdirmişlər:

1.Roman; 2.German; 3.Skandinav; 4.Anqlo-amerikan; 5.Sosialist hüququ; 6. İslam hüququ; 7.İndus hüququ [8].

Rene David hüquq sisteminin mövcudluğunu iki kriteriya ilə əsaslandırır: ideoloji-(din, fəlsəfə, iqtisadiyyat və sosial strukturlar) və hüquq texnologiyası- (hüquq mənbələrinə əsaslanan). Onun fikrincə, trixotomiya iki mərhələdən ibarət olaraq, əvvəl üç hüquq sistemini əhatə edirdi: 1) roman-german; 2) anqlo-amerikan (anqlo-sakson); 3) sosialist. Daha sonra 4) dini və 5) ənənəvi hüquq sistemləri də əlavə olundu [9].

Şərq ölkələrində Beynəlxalq maliyyə mərkəzlərinin formalaşmasına dair nəzəri baxışlar və konsepsiyalar günümüzdə də davam etdirilməkdədir. Çin Xalq Respublikası idarəetmə sisteminə görə sosialist olmasına baxmayaraq, yeni bir model innovativ-investisiya modeli tətbiq edərək , iqtisadi inkişafı təmin etməkdədirlər.[10].

Məhz Cinin tətbiq etdiyi modelin yaxşıtərəflərini öyrənərək Azərbaycan iqtisadiyyatına tətbiq etmək məqsədəuyğundur.

**Ədəbiyyat.**

1. Ключников И.К., Молчанова О.А., Ключников О.И.. Финансовые центры: теория и механизмы развития . СПб.: Изд-во СПб ГУ ЭФ, 2012.с – 330., s.120.
2. Titova N.E., İqtisadi təlimlər tarixi. Moskva, TZ.,1979, s.89.

3. Эволюция институциональной теории. www.Grandars.ru/ национальная экономика. Институциональная экономика./

4. Vəliyev D.Ə.//Azərbaycanın qlobal iqtisadiyyata inteqrasiyasış// Adiloğlu. Bakı-2008,428s.

5. Довбенко М.В., Осик Ю.И. Современные экономические теории в трудах нобелиантов., у/п,. Академия Естествознания, Moskva-2011, 4.6. // https://www.monographies.ru/ru/book/section?id= 4233/, http://newtimes.az/az/politics/30269 // S.Hantington//The Clash of Civilizations and the Remaking of World Order //New York: Simon & Schuster, Foreign Affairs//1996

6. Rene David. Müasir dövrün əsas hüquq sistemləri. Moskva. MO.1998. 400 s.

7. Цвейгерт К и Котц Г., Введение в правовое сравнение в частном праве. www.rudocs.exdet.com/docs/index.169931.html?pace=14.

8. Цвейгерт К и Котц Г., Введение в правовое сравнение в частном праве. www.rudocs.exdet.com/docs/index.169931.html?pace=14.

9. Давид Рене. «Основные правовые системы современности.» Москва- Прогресс-2003.Перевод с французского д.ю.н. проф. В.А.Туманов. www.Lib.ru/PRAVO/rene/txt.

10. Məmmədov E.Y.,Azimzadeh A.J.// Efficency of the innovation-investment model:Experience from China and prospects for Azerbaijan.// Odar Yurdu Universitetinin Elmi-Pedaqoji Xəbərləri, 32.

# Bazar şəraitində müəssisənin marketinq fəaliyyətinin strateji planlaşdırılmasının əsas xüsusiyyətləri.

# Основные особенности стратегического планирования маркетинговой деятельности предприятия в условиях рынка

# The main features of strategic planning of marketing activities of an enterprise in market conditions

**Məmmədova Solmaz**

**Odlar Yurdu Universiteti**

**"İqtisadiyyat və iqtisadi münasibətlər" kafedrası**

**Müəllim**

**Xülasə**

Məqalədə müəssisələrin strategiya və taktikalarının qurulması metodu kimi marketinq fəaliyyətinin planlaşdırılmasının mahiyyətindən bəhs edilir. Xüsusilə, marketinq strategiyasının formalaşmasının əsas mərhələləri təsvir edilmişdir. Müəssisənin strategiyanın işlənib hazırlanması və həyata keçirilməsi üçün marketinq fəaliyyətinin həyata keçirilməsi üçün başlanğıc nöqtəsi olan ümumi məqsədləri də təqdim olunur.

**Açar sözlər:** strateji marketinq, marketinqin planlaşdırılması, marketinq strategiyasının formalaşdırılması, strateji plan

**Резюме**

В статье рассматривается сущность планирования маркетинговой деятельности как метода построения стратегии и тактик предприятий. В частности, описываются основные этапы формирования стратегии маркетинга. Представлены также общие цели предприятия, которые являются исходной точкой для осуществления маркетинговых мероприятий по разработке и реализации стратегии.

**Ключевые слова:** стратегический маркетинг, маркетинговое планирование, формирование стратегии маркетинга, стратегический план

**Summary**

The article deals with the essence of planning marketing activities as a method of building strategies and tactics of enterprises. In particular, the main stages of the formation of a marketing strategy are described. The general goals of the enterprise are also presented, which are the starting point for the implementation of marketing activities for the development and implementation of the strategy.

**Keywords:** strategic marketing, marketing planning, formation of a marketing strategy, strategic plan

Azərbaycanın iqtisadi sisteminin müasir inkişaf mərhələsi bazar münasibətlərinin inkişafı ilə xarakterizə olunur ki, bu da sosial-iqtisadi münasibətlər sahəsində əsaslı islahatların aparılmasını və ictimai fəaliyyətin bütün sahələrində struktur dəyişikliklərinin aparılmasını tələb edir. Davam edən transformasiyaların sənaye müəssisələrində, ilk növbədə, əvvəllər yaradılmış iqtisadi əlaqələrin qırılması ilə bağlı bir sıra böhranlı hadisələrə səbəb olması tamamilə təbiidir. Yerli bazarda çoxlu sayda xaricdən gətirilən malların görünməsi və yerli istehsalçılar tərəfindən malların keyfiyyətinə artan istehlak tələblərinin nəzərə alınmaması səbəbindən istehsal olunan məhsulların satışı prosesi xeyli mürəkkəbləşib. Bu şəraitdə sənaye müəssisələrinin əsas vəzifəsi təsərrüfat fəaliyyətinin yeni formalarının axtarışı və idarəetmənin köklü şəkildə yenidən qurulması ehtiyacı olmuşdur, çünki yalnız bu halda ən az itki ilə yeni sosial-iqtisadi şəraitə uyğunlaşmaq mümkündür. . Ona görə də müasir şəraitdə marketinq konsepsiyasının bazar şəraitində müəssisənin idarə edilməsi konsepsiyası kimi öyrənilməsi və istifadəsi xüsusi əhəmiyyət kəsb edir. İqtisadi cəhətdən inkişaf etmiş xarici ölkələrin təcrübəsi göstərir ki, marketinqdən istifadə müəssisənin istehsal fəaliyyətinin səmərəliliyini artırır, məhsulun istehsalı və satışı üçün optimal proqramlar qurmağa imkan verir, bazarda baş verən dəyişikliklərə daha tez reaksiya verir, daha dolğun şəkildə həyata keçirməyə imkan verir. müəssisələrin rəqabət üstünlüklərindən istifadə etmək və tələb və obyektiv təklif arasındakı əlaqəni optimal şəkildə nəzərə almaq, tələb yaratmaq, əlavə resurslar cəlb etmədən real gəlirləri sürətləndirmək və istehsalın səmərəliliyini artırmaq. Tədqiqatçılar qeyd edirlər ki, "marketinq elmi əsaslı idarəetmə konsepsiyasıdır, eyni zamanda iqtisadi sistemin dəyişən bazar mühitinə uyğunlaşmasına və inkişafına imkan verən fəaliyyətlər sistemi və texnikalar toplusudur".

Onu da demək olar ki, marketinq insan ehtiyaclarını minimum xərclə qarşılamaqda yüksək nəticələr əldə etmək üçün müəssisənin idarə olunmasının bütün elmidir. Marketinq fəaliyyətinin ən böyük təsiri budur. Müəssisənin marketinq idarəetməsinin əsas istiqamətlərindən biri səriştəli planlaşdırmadır. Planlaşdırma idarə olunan obyektin inkişafı məqsədinin, ona nail olmaq üsullarının, yollarının və vasitələrinin müəyyən edilməsi, proqramın, yaxın və gələcək üçün müxtəlif təfərrüatlı fəaliyyət planının hazırlanmasıdır. Planlaşdırma, planın həyata keçirilməsi üçün gələcək ehtimal şərtləri haqqında fərziyyələrə əsaslanaraq, müəyyən bir müddət ərzində məqsədlərin, strategiyaların, habelə onlara nail olmaq üçün fəaliyyətlərin müəyyən edilməsi prosesidir. Strateji marketinq planlaması firmanın məqsədləri, onun marketinq potensialı və şansları arasında strateji uyğunluğun yaradılması və saxlanması idarəetmə prosesidir. Strateji planlaşdırma, təşkilatın əsas missiyasına yönəlmiş və müəssisənin bazarda rəqabət mövqeyini gücləndirməyə yönəlmiş bir-biri ilə əlaqəli tədbirlər kompleksinin işlənib hazırlanmasını və həyata keçirilməsini nəzərdə tutan rəsmiləşdirilmiş bir prosesdir.

İnkişafın indiki mərhələsində idarəetmənin bazar yönümlülüyünə, strateji yanaşmanın təmin edilməsinə, idarəetmə üslubunun dəyişdirilməsinə ehtiyac var ki, bu da müəssisənin idarə edilməsində müəyyən düşüncə tərzinin formalaşmasını nəzərdə tutur. Bu oriyentasiya strateji marketinq menecmenti vasitəsilə həyata keçirilir. Yalnız uzunmüddətli baxış şirkəti daha da rifah və inkişafla təmin edə bilər və bu, yalnız strateji marketinq menecmentinin şirkətin fəaliyyətinə tətbiq olunduğu halda mümkündür.

Təşkilatın strateji vəzifələrinin həllində əsas rolu dəyişən bazar şəraitində təşkilatın məqsədləri və imkanları arasında strateji tarazlığın inkişafı və saxlanması prosesi kimi başa düşülən strateji planlaşdırma oynayır. Strateji planlaşdırmanın məqsədi təşkilatın fəaliyyətinin

ən perspektivli sahələrini müəyyən etmək, onun böyüməsini və çiçəklənməsini təmin etməkdir. Xaricdə bu termin bu konsepsiyanı uzunmüddətli planlaşdırmadan fərqləndirmək və bütövlükdə təşkilatın və ya onun müstəqil biznes bölmələrinin idarəetmə səviyyəsində həyata keçirilən planlaşdırma ilə idarəetmənin aşağı səviyyələrində planlaşdırma arasındakı fərqi əks etdirmək üçün təqdim edilmişdir. Strateji planlaşdırma daha geniş "strateji idarəetmə" anlayışının tərkib hissəsidir. İdarəetmədə adətən onun dörd ümumiləşdirilmiş funksiyası fərqləndirilir - planlaşdırma, təşkilat, motivasiya və nəzarət. Onların hər birində strateji idarəetmədən söhbət gedəndə az və ya çox dərəcədə strateji oriyentasiya təmsil olunur. Lakin ən çox bu, onun xüsusi bir növünün seçildiyi planlaşdırmaya aiddir - strateji planlaşdırma [1].

Strateji idarəetməyə maraq aşağıdakı səbəblərdən irəli gəlirdi:

1. İstənilən təşkilatın açıq sistem olduğunu və təşkilatın əsas uğur mənbələrinin xarici mühitdə olduğunu dərk etmək.

2. Rəqabətin gücləndiyi şəraitdə təşkilatın fəaliyyətinin strateji istiqamətləndirilməsi onun yaşaması və çiçəklənməsi üçün həlledici amillərdən biridir. Strateji planlaşdırma xarici mühitə xas olan qeyri-müəyyənlik və risk faktorlarına adekvat cavab verməyə imkan verir.

3. Gələcəyi proqnozlaşdırmaq praktiki olaraq mümkün olmadığından və uzunmüddətli planlaşdırmada istifadə olunan ekstrapolyasiya nəticə vermədiyindən, strateji idarəetmə ideologiyasına yaxşı uyğun gələn ssenari, situasiya yanaşmalarından istifadə etmək lazımdır.

4. Təşkilatın xarici mühitin təsirinə ən yaxşı reaksiya verməsi üçün onun idarəetmə sistemi uyğunlaşma imkanlarına malik olmalıdır.

Bazar mühitini qiymətləndirərək, hədəf seqmentin seçimi ilə bağlı strateji qərar qəbul etmək lazımdır. Bu kontekstdə marketinq strategiyası prinsipləri müəyyən edən və qarşıya qoyulan məqsədlərə nail olmaq üçün fərdi təşkilati, iqtisadi və sosial marketinq fəaliyyətlərini istiqamətləndirən əsas uzunmüddətli qərardır. Lakin marketinqin idarə edilməsinin təşkili prosesində strategiyanın seçimi xarici və daxili şəraitlə məhdudlaşır. Strategiyanı aydın şəkildə formalaşdırmaq üçün bir sıra strateji təyinedicilərdən istifadə etmək lazımdır. Fikrimizcə, bunlara aşağıdakılar daxildir:

-bazarın məkan bölgüsü (yerli, regional, milli);

- bazarla tanış olmaq;

- bazarın emal həcmi (bir seqment, bir neçə seqment, bütün bazar);

-bazarın emalı üsulu (differensiallaşdırılmış, differensiallaşdırılmamış, təmərküzləşdirilmiş);

-marketinq alətlərindən birinə (qiymət, keyfiyyət) diqqətin cəmlənməsi;

- əsas məqsəd (satış, gəlirlilik);

- rəqiblərə münasibət (aqressiv, neytral);

-əməkdaşlığa münasibət;

- artım templərinə münasibət (sürətli, orta, azaldılmış);

- Yeniliyə münasibət.

Strategiya müəssisənin məqsədlərinin həyata keçirilməsinin müxtəlif hallərini, vasitələrini və yollarını əhatə edir. O, müəssisənin imkanlarını xarici mühitə uyğunlaşdırmaqdan ibarətdir. Eyni zamanda, problem mümkün variantlar arasından marketinq məqsədlərinə çatmaq üçün tələblərə cavab verən hər bir bazar və məhsul üçün ən uyğun strategiyanı seçməkdir.

Müəssisələrdə strateji planlaşdırma sisteminin inkişafı müəssisənin daxili və xarici mühitinin situasiya təhlilini nəzərdə tutur. Daxili mühit müəssisənin fəaliyyətinə daimi və birbaşa təsir göstərir. Daxili mühit bir neçə amildən ibarətdir, bunların hər biri təşkilatın bir sıra əsas prosesləri və elementlərini özündə cəmləşdirir, onların vəziyyəti birlikdə müəssisənin potensialını və imkanlarını müəyyən edir. Daxili mühitin kadr amili menecerlərin və işçilərin qarşılıqlı əlaqəsi kimi prosesləri əhatə edir; kadrların seçilməsi, təlimi və yüksəldilməsi; əməyin nəticələrinin qiymətləndirilməsi və stimullaşdırılması; işçilər arasında münasibətlərin yaradılması və saxlanması və s.

Təşkilati faktora daxildir: kommunikasiya prosesləri; təşkilati strukturlar; normalar, qaydalar, prosedurlar; hüquq və vəzifələrin bölüşdürülməsi; hökmranlıq iyerarxiyası. İstehsal amilinə məhsulun istehsalı, təchizatı və saxlanmasının idarə edilməsi daxildir; texnoloji parka qulluq; tədqiqat və inkişaf işlərinin həyata keçirilməsi. Müəssisənin daxili mühitinin marketinq faktoru məhsulların satışı ilə bağlı olan bütün prosesləri əhatə edir. Bu məhsul strategiyasıdır; qiymət strategiyası; məhsulun bazarda təşviqi strategiyası; bazarların və paylama sistemlərinin seçimi. Maliyyə amili müəssisədə vəsaitlərin səmərəli istifadəsini və hərəkətini təmin etməklə bağlı prosesləri əhatə edir. Xüsusilə, bu, likvidliyin qorunması və gəlirliliyin təmin edilməsi, investisiya imkanlarının yaradılması və s.

Müəssisənin daxili mühitini qiymətləndirdikdən sonra SWOT təhlili adlanan metodu tətbiq etməklə uyğunlaşdırma prosesini başa çatdırmaq lazımdır. İxtisar ingilis sözlərinin ilk hərflərindən düzəlib: güc (güc), zəiflik (zəiflik), imkanlar (imkanlar), təhdidlər (threat). SWOT - təhlil, xarici və daxili mühitin birgə tədqiqatını aparmağa imkan verən kifayət qədər tanınmış bir yanaşmadır. SWOT metodologiyası əvvəlcə güclü və zəif tərəflərin, həmçinin təhdid və imkanların müəyyən edilməsini, sonra isə onlar arasında əlaqə zəncirlərinin yaradılmasını əhatə edir ki, bu da daha sonra təşkilatın strategiyasını formalaşdırmaq üçün istifadə oluna bilər.

Marketinq fəaliyyətinin planlaşdırılmasının xüsusiyyəti ondan ibarətdir ki, o, müəssisənin cari strategiyasının və onun taktiki proqramlarının formalaşdırılması əsasında qurulur. Planlaşdırılan tədbirlər və tədbirlər nə qədər gələcəyə doğru gedirsə, planların həyata keçirildiyinə inam da bir o qədər az ola bilər. Eyni zamanda, təkliflərdəki səhvlər qərar qəbulunda səhvlərə yol açır. Buna görə də, yeni şəraitə daim uyğunlaşmaya ehtiyac var. Müəssisənin ümumi planlaşdırılması bir-biri ilə əlaqəli, bir-birindən asılı olan və bir-birini tamamlayan bir sıra planlara əsaslanır. Şəxsi planlar öz növbəsində ayrı bir əməliyyata qədər daha kiçik planlara bölünə bilər. Nəzərə almaq lazımdır ki, hər şey ümumi planın çərçivəsinə uyğun olmalıdır. Planlaşdırma hüceyrələr sistemi kimi təqdim edilə bilər, burada hər bir böyük bir sıra kiçik olanları ehtiva edir, öz daxilində təşkil edilir və qonşularla qarşılıqlı əlaqə qurur [2].

Belə bir yanaşmanın iki üstünlüyü var. Birincisi, işçilər yeni bazar reallıqlarına uyğunlaşdırılmalı olan müəssisənin həyata keçirilən strategiyası haqqında aktual məlumatlar alırlar. İkincisi, plandan yayınma aşkar edir:

a) düzgün olmayan bazar şərtlərinə əsaslanan proqramların tərtib edilməsi;

b) son planlaşdırma dövründə bazar mühitində baş vermiş dəyişikliklər və strategiyaya tələb olunan düzəlişlər;

c) icazəsiz siyasət və proqramlar.

Bu istiqamətləri nəzərə alaraq üç hissədən ibarət olan illik planlaşdırma prosesi formalaşır: bazar mühitinin təhlili, strategiyanın hazırlanması və fəaliyyətin planlaşdırılması.

Şirkətdaxili idarəetmənin marketinq konsepsiyasının əsas prinsipləri bazarın proqnozlaşdırılması, strategiyanın işlənib hazırlanması və bazarda fəaliyyətinin planlaşdırılmasıdır. Strateji planlaşdırma, artıq qeyd olunduğu kimi, dəyişən bazar tələblərinə uyğun olaraq şirkətin növbəti hərəkətlərini qabaqcadan görmək, artıq məlum bazarda işləmək, əmtəə, qiymət, marketinq və həvəsləndirmə siyasəti sahəsində bir-biri ilə əlaqəli tədbirlər kompleksinin işlənib hazırlanmasıdır. rəqiblərin mümkün reaksiyasını nəzərə alaraq. Ətraflı strateji plan marketinq planıdır. Müxtəlif şirkətlərdə marketinqin planlaşdırılması planın məzmunu, planlaşdırma üfüqləri, inkişaf ardıcıllığı, planlaşdırmanın təşkili baxımından fərqli şəkildə həyata keçirilir. Müxtəlif müəssisələr üçün marketinq planının məzmunu da müxtəlifdir: bəzən o, satış şöbəsinin planından çox da geniş deyil, digər hallarda isə biznes strategiyasının geniş nəzərdən keçirilməsinə əsaslanır və onun həyata keçirilməsi üçün məqsəd və proqramları ehtiva edə bilər. bəzi marketinq funksiyaları. Aparıcı xarici şirkətlərin təcrübəsinin nəticələrinə əsasən güman etmək olar ki, marketinq planına əsaslanan istehsal-təsərrüfat fəaliyyəti planı müəssisənin bütün digər funksiyalarının: istehsal, elmi-tədqiqat, maliyyə, əmək resursları. Belə müəssisədə marketinq fəaliyyətinin planlaşdırılmasının təşkili tam marketinq sisteminin strukturuna əsaslanır.[3]

Marketinq fəaliyyətinin planlaşdırılması birdəfəlik deyil, dövri prosesdir ki, bu da planlaşdırma obyektinin vəziyyəti və xarici mühit haqqında ən son məlumatlar əsasında planın daim yenilənməsinə əsaslanır. Proses ilkin vəziyyətin təhlili ilə başlayır, sonra onun nəticələrinə əsasən ardıcıl olaraq aşağıdakılar həyata keçirilir: müəssisənin məqsədlərinin müəyyən edilməsi, optimal strategiyanın seçilməsi, orta müddətli planların işlənib hazırlanması və qısamüddətli illik planların hazırlanması. .

Marketinq planı müəyyən tələblərə cavab verməlidir, bunlardan ən vacibləri:

- müəssisənin məqsəd və vəzifələrinin həyata keçirilməsinə kömək edən strategiyanın əsaslandırılması;

- müəssisənin bütün mövcud ehtiyatlarından, xüsusən maliyyə, maddi, əmək ehtiyatlarından səmərəli istifadə edilməsi, marketinq xidmətinin işçiləri arasında vəzifə və öhdəliklərin bölüşdürülməsi;

-nəzərdə tutulan məqsədlərin həyata keçirilməsini təmin edən təşkilati strukturun təsvirinin olması;

-gələcək üçün hesablama ki, hər bir sonrakı marketinq planı əvvəlkinin davamı və inkişafı olsun.

Bu cür davamlılıq uzunmüddətli məqsəd və vəzifələrin əldə olunmasını, sözlərin qısalığını və aydınlığını təmin edir. Eyni zamanda, bütün qısalığına baxmayaraq, marketinq planı kifayət qədər təfərrüatlı olmalı və nəzərdə tutulan məqsədlərə və çevikliyə nail olmaq üçün aydın yolları əsaslandırmalıdır, çünki onun uğurla həyata keçirilməsi bundan asılı ola bilər. Buna görə də, müəyyən gözlənilməz hallar, minimum, optimal və maksimumu izləyə biləcəyiniz kəmiyyət göstəriciləri halında necə hərəkət edə biləcəyinizi əvvəlcədən düşünməlisiniz.

Müəssisələrdə marketinq fəaliyyətinin idarə edilməsi marketinq fəaliyyətinə ayrılan vəsaitlərlə maksimum effekti təmin etmək üçün məlumatların toplanması və emalı sisteminin qurulmasını, marketinq əməliyyatları üzrə bazar araşdırmalarının aparılmasını və s. Beləliklə, təşkilatın marketinq fəaliyyətinin idarə edilməsi və strateji idarə olunması istənilən biznes sahəsində zəruridir.

**İstifadə edilən ədəbiyyat:**

1. Андреев В.Д., Боков М.А. Теория и практика стратегического планирования/Под ред. В.И. Шаповалова. Сочи: РИЦ СГУТиКД, 2019.
2. Беркутова, Т. А. Маркетинговые коммуникации: учебное пособие/Т. А.Беркутова. -Ростов н/Д: Феникс, 2017
3. Зиннуров У.Г. Стратегическое маркетинговое планирование и управление на предприятии: учеб. пособие. М.: Изд-во МАИ, 2018

## "AZƏRBAYCAN RESPUBLİKASINDA AUDİT FƏALİYYƏTİNİN NORMATİV HÜQUQİ ƏSASLARI"

**"Normative legal bases of audit activities in the Republic of Azerbaijan"**

**Şıxmuradova Səbinə Pənah qızı**
Odlar Yurdu Universiteti
Biznesin idarə edilməsi fakültəsinin
Maliyyə nəzarəti və Audit ixtisası üzrə
II kurs 904-cü qrup magistri
email: sabinapanahqizi@gmail.com

Audit activity in the Republic of Azerbaijan is one of the main strategic directions of the country's economy. The regulation of auditor activity in the territory of Azerbaijan began with the AR Law "On Auditor Service" adopted by the National Leader of Azerbaijan Heydar Aliyev on 16.09.1994. The Statute of the Chamber was approved by the Parlament of Azerbaijan Republic on 19.09.1995. (1).

*Keywords: legislation, standards.*

Azərbaycan Respublikasında audit fəaliyyəti ölkə iqtisadiyyatının əsas strateji istiqamətlərindən biridir. Azərbaycan Respublikasının Konstitusiyasından, Audit fəaliyyəti haqqında Qanundan, "Auditorlar Palatası haqqında Əsasnamə"dən, digər normativ hüquqi aktlardan və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən və Beynəlxalq Mühasiblər Federasiyası (IFAC) tərəfindən 4 tanınmış Beynəlxalq Audit Standartlarından ibarətdir. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə bu Qanundan fərqli qaydalar müəyyən edildikdə, beynəlxalq müqavilələrin normaları tətbiq edilir. Azərbaycanın Ümummili Lideri Heydər Əliyev tərəfindən 16.09.1994-cü il tarixində qəbul edilmiş " Auditor xidməti haqqında" AR Qanunu ilə Azərbaycan ərazisində auditor fəaliyyətinin tənzimlənməsinə başlanmışdır. Palatanın Əsasnaməsi 19.09.1995-ci il tarixində AR Milli Məclisi tərəfindən təsdiq edilmişdir.(1)

Auditor fəaliyyəti Azərbaycan Respublikasının auditor fəaliyyəti haqqında qanunvericiliyi, Beynəlxalq Audit Standartları və Peşəkar Mühasiblərin Etika Məcəlləsi ilə müəyyən edilmiş prinsiplərə və Azərbaycan Respublikasının Auditorlar Palatası tərəfindən qəbul edilmiş qərarlara əsasən həyata keçirilir. Audit fəaliyyətinin əsas normativ-hüquqi bazası qanunvericilikdən, standartlardan, Maliyyə Monitorinqinə dair materiallardan, beynəlxalq tədbirlərin materiallarından, Auditorlar Palatasının Şura qərarlarından və Palata sədrinin əmr və sərəncamlarından ibarətdir.

Normativ əsas olaraq qanunvericilik Konstitusiyadan, qanunlardan, məcəllələrdən , AR Prezidentinin fərman və sərəncamlarından, Nazirlər Kabinetinin qərarları və sərəncamlarından və Palatanın normativ-hüquqi sənədlərindən ibarətdir.

Beynəlxalq normalara cavab verən standartlar isə Beynəlxalq Audit Standartlarından, Beynəlxalq Təhsil Standartlarından, Maliyyə hesabatlarının Beynəlxalq Standartlarından, Avropa İttifaqının Direktivlərindən və digər beynəlxalq sənədlərdən ibarətdir.

Azərbaycan Respublikası ərazisində audit fəaliyyəti beynəlxalq maliyyə institutları ilə əməkdaşlıq səviyyəsində münasibətləri qurmuşdur.

Avropa Birliyinin TACİS proqramı çərçivəsində həyata keçirilən "Azərbaycan Respublikası Auditorlar Palatasının audit keçirmə potensialının möhkəmləndirilməsi, müflisləşmə və iflas üzrə mütəxəssislərin hazırlanması" layihəsinin icrasına 24.06.1997-ci ildə başlanmış və 1999-cu ildə uğurla başa çatdırılmışdır.(2)

Auditorlar Palatasının müraciətinə əsasən, MDB məkanında ilk dəfə olaraq Azərbaycanda beynəlxalq Daxili Auditorlar İnstitutunun (IIA) "Audit- Azərbaycan" bölməsi 26.06.1999-cu ildə yaradılmışdır.

5 may 2003-cü ildə Azərbaycan Respublikasının Auditorlar palatası Avropa Mühasiblər və Auditorlar Federasiyasına (EFAA) tamhüquqlu üzv qəbul edilmişdir.

14 noyabr 2003-cü ildə Azərbaycan Respublikasının Auditorlar palatası Beynəlxalq mühasiblər Federasiyasına (İFAC) assosativ üzv qəbul olunmuşdur.

2007-ci ilin aprel ayında Azərbaycan Respublikasının Auditorlar Palatası Sertifikatlı Mühasiblər və Auditorların Avrasiya Şurasına (ECCBA) üzv qəbul olunmuşdur.

Beynəlxalq Mühasiblər Federasiyasının (İFAC) İtaliyanın Roma şəhərində keçirilən illik Şura iclasında Azərbaycan Respublikasının Auditorlar Palatası Beynəlxalq Mühasiblər Federasiyasına 13 noyabr 2008-ci ildə tam üzv qəbul olunmuşdur.

Azərbaycan Respublikasının ərazisində beynəlxalq audit standartlarının (BAS) tətbiqinə 1 yanvar 2010-cu ildə başlanılmışdır.

Azərbaycan Respublikasında auditor fəaliyyətində idarəetmənin tənzimlənməsi üçün aşağıdakı normativ aktlar qəbul edilmişdir:

22 may 2007-ci ildə Azərbaycan Respublikası Auditorlar Palatasının təklifləri əsasında hazırlanmış "Auditorun mülki məsuliyyətinin icbari sğortası haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir.(3)

22 may 2007-ci ildə Azərbaycan Respublikasının Auditorlar Palatasının təklifləri əsasında hazırlanmış "Daxili audit haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir.

"Kiçik və orta müəssisələr üçün keyfiyyətə nəzarət üzrə Təlimat" 2012-ci ildə nəşr olunmuşdur.

8 saylı beynəlxalq təhsil standartı (BTS 8): "Audit mütəxəssislərinin səriştəliliyinə dair tələblər" 2012-ci ildə nəşr etdirilmişdir.

"Müasir şəraitdə şəffaflığın artırılmasında auditin rolu" (Beynəlxalq elmi–praktik simpoziumun materialları, 15-16 mart 2012-ci il) 2012-ci ildə nəşr etdirilmişdir.

"Daxili audir: reallıqlar və prespektivlər" (Beynəlxalq konfransın materialları, 3-4 may 2012-ci il) 2012-ci ildə nəşr etdirilmişdir.

Audit fəaliyyətinin normativ hüquqi aktının tənzimlənməsi ilə bir sıra beynəlxalq aktlar qəbul edilmiş və müqavilələr imzalanmışdır.

Hollandiyanın Amsderdam şəhərində sentyabrın 15-də "Avropanın liderləri" forumu , 23-26 oktyabr tarixində Polşa Milli Auditorlar İnstitutunun 20-ci ildönümünə həsr olunmuş tədbir və "Auditin statusu və prespektivləri" mövzusunda keçirilən 13-cü illik audit konfransı keçirilmişdir. Azərbaycan da bu tədbirdə təmsil olunmuşdur.

2012-ci il 25 iyul tarixində Azərbaycan Respublikası Auditorlar Palatası ilə Sankt-Peterburq Auditorlar Palatası arasında , 13.09.2012 tarixində isə Azərbaycan Respublikası Auditorlar Palatası ilə Moskva Auditorlar Palatası arasında əməkdaşlıq üzrə sazişi imzalanmışdır.

2012-ci il 15-16 mart tarixində "Müasir şəraitdə şəffaflığın artırılmasında auditin rolu" mövzusunda beynəlxalq elmi-praktik simpozium , 2012-ci ilin 3-4 may tarixində isə "Daxili audit: reallıqlar və prespektivlər" mövzusunda konfrans keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 2421 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nda və "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nda (4) nəzərdə tutulmuş vəzifələrin icrası ilə əlaqədar müvafiq qurumların iştirakı ilə 2012-ci il 12 oktyabr tarixində "dəyirmi masa" keçirilmişdir.

İstifadə edilmiş ədəbiyyat

1. https://e-qanun.az/framework/9236

2. https://www.audit.gov.az/

3. https://frameworks.e-qanun.az/13/f_13678.html

4. https://e-qanun.az/framework/24193

## AZƏRBAYCANIN QEYRİ-NEFT SEKTORUNDA İNNOVATİV İSTİQAMƏTLƏRİN İNKİŞAFI PROBLEMLƏRİ

***Əliyeva Aysel Sacəddin qızı***

*OdlarYurdu Universitetinin müəllimi*

*ayselaliyeva@mail.ru*

*OdlarYurdu Universiteti*

Son onillikdə cəmiyyətimiz dayanıqsız bir məcradadır. Dünya iqlim dəyişiklikləri, əhalinin qocalması, səhralaşma, su qıtlığı, çirklənmə və kritik xammal qıtlığı da daxil olmaqla çoxsaylı uzunmüddətli problemlərlə üz-üzədir. İqtisadi inkişaf ölkədəki milli gəlirlərin ÜDM-nin xarici ticarət səviyyəsinin, pul və borc səviyyəsinin ölçülməsindən ibarətdir. İqtisadi inkişafa təsir göstərən bir sıra amillər mövcuddur. Dövlət sektoru, təbiət, enerji maliyyə, vergi, əhali və texnologiyanı bu amillərə misal göstərmək olar. Günümüzdə isə inkişaf texnoloji tərəqqi ilə bağlıdır. Texnologiyanın sürətli inkişafı isə innovasiyanı sahibkarlıq fəaliyyətinin yaranması üçün başlıca amil halına gətirir. İnnovativyanaşma ilə əlavə dəyəri qazanmaq inkişafda açar rolunu həyata keçirir. Sənaye inqilabından sonra, bilik və biliyə əsaslanan iqtisadi yanaşmalar dünyanın ən aktual problemlərindəndir. Qloballaşma prosesi və dünya iqtisadiyyatındakı rəqabətlilik elm ilə əlaqəli iqtisadiyyatın inkişafı üçün daha vacibdir.İqtisadi artım, rəqabət qabiliyyətliliyi və məşğulluq imkanlarını qorumaq üçün ölkələr sürətlə yeni ideyaları texniki və kommersiya uğurlarına çevirməlidirlər. Bu prosesdə sənaye cəmiyyəti öz yerini informasiya cəmiyyətinə vermişdir. Xüsusilə dünya iqtisadiyyatının böyük bir hissəsi olan inkişaf etmiş ölkələrdə bu proses daha sürətli hala gəlmişdir. Belə ki, inkişaf etmiş ölkələrin dünya bazarlarında daha böyük payı olduğuna görə, bilik əsaslı sahələrə kapital qoyuluşlarının həcmi müntəzəm artır. Hər gün artan rəqabətə davam gətirmək üçün ən səmərəli üsullardan biri innovasiyadır. Buna görə də, innovasiya tədqiqatları bilik bazasına və ya biliklərə əsaslanan iqtisadiyyatların yerləşdirilməsində əhəmiyyətli rol oynayır və innovasiyanın tətbiq sahələri olduqca genişdir.

Azərbaycan Respublikasında neft və qeyri-neft sektorlarının inkişafında əldə edilən uğuların başlıca səbəbi kimi innovativ istiqamətdə aparılan işlərin əhəmiyyəti danılmazdır. Son illərdə iqtisadiyyatın rəqabətqabiliyyətinin artırılması, dövlətin özəl sektora müdaxilənin

qarşısının alınması ilə əlaqədar metodların və elektron xidmətlərin tətbiqi, biznesin idarə edilməsində müasir texnoloji vasitələrin istifadəsi, "Elektron hökumət" layihəsi və başqa mürəkkəb fəaliyyətlər rəqabət mühitinin və onun inkişafı sahəsində nəzərəçarpacaq irəliləyişlərə təsir edib. Eyni zamanda dövlət büdcəsindən iqtisadiyyata ayrılan vəsaitlərin qeyri-sənaye sahələrinin inkişafına məqsədli proqramlar çərçivəsində kifayət qədər ayrılmaması bu sahədə ciddi problemlər yaradır. Emal və digər qeyri-neft sənaye sahələrinin əsas kapital qoyuluşuna yönəldilən vəsaitlərin xüsusi çəkisi sənaye üzrə əsas kapitala yönəldilən investisiyaların yalnız 16 faizini təşkil edir. Ölkə müəssisələrinin əsas kapitalına yönəldilən investisiyalar əsas fondların, texnolojı qurğuların müasirləşdirilməsini, təkmilləşdirilməsini təmin edəcək səviyyədə deyildir.Azərbaycanın qeyri-neft sənayesi müəssisələrində istehsal olunan məhsullar yüksək əmək və material tutumluluğu ilə fərqlənir. İnnovasiya və elmtutumlu məhsulların həcmi olduqca aşağıdır. Ölkədə əsas sənaye-istehsal fondlarının müasirləşdirilməsi və təkmilləşdirilməsi problemi həll edilməlidir. Xüsusilə qeyri-neft sənayesində mövcud olan fondların yeniləşməsinə olan tələbat artmaqdadır.Azərbaycanda qeyri-neft sektorunun inkişafı üçün yetərincə potensial sahələr var. İnvestisiyaların cəlb olunması üçün aşağıdakı iqtisadi fəaliyyət növlərinə birbaşa xarici investisiyaların cəlb olunması prioritet hesab edilir:

- Ənənəvi istehsal sahələri və xidmətlər: kənd təsərrüfatı, qida məhsullarının istehsalı, turizm sənayesi; Kimya sənayesi;Tikinti materiallarının istehsalı; Metallurgiya sənayesi; Nəqliyyat və logistika;

- Yüksək texnologiyalara əsaslanan istehsal sahələri: Ölkənin rəqabət qabiliyyətini artırmaq, elm tutumlu iqtisadiyyatı inkişaf etdirmək, daha çox əlavə dəyər yaradan istehsal sahələrini stimullaşdırmaq məqsədi ilə aşağıdakı yeni sahələr üzrə investisiyaların cəlb olunması dəstəklənəcəkdir: Əczaçılıq sənayesi; Biotexnologiyalar; Nanotexnologiyalar; İnformasiya və kommunikasiya texnologiyaları; Kosmik sənaye; Alternativ və bərpa olunan enerji mənbələri hesabına enerji istehsalı"; Sənaye parkları, ərazi klasterləri və sənaye məhəllələri; İdxal əvəzləyici və ya ixrac qabiliyyətli məhsullar istehsal edən sənaye müəssisələrini əhatə edəcək sənaye parkları, ərazi klasterləri və sənaye məhəllələrinə xarici investisiyaların cəlb edilməsi; Aqro-enerji komplekslərinin, günəş, külək və bioenerji parklarına xarici investisiyaların cəlb edilməsi.

- İdxal əvəzləyici investisiyaların cəlb edilməsi: Daxili tələbatı ödəmək üçün Azərbaycana idxal olunan məhsulların yerli istehsalla əvəz olunması və perspektivdə bu məhsulların xarici bazarlara ixracı məqsədilə xarici investorların cəlb edilməsi.

İnkişafın ümumi gedişi göstərir ki, XXI əsrin energetikası neft energetikası olmayacaqdır. Çünki müasir dünyada hasil edilən enerjinin əsas hissəsi neftlə bağlı deyil və gələcəkdə də vəziyyətin dəyişəcəyi gözlənilmir. Lakin mobil güc qurğularında, kimya sənayesində və bir sıra başqa sahələrdə neft məhsulları praktiki olaraq hələ hakim rol oynamaqdadır. Doğrudur, müasir texnoloji potensial elə bir inkişaf səviyyəsinə çatmışdır ki, nüvə enerjisi də daxil olmaqla, bütün ilkin enerji resurslarını mühərrik yanacağına çevirmək texniki cəhətdən həll edilə biləndir. Lakin, elektrikləşdirilmiş dəmiryolu istisna olunmaqla, bu yolla alınan yanacaq növləri ənənəvi neft məhsulları ilə rəqabətə dözə bilmir. Buna görə də neft məhsullarını əvəz etmək texniki cəhətdən mümkün olsa da, bu əvəzetmə yalnız neftçıxarma sahəsində istehsal çətinlikləri həddən artıq gücləndikdə səmərəli ola bilər.

Neft və qaz hasilatının mümkün və məqsədəuyğun həcmlərinin əldə edilməsi ölkə iqtisadiyyatının bir sıra sahələrinin dinamik və dayanıqlı inkişafını, xüsusilə, nəqliyyatın, tikinti və kənd təsərrüfatı texnikasının işini, polimer materialların istehsalını və s. təmin edir. Neft get-gedə daha çox kimya sənayesi üçün xammala çevrilməkdədir. Çünki, neft xammalına əsaslanan kimyəvi məhsullar istehsalı olduqca yüksək inkişaf tempi ilə xarakterizə olunur. Beləliklə neftdən istifadə istiqamətlərindəki struktur dəyişiklikləri nə qədər köklü və dərin olursa olsun, ona tələbatın azalması praktiki olaraq qeyri-mümkündür.

Burası da danılmazdır ki, bütövlükdə dünyada enerji daşıyıcılarının istehsalında dönməz ümumi artım meyli mövcuddur. Bununla belə, enerji daşıyıcılarının dünya bazar qiymətləri məlum tələb-təklif qanununun təsirindən daha çox siyasi hadisələr və silahlı konfliktlərlə bağlı olaraq sıçrayışlı dəyişmələrə məruz qalandır. Qiymətlərin dəyişməsi həmçinin ekoloji amillərlə, o cümlədən, ətraf mühitin çirklənməsi ilə də bağlıdır. Məsələn, 1997-ci ildə Kiotoda keçirilən Beynəlxalq Konfransda 160 ölkə iştirak edərək neft və neft məhsullarının ekoloji çirklənməyə səbəb olmasını xüsusi qeyd etmiş və onlardan istifadə edilməsinin azaldılmasını, əvəzində isə təbii qazdan istifadənin məqsədəuyğunluğunu qərara almışlar. Buna baxmayaraq, dünya bazarındakı faktiki vəziyyətin təhlili göstərir ki, enerji daşıyıcılarına tələb artmaqda davam etməkdədir.

Qloballaşan dünyada ayrıca götürülmüş hər hansı dövlətin iqtisadi inkişafının təmin edilməsində ən önəmli faktorlardan biri də xarici və daxili investisiyalardır. Xarici mənbələr hesabına yatırılan investisiyalara və onların həcminə ölkədəki biznes mühitinin əlverişliliyi, investorların hüquqlarının qanunvericilik əsasında nə dərəcədə qorunması,yatırılan investisiyaların mənfəət dərəcəsi, bilavasitə təsir göstərir.

Azərbaycanda Respublikasında həyata keçirdiyi “Yeni neft strategiyası” və hazırda qeyri-neft sahələrinin inkişaf etdirilməsi istiqamətində dövlətin reallaşdırğı tədbirlər nəticəsində maliyyə imkanları ilbəil genişlənir. Bütün bunlar dövlətin ölkəmizdə həyata keçirilən uğurludaxili və xarici investisiya siyasətininhəyata keçirilməsinə imkan yaratmaqdadır. Azərbaycanın iri daxili və xarici investoru olan Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin (ARDNŞ) müasir çoxşaxəli investisiya fəaliyyəti və strategiyası bilavasitə quruda və dənizdə neft-qaz hasilatı, beynəlxalq neft-qaz müqavilələrində, ixrac boru kəmərlərinin tikilişində iştirakı və ölkədaxili çoxşaxəli fəaliyyəti nəticəsində əldə olunan gəlirləri ilə investisiya portfeli formalaşmışdır.

Azərbaycan RespublikasıDövlət Neft Şirkəti ilə xarici investorlar arasında bağlanmış müqavilələr quruda və Xəzər dənizinin Respublikaya aid olan hissəsində neft və qaz kəşfiyyatı, çıxarılması və hasilatının pay bölgüsünə dair Sazişlərlə bağlı əldə olunan gəlirlər Dövlət Neft Fonduna (ARDNF) daxil olur. İnvestisiya – gəlir (mənfəət) və ya sosial-iqtisadi fayda götürmək məqsədlə sahibkarlığa, infrastruktur təminatına və başqa fəaliyyət istiqamətlərinin obyektlərinə qoyulan maliyyə vəsaiti, həmçinin maddi və bilik sərvətlərdir. Belə vəsait və sərvətlər puldan, banka qoyulmuş məqsədli əmanətlərindən, kreditlərdən, səhmlərdən və başqa qiymətli kağızlardan, daşınan və daşınmaz əmlakdan, uyğun şəkildə rəsmiləşdirilmiş elmi-təcrübi və digər intellektual sərvətlərdən ibarətdir.

İnvestisiya bir kapital olaraq, ölkə daxili və ya xarici obyektlərə qoyulması, dövlətlərin davamlı innovativ iqtisadi inkişafında müstəsna əhəmiyyət kəsb etməklə bərabər, dünya təsərrüfatının formalaşması və genişləndirilməsi üçün əsas amillərdəndir. İnvestisiya fəaliyyəti

investor tərəfindən həyata keçirilir. İnvestor – (ingilis dilində – əmanətçi), investisiya layihəsini həyata keçirmək üçün təşkilatçı, təchizatçı və maliyyələşdirən tərəfdir. İnvestor rolunda dövlət, daxili və xarici hüquqi və fiziki şəxslər və ya bunların birgə qrup ola bilər.

Hər bir investorun məqsədi sərf olunan investisiyadan əlavə gəlirinin əldə edilməsi olduğundan, bu fəaliyyətə başlamazdan əvvəl investisiyanın obyekti, təminatı, infrastrukturu, maliyyə xərcləri haqqında ətraflı məlumatlar əldə edib, araşdırır və ilkin olaraq (təxmini) gəliri müəyyənləşdirir. İnvestisiya prosesində digər iştirakçılar da fəaliyət göstərirlər ki, bunlara sifarişçilər, iş icraçıları, investisiya fəaliyyətinin obyektlərindən istifadə edənlər və habelə mal göndərənlər, xarici hüquqi şəxslər (bank, sığorta və vasitəçi təşkilatlar, investisiya fondları) aiddir.

Sifarişçi investorlar və habelə investisiya layihəsini reallaşdırmaq üçün investorlar tərəfindən vəkil edilmiş hər hansı bir fiziki şəxs eyni zamanda hüquqi şəxs ola bilərlər. Sifarişçi investor olmadığı hallarda müəyyən edilmiş müddətə və müqavilədə göstərilmiş səlahiyyət dairəsində o investisiyaya sahib olmaq, istifadə etmək və sərəncam vermək huququna malik olur. İnvestisiya fəaliyyəti bir neçə mərhələlər üzrə həyata keçirilir ki, bunlara – laq deyilir.

ilk laq – investisiya proseslərinin təşkili, təchizi, işçi kollektivinin yaradılması və s. üçün investor tərəfindən kapital qoyuluşudur. Bu halda investisiya fəaliyyətindən heç bir gəlir götürülmür.

orta laq – fəaliyyət nəticəsində investisiya gəlirləri əldə edilir, lakin bu gəlirlər sərf edilən xərclərə bərabər olur.

son laq – investisiya gəliri əldə olunur. İnvestisiya fəaliyyəti gəlir əldə etmək üçün investisiya qoyuluşu ilə başlanan bütün işlərinin məcmusudur. Bu fəaliyyət zamanı aşağıdakı prinsiplərə istinad edilir:

qanunilik – fəaliyyətin hüquqi bazasının olması;

konüllülük – fəaliyyət konüllüolduğundan onunla istənilən dövlət, yerli və xarici hüquqi və fiziki şəxs investor kimi məşğul ola bilər;

bərabər hüquqluluq – fəaliyyətin növündən və obyektlərindən asılı olmayaraq, bütün investisiya subyektlərinin hüquqları eynidir.

investisiyanın qorunması – dövlətin və müvafiq beynəlxalq təşkilatların qəbul etdikləri qanunlar və dövlət zəmanəti ilə investisya fəaliyyətini qorumaq. İnvestisiya fəaliyyətində beynəlxalq aləmdə qəbul edilmiş terminlərdən istifadə olunur ki, bunlara da aşağıdakılar aiddir:

Annunitet- investisiya fəaliyyətindən gəlirlərin vaxtaşırı əldə edilməsidir.

Selinq- daimi investisiya fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslərə deyilir.

Vençur investisiyaları - riski az olan investisiya fəaliyyətidir.

Vençur kapitalı - vençur investisiya fəaliyyətinə qoyulan kapitaldır. İnvestisiya fəaliyyətini həyata keçirmək üçün ölkədə investisiya mühiti yaradılmalıdır.

İnvestisiya fəaliyyətinə başlamaq üçün vacib olan və əvvəlcədən təminatı müəyənləşdirilən investisiya mühitinə aiddir:

- ölkədə siyasi və iqtisadi sabitliyin mövcudluğu;

- investisiya fəaliyətinin hüquqi təminatı;

- investisiya resurslarının mövcudluğu:

- investisiya maliyyəsi (ehtiyat, borc və ya xarici kapital).

- investisiya resurslarından istifadə bacarığı;

- investisiya gəlirlərinin ölkədən çıxarmaq hüququ;

- dövlət zəmanəti.

İnvestisiya mühitini qiymətləndirmək üçün Dünya Bankı tərəfindən üç reytinq qəbul edilmişdir:

a) investisiya reytinqi hər bir ölkənin əsas makroiqtisadi göstəricisi kimi ÜDM və onun artım tempi; Ölkənin kredit qaytarma qabiliyyəti.

b) avtonom reytinq – ölkənin debitor və ya kreditor olması;

c) beri reytinqi – ölkədə sabitliyin olması və sahibkarlıq fəaliyətinin vəziyyəti. İnvestisiya fəaliyyətində mənfəət investisiyasının maliyyələşdirilməsinin başlıca məqsədidir. Mənfəət – məhsulun satışından onun maya dəyərinin çixilması nəticəsində əldə olunan xalis gəlirdir. İnvestisiya fəaliyyətində iştirak edən daxili və xarici hüquqi şəxslərdə mənfəəti müəssisənin kommersiya fəaliyyətinin nəticəsinin ümumiləşdirilmiş göstəriciləridir.

Müəssisədə əldə olunan mənfəətdən dövlət büdcəsinə vergi və başqa öhdəlikləri yerinə yetirdikdən sonra xalis mənfət əldə olunur. Onun da müəyyən bir faizini istehsala və sosial yönümlü kapitala yönəltmək olar. Mənfəətin qalan faizi investisya yığım fondu tərkibində və ya müəssisə daxilində qurulmuş başqa oxşar fondlar tərkibində istifadə edilir.

İnvestisiya fəaliyətinə başlamaq üçün maliyyə mənbələri müəyən olunmalıdır. İnvestisiya fəaliyyətinin maliyyə mənbələri daxili və xarici olmaqla iki qrupa bölünür . Daxili mənbələr bilavasitə əhalinin yığımları, müəssisənin xüsusi vəsaiti və mənfəəti, dövlət büdcəsi və büdcə fond vəsaitləri, bank sistemi kreditləri və s. aiddir. Xarici investisiya mənbələri xarici hüquqi və fiziki şəxslərin vəsaiti və kreditlərdir. İnvestisiya qoyuluşlarının maliyyələşdirmə yollarından biri də xaricdən əldə olunan kreditlərdir.

## İSTİFADƏ EDİLƏN ƏDƏBİYYAT SİYAHISI

1. Böyük İqtisadi Ensiklopediya. I cild. B.: «Şərq-Qərb», 2012. 612.səh

2.“Azərbaycan 2020: Gələcəyə baxış” İnkişaf Konsepsiyasının .Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli fərmanı ilə təsdiq edilmişdir.

3. Hacızadə E.M., Abdullayev Z.S. (2013). “Neft təsərrüfatının iqtisadi strukturunun modernizasiyası”, Bakı, “Elm”, 512 səh.

4. file:///C:/Users/vusal/Desktop/ders/Video/SSRN-id2348234.pdf

5. file:///C:/Users/vusal/Desktop/ders/Video/JIE_015_0039.pdf

## Yeni Türk 100-illiyində "İstanbul Finans Mərkəzi" Projesi.

**Əfqan Əbülfəz oğlu Musayev** , i.ü.f.d.,OYU iqtisadiyyat
və iqtisadi münasibətlər kafedrasının baş müəllimi,
g-mail; afqan.hunna@gmail.com

*Açar sözlər; finans, innovasiya, hüquqi status, konsey, kurul, konsultativ, sərmayə, birja.*

2023-cü il aprel ayının 16-da TC Cümhur Başkanı sayın Receb Tayib ERDOĞAN tərəfindən "İstanbul Finans Mərkəzinin" açıldığı bəyan edildi. **İFM-nin qlobal əməkdaşlıq və innovasiya mərkəzi** statuslu olacağı və nəinki Türkiyənin, hətta region ölkələrinin maliyyə bazrlarının inkişafına səbəb olacağı bildirildi.

Bu səbəbdən üzərində uzun müddət tədqiqat apardığım bu aktual mövzuya bir daha qayıtmağı özümə borc bildim. 2023-cü il Qlobal Maliyy Mərkəzləri İndksləri üzrə dərəcələmədə ilk səkkzlik ölkələri və İstanbul, Tel Aviv, Astana, Moskva və Bakı qarşılaşdırmasına baxsaq, Amerika və Asiya arasında maliyyə hərəkətliliyinin nəticələrini görə bilərik.

| | | 2023-33GFCİ | 2022-32 GFCİ | |
|---|---|---|---|---|
| 1 | Nyu York | 760 | 760 | |
| 2 | London | 73 | 731 | |
| 3 | Sinqapur | 723 | 726 | -3 |
| 4 | Hon Konq | 722 | 725 | -3 |
| 5 | San Fransisko | 721 | 724 | -3 |
| 6 | Los Anjels | 719 | 722 | -3 |
| 7 | Şanxay | 717 | 723 | -6 |
| 8 | Çikaqo | 716 | 717 | -1 |
| 90 | İstanbul | 601 | 610 | -9 |
| 53 | Tel-Aviv | 671 | 675 | -4 |
| 66 | Astana | 626 | 621 | +4 |
| 86 | Moskva | 605 | 614 | -9 |
| 116 | Bakı | 558 | 556 | +2 |

İlk oaraq BMM-lərinin qrfik təfsirini vermək istərdim.

**Tel Əviv, İstanbul, Qətər, Dubay, AbuDabi və Moskva BMM-lərinin 2011-2017- ci illər üzrə DƏRƏCƏLƏMƏ əsasında qrafiki**

**Diaqram 3.3.2.**




Mənbə: The Global Financial İndex.// 2013-2017-ci illər.

http://www.longfinance.net/images/gfci/gfci_13.14.15.16.17.18.19.20.21.22.pdf

Beynəlxalq Maliyyə Mərkəzləri (BMM) iqtisadi termin olaraq, **dünya dövlətlərinin, beynəlxalq maliyyə-kredit institutlarının, beynəlxalq və transmilli təşkilatların, birjaların, bankların, bank olmayan kredit təşkilatlarının, konsaltinqlərin, audit, elmi və praktik analitik şirkətlərin iştirak etdiyi**, geniş profilli maliyyə əməliyyatları aparılması üçün formalaşmış **müəyyən bir ərazinin hüquqi statusudur.** Beynəlxalq arenada müxtəlif regionlarda yerləşən BMM-lər öz aralarında müəyyən iqtisadi rəqabəti reallaşdırmaqla qlobal miqyasda dəyərin formalaşmasında iştirak edirlər. Region olaraq son illərdə daha mütərəqqi və dinamik inkişaf edən Asiya regionu üzrə BMM-lərin fəaliyyəti daha çox diqqəti cəlb edir. Xüsusən də inkişaf etməkdə olan ölkələrin bu istiqamətdə fəaliyyətləri, maliyyə-güc mərkəzlərinin Asiya regionuna doğru yön alması bu regionda olan BMM-lərin iqtisadi davranışlarınının öyrənilməsini daha da aktual etmişdir.

İstanbul BMM-nin təşkilati əsasını Türkiyə hökümətinin qəbul etdiyi **"2007-2013-cü illəri əhatə edən IX İnkişaf Planı"**dır. Baş Planlaşdırma İdarəsinin (Yüksek Planlama Kurulunun) 29 sentyabr 2009-cu il tarixli, 2009/31- saylı qərarı ilə təsdiqlənmiş və 2 oktyabr 2009-cu il tarixli 27 364- saylı normativ aktla hüquqi qüvvəyə minmişdir [1].

2023-cü il aprel ayının 16-da TC Cümhur Başkanı sayın Receb Tayib ERDOĞAN tərəfindən İstanbul Finans mərkəzinin açıldığı bəyan edildi. **İFM-nin qlobal əməkdaşlıq və innovasiya mərkəzi** statuslu olacağı və nəinki Türkiyənin, hətta region ölkələrinin maliyyə bazrlarının inkişafına səbəb olacağı bildirildi.

Plan “İstanbul Beynəlxalq Maliyyə Mərkəzinin Strategiya və Taktikası Planı” adlanır. [1]. Planın əsas istiqamətləri bunlardır:

- ✓ ilk olaraq bütün dünya ölkələrinin qəbul edə biləcəyi və işlək bir hüquq mexanizminin yaradılması;
- ✓ maliyyə xidmətlərinin və növlərinin ceşidlərinin artırılması;
- ✓ vergi sisteminin sadələşdirilməsi və könüllülük prinsipi əsasında həyata keçirilməsi;
- ✓ təşkilati-nəzarət sisteminin əhatə dairəsinin dəqiqləşdirməsi və genişləndirilməsi;
- ✓ kadr potensialının artırılması (niteliya);
- ✓ texnoloji yeniliklərin öyrənilməsi, tətbiqinin və tədrisinin təkmilləşdirilməsi;
- ✓ beynəlxalq səviyyədə tanınacaq bir təşkilatın qurulmasından ibarətdir.

Strateji və taktiki plan üzrə İstanbul BMM-ni koordinasiya etmək məqsədi ilə:

1) İstahbul Maliyyə Mərkəzinin (İMM) Ali Şurası (Yüksek Konseyi);

2) İMM Milli Məşvərət (konsultativ) Təşkilatı (İFM Ulusal Danışma Kurulu);

3) İMM Əlaqələndiricisi-(İFM Koordinatorluğu);

4) İş komitələri (Çalışma Komiteleri);

5) Ali Şura yanında tövsiyələrlə çıxış etmək üçün Beynəlxalq Məşvərətçi (Konsultativ) Şura (Uluslararası Danışma Konseyi) yaradılmışdır. [1].

İstanbulun dünya səviyyəli BMM-nə çevrilməsi üçün şəhərin fiziki infrastrukturu üzərində yenidən işlənməli və rəgabətədavamlı, etibarlı, rahat və təhlükəsiz vəziyyətə gətirilməlidir. Bu planlardan ən önəmlisi təhlükəsizlikdir.

İstanbul Beynəlxalq Maliyyə Mərkəzinin formalaşmasi işlərinə 1) İnkişaf nazirliyi; 2) Ədliyyə Nazirliyi; 3) Maliyyə Nazirliyi; 4) İstanbul Böyük Şəhər Bələdiyyəsi; 5) Bankçılıq, tənzimləmə və nəzarət təşkılatı; 6) Sərmayə bazarı təşkilatı, 7) Türkiyə Banklar Birliyi; 8) Vətəndaş cəmiyyətləri kimi təşkilatlar cəlb edilmişdir. [1].

Bu qurumlar texniki işləri icra etmək məqsədi ilə 8 iş komitəsində birləşdirilmişdir: Hüquq Komitəsi, Bazarlar və Alətlər Komitəsi (Piyasalar ve Enstrümanlar Komitesi), Vergi komitəsi, Təşkilati-Nəzarət Komitəsi (Düzenleyici ve Denetleyici Çerçeve Komitesi), İnfrastruktur Komitəsi (Altyapı Komitesi), Texnoloji Yeniliklər Komitəsi, Təqdimat və İmic Komitəsi (Tanıtım ve İmaj Komitesi), İnsan Resursları Komitəsi [1].

Hüquq komitəsinə Türkiyə Ədliyyə Nazirliyinin xüsusi məsləhətçi-köməkçisi başçılıq edir. Komitə Türkiyədə maliyyə əməliyyatlarını həyata keçirən yerli və ya xarici investorların imzaladıqları müqavilələrin icrası prosesində yarana biləcək hər hansı bir mübahisə predmetinin sürətlə və ədalətlə aradan qaldırılması üçün mexanizmlər və təşkilatlar planı hazırlayır.

Komitə eyni zamanda Türkiyə və beynəlxalq qanunvericilik çərçivəsində fəa-liyyətini təşkil edə biləcək məhkəmə sisteminin qurulmasını və hakimlərin hazır-lanmasını təşkil edəcəkdir. Strateji Hərəkət Planının 1-13-cü maddələrinin icrası hüquq komitəsi ilə sıx əlaqəlidir.

Hüquq komitəsinin qarşısında duran ən ümdə məsələlərdən biri qanunvericiliyin digər beynəlxalq maliyyə mərkəzlərinin qanunvericiliyi çərcivəsinə salınmasından ibarətdir. İngiltərə qanunvericiliyinin bu sahədə dominantlığı mövcuddur. Yerli qanunvericiliyin Türkiyə cəmiyyətinə son 30 ildə adaptasiya etməyə başladığı bir dövrdə bu sahəyə xüsusi diqqət yetirilməlidir. Təəssüf ki, ölkə ərazisində hələ də yerli adətlərin qanun hesab edildiyi bölgələr mövcuddur. Hüquqi

maarifləndirmə sahəsinə xüsusı diqqət yetirilməlidir. Hüquq institutlarının işləməsi üçün vətəndaşların bu işlərə cəlb edilməsi, hüquq yaradıcılığında onların rəy və təkliflərinin, maraqlarının qorunmasına diqqət yetirilməlidir. Xüsusilə islam hüquq sisteminin bu sahədə xüsusi rol oynaya biləcəyi ehtimalı nəzərə alınmalıdır.

Bazarlar və Maliyyə Alətləri Komitəsinə (BMAK) rəhbərlık “Sərmayə Bazarları Təşkilatı” tərəfindən həyata keçirilir. [1]. Təşkilatın sədr köməkçisi bu sahəyə birbaşa təhkim edilmişdir. Komitə öz fəaliyyətini Türkiyədə maliyyə məhsullarının müxtəlifliyini artırmağa, maliyyə bazarlarının inkişaf etdirilməsinə, likvidliyin artırılmasına və qorunmasına yönəltmişdir. BMAK agentləri bir qayda olaraq Şərqdən Qərbə bütün qlobal maliyyə mərkəzlərində aparılan əməliyyatların izlənilməsi və təhlili ilə məşğul olacaqlar. Bankçılıq, sərmayə qoyuluşu, sərmayə bazarları və sığorta sahələrində rəqabətə davamlı və rəqabət üstünlüyünə malik məhsul və xidmətlərin nəinki daxili bazar, hətta xarici bazarlara çıxışını təmin edə bilən mexanizmlər hazırlanması da, Bazarlar və Maliyyə Alətləri Komitəsinin vəzifələrindəndir. Maliyyə alətlərinin İBMM-də üstünlükləri regionda və digər ölkələrdə təbliğ edilməlidir.

Strateji Hərəkət Planının 14-35-ci maddələrinin icrası Bazarlar və Maliyyə Alətləri Komitəsinin səlahiyyətlərinə aiddir. [15].

Vergi Komitəsinə maliyyə nazirinin bu sahədə xüsusi hazırlanmış köməkçisi başçılıq edir. Maliyyə bazarlarının vergi tənzimlənməsi funksiyası və Türkiyə şəraitinə uyğunlaşdırma Vergi Komitəsinə həvalə edilmişdir. Yeni vergi islahatları aparılmalı, maliyyə məhsul və xidmətlərində rəqabətədavamlılıq, çeviklik, əda-lətlılık və sabitlik prinsipləri əsas götürülməlidir. Vergilərin və vergi tutulması mexanizminin sadələşdirilməsi, investisiya cəlbedicılıyı mühitinin artırılması məqsədi ilə İBMM əməliyyatlarının vergidən azad olunması və ya azaldılması üzərində mütəmadi tədqiqatlar aparmalıdır. Diqqətdən kənarda qalmaması vacib olan vəziyyət investorların “xüsusi vergi münasibətlərində” saxlanmasıdır.

Təşkilati-Nəzarət Komitəsinə Baş Xəzinədarlıq İdarəsi rəhbərinin xüsusi köməkçisi rəhbərlık edir. [1]. Bu Komitə beynəlxalq maliyyə bazarlarının tənzimlənməsi və standartlarının tətbiqi üzərində çalışmalıdır. Təşkilati koordinasiyanın qurulması, arbitrajın formalaşdırılması, maliyyə bazarlarında tənzimləmə və yoxlama keyfiyyətlərinin dünya MM-nin standartlarına çatdırılması komitənin vəzifələrinə aid edilmişdir.

İstanbul BMM proyektinin inzibati idarəciliyi İstanbul Böyük Şəhər Bələdiy-yəsinin Ümumi Katibliyi tərəfidən yaradılmış “İnfrasturuktur Komitəsi” (İK) tərəfindən həyata keçirilir. İnfrasturuktur Komitəsi qarşısında duran əsas vəzifələr aşığıdakılardır:

- İstanbulun mövcud infrasturuktur problemlərini araşdırmaq;

- problemli sahələrdə görüləcəck işlərin planını hazırlamaq;

- İstanbulda həyat şəraiti keyfiyyəti, təhlükəsizlik, nəqliyyat infrasturukturlarının təkmilləşdirilməsini planlaşdırmaq;

- maliyyə xidmətlərinin infrastrukturlarını təkmilləşdirmək.

İnfrasturuktur Komitəsi nəzdində mərkəzi və yerli olmaqla 5 ali iş qrupu yaradılmışdır:

1. İqamətgah, ofis, yerləşmə və konqreslərin təşkili;

2. Nəqliyyat (ulaşım);

3. Təhsil və sağlamlıq sahələri;

4. Təhlükəsizlik və təbii fəlakətə qarşı tədbirlərin hazırlanması;

5. Məlumat, ünsiyyət texnologiyaları və enerji təminatı. [1].

Komitə fəaliyyətə başlamazdan əvvəl mövcud beynəlxalq maliyyə mərkəzlərinin infrasturuktur komitəsi və ya bənzər strukturları ilə əlaqə yaradaraq, onların təcrübələrini öyrənir və bu barədə mütəmadi olaraq müvafiq hesabat təqdim edir. Növbəti addım olaraq, aparılan işlər davam etdirilməklə, strukturların kadr potensialının hazırlanmasına başlanmışdır. İnfrastruktur komitəsinin strategiyasına müvafiq olaraq İstanbulun müəyyən bir ərazisi deyil, bütün ərazisinin inkişafi nəzərdə tutulub. Bu işlərin yerinə yetirilməsi üçün ərazinin potensial təhlil və perspektiv inkişaf proqramı qurulmuşdur (plansal Varlık Araştırması). Proqrama əsasən hər bir ərazidə:

1 ) maliyyə sektorları və bu sektorların ehtiyac duydugu infrasturukturlar ayrı-ayrılıqda müəyyənləşdirilməli;

2) planlaşdırılan sərmayə qoyuluşu cərcivəsi əvvəlcədən-orta hesabla proqnozlaşdırılmalı;

3) infrasturukturla bağlı problemlər dəqiq üzə cıxarılmalı (hətta yaxın 20-30 il nəzərə alınmaqla);

4) nəqliyyat sektorunun daşınma qabiliyyəti artımla hesablanmalı və yeni nəqliyyat növlərinin tətbiqi nəzərdə tutulmalı (məs: sürət qatarları);

5) tələb-təklif sektoru inkişaf etdirilərək, məlumatların hamı üçün açıq olması təmin edilməli;

6) digər BMM-lərlə müqayisəli aspektdə şəhərin SWOT analizinin hazırlanması (yaxşı-pis) diqqətdə saxlanılmalı, bu sahəni təmin edə biləcək mütəxəssislər hazırlanmalı;

7) beynəlxalq bərabərçilik analizi aparılmalı (mezo səviyyənin analizi) və sahəvi inkişaf mexanizmi analizi hazırlanaraq açıqlanmalıdır. [1].

İnfrastruktur komitəsinin subyektləri 1) Nəqliyyat Nazirliyi (Ulaşım Bakanlığı), 2)İstanbul Valiliyi, 3) Türkiyə Cümhuriyyəti Mərkəzi Bankı, 4) İstanbul Böyük Şəhər Bələdiyyəsi, 5) BDDK, 6) SPK, 7) İnformasiya Texnologiyaları və Əlaqə Təşkilatı, 8) İMKB, 9 ) İAB, 10) TBB , 11) TSPAKB, 12) VOB-dan ibarətdir.

Texnoloji Yeniliklər Komitəsinə "Takasbank"ın baş müdiri rəhbərlik edir. Bütün dünyada baş verən texnoloji dəyişikliklər, standartlar və yeniliklər komitə tərəfindən izlənilərək tədqiq olunmalı və İBMM-də tətbiq olunmalıdır. Birjalarda informasiyaların toplanması və ötürülməsi müstəsna əhəmiyyət daşıyır. Komitə ölkədəki mövcud vəziyyəti araşdırmalı, qurğu və avadanlıqlarda, texnologiya və elektron ünsiyyət infrastrukturlarından qaynaqlanan problemlərin həlli üçün təkliflər təqdim etməlidir. Maliyyə bazarlarında beynəlxalq səviyyədə rəqabətədavamlı xidmətlər göstərə biləcək texnoloji infrastrukturlar və texnoparklar yaratmalıdır.

Təqdimat və İmic Komitəsinə "Türkiyə Sərmayələrə Dəstək və Təqdimat Agentliyinin" başçısı rəhbərlik edir. [1]. Xarici dillərdə məlumatlandırma, İMM internet saytının hazırlanması, İBMM əhatəsindəki hədəf bölgələrin və bazarların araşdırılması, həmin bazarlara İBMM barəsində ətraflı informasiyaların yönlən-dirilməsi, təqdimat strategiyalarının yaradılması, təqdimat işlərində lazım olan zaman beynəlxalq təcrübəli şirkətlərlə aktiv əməkdaşlığı təmin etmək komitənin qarşısında duran əsas vəzifələrdəndir. Xarici İşlər Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi,

Xarici Ticarət Müşavirliyi, İstanbul İnkişaf Agentliyi, Baş nazir Tanıtma Fondu və s. təşkilatlar Təqdimat və İmic Komitəsinin subyektlərindəndir.

İnsan Resursları Komitəsimaliyyə sektorunda ehtiyac duyula bilən kadr potensialının cəlb olunması və hazırlanması ilə məşğul olacaq. Aralarında Milli Təhsil Nazirliyi, İş və İctimai Təhlükəsizlık Nazirliyi, YÖK, DPT, İşKUR, TKBB, “Takasbank” və universitetlərdə yer almış subyektlər İnsan Resursları Komitəsinin fəaliyyətini təşkil etməlidir. Buraya hətta xarici dövlətlərdən də beynəlxalq səviyyəli mütəxəssislərin cəlb olunması daxildir. Komitəyə DPT müdirinin köməkçisi rəhbərlik edəcək. [1].

İstanbulun digər bir əhəmiyyəti islam ölkələri ilə sıx əlaqələrə malik olması və dövlət tərəfindən yüksək səviyyədə dəstəklənməsindən irəli gəlir. İslam maliyyə sistemi və şəriət istər Avropa, istərsə də Amerika üçün xüsusi maraq obyektinə çevrilmişdir. Bu maraq islama məxsus olan müsbət keyfiyyətlərin öyrənilərək öz cəmiyyətlərinə tətbiq imkanlarını əhatə etməsindən ibarətdir.

İkincisi, dünya əhalisinin böyük bir hissəsi islama sitayiş etdiyindən onların rəğbətini qazanmaq, onlarla daha geniş ticarət əlaqələri qurmaq məqsədi daşıyır. Bu ideyaların həyata keçirilməsi üçün ən əlverişli məkan İstanbuldur. Təsadüfi deyil ki, Dünya Bankının İstanbulda “İslam Maliyyəsinin Tədqiqi Mərkəzinin“ yaratmağa başlanması buna əyani sübutdur. Mərkəzin yaradılması prosesi çox sürətlə həyata keçirilir [1]. İstanbulda “Energetika Birjasi”nın yaradılması da, region üçün çox önəmlidir. “Energetika Birjasi”nın fəaliyyətə başlaması ilə İstanbulda nəinki aktivlərlə və qiymətli kağızlarla ticarət aparılması, hətta enerji daşıyıcılarının da satışı və ticarəti, eyni zamanda bu sahədə müqavilələrin İstanbulda bağlanması nəzərdə tutulmuşdur. Bu baxımdan İstanbul London və Amsterdam kimi nəhənglərlə rəqabətə girmiş olacaq.

Ədəbiyyat

1.www.ifm.ibb.gov.tr//”IstanbulUluslsrarası Finans Merkezi Stratejisi və Eylem Planı”.Ekim 2009.Ankara.

2.https://www.longfinance.net/media/documents/GFCI_29_Full_Report_2021.03.17_v1.2.pdf səh.21.

3.The Global Financial İndex.// 2013-2017-ci illər.

4. http://www.longfinance.net/images/gfci/gfci_13.14.15.16.17.18.19.20.21.22.pdf

5.TC DPT, İstanbul Uluslararası Finans Merkezi. Stratejisi Stratejisi ve Eylem Planı, Ekim, 2009

6.World İnvestment Report 2012.N.Y.2012.p-171